Azərbaycan Hüquq Jurnalı

№1-2023
ISSN 1810-9055

Baş redaktor:
h.e.d., professor *Ə.İ.Əliyev*

Redaksiya Heyətinin sədri
h.e.d., dosent *T.İ.Hüseynov*

Baş redaktorun müavini:
h.ü.f.d., *P.A.Bayramova*

Redaksiya Heyətinin üzvləri:
AMEA-nın müxbir üzvü, h.e.d., prof. *M.F.Məlikova*
h.e.d., prof. *N.H.Cəfərli*
h.e.d., prof. *İ.O.Quliyev*
h.e.d., prof. *Ə.H.Rzayev*
h.e.d., prof. *Ş.T.Səmədova*
h.e.d., prof. *K.N.Səlimov*
h.e.d., prof. *Ə.İ.Sadıqov*
h.ü.f.d., prof. *Z.A.Əsgərov*
h.e.d., prof. *V.A.Vasilyeva* (Ukrayna)
h.e.d., prof. *İ.N.Sopilko* (Ukrayna)
h.e.d., prof. *Y.L.Boşitskiy* (Ukrayna)
h.e.d., prof. *A.İ.Abdullin* (Rusiya)
h.e.d., prof. *V.A.Avdeyev* (Rusiya)
h.e.d., prof. *G.İ.Xubua* (Almaniya)
h.e.d., prof. *A.M.Əliyev* (Almaniya)
h.ü.f.d., dos. *F.B.Riehl* (Almaniya)
h.e.d., prof. *A.A.Sabitova* (Qazaxstan)

Məsul katib:
h.ü.f.d., dosent *A.N.İbrahimova*

Bu jurnal 2002-2012-ci illər ərzində gənc alim Elçin Qarabalovun redaktorluğu altında dərc edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəticələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir. E.Qarabalovun vaxtsız vəfatından sonra jurnalın fəaliyyəti dayandırılmışdır. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşəbbüsü ilə jurnalın dərci 2018-ci ildən bərpa edilmişdir. Məqsəd Azərbaycan hüquq elminin inkişafına töhvə vermək və onun beynəlxalq müstəvidə tanınmasına nail olmaqdır.

©Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, 2023

MÜNDƏRİCAT

KONSTİTUSİYA HÜQUQU

Polad Mehdiyev

PEŞƏKAR HÜQUQİ YARDIM İNSTİTUTUNUN KONSTİTUSİON TƏSBİTİ 5

TİBBİ HÜQUQ

Pərvinə İsmayılova

REPRODUKTİV TEXNOLOGİYALARIN TƏTBİQİNİN TƏMƏL STANDARTLARI 18

SOSİAL TƏMİNAT HÜQUQU

Röya Mirtalıbova

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN HÜQUQİ STATUSUNUN TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ 29

CİNAYƏT HÜQUQU VƏ KRİMİNALİSTİKA

Canpolad Daanov

TALAMA İLƏ BAĞLI CİNAYƏTLƏRİN ARAŞDIRILMASI ZAMANI YARANAN MÜNAQİŞƏLİ İSTİNTAQ ŞƏRAİTİNDƏ YETKİNLİK YAŞINA ÇATMAYAN TƏQSİRLƏNDİRİLƏN ŞƏXSİN DİNDİRİLMƏSİNİN TAKTİKİ ASPEKTLƏRİ 42

Ülvi Əsədullayev

MƏHKƏMƏ AKTLARININ İCRA EDİLMƏMƏSİ CİNAYƏTİNİN OBYEKTİV CƏHƏTİ 54

ƏQLİ MÜLKİYYƏT HÜQUQU

Çingiz Çingizzadə

HEROQLİFLƏRDƏN LOQOLARA: ƏMTƏƏ NİŞANLARININ TARİXİ VƏ TƏKAMÜLÜ 70

BEYNƏLXALQ HÜQUQ

Leyla Həşimova

MƏDƏNİ VƏ TƏBİİ İRSİN QORUNMASININ BEYNƏLXALQ VƏ MİLLİ NORMATİV-HÜQUQİ TƏNZİMLƏNMƏSİ 76

Fatimə Hüseynova

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI SƏHİYYƏ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ MİLLİ-HÜQUQİ İMPLEMENTASİYASINDA ƏSAS NƏZARƏT MEXANİZMİ KİMİ 86

Vüsalə Muradxanlı
QLOBAL TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSI VƏ BEYNƏLXALQ HÜQUQUN PRİNSİPLƏRİ 97

Ənnağı Məmmədli
İSTİNTAQ SÖVDƏLƏŞMƏSİNİN BEYNƏLXALQ HÜQUQİ TƏNZİMLƏNMƏSİ 109

Nüşabə Abberin
XÜSUSI MÜLKİYYƏT HÜQUQUNUN MƏHDUDLAŞDIRILMASI MƏSƏLƏSİNİN MİLLİ VƏ BEYNƏLXALQ-HÜQUQİ ƏSASLARI 120

HÜQUQİ NƏŞRLƏR

Əmir Əliyev, Şəhla Səmədova
MƏMMƏDOV RƏŞAD EYNƏDDİN OĞLUNUN "КРИМИНОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ПРОТИВОДЕЙСТВИЯ ПРЕСТУПНОСТИ МИГРАНТОВ" ADLI MONOQRAFİYASINA DAİR RƏY 126

GƏNC HÜQUQŞQNASLAR MÖVQEYİ

Fərahim Huseynzade
RESPONSIBILITY IN TRADITIONAL CONTRACTS AND REMOTE CONTRACTS 128

KONSTİTUSİYA HÜQUQU

PEŞƏKAR HÜQUQİ YARDIM İNSTİTUTUNUN KONSTİTUSİON TƏSBİTİ

Polad Mehdiyev*

Xülasə

Məqalədə peşəkar hüquqi yardım institutunun konstitusion təsbiti hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və müxtəlif dövlətlərin konstitusiyaları praktikasında geniş təhlil edilir. Qeyd edilir ki, əsas insan hüquq və azadlıqlarının təmin edilməsi öhdəliyini üzərinə götürmüş dövlətlərin ali hüquqi qüvvəli normativ hüquqi aktlarında peşəkar hüquqi yardım hüququnun təsbiti olduqca əhəmiyyətli məsələ olmaqla bərabər, həm də beynəlxalq hüquq normalarının ilkin implementasiya elementlərini özündə birləşdirir. Bunu nəzərə alaraq elmi məqalədə ABŞ, Kanada, Finlandiya, Niderland, Ukrayna və Azərbaycan Respublikasının konstitusiyalarına müraciət edilir, habelə həmin dövlətlər tərəfindən qəbul edilmiş bəzi mühüm qanunvericilik aktları təhlil edilir.

Qeyd edilməlidir ki, bütün sivil ölkələrdə peşəkar hüquqi yardım institutu konstitusion səviyyədə birbaşa və ya dolayısı yolla təsbit edilmişdir. Bəzi dövlətlərin təsbit etdikləri peşəkar hüquqi yardım mexanizmləri fərqli olsa da, bu institutun tətbiqi insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi daşıyır. Son nəticədə, hesab edirik ki, peşəkar hüquqi yardım institutunun təməl və fundamental ideya və prinsiplərinin konstitusion norma kimi geniş və aydın şəkildə təsbit olunması hüquq münasibətlərinin tənzimlənməsi baxımından olduqca vacibdir.

Nəhayət, Azərbaycan Respublikasının Konstitusiyası peşəkar hüquqi yardım hüququnun və institutunun təsbit edilməsində ən təkmil ali normativ hüquqi aktlardan biri kimi qiymətləndirilməlidir. Belə ki, istər peşəkar hüquqi yardım institutunun digər insan hüquq və azadlıqlarının bir növü kimi qəbul edilməsi baxımından, istərsə də müstəqil və birbaşa təsbit olunması istiqamətində mövcud konstitusion normalar kifayət qədər yetərli və təqdirəlayiqdir.

Açar sözlər: *peşəkar hüquqi yardım, insan hüquqları, hüquqi təminat mexanizmi, hüquqi mövqe, vəkil, konstitusion hüquqlar.*

Peşəkar hüquqi yardım institutu istər hüquqi təminat mexanizmi kimi, istər əsas insan hüquq və azadlıqlarının tərkib elementi, istərsə də hüquq kimi müxtəlif beynəlxalq sənədlərdə təsbit olunmuşdur. Habelə bir çox dövlətlərin konstitusiyası ilə də peşəkar hüquqi yardım instututu müəyyən edilmişdir. Əsas insan hüquq və azadlıqlarının təmin edilməsi öhdəliyini üzərinə götürmüş dövlətlərin ali hüquqi qüvvəli normativ hüquqi aktlarında peşəkar hüquqi yardım hüququnun təsbiti olduqca əhəmiyyətli məsələ olmaqla bərabər, həm də beynəlxalq hüquq normalarının ilkin implementasiya elementlərini özündə birləşdirir.

Anqlo-sakson hüquq sistemli ölkələrdən olan ABŞ konstitusiyasında peşəkar hüquqi yardım institutu ilk olaraq təsbit olunmuş ölkələrdəndir. ABŞ Konstitusiyasına 1791-ci ildə edilmiş 6-cı düzəlişlə bütün növ cinayət təqiblərində cinayət törətməkdə ittiham olunan şəxslərin peşəkar hüquqi yardım almaq hüququ müəyyən edilmişdir. Belə ki, cinayət törətməkdə ittiham olunan hər bir şəxs müdafiəsini təmin etmək məqsədi ilə peşəkar hüquqi yardım ala bilər. [1]

* doktorant, Bakı Dövlət Universiteti

Ədədbiyyatda qeyd olunan normanın məzmunun təhlili ilə bağlı qeyd edilmişdir ki, peşəkar hüquqi yardım həm cinayət törətməkdə ittiham olunan şəxsin özünün vəkilini cəlb etməsi, həm ödənişsiz vəkil imkanından istifadə etməsi, həm də ali qanunla müəyyən edilmiş halarda isə seçimdən asılı olmayaq vəkilin işə cəlb olunması kimi başa düşülə bilər. [2] Verilmiş fikirlə razılaşaraq qeyd etmək olar ki, konstitusiyanın ölkənin ali qanunu olduğunu nəzərə alaraq orada əsas müddəalar nəzərdə tutulur. Həmin müddəalarda müəyyən edilmiş hüquqlar və digər təminatlar müvafiq hüquqi mexanizmlərlə təmin olunur. Göründüyü kimi verilən geniş təfsir praktikada kontitusion hüququn tətbiq olunmasına əsaslanır. Bu isə öz növbəsində fikrin əsaslı olmasının əyani göstəricisi kimi çıxış edir.

Digər tərəfdən ABŞ Konstitusiyasında peşəkar hüquqi yardımın müəyyən edildiyi 6-cı düzəlişlə əlaqədar ədəbiyyatda tənqidi mövqelərə də rast gəlinir. Belə ki, aparılmış araşdırmaların birində qeyd edilmişdir ki, konstitusiyanın mətnindən bunu tam aydınlaşdırmaq mümkün olmadığından, peşəkar hüquqi yardım göstərilərkən konfidensiallıq məsələlərinin tənzimlənməsi barədə normanın əlavə edilməsi zəruri əhəmiyyət daşıyır. [3] İnsan hüquqları üzrə Amerikaarası Konvensiya hüquqi yardım göstərən şəxslə göstərilən şəxsin konfidensial görüş imkanları ilə təmin edilməsini müddəalarının normativ məzmununda aydın şəkildə ifadə edən beynəlxalq hüquqi akt kimi insan hüquqları sahəsində mövcud olan digər beynəlxalq sənədlərdən fərqlənir. ABŞ Konstitusiyasında verilmiş məzmundan bu aydın olmadığı üçün hüququn tətbiqi zamanı qeyd olunan konfidensiallıq məsələsinə xüsusi diqqət göstərilməsi düzgün olardı.

Habelə ABŞ Ali Məhkəməsi yuxarıda göstərilən düzəlişlə bağlı müxtəlif qərarlarında bir sıra məsələlərə aydınlıq gətirmişdir. Bu həmin düzəlişlə təsbit olunmuş konstitusion hüquqların düzgün təfsir, tətbiq və təmin edilməsi baxımından zəruri məsələ kimi çıxış edir.

ABŞ Ali Məhkəməsi qərarlarının birində peşəkar hüquqi yardım hüququnu ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsində əsas element kimi qəbul edərək formalaşdırdığı hüquqi mövqeyə görə, qanun və məhkəmə qarşısında bərabərlik hüququ, ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsi üçün bütün şəxslər, xüsusən də hüquqi yardım almağa maddi imkanı çatmayan şəxslər şərtsiz şəkildə ödənişsiz peşəkar hüquqi yardımla təmin olunmalıdırlar. [4] Qeyd olunan hüquqi mövqeyi qəbul edərək hesab edirik ki, həqiqətən də şəxslərin əsas və fundamental insan hüquqlarının təmin edilməsi baxımından yuxarıda göstərilən təminat mexanizminin tətbiqi əsas şərtdir.

Habelə ABŞ Ali Məhkəməsi başqa bir qərarında qeyd olunan düzəlişlə bağlı qeyd etmişdir ki, məhkəməyəqədərki aparılan cinayət araşdırması zamanı həyata keçirilən təhqiqat və istintaq hərəkətlərində şəxsin peşəkar hüquqi yardım alması üçün zəruri şərait yaradılmalı, bu hüququ təmin edilməlidir. [5] Nəzərə alsaq ki, cinayət araşdırmasında şəxsin təqsirini sübuta yetirən sübutlar əsasən məhkəmə icraatına qədər təhqiqat və ya istintaq dövründə baş verir, ittiham tərə-

finin qarşısında cinayət törətməkdə ittiham olunan şəxsin müdafiəsiz qalmaması baxımından olduqca zəruridir.

Əvvəldə də qeyd edildiyi kimi, peşəkar hüquqi yardım mexanizm kimi bir çox tədbirlərin həyata keçirilməsini özündə ehtiva edir. Bu prosesdə ən əvvəldə həyata keçirilən tədbirlərdən biri peşəkar hüquqi yardım almaq hüququ barədə məlumatlandırma, habelə şəxsin ödənişsiz hüquqi yardım almaq hüququnun mövcudluğunun bildirilməsidir. ABŞ Ali Məhkəməsi qeyd olunan məsələyə dair də öz hüquqi mövqeyini formalaşdırmışdır. Qərarların birində göstərilmişdir ki, cinayət araşdırması zamanı cəlb edilmiş şəxslərə məhkəməyəqədərki dövrdə vəkillə təmsil olunmaq, ödənişsiz şəkildə hüquqi yardım almaq, habelə vəkilinin iştirakı olmadan sualları cavablandırmaqdan imtina etmək hüququ izah olunmalıdır. [6] Qeyd olunan mövqe ilə razılaşaraq hesab edirik ki, bu özü özülüyündə şəxsin müdafiəsiz qalması hallarından qorunmaq və dövlətin insan hüquqlarının təmin edilməsi öhdəliyinin icrası ilə bağlı zəmanət altına alınması üçün məqsədəmüvafiq hüquqi mövqedir.

Habelə ABŞ Konstitusiyasına 1868-ci ildə edilmiş 14-cü düzəlişlə federasiya subyektlərinin yurisdiksiyası daxilində olan şəxslərin qanunla bərabər şəkildə müdafiə imkanını təmin etməsini müəyyən edir. [7] Məhz qeyd etdiyimiz kimi insan hüquqları nöqteyi nəzərindən yanaşdıqda peşəkar hüquqi yardım institutu bir çox insan hüquqlarının, xüsusilə də bərabərlik və ədalətli məhkəmə araşdırması hüququnun əsas təmin etmə vasitələrindən biridir.

ABŞ Ali Məhkəməsi 14-cü düzəlişi rəhbər tutaraq bu məsələyə də münasibət bildirirmişdir ki, peşəkar hüquqi yardım hüququ əsas hüquqlardan biri olmaqla, maddi imkanı olmayan şəxslərin bu hüququnun təmin edilməsi üçün vəkillə təmin olunma dövlətin əsas vəzifələrindən biri kimi çıxış edir. [8] Qeyd olunmalıdır ki, həqiqətən də qanun və məhkəmə qarşısında bərabərliyin təmin edilməsini ödənişsiz hüquqi yardım mexanizmi olmadan düşünmək mümkün deyildir.

İnkişaf etmiş ölkələrdən olan Kanada da peşəkar hüquqi yardım təminatına öz konstitusiyası ilə zəmanət verən ölkələr arasındadır. Qeyd edilməlidir ki, Kanada konstitusiyası 1867-ci il və 1982-ci il Konstitusiya aktlarını özündə ehtiva edir [9]. Peşəkar hüquqi yardım mexanizmi də sonuncu Konstitusiya Aktının Kanada Hüquq və Azadlıqlar Xartiyası adlandırılmış hissəsində təsbit edilmişdir.

Kanadanın 1982-ci il Konstitusiya aktının 10-cu maddəsinin (b) yarımbəndinə əsasən, hər bir şəxsin tutulduğu və ya həbsə alındığı andan mövcud olan hüquqlarından biri də öz vəkili ilə dərhal əlaqə saxlamaq və vəkilini təlimatlandırmaq, habelə bu hüququ barədə məlumatlandırılmaq hüququ vardır. [10] Bu özü peşəkar hüquqi yardım institutunun müəyyən edildiyi konstitusion norma kimi nəzərə alınmalıdır.

Habelə 1982-ci ildə qəbul edilmiş Konstitusiya Aktının Kanada Hüquq və Azadlıqlar Xartiyası adlı fəslinin 15-ci maddəsinin 1-ci hissəsində müəyyən edilmiş konstitusion hüquq normasının məzmunua əsasən qeyd edə bilərik ki, bu norma hər bir şəxsin qanun və məhkəmə qarşısında bərabərliyini müəyyən et-

məklə, onların heç bir diskriminasiyaya məruz qalmadan bərabər müdafiə vasitələrindən istifadə hüququnu təsbit edir. [11] Qeyd edilməlidir ki, məhz hər kəsə ayrı-seçkilik edilmədən bərbər müdafiə vasitələri ilə təminatın konstituson normada müəyyən edilməsi peşəkar hüquqi yardım, o cümlədən ödənişsiz hüquqi yardım mexanizmlərinin ilkin ideya və prinsiplərinin ali qanunla təsbit edildiyini deməyə əsas verir.

Qeyd olunanları təhlil edərək hesab edirik ki, məhz şəxsin peşəkar hüquqi yardım hüququ müxtəlif tədbirləri özündə cəmləşdirir. Habelə Kanada konstitusiyasında mövcud olan yanaşmaya da bu istiqamətdən yanaşmaq mümkündür.

Ədəbiyyatda haqlı olaraq qeyd edilmişdir ki, yuxarıda adı çəkilən konstitusion hüquq normaları peşəkar hüquqi yardım institutu və mexanizmini təsbit etməklə, şəxsə azadlıq hüquqlarının pozulması hallarında real olaraq hüquqi məsləhətlər almaq, habelə peşəkar hüquqi yardım almaq hüququ barədə məlumatlandırılmaq, bu istiqamətdə dövlətlərin tədbirlər həyata keçirməsi kimi məsələləri özündə cəmləşdirir. Kanada praktikasında isə diqqətçəkən əsas məqam isə məhkəməyəqədərki cinayət araşdırması zamanı dərhal vəkillə əlaqənin zəruriliyi və belə imkanın yaradılmadığı hallarda isə əldə edilmiş sübutların yolverilməzliyidir. [12] Həqiqətən də qeyd olunan elmi araşdırma bir çox əhəmiyyətli məsələni özündə ehtiva edir. Çünki şəxsin ittiham olunmasına səbəb ola biləcək əsas sübutlar məhkəməyəqədərki dövrdə əldə olunur. Şəxsin müdafiə hüququ təmin olunmadan, dövlət orqanının nümayəndələrinin əlavə imtiyaz və gücə sahib olduqları bir halda əldə etdikləri sübutlarla şəxsin təqsirini sübuta yetirməyə çalışması insanın cinayət araşdırması həyata keçirən orqanlar qarşısında müdafiəsiz qalmasına, həmçinin bu orqanların səlahiyyətlərindən sui-istifadə etmələri ilə nəticələnə bilər.

Burada qeyd edilməli olan vacib bir digər məsələ isə Kanada Ali Məhkəməsinin peşəkar hüquqi yardım hüququ ilə bağlı formalaşdırdığı hüquqi mövqeyidir. Belə ki, Kanada Ali Məhkəməsi 1982-ci il Konstitusiya Aktının 10-cu maddəsinin (B) yarımbəndinin pozulması barədə müraciətlərin birinə dair baxılan işdə qeyd etmişdir ki, şəxsin səmərəli və ağlabatan peşəkar hüquqi yardım almaq vasitələri ilə təmin edilməsi peşəkar hüquqi yardım hüququnun təmin edilməsi üçün kifayətdir. Vəkil və şəxs arasında olan münasibətlər xaraktercə mülki-hüquqi münasibətləri olduğundan, şəxsin ödənişsiz təmin edilməsini seçdiyi vəkillə müxtəlif səbəblərdən (vəkilin imtinası, işlərinin çoxluğu, xidmət haqqının çox yüksək olması və s.) təmin edilmədikdə, qəbul edilən standartlara uyğun hüquqi yardım göstərən növbətçi vəkillə təmin edilmə ödəniş hüquqi yardım hüququnun təmin edilməsi üçün kifayət edir. [13] Göstərilən mövqeni haqlı hesab edərək qeyd etməyi zəruri hesab edirik ki, qəbul edilən istiqamətdən təminat həqiqətən də hüquqdan sui-istifadənin qarşısını almaq üçün və cinayət araşdırmasının ağlabatan müddətdə yekunlaşmasının təmin edilməsi üçün olduqca zəruri bir məsələdir.

Ədəbiyyatda o da qeyd olunmuşdur ki, Kanada Ali Məhkəməsinin öz qərarlarında formalaşdırdığı hüquqi mövqelər peşəkar hüquqi yardım hüququ ilə

bağlı minimum tələbləri müəyyən edir və cinayət araşdırması orqanınına diskresion səlahiyyətlər tanıyır. Belə olan halda hansı hallarda vəkilin iştirakı olmadan dindirmənin həyata keçirilməsi, vəkillə məsləhətləşmələrə dair ağlabatan müddət və s. məsələlər tənzimlənmir. [14] Qeyd olunanlar dəyişikliklərin həyata keçirilməsi zamanı nəzərə alınmalı olan zəruri elmi müddəalar kimi çıxış edir. Artıq müasir dövrdə inzibati orqanlara həddindən çox diskresion səlahiyyətlərin verilməsi, qanunun və hüququn minimum tələblərinin inzibati orqan əməkdaşları tərəfindən müəyyən edilməsi imkanı neqativ hallara gətirib çıxara bilir.

Kanada Ali Məhkəməsi başqa bir qərarında qeyd etmişdir ki, əvvəlki formalaşdırdığı hüquqi mövqelərdəki kimi şəxsin dərhal peşəkar hüquqi yardım təminatının reallaşdırılması olduqca zəruridir. Şəxsin azadlıq hüququnun məhdudlaşdırıldığı andan dərhal peşəkar hüquqi yardım məsləhət almasının təmin edilməsi üçün məhkəməyəqədərki cinayət araşdırmasını həyata keçirən orqan tərəfindən təmin edilməsi zərurdir. Burada ağlabatan müddət məsələsi işin hallarına əsasən müəyyən olunur. [15] Qeyd olunan mövqe konstitusion hüquq kimi nəzərdə tutulmuş peşəkar hüquqi yardım almaq hüququnun təmin olunması baxımından, habelə ədalətli məhkəmə araşdırması və şəxsin müdafiə hüquqlarının kontekstində olduqca zəruri əhəmiyyətə malikdir. Habelə Kanada Ali Məhkəməsi başqa bir qərarında azadlıq hüquqları məhdudlaşdırılmış şəxsin vəkillə təmin edilmədiyi hallarda dindirilməsinin ağlabatan müddət ərzində və bu təminat həyata keçirilənədək dayandırılmasını məhkəməyəqədərki cinayət araşdırmasını aparan subyektlərin üzərinə vəzifə kimi qoyur. [16] Bu isə öz növbəsində peşəkar hüquqi yardım institutu və ödənişsiz hüquqi yardım mexanizminin əhəmiyyətini göstərməklə bu təminatların inkişafına rəvac verir.

Göstərilənlərə əsasən qeyd etməyi zəruri hesab edirik ki, 1982-ci il Kanada Konstitusiya aktı ilə təsbit edilmiş peşəkar hüquqi yardım almaq hüququnun daha da aydın ifadə olunması məqsədəmüvafiq olardı. Habelə ABŞ-da olduğu kimi Kanada Konstitusiyasında da peşəkar hüquqi yardım və ödənişsiz hüquqi yardım almaq mexanizmləri yalnız cinayət araşdırması və cinayət mühakiməsi icraatına aid edilir. Müasir dövrün tələbləri və cəmiyyətin inkişaf mexanizmlərini nəzərə alsaq konstitusion hüququn məzmununun dəqiqləşdirilməsinə və tətbiq dairəsinin genişləndirilməsinə ehtiyac vardır.

Demokratik və hüququn aliliyinin təmin olunduğu ölkələr arasında ilk sıralarda yer alan Finlandiya konstitusiyasına nəzər salmaq da məqsədəmüvafiq olardı. Qeyd olunmalıdır ki, Finlandiyanın hazırda qüvvədə olan Konstitusiyası birbaşa olaraq peşəkar hüquqi yardım hüququnu təsbit etməmişdir. Finlandiyanın 1999-cu il Konstitusiyası özündə bərabərlik, ədalətli məhkəmə araşdırması və yaxşı idarəçilik ilə əlaqədar hüquqları müəyyən etmişdir.

Belə ki, Finlandiyanın hazırda qüvvədə olan Konstitusiyasının 6-cı maddəsi hər bir kəsin qanun qarşısında bərabərliyini, 21-ci maddəsi hüquq, azadlıqlar və insan hüquqlarının inzibati orqanlar tərəfindən təmin olunmasına dair zəmanət verilməsini, o cümlədən ədalətli məhkəmə araşdırması və yaxşı idarəçilik hüququnu təsbit edir. [17]

Göründüyü kimi, digər ölkələrin konstitusiyalarından fərqli olaraq Finlandiya Konstitusiyası peşəkar hüquqi yardım institutunu birbaşa müəyyən edən müddəaya sahib ölkələrdən deyildir. Bununla belə peşəkar hüquqi yardımın təmin edilməsinə görə səmərəli mexanizmə malik ölkələrdən biridir. Hər nə qədər Finlandiya Konstitusiyasında peşəkar hüquqi yardım almaq hüququ birbaşa müəyyən olunmasa da, insan hüquqlarının təmin edilməsinin inzibati qurumların üzərinə vəzifə kimi qoyulması bu hüququn da təsbitini dolayısı yolla, ümumi mənada həyata keçirir.

Finlandiyada peşəkar hüquqi yardım institutunun təhlilinə dair ədəbiyyatda olan elmi araşdırmaların birində qeyd edilmişdir ki, hüquqi yardım münasibətləri Hüquqi yardım və hüquqi yardım idarələri haqqında Finlandiya Qanunu ilə tənzimlənir. Hüquqi yardımın göstərilməsi isə cinayət işlərinə dair münasibətdə deyil, habelə mülki işlərə də şamil edilir. Finlandiyada hüquqi məsləhətləşmələr, məhkəmə və ondan kənar təmsilçilik, müqavilə və sənəd layihələrinin hazırlanması hüquqi yardım çərçivəsində təmin olunan xidmətlər kimi müəyyən edilir. Finlandiyada ödənişsiz hüquqi yardımın göstərilməsi halları da dəqiq müəyyən edilmişdir. Belə ki, zəruri imkana malik olmayan (sığortası olmayan, əmlakları və s. barədə detallar göstərilməklə), məişət zorakılığı və s. Kimi hallarda isə istisnasız hamı ödənişsiz hüquqi yardımla təmin edilən şəxslər kateqoriyasına aid edilir. [18] Qeyd edilməlidir ki, kontitusion norma kimi peşəkar hüquqi yardım institutu nəzərdə tutulmasa da, onun konstitusion əsas və təməlləri müəyyən edilmiş, bu münasibətlərin tənzimlənməsini həyata keçirən Qanunlarla dəqiq şəkildə müəyyən edilməsi peşəkar hüquqi yardım mexanizminin tətbiq edilməsinə öz töhvəsini verir.

Adıçəkilən Qanundan əlavə olaraq Finlandiyada İctimai hüquqi yardım idarələri haqqında Qanun, Hüquqi yardım haqqında Finlandiya hökumətinin Fərmanı, Hüquqi yardım haqqının meyarları haqqında Finlandiya hökumətinin Fərmanı, İctimai hüquqi yardım idarələri haqqında Finlandiya Ədliyyə nazirliyinin normativ hüquqi aktı, Yardım idarələri və onların filialları haqqında Finlandiya Ədliyyə nazirliyinin normativ hüquqi aktı kimi qanunvericiliyi təşkil edən sənədlər peşəkar hüquqi yardım institunu ətraflı şəkildə tənzimləyir.

Bir sözlə Məhkəmə qarşısında prosesdə iştirak edən tərəf adətən vəkil xidmətlərindən istifadə edir, baxmayaraq ki, bu qanunla tələb olunmur. Vəkilin vəzifələrini vəkil, ictimai hüquqi yardım vəkili və ya başqa bir vəkil yerinə yetirir. Dövlət hüquqi yardım vəkilləri insanlara hüquqi işlərində kömək etmək üçün dövlət tərəfindən işə götürülür. Fiziki şəxslərə ehtiyacı zəruri olan hüquqi məsələlərdə tam və ya qismən dövlət hesabına yardım almaq imkanını təmin etmək məqsədi daşıyan hüquqi yardım institutu qeyd olunduğu kimi həm məhkəmədə, həm də məhkəmədən kənar, habelə cinayət və mülki işlərdə tətbiq olunur. Qeyd olunması zəruridir ki, cinayət törətməkdə ittiham olunan şəxslərin maddi vəziyyətindən asılı olmayaraq peşəkar hüquqi yardım almaq hüququ da Finlandiya qanunvericiliyi ilə müəyyən olunmuşdur. [19] Peşəkar hüquqi yardım institutunun Finlandiyadakı mövcud vəziyyəti bu istiqamətdən uğurlu hesab oluna bilər.

Habelə qeyd olunanlar deməyə əsas verir ki, mülki işlərdə peşəkar hüquqi yardım təminatını təmin edən dövlətlərdən olmaqla bu sahədə müsbət təcrübəyə malik ölkələrdən biri kimi qəbul edilməlidir.

Finlandiya təcrübəsini və yuxarıda göstərilənləri nəzərə alaraq qeyd etmək olar ki, Finlandiya Konstitusiyasında peşəkar hüquqi yardım almaq hüququnun təmin olunması barədə müddəanın təsbit edilməsi şəxslərin konstitusion səviyyədə hüquqlarının təsbit edilməsi baxımından məqsədəmüvafiq addım olardı. Habelə hazırki ödənişsiz hüquqi yardımın təmin edilməsi mexanizminin digər normativ hüquqi aktları səviyyəsində dəqiq tənzimlənməsi praktikada öz müsbət təsirini göstərir. Bununla belə konstitusion səviyyədə birbaşa təsbit isə peşəkar hüquqi yardım almaq hüququnun göstəricisi olmaqla bu məsələlərə yanaşma baxımından daha da diqqətin artmasına səbəb ola bilər. Belə olan halda qeyd etməyi zəruri hesab edirik ki, peşəkar hüquqi yardım institunun Finlandiya Konstitusiyasında təsbit olunması halında peşəkar hüquqi yardım isntitutunun tətbiqi baxımından Finlandiyanın bütün zəruri addımları atmış olduğunu, bununla belə uğurlu peşəkar hüquqi yardım mexanimzini tətbiq edildiyini demək üçün əsas olacaqdır.

Niderland krallığı peşəkar hüquqi yardım institutu Konstitusiyasında uğurlu şəkildə təsbit edilmiş ölkələrdən biri kimi qəbul edilir. Niderland Krallığının Konstitusiyasının 18-ci maddəsi hər kəsin hüquqi və inzibati proseslərdə təmsil olunmaq hüuqunu müəyyən etmişdir. Həmin maddənin ikinci hissəsində qeyd edilmişdir ki, maddi imkanı olmayan şəxslərə hüquqi yardım göstərilməsi Qanunla müəyyən edilir. [20] Qeyd olunmalıdır ki, bu məzmunda konstitusion normanın təsbit olunması peşəkar hüquqi yardım institunun müəyyən edilməsinin uğurlu nümunəsi kimi göstərilə bilər. Hər kəsə məlumdur ki, ali qanun heç də bütün tənzimləyici normaları müəyyən etmir. Ali qanunla müəyyən məsələyə dair fundamental hüquq norması təsbit olunur. Hər kəsin hüquqi və inzibati proseslərdə təmsilçilik hüququnu müəyyən etməklə, maddi imkanları məhdud şəxslərə hüquqi yardım göstərilməsini təsbit edən konstitusional norma peşəkar hüquqi yardım institunu birbaşa müəyyən edən əsas nümunələrdən biridir.

Konstitusion müddəa blanket hüquq norması olduğundan yönləndirilən normativ hüquqi akta nəzər yetirmək yerinə düşərdi. Niderland Krallığının Hüquqi yardım haqqında Qanunu 1994-cü ildə hüquqi qüvvəsini almışdır. Ədəbiyyatda rast gəlinən elmi araşdırmaların birində qeyd olunmuşdur ki, hüquqi xidmətlərin göstərilməsinin artan dəyəri hüquqi yardım almaq istəyən şəxslər arasında ayrı-seçkilik yaratmaqla, ədalətli və səmərəli məhkəmə müdafiəsi və məhkəməyə çıxış hüququnu məhdudlaşdırır. Niderland krallığı qəbul etdiyi qanunvercilik aktları ilə bu bərabərsizliyi aradan qaldırmağa yönələn fəaliyyət göstərir. Bu istiqamətdə mövcud yeganə bərabərsizlik kimi əcnəbi və vətəndaşlığı olmayan şəxslərə münasibətdə hüquqi yardım mexanizmlərinin tətbiq olunmaması və ya məhdudiyyətlərin mövcudluğudur. [21] Belə olduğu təqdirdə müəyyən etmək olar ki, konstitusiyanın hüquqi yardımın müəyyən edilməsi barədə müddəasında şəxslər dairəsi kimi hər kəs müəyyən olunmuşdur. Burada

vətəndaşlar kateqoriyası ilə məhdudlaşma nəzər çarpmır. Lakin ödənişsiz hüquqi yardımın göstərilməsi barədə müddəa isə Parlamet tərəfindən qəbul edilən Qanuna göndərici xarakter daşıdığından Qanunla bu subyektlər dairəsinin məhdudlaşdırılması halında hər hansı hüquqi kolliziya meydana gəlmir. O da qeyd edilməlidir ki, ödənişsiz hüquqi yardım təminatının daimi yaşayan və ya qanuni şəkildə ölkədə olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərə şamil edilməsi insan hüquqlarının təmin edilməsi nöqteyi nəzərindən məqsədəmüafiq olardı.

Bundan başqa, Niderland Krallğının hüquqi yardım sferasının əhatə dairəsi barədə qeyd edilir ki, burada hüquq sahələrini əhatə etmək baxımından geniş xarakterə malikdir, vərəsəlik və daşıma münasibətlərindən başqa bütün hüquq sahələrinə dair məsələlərdə şəxslərin hüquqi yardım almaq təminatı dövlət tərəfindən təmin edilir. [22] Bu istiqamətdən hüquqi yardım institiunun Niderland Krallığı tərəfindən tətbiq olunmasını uğurlu hesab etmək olar. Çünki peşəkar hüquqi yardım hüququnun təmin edilməsini yalnız müəyyən hüquq sahələrində tətbiqi ilə məhdudlaşdırmaq neqativ nəticələrə səbəb ola bilər.

Hüquqi yardım haqqında Niderland Krallığının Qanunu hüquqi xidmətlərdən yararlanmağa ehtiyacı olan, lakin buna maddi imkanı çatmayan şəxslərin hüquq və vəzifələrini, prosedur qaydaları müəyyən etməklə bu sahədə yaranan ictimai münasibətləri tənzimləyir. Aparılmış statistik təhlillərin birinə görə, Niderland Krallığının əhalisinin 36 faizindən çox hissəsi, yəni ümumilikdə 17.5 milyon insan Hüquqi yardım haqqında Niderland Krallığının Qanunu müəyyən edilmiş təminatlardan istifadə etmək imkanına malikdir. Habelə şəxsin ödənişsiz hüquqi yardım göstərilməsi kateqoriyasına düşməsi elektron vergi sistemində olan gəlir məlumatları əsasında, onlayn qaydada və çox qısa bir müddətdə aidiyyəti qurumlar tərəfindən müəyyən olunur. [23] Bu isə peşəkar hüquqi yardım institutunun tətbiqi baxımından bürokratik əngəlləri aradan qaldırmaqla, prosedurları sadələşdirir. Belə sürətli informasiya inteqrasiyası yolu ilə məlumatların ötürülməsi, şəxsin hüquqi yardım almaq hüququna malik kateqoriyaya aid edilməsinin operativ şəkildə müəyyən edilməsi insan hüquqlarının təmin edilməsinin səmərəli vasitələrindən biri kimi qəbul edilə bilər.

Beləliklə, Niderland Krallığının peşəkar hüquqi yardım institutu uğrurlu hesab edilə bilər. Peşəkar hüquqi yardım mexanizmlərinin təmin etməsinə yeni başlamış ölkələr bu pozitiv təcrübədən istifadə edə bilərlər.

Peşəkar hüquqi yardım hüququnu birbaşa olaraq öz konstitusiyasında müəyyən edən ölkələrdən biri də Ukrayna Respublikasıdır. Ukrayna Respublikası Konstitusiyasının 29-cu maddəsi azadlıq və şəxsi toxunulmazlıq hüququnu müəyyən edir. Həmin konstitusion norma müəyyən edir ki, azadlıq hüquqları məhdudlaşdırılan hər kəs şəxsən özünü müdafiə etmək və ya müdafiəçinin hüquqi yardımından istifadə etmək hüququna malikdir. [24] Hüquqi yardım terminindən istifadə edilmiş qeyd olunan konstitusion norma əsasında peşəkar hüquqi yardım göstərilən sahə spesifikləşdirilmiş və sadəcə azadlıq hüququnun məhdudlaşdırıldığı hallarda belə hüquqi yardımdan istifadə etməyə dair normativ məzmun Konstitusiyada öz əksini tapmışdır.

Ədəbiyyatda haqlı olaraq qeyd olunmuşdur ki, peşəkar hüquqi yardım institutunun formalaşdırılması və tətbiqi üçün dövlətin kifayət qədər maddi resursunun mövcud olması zəruridir. Çünki səmərəli hüquqi müdafiə vasitəsi kimi hüquqi yardım mexanizmlərindən istifadə edərkən bütün zəruri hüquqi xidmətlərin lazımi keyfiyyətdə göstərilməsi üçün hüquqi xidmətlər göstərən şəxslərin əməyinin ekvivalenti miqdarında xidmət haqqı ödənilməli və bu zaman ədalətlilik prinsipi pozulmamalıdır. [25] Bundan əlavə olaraq qeyd olunan konstitusion norma ilə habelə şəxsə hüquqları izah olunmasının, peşəkar hüquq yardım almaq hüququ barədə məlumatlandırılması da təsbit olunmuşdur. [26] Bu peşəkar hüquqi yardımın təmin edilməsində əsas mərhələlərdən biridir. Qeyd olunan məzmunda normanın mövcudluğu şəxsin hüquqlarının məhdudlaşdırılmaması ilə nəticələnir. Habelə şəxsə cinayət araşdırması orqanları qarşısında müdafiəsiz qalmasının qarşısını alır.

Ukrayna Respublikasında mövcud konstitusiyasında peşəkar hüquqi yardımın göstərilməsi sahələrinin artırılması bu sahədə olan mövcud hüquq münasibətlərinə, insan hüquqlarının təmin və müdafiə olunmasına öz müsbət töhvəsini verərdi.

Qeyd edilməlidir ki, bütün sivil ölkələrdə peşəkar hüquqi yardım institutu konstitusion səviyyədə birbaşa və ya dolayısı yolla təsbit edilmişdir. Bəzi dövlətlərin təsbit etdikləri peşəkar hüquqi yardım mexanizmləri fərqli olasa da, bu institutun tətbiqi insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi daşıyır. Ümumilikdə dövlətlərin formalaşdırdıqları və tətbiq etdikləri peşəkar hüquqi yardım insitutları mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş olmaqla iki yerə ayrılır. Fransa, Almaniya, Polşa kimi Avropa İttifaqına üzv dövlətlər mərkəzləşdirilməmiş peşəkar hüquqi yardım institutunu tətbiq edən ölkələr siyahısına daxil edilir. [27] Habelə tədbit olunmuş bu institutların təmini subyektlərinin təşkilati-hüquqi formasına görə də təsnifləşdirilmə aparılmaqla dövlət və ya ictimai əsaslı peşəkar hüquqi yardım fərqləndirilir.

Peşəkar hüquqi yardım institutunun konstitusion səviyyədə təsbit olunması olduqca vacib məsələdir. Hesab edirik ki, peşəkar hüquqi yardım institutunun təməl və fundamental ideya və prinsiplərinin konstitusion norma kimi geniş və aydın şəkildə təsbit olunması hüquq münasibətlərinin tənzimlənməsi baxımından olduqca vacibdir. Azərbaycan Respublikasının Konstitusiyası peşəkar hüquqi yardım institutunu ən təkmil şəkildə təsbit etmiş ali qanunvericilik aktları siyahısına daxildir. Qeyd olunmalıdır ki, burada digər insan hüquq və azadlıqlarının tərkib hissəsi kimi peşəkar hüquqi yardımın təsbitindən əlavə olaraq bu institutu formalaşdıran və təmin edilməsi üçün əsas olan fundamental konstitusion hüquq norması da mövcuddur. Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş əsas insan hüquq və azadlıqları sırasında hüquqi yardım almaq hüququ da təsbit edilmişdir. Qeyd olunan hal hətta inkişaf etmiş ölkələrə nisbətdə Azərbaycanın Konstitusiyasının təkmilliyinin əyani göstəricisi kimi çıxış edir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 61-ci maddəsində hər kəsin hüquqi yardım almaq hüququ müəyyən olmuşdur. Qeyd olunan

normanın hüquqi məzmununa nəzər saldıqda aydın olur ki, hər kəsin yüksək keyfiyyətə sahib hüquqi yardım alması hüququ müəyyən edilir. Habelə qanunla müəyyən olunmuş hallarda belə yardımın dövlət hesabına həyata keçirilməsi də konstitusion normada öz əksini tapmışdır. Əksər konstitusiyalarda olduğu kimi şəxsin azadlıq hüququnun məhdudlaşdırıldığı andan etibarən müdafiəçinin hüquqi yardımından istifadə etmək hüququ da bu maddə ilə təsbit olunur. [28] Qeyd edilməldir ki, göstərilən konstitusion normada sadalanan hüquq normaları özü özülüyündə həm təminat, həm də müdafiə mexanizmi kimi başa düşülə bilər. Belə ki, ədəbiyyatda haqlı olaraq qeyd edilmişdir ki, 61-ci maddə ilə müəyyən edilmiş hüquq tətbiq olunduğu münasibətlərdən asılı olaraq öz növbəsində hüquqi təminat mexanizmlərinin əsas prinsipi kimi də çıxış edə bilir. [29]

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi, "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Qanunu, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanunu və "Məişət zorakılığının qarşısının alınması haqqında" 22 iyun 2010-cu il tarixli Azərbaycan Respublikası Qanunu Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin II hissəsinə uyğun olaraq ödənişsiz hüquqi yardım hüququnun əsaslarının müəyyən edildiyi normativ hüquqi aktlardan olmaqla, insan və vətəndaşlara hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilməsi şərtləri və əsaslarını müəyyən edir, habelə bu münasibətləri müvafiq olaraq tənzimləyir. [30] Həmin normativ hüquqi aktların təhlil ediməsi peşəkar hüquqi yardımın konstitusion səviyyədə təsbitinin aydınlaşdırılması baxımından əhəmiyyətli olardı.

Qeyd olunanları ümumiləşdirərək hesab edirik ki, Azərbaycan Respublikasının Konstitusiyası peşəkar hüquqi yardım hüququnun və institutunun təsbit edilməsində ən təkmil ali normativ hüquqi aktlardan biri kimi qiymətləndirilməlidir. Belə ki, istər peşəkar hüquqi yardım institutunun digər insan hüquq və azadlıqlarının bir növü kimi qəbul edilməsi baxımından, istərsə də müstəqil və birbaşa təsbit olunması istiqamətində mövcud konstitusion normalar kifayət qədər yetərli və təqdirəlayiqdir.

İstinadlar:

1. The United States Constitution: Annotated (1787), Amendment VII, 1791- https://capitolhistory.org/us-capitol-history-for-teachers/united-states-constitution-annotated/?gclid=Cj0KCQjwldKmBhCCARIsAP-0rfwu5R6B006M9QqZvS9DpLlFlzVo5CmfDmO0NtdVLxX2leXyk_aPWB8aAg-lEALw_wcB

2. Walter W. Steele, The Doctrine of Right to Counsel: It's Impact on the Administration of Criminal Justice and the Legal Profession, 23 SW L.J., 1969, p. 488-491.

3. Gardner, M. The Sixth Amendment Right to Counsel and its Underlying Values: Defining the Scope of Privacy Protection, Vol. 9, N. 2, J.Crim. L. & Criminology, 2000, p.462-466

4. Decision of U.S. Supreme Court on Case of Gideon v. Wainwright, 372 U.S. 335, 18.03.1963

5. Decision of U.S. Supreme Court on Case of Danny ESCOBEDO, Petitioner, v. STATE OF ILLINOIS, 378 U.S. 478, 22.06.1964

6. Decision of U.S. Supreme Court on Case of Ernesto A. MIRANDA, Petitioner, v. STATE OF ARIZONA. Michael VIGNERA, Petitioner, v. STATE OF NEW YORK. Carl Calvin WESTOVER, Petitioner, v. UNITED STATES. STATE OF CALIFORNIA, Petitioner, v. Roy Allen STEWART, 384 U.S. 436, 13.06.1966

7. The United States Constitution: Annotated (1787), Amendment XIV, 1868- https://capitolhistory.org/us-capitol-history-for-teachers/united-states-constitution-annotated/?gclid=Cj0KCQjwldKmBhCCARIsAP-0rfwu5R6B006M9QqZvS9DpLlFlzVo5CmfDmO0NtdVLxX2leXyk_aPWB8aAg-lEALw_wcB

8. Decision of U.S. Supreme Court on Case of Powell v. Alabama, 287 U.S. 45, 07.11.1932

9. https://www.justice.gc.ca/eng/csj-sjc/just/05.html#:~:text=The%20Constitution%20of%20Canada%20includes,Aboriginal%20rights%20and%20treaty%20rights.

10. Constıtutıon Act of Canada, Article 10, 1982//https://laws-lois.justice.gc.ca/eng/const/page-12.html#h-45

11. Constıtutıon Act of Canada, Article 15, 1982//https://laws-lois.justice.gc.ca/eng/const/page-12.html#h-45

12. Michalyshyn P. The charter right to counsel: beyond miranda, alberta law review, Vol. XXV, N. 2, 1987, p.190-195.

13. Supreme Court Judgments on case of R. v. Willier, 2010 SCC 37, [2010] 2 S.C.R. 429

14. Patry, M., Smith, S., Adams-Quackenbush, N. Recent Supreme Court of Canada rulings on criminal defendants' right to counsel, Psychology, Crime & Law, Routledge publishings, Vol 20, N.8(2014), p.750-753.

15. Supreme Court Judgments on case of R. v. McCrimmon, 2010 SCC 36, [2010] 2 S.C.R. 402

16. Supreme Court Judgments on case of R. v. Brydges, [1990] 1 S.C.R. 190, at p. 206:

17. The Constitution of Finland 11 June 1999 (731/1999, amendments up to 817/2018 included), https://finlex.fi/en/laki/kaannokset/1999/en19990731

18. Makhija, S., Alasuutari, N., Carling, C., Jauhiainen, A., Nieminen, K., Obstbaum, Y., Sarasoja, L., Rantala, K. Access To Justıce In Fınland, 2020' https://www.oecd-ilibrary.org/governance/ legal-needs-surveys-and-access-to-justice_g2g9a36c-en

19. https://rm.coe.int/ministry-of-justice-department-of-judicial-administration-the-finnish-/168078f3d2

20. The Constitution for the Kingdom of the Netherlands (Grondwet voor het Koninkrijk der Nederlanden) https://www.government.nl/topics/constitution/documents/reports/2019/02/28/the-constitution-of-the-kingdom-of-the-netherlands

21. Soek, J. Legal Aid and Aliens in Netherlands Law. Netherlands International Law Review, Vol 3, N 1, p. 44-48

22. Goriely, T. Legal Aid in the Netherlands: A View from England. The Modern Law Review, Vol. 55, N.6, p. 807-812.

23. Legal Aid in the Netherlands a broad outline - Edition: May 2021, issued by Legal Aid Board, p.3-4, 15.

24. Constitution of Ukraine- https://unece.org/fileadmin/DAM/hlm/prgm/cph/experts/ukraine/ukr.constitution.e.pdf

25. Предупреждение преступности и уголовное правосудие Модуль 3 Доступ к юридической помощи в уголовном процессе, UN, Vienna, 2020, p.19-24.

26. https://www.constituteproject.org/constitution/Ukraine_2019

27. https://judiciariesworldwide.fjc.gov/right-counsel

28. Azərbaycan Respublikasının Konstitusiyası, Maddə 61//https://www.e-qanun.az/framework/897
29. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik, Bakı, 2011
30. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2019. 507s.

CONSTITUTIONAL DETERMINATION OF THE INSTITUTION OF PROFESSIONAL LEGAL ASSISTANCE

Polad Mehdiyev*

Abstract

In the article, the constitutional determination of the institution of professional legal assistance is widely analyzed in the practice of the existing diversity of opinions in the legal literature and the constitutions of different states. It is noted that the determination of the right to professional legal assistance in the normative legal acts of the states that have undertaken the obligation to ensure the basic human rights and freedoms is a very important issue and also includes the elements of the initial implementation of international legal norms. Taking this into account, the scientific article refers to the constitutions of the USA, Canada, Finland, the Netherlands, Ukraine and the Republic of Azerbaijan, as well as analyzes some important legislative acts adopted by those countries.

It should be noted that in all civilized countries, the institution of professional legal assistance is directly or indirectly established at the constitutional level. Although the professional legal aid mechanisms established by some states are different, the application of this institution aims to ensure human rights and freedoms. Ultimately, we believe that the basic and fundamental ideas and principles of the institution of professional legal assistance are widely and clearly established as a constitutional norm in terms of the regulation of legal relations.

Finally, the Constitution of the Republic of Azerbaijan should be evaluated as one of the most advanced normative legal acts in establishing the right and institution of professional legal assistance. Thus, the existing constitutional norms are sufficient and admirable, either in terms of accepting the institution of professional legal assistance as a type of other human rights and freedoms, or in the direction of independent and direct determination.

Keywords: *professional legal assistance, human rights, legal protection mechanism, legal position, lawyer, constitutional rights.*

КОНСТИТУЦИОННОЕ ОПРЕДЕЛЕНИЕ ИНСТИТУТА ПРОФЕССИОНАЛЬНОЙ ЮРИДИЧЕСКОЙ ПОМОЩИ

Полад Мехтиев**

Резюме

В статье конституционное определение института профессиональной юридической помощи широко анализируется на практике при существующем разнообразии мнений в юридической литературе и конституциях разных государств. Отмечается, что определение права на профессиональную юридическую помощь в нормативных правовых актах государств, взявших на себя обязательства по обеспечению основных прав и свобод человека, является очень важным вопросом и включает в себя элементы первоначальной реализации международных норм. правовые нормы. Учитывая это, в науч-

* Ph.D Candidate, Baku State University
** докторант Бакинского государственного университета

ной статье обращается к конституциям США, Канады, Финляндии, Нидерландов, Украины и Азербайджанской Республики, а также анализируются некоторые важные законодательные акты, принятые этими странами.

Следует отметить, что во всех цивилизованных странах институт профессиональной юридической помощи прямо или косвенно закреплен на конституционном уровне. Хотя механизмы профессиональной юридической помощи, созданные в некоторых государствах, различаются, применение этого института направлено на обеспечение прав и свобод человека. В конечном итоге мы считаем, что основные и основополагающие идеи и принципы института профессиональной юридической помощи широко и четко закреплены как конституционная норма в части регулирования правоотношений.

Наконец, Конституцию Азербайджанской Республики следует оценивать, как один из самых передовых нормативно-правовых актов в установлении права и института профессиональной юридической помощи. Таким образом, существующие конституционные нормы являются достаточными и достойными восхищения либо в плане признания института профессиональной юридической помощи как разновидности других прав и свобод человека, либо в направлении независимого и прямого их определения.

Ключевые слова: *профессиональная юридическая помощь, права человека, механизм правовой защиты, правовая позиция, адвокат, конституционные права.*

TİBBİ HÜQUQ

REPRODUKTİV TEXNOLOGİYALARIN TƏTBİQİNİN TƏMƏL STANDARTLARI

Pərvinə İsmayılova*

Xülasə

Məqalədə reproduktiv texnologiyaların tətbiqinin təməl qanunvericilik standartları təhlil edilir. Süni mayalanma ilə bağlı qanunvericiliyin tənzimetmə səviyyəsi məqbul hesab edilmir. Qanunda (donorlardan istifadənin mümkünlüyü qeyd edilsə də) kimlərin donor olması və ya kimlər üçün onun istisna edilməsi nəzərdə tutulmayıb. İrqi ayrı seçkilik hüquqla qadağan edilsə də Azərbaycan əhalisinin irqi kimliyinin qorunması üçün donorların seçimi milli təhlükəsizlik məsələsi kimi qanunvericiliklə tənzimlənməlidir. Donorluq inseminasiya zamanı qan qarışıqlığına da səbəb olmamalıdır. Model qanunvericilik aktı kimi Belarusiya qanunvericilik təcrübəsi tövsiyə edilir.

Açar sözlər: *surroqat analıq, reproduktiv texnologiyalar, qadın sağlamlığı, insan hüquqları, IVF-in vitro mayalanma, embrionların statusu.*

KRT-lərin tətbiqində dövlətlərin fərqli qanunvericilik təcrübəsi beynəlxalq məhkəmə qərarında da özünü göstərir. Avropa İnsan Hüquqları Məhkəməsi gələn şikayətləri "tibb hüququ" üzrə deyil, İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi üzrə Avropa Konvensiyasının 8-ci (şəxsi və ailə həyatına hörmət hüququ); 14-cü (ayrı-seçkiliyin qadağan edilməsi) və d. maddələri üzrə dəyərləndirməklə öz funksiyasını tamamlamışdır. Ümumi formada Avropa İnsan Hüquqları Məhkəməsi reproduktiv texnologiyaların tətbiqini yaşamaq hüququna tabe etdirən mövqeyə əsaslanmışdır.

İnsan Hüquqlarının Avropa Komissiyası Avropa Konvensiyasının 2-ci maddəsi üzrə yaşamaq hüququnun embriona və ya hələ doğulmayan uşaqlara tətbiqi üzrə "R.H. Norveçə qarşı" (1992) işdə "müəyyən hallarda 2-ci maddənin doğulmayan uşaqlara şamil edilməsinə" hökm etsə də, embrionun qanunvericilik statusunun müəyyən edilməsində dövlətlərin qiymətləndirmə sərbəstliyinə malik olduğunu bildirmişdir. Avropa İnsan Hüquqları Məhkəməsi də "Evans Böyük Britaniyaya qarşı" işində dondurulmuş embrionun saxlanılmasından imtinanı Konvensiyasının 2-ci maddəsi üzrə yaşamaq hüququnun pozulması kimi qiymətləndirməməklə dövlətlərin qanunvericilik sərbəstliyinə bir daha diqqət çəkmişdir.

Reproduktiv texnologiyaların dövlətdaxili qanunvericilik təcrübəsindəki qeyri-müəyyənlik beynəlxalq hüquq aktlarına da təsir etməkdədir. İnsanın reproduktiv funksiyalarının tənzimlənməsində beynəlxalq hüquq aktlarının çərçivə, ümumi xarakteri sahənin bioetik xarakteri ilə bağlı olmasıdır. Buna görə də fərqli dövlətlərin fərqli qanunvericilik təcrübəsini beynəlxalq hüquq aktları çər-

* hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti

çivəsində unifikasiya etmək mümkün olmamışdır. Bəzən federal inzibati quruluşlu dövlətlərin subyektlərində belə fərqli tənzimetmə qaydaları diqqətə gəlməkdədir. Məsələn, ABŞ KRT-lərin tətbiqi ilə əlaqəli olan surroqat analığa hələ 1991-ci ildən icazə versə də, ayrı-ayrı ştatlar səviyyəsində onlara hüquqi tənzimetmədə müstəqillik vermişdir. Buna baxmayaraq, dövlətlərin fərqli qanunvericilik təcrübəsini nisbətən uzlaşdırmaq məqsədilə, reproduktiv texnologiyaların tətbiqi üzrə insan ləyaqətinin üstünlüyünə əsaslı meyarları təsis edən beynəlxalq normalar qəbul edilməkdədir. Biotexnoloji və biotibbi fəaliyyətin insan ləyaqətinin üstünlüyünə uyğun tənzimlənməsini nəzərdə tutan əsas aktlardan - Avropa Şurasının 1997-ci il Biologiya və tibbi nailiyyətlərin tətbiqi ilə əlaqəli insan hüquqlarının və insan ləyaqətinin qorunması üzrə Konvensiya: İnsan hüquqları və Biotibb üzrə Konvensiyadır. Avropa Şurasının Bioetika Komitəsinin təşəbbüsü ilə meydana gələn Konvensiya, KRT-lərin tətbiqinin sərhədlərini də ümumi formada müəyyən edir .

Oviedo Konvensiyası tibb hüququ sahəsində ilk çoxtərəfli məcburi hüquqi sənəd kimi, KRT-lərlə əlaqəli az sayda olsa da müəyyən normalara malikdir. Həm Oviedo Konvensiyası, həm də onun İnsan mahiyyətinin klonlaşdırılmasının qadağan edilməsi üzrə 1998-ci il Əlavə Protokolu (2001-ci ildə qüvvəyə minib, Azərbaycan Respublikası iştirakçısı deyil) reproduktiv vasitələrdən istifadəni qadağan edir. Oviedo Konvensiyasının 14-cü maddəsində qeyd edilir ki, gələcək uşağın cinsinin seçilməsi məqsədilə köməkçi tibbi texnologiyalardan istifadəsinə icazə verilmir. Bu maddənin istisnası da var. Əgər gələcək uşağın cinsinə bağlı xəstəliklərin qarşısının alınması zərurəti meydana gələrsə, o halda köməkçi tibbi texnologiyalardan istifadəyə icazə verilir. Əlavə Protokolda köməkçi tibbi texnologiyalardan istifadə edərək genetik olaraq digər, sağ və ya ölmüş şəxsə oxşar insanın yaradılması məqsədi ilə klonlaşdırmanı qadağan edilir.

Oviedo Konvensiyasının 18.1-ci maddəsi də embrionun müdafiəsinə həsr edilib. Həmin maddədə qeyd edilir ki, qanun in vitro embrion üzərində tədqiqatların aparılmasına icazə verdiyi halda, embrionun zəruri müdafiəsi də təmin edilməlidir. Oviedo Konvensiyasının Biotibbi tədqiqatlar haqqında 2005-ci il Əlavə Protokolu (Protokol 2007-ci ildə qüvvəyə minib, Azərbaycan Respublikası iştirakçısı deyil) da insan ləyaqətinin pozula biləcəyi halda tibbi tədqiqatlardan istifadənin dayandırılmasını tələb edir. Bu ümumi tələb Azərbaycan Respublikasının da iştirakçısı olduğu Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktın 7-ci maddəsindən meydana gəlir. Həmin maddədə deyilir ki, heç kəs onun sərbəst razılığı olmadan tibbi və ya elmi araşdırmaya məruz qala bilməz. Azərbaycan Respublikasında reproduktiv hüquqların müstəqil qanunvericilik tənzimlənməsi yoxdur. Yalnız son zamanlarda bu sahədə ayrıca bir qanunvericilik aktının qəbulu zərurəti müzakirə edilməkdədir.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun V fəslində "Ailə planlaşdırılması və insanın reproduktiv funksiyalarının tənzimlənməsi" üzrə çox az sayda normalarla (m.29-31-1) reproduktiv hüquqlar yer alıb. Qanunvericilikdə reproduktiv hüquqların süni mayalanma və embrionun transplantasiyası

(m.29) ilə məhdudlaşdırılması tənzimetmədəki boşluqdan xəbər verir. Əhalinin sağlamlığının qorunması haqqında Qanunun 30-cu maddəsində qadının arzusu ilə hamiləliyin süni surətdə pozulması müddəti, şərtləri yer alıb.

Ədəbiyyatda bu sahədəki boşluğa xüsusi diqqət yetirilmişdir. Qeyd edilir ki, ayrıca bir qanunvericilik aktı ilə "reproduksiya ilə əlaqəli olan ... yaşamaq hüququnun məzmunu, realizə mexanizmi, yaşamaq hüququnun başlanması anının müəyyən edilməsi üzrə bir çox məsələlər konstitusiya qaydasında öz həllini tapmalıdır. Azərbaycan Respublikası Konstitusiyasında "yaşamaq hüququnun embrionun meydana gəlməsi anı ilə şərtləndirilməsi və dövlət tərəfindən təminat altına alınması", "mayalanmış dölə münasibətdə qadın və kişinin sərbəst seçim hüququ" təkliflərini də dəstəkləyirik. İstənməyən hamiləliyin süni sürətdə pozulması zorlama cinsi əlaqə və yaxud tibbi göstərişlər ilə əlaqələndirilməlidir.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda süni mayalanma və ekstrakorporal mayalanma ilə əlaqəli reproduktiv vasitələrdən istifadə qaydalarının tənzimlənməməsi tibb hüquqlarının zəruri səviyyədə təmin edilməməsindən xəbər verir. Müasir dövrdə uşaq sonsuzluq problemi daha sürətlə görünməkdədir. Müxtəlif obyektiv və subyektiv (ətraf mühitin deqradasiyası, sosial-iqtisadi problemlər, evli cütlük anlayışına fərqli baxışların yaranması və s.) səbəblərlə təzahür edən bu problemin həlli vasitəsi kimi, cəmiyyətdə biotexnoloji mühəndisliyə müraciətlər artmaqdadır. Süni və ya ekstrakorporal mayalanmanın qanunvericilik tənzimlənməsi tələbi də buradan meydana gəlir.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da əhalinin 15%-dən çoxu sonsuzluqdan əziyyət çəkir. Hər il dünyada yarım milyona yaxın uşaq süni və ya ekstrakorporal mayalanma yolu ilə doğulur. Azərbaycanda 2004-cü ildən tətbiq edilir və 90 minə yaxın süni mayalanma icra edilib. Süni mayalanmanın yalnız 39-42% müsbət nəticə ilə yekunlaşır. Yaş həddinin artması ilə müsbət nəticə göstəricisi də azalır .

Biotibbi və ya yeni reproduktiv texnologiyalardan ilk istifadə süni mayalanma sferasında olub. Bu üsul həm qadın, həm də kişi reproduktiv xəstəliklərinin aradan qaldırılması üçün istifadə edilir. Lakin fərqli cəmiyyətlərdə süni mayalanmanın bioetik tərəfləri fərqli hüquq tənzimləməsini də meydana gətirib. Bu gün beynəlxalq hüquqda süni mayalanma sahəsində ictimai münasibətləri tənzimləyən vahid hüquqi akt yoxdur. BMT səviyyəsində reproduktiv hüquqlar ümumi insan hüquqları problemi kimi ilk dəfə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit edilmişdir. Bundan başqa Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanın 12-ci maddəsi dövlətlərin kişilər və qadınlar arasında bərabərlik əsasında səhiyyə xidmətlərindən, xüsusən də ailə planlaşdırılması ilə bağlı bütün tibbi üsullara çıxışını təmin etmək üçün bütün tədbirləri görmək öhdəliyini müəyyən edir. Elmin və müasir texnologiyaların sürətli inkişafı ixtisaslaşdırılmış beynəlxalq aktlarda reproduktiv hüquqların təmin olunmasını zəruri etmişdir.

Beynəlxalq aktlardan süni mayalanma sahəsində universal tənzimlənmə üzrə mühüm sənəd - 1987-ci il Ümumdünya Tibb As-sambleyasının Süni Mayalanma və Embrion Transplantasiyası haqqında (Madrid) Bəyannamədir. Madrid Bəyannaməsi İn-vitro mayalanma və embrion transplantasiyasını sonsuzluğun müalicəsi üsulu kimi qəbul edir. Bu texniki vasitə həm sonsuzluğun aradan qaldırılması, həm də genetik patologiyanın qarşısının alınması vasitəsi olaraq qəbul edilir. Bu sənədin əsas qiyməti - bu sahədə davranış qaydalarının sistemini müəyyən etməsindədir .

Reproduktiv texnologiya və embrionların statusu ilə bağlı məsələlər Avropa Şurası Parlament Assambleyasının 1986-cı və 1989-cu il - 1046 və 1100 saylı tövsiyələri və Biotibbi Elmlərdə Mütəxəssislərin *ad hoc* Komitəsinin 1989-cu il hesabatında göstərilən prinsiplər əsasında müəyyən edilmiş normalarla tənzimlənir. Burada insan embrionuna və dölə münasibətdə bütün hallarda insan ləyaqətinə hörmətin gözlənilməsi və onlardan əldə edilən toxumaların istifadəsinin ciddi şəkildə qanunvericilik qaydasında məhdudlaşdırılması tələb edilir.

Azərbaycan Respublikasında süni mayalanma sahəsində münasibətlər qeyd etdiyimiz 26 iyun 1997-ci il tarixli "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunla tənzimlənir. Qanunda Ailənin planlaşdırılması və insanın reproduktiv funksiyalarının tənzimlənməsi üzrə 29-cu maddəsi süni mayalanma və embrionun implantasiyası barədədir. Qanunda yetkinlik yaşına çatan hər bir qadının süni mayalanma və embrionun implantasiyası hüququ ifadə edilib. Süni mayalanma və embrionun implantasiyası ər və arvadın (tənha qadının) rəsmi razılığı əsasında həyata keçirilə bilir. Burada konfidensiallıq məsələsi də tənzimlənir. Süni mayalanma, embrionun implantasiyası, eləcə də donorun şəxsiyyəti kimi məsələlər həkim sirri sayılır. Qadın süni mayalanmanın, embrionun implantasiyasının tibbi və hüquqi nəticələri, tibbi-genetik müayinə, donorun milliyyəti, xarici görkəmi barədə məlumat almaq hüququna malikdir və bu məlumat tibbi müdaxilə aparan həkim tərəfindən verilir . Qanunda "yetkinlik yaşına çatan hər bir qadının süni mayalanma və ona embrionun implantasiyası hüququ"nun yer alması onu göstərir ki, Azərbaycanda süni mayalanma tibb hüququnun ayrıca bir institutu kimi tanınmışdır. Qanunvericilik bu hüququn tanınması ilə yanaşı, qanunsuz süni mayalanmada və embrionun implantasiyasında təqsiri olan şəxslər üçün məsuliyyət də müəyyən etmişdir .

Reproduktiv hüquqların təminatı baxımından süni mayalanmanın qanunvericilik şərtlərinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. "Sağlamlığın qorunması haqqında Ukrayna qanunvericiliyinin əsasları" haqqında 2008-ci il 12 fevral tarixli Qanununda (m.48) süni mayalanmanın şərtləri kimi: süni mayalanma və embrion implantasiyasının dövlətin (Ukraynanın Səhiyyə Nazirliyinin) nəzarətində aparılması; yetkinlik yaşına çatmış qadının donorluğu; süni mayalanma və embrion implantasiyasının anonimliyi; ər-arvadın yazılı razılığı; konfidensiallığın təmini qeyd edilir.

Öncə də ifadə etdiyimiz kimi, süni mayalanma ilə bağlı qanunvericiliyimizin tənzimetmə səviyyəsi məqbul deyildir. Qanunda (donorlardan istifadənin

mümkünlüyü qeyd edilsə də) kimlərin donor olması və ya kimlər üçün onun istisna edilməsi nəzərdə tutulmayıb. İrqi ayrı seçkilik hüquqla qadağan edilsə də Azərbaycan əhalisinin irqi kimliyinin qorunması üçün donorların seçimi milli təhlükəsizlik məsələsi kimi qanunvericiliklə tənzimlənməlidir. Donorluq süni mayalanma zamanı qan qarışıqlığına da səbəb olmamalıdır.

Süni mayalanma və embrion implantasiyasının qanunvericilik tənzimlənməsində post-sovet ölkələrindən Belarusiya (Yardımçı Reproduktiv Texnologiyalar haqqında Qanun) və Qırğızıstanın (Vətəndaşların reproduktiv hüquqları və onların realizəsinin təminatı haqqında) qanunvericilik təcrübəsindən faydalanmaq olar. Hər iki ölkədə reproduktiv texnologiyalar haqqında qanunvericilik aktı fəaliyyətdədir. Qırğızıstanın Vətəndaşların reproduktiv hüquqları və onların realizəsinin təminatı haqqında Qanunu 2015-ci ildə qəbul edilsə də, son (2019-cu il) dəyişiklikləri ilə insan hüquqları məzmununda yeniləndirilmişdir. Konkret olaraq Qanun 26 maddədən ibarət olsa da digər qanunvericilik aktlarına, tərəfdar çıxılan beynəlxalq müqavilələrə istinad edilir (m.2.1).

Belarusiya Respublikasının 7 yanvar 2012-ci il tarixində qəbul etdiyi "Yardımçı Reproduktiv Texnologiyalar haqqında" Qanunu 27 maddədən ibarət olub, həm də digər qanunvericilik aktlarına, o cümlədən tərəfdar çıxılan beynəlxalq müqavilələrə istinad edilir (m.2). Qırğızıstanın qanunvericilik aktından fərqli olaraq Belarusiya Respublikası Qanununda reproduktiv hüquqların tənzimlənməsi üzrə daxili qanunvericiliklə tərəfdar çıxılan beynəlxalq müqavilələr arasında mümkün kolliziya məsələsi də öz həllini tapıb (m.2).

Belarusiya Respublikası Qanunun 1-ci maddəsində: yardımçı reproduktiv texnologiyalar; genetik ana; cinsiyyət hüceyrələrinin donoru; cinsiyyət hüceyrələrinin donorluğu; kriokonservasiya; cinsiyyət hüceyrələri; qohumlar; surroqat ana; surroqat analıq; ekstrakorporal mayalandırma; genetik ana; embrion kimi əsas anlayışlar yer alıb. Qırğızıstanın Vətəndaşların reproduktiv hüquqları və onların realizəsinin təminatı haqqında Qanunun 1-ci maddəsindəki anlayışlardan: reproduktiv sağlamlıq, reproduktiv hüquqlar, seksual təhsil kimi terminlər AR qanunvericiliyi üçün resepsiya edilməli məsələlərdəndir.

Belarusiya Respublikası Qanunundakı mövcud preambula Qırğızıstanın Qanununda qanun maddəsi kimi (m.1-1) 2019-cu il dəyişikliyi ilə təsbit edilib. Müvafiq münasibətlər qanunun tənzimetmə predmeti kimi vətəndaşların reproduktiv hüquqları və onların realizəsinin təminatı kimi ifadə edilib.

Belarusiya Respublikası Qanunun 3-cü maddəsində yardımçı reproduktiv texnologiyaların: ekstrakorporal mayalandırma; surroqat analıq və süni mayalanma növləri tənzimlənir. Belarusiya Respublikası Qanunundan fərqli olaraq Qırğızıstanın Qanununda 2-ci fəsil daha humanizm xarakteri kəsb edir. Vətəndaşların reproduktiv sağlamlığı və onların realizəsi zamanı dövlət siyasətinin prioritet istiqaməti kimi: ailənin hərtərəfli möhkəmləndirilməsi; sağlam, arzu edilən uşaq doğumu ilə bağlı qadın-kişi münasibətlərində valideynlərin uşağın doğumuna görə məsuliyyət daşıması üzrə tərbiyənin formalaşdırılması; yaş xüsusiyyətlərini nəzərə alaraq vətəndaşların reproduktiv sağlamlığının mühafizə

sisteminin inkişaf etdirilməsi (m.4.1). Həmin maddənin 2-ci hissəsində vətəndaşların reproduktiv hüquqlarının mühafizəsinin dövlət siyasətinin əsas prinsipləri kimi: seksual və reproduktiv hüquqların realizəsi zamanı insan hüquq və azadlıqlarının gözlənilməsinin prioriteti; seksual və reproduktiv problemlərin həlli zamanı humanizm; konfidensiallıq (əlavə edilməlidir məlumatlandırılmış razılıq - müəll.); hörmətli yanaşma; seksual və reproduktiv sağlamlığının mühafizəsinin təşkilinin bütün mərhələlərində əlçatan və yüksək səviyyəli tibbi-sanitar xidmət; dövlətin demoqrafik inkişafını yaxşılaşdırmaq ifadə edilib. Qırğızıstanın Qanununda ifadə edilən ailə institutunun möhkəmləndirilməsi və demoqrafik inkişafın təmini üzrə normalar milli təhlükəsizlik problemi olaraq şəxslərin seksual və reproduktiv hüquqlarının təmin edilməsinin davamı kimi gələcək qanunvericiliyimizdə ifadə edilməlidir.

Belarusiya Respublikası Qanunun 4-cü maddəsində müvafiq fəaliyyətin tənzimlənməsi xüsusi icazə (lisenziya) aktına tabe etdirilib. Qanunun 6-cı maddəsində kimlərə və hansı yaş həddində yardımçı reproduktiv texnologiyaların tətbiqi ifadə edilib. Süni və ekstrakorporal mayalandırma 18-50 yaş məhdudiyyətini ehtiva edir. Hesab edirik ki, son yaş həddinin qoyulması insan hüquqları baxımında məqbul deyil. Reproduktiv texnologiyalardan istifadə edərək sonsuzluğun müalicəsi, uşaq sahibi olmaq ən təməl insan hüquqlarından biridir. Bu mənada dövlətin vəzifəsi bu hüququn həyata keçirilməsi üçün maksimum hüquqi şərait, rejim yaratmaqdır. Azərbaycan Respublikasının bu sahədə qəbul edilməli qanununda son yaş həddi qoyulmaya bilər. Süni mayalanma texnologiyasından istifadə etmək istəyən qadının yaşı ilə əlaqədar məsələ də hüquqi həllini tapmalıdır. Qanunvericilikdə "yetkinlik yaşına çatmış qadın", "doğuş yaşlı qadın" terminlərindən istifadə edilməkdədir. Universal beynəlxalq insan hüquqları hüququnda, həmçinin daxili hüquqda "hər yetkinlik yaşına çatmış qadının" reproduktiv hüququ tanınsa da dövlətlərin daxili qanunvericiliyində "doğuş yaşı" anlayışı mövcud deyildir. Bu hal coğrafi, ətraf mühit təsirləri ilə izah edilə bilər. Tibbin inkişaf meyilləri süni mayalanma zamanı qadına yaş məhdudiyyəti qoymasa da süni mayalanma metodlarından istifadə halında qadınlar üçün minimum yaş həddinin müəyyənləşdirilməsi təmin edilməlidir. Yetkinlik yaşı və ya doğuş yaşı anlayışları ilə bərabər qanunvericilikdə (Qırğızıstanın Vətəndaşların reproduktiv hüquqları və onların realizəsinin təminatı haqqında Qanununda (m.16.3) "16 yaşına çatmamış şəxslərdə hamiləliyin süni dayandırılması") anlayışı da yer almaqdadır. Yaş həddinin sərhədlərinin müəyyən edilməsi sağlamlıq və məsuliyyət problemlərinin həlli ilə əlaqədar meydana gəlir. Yetkinlik yaşına çatmayan qadının süni mayalanma prosesinə cəlb edilməsi halında cinayət məsuliyyəti də meydana gəlir. AR Cinayət Məcəlləsinin "Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya" adlanan 136-cı maddəsinin birinci bəndində qeyd edilir ki, "Qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə - dörd min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya

müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

31 may 2017-ci il tarixli dəyişikliklə sanksiya daha da sərtləşdirilmişdir. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi "qanunsuz süni mayalanma" və "qanunsuz embrion implantasiyası"nı kriminallaşdırarkən qanunsuzluğu: birincisi, tibb hüquq üçün xarakterik prinsip olan "qadının razılığı olmadan həyata keçirilməsi" və ikincisi, "yetkinlik yaşına çatmayan qadın üzərində bu cür tibbi fəaliyyətin icra olunması" məqamı ilə əlaqələndirir. Eyni zamanda, həmin maddədə müvafiq əməllərin ehtiyatsızlıqdan sağlamlığa ağır və ya az ağır zərər vurulması ilə nəticələndiyi və ehtiyatsızlıqdan şəxsin ölümünə səbəb olması ağırlaşdırıcı hal kimi hesab edilmiş və uyğun olaraq daha ciddi sanksiyalar ifadə edilib.

Hamiləlik ehtimalını artırmaq üçün həkim ana bətninə bir qayda olaraq bir deyil, bir neçə embrion köçürür. Ona görə təbii mayalanmadan fərqli olaraq, burada çoxdöllü hamiləlik imkanları da artmış olur. Əlbəttə ki, bioetikanın tələblərinə uyğun olaraq bütün bu manipulyasiyalar haqqında çütlüyə əvvəlcədən məlumat verilməlidir. Onu da vurğulamalıyıq ki, bəzi ölkələrdə embrionun qadın bətninə köçürülməsində qanunla məhdudiyyətlər qoyulmuşdur. Məsələn, Almaniya və İtaliyada birdəfəlik 3-dən çox embrionun yerləşdirilməsi qadağandır. Bu qayda həm ana bətninə, ananın sağlamlığına, həm də dölün sağlam qidalanmasına mənfi təsiri azaltmaq üçün tətbiq edilir.

EKM və EK zamanı çoxdöllü hamiləliyin qarşısının alınması, ananın səhhətinə ziyan vurulmaması və mənfi nəticələri aradan qaldırmaq məqsədilə həkimlər tərəfindən "embrionun reduksiyası" həyata keçirilir. Başqa sözlə, köçürülmə zamanı uşaqlığa 3-dən artıq embrion bitişirsə, onların bir hissəsi çıxarılır və ya aborta məruz qalır. Yaxud hamiləlik faizini artırmaq üçün həkimlər hiperovulyasiyanı stimullaşdıraraq qadından bir deyil bəzən 10 və daha çox yumurtahüceyrə götürürlər. Bütün yumurta hüceyrələr mayalandırılır və onların çoxu embrion olur. Bu zaman bioetikanın ortaya qoyduğu məsələlərdən biri əlavə mayalanmış yumurta hüceyrələrin gələcəyidir. Onların taleyi necə olacaq, onlar öldürüləcəkmi və yaxud kriokonservasiya olunacaq, onlardan elmi tədqiqat və araşdırma üçün istifadə etmək olarmı və s. kimi məsələlər həll edilməlidir.

1986-cı ildə Avropa Şurası Parlament Assambleyasının insan embrionlarının və döllərinin diaqnostik, müalicəvi, elmi tədqiqat, sənaye istifadəsi və ticarət üçün istifadəsinə dair tövsiyəsi qəbul edilmişdir. Tövsiyə elmi inkişaf və tibbi tədqiqatlarda riayət olunmalı etik və sosial prinsipləri müəyyən etmək məqsədi daşıyır. Problemin əhəmiyyətini nəzərə alaraq Belarusiya Respublikasının Yardımçı Reproduktiv Texnologiyalar haqqında Qanunun 7-ci maddəsində uşaqlığa köçürülə bilən embrion sayı da tənzimlənir. Qanun reproduktiv qabiliyyətə istinadən 35 yaşına çatmamış qadınlar üçün yalnız iki embriondan istifadəni nəzərdə tutur. Üç embrion isə 35 yaşına çatmış pasiyentə, eləcə də üç və ya daha çox dəfə süni mayalanma istifadəçisinin hamiləliyinə səbəb olmadığı pasiyentə

köçürülə bilər. Qanunda tibbi göstərişlər olduqda embrionların azaldılması proseduru da nəzərdə tutulub.

Doktrinada insan embrionu, onun statusu ilə bağlı fərqli fikirlər mövcud olsa da və ayrı-ayrı dövlətlərin də daxili qanunvericiliyində müxtəlif mövqelərə baxmayaraq qeyd etdiyimiz kimi regional beynəlxalq hüquq embrionlarla bağlı daha konkret vəziyyət müəyyən edib. Avropa Şurasının 1997-ci il Oviedo Konvensiyasının 18.2-ci maddəsində deyilir ki, tədqiqat məqsədi ilə insan embrionlarının yaradılması qadağandır .

Donorluq məsələsinin həllində Qırğızıstanın Qanununda (m.19) yalnız 20-35 yaşda olan somatik və sağlam vətəndaşların cinsiyyət hüceyrələrinin donorluğundan bəhs edildiyi halda Belarusiya Qanunu daha detallı tənzimetmə nəzərdə tutub. Belə ki, Qanunun 9-cu maddəsi kişilərin spermatozoidlərinin donorluğu üçün 18-40 yaş, qadınların yumurta hüceyrələrinin donorluğu üçün 18-35 yaş həddi müəyyən edilib. Əlbəttə ki, hər iki halda yazılı razılığın olması və donorluq üçün əks tibbi göstərişin olmaması və qadının donorluğu üçün onun uşağının olması tələb edilir. Qanunun həmin maddəsində diqqət çəkən məqamlardan biri də ağır və xüsusi təhlükəli cinayətlər törətmiş şəxslərin donorluğuna icazə verilməməsidir.

Bu gün cəmiyyət üçün mühüm məsələlərdən biri də donorların kimliyi məsələsi təşkil edir. Pasiyentə münasibətdə donor anonim və qeyri-anonim ola bilər. Qadın pasiyentə münasibətdə qeyri - anonim donor onun qadın qohumu, kişi pasiyentə münasibətdə onun kişi qohumu ola bilər. Digər halda anonimlik təmin ediləcək. Cinsiyyət hüceyrələrinin donorluğuna qarşı əks tibbi göstəricilərin siyahısı da dövlətin mərkəzi səhiyyə hakimiyyət orqanı tərəfindən müəyyən edilməlidir.

Qanuna görə, donor özünün cinsiyyət hüceyrələrini əvəzli və əvəzsiz vermək hüququna malikdir. Qeyri-anonim donordan fərqli olaraq anonim donor özünün cinsiyyət hüceyrələrinin aqibəti ilə bağlı məlumat almaq hüququna malik olmur (m.10). Belarusiya qanunvericiliyinə görə donor cinsiyyət hüceyrələrinin saxlanılması və kriokonservasiyası qaydaları, şərtləri, müddəti, kodlaşdırma və markalandırma məsələlərini tənzimləyir (m.11). Qanunda həmçinin donor cinsiyyət hüceyrələrinin pasiyentə yardım və artıq qalan resurslardan elmi-tədqiqat məqsədi üçün istifadəsi təsbit edilib, eyni donorun cinsiyyət hüceyrələrindən istifadə 20 dəfəyə qədər məhdudlaşdırılıb (m.12). Cinsiyyət hüceyrələrinin donorlarının vahid registri yaradılır (m.13). Yardımçı reproduktiv texnologiyalardan istifadə zamanı pasiyentin hüquqları kimi özünün sağlamlığı haqqında tam və hərtərəfli məlumat almaq; yardımçı reproduktiv texnologiyaların tətbiqinin effektivliyi, riskləri, yan təsirləri, həmçinin alternativ tibbi yardım, donor cinsiyyət hüceyrələrindən istifadə, surroqat analığın seçilməsi və d. məsələlər yer alıb (m.14).

Öncə ifadə etdiyimiz İngiltərə məhkəmə praktikası (1997-ci il "Missis Bladın işi" (Mrs. Blood case) baxımından da Qanunda cinsiyyət hüceyrələrinin, embrionun saxlanılması və ondan istifadə qaydalarının tənzimlənməsi əhəmiy-

yətli sayılmalıdır. Müvafiq informasiya tibbi sənədlərə daxil edilir və pasiyentlə birlikdə müalicə həkimi tərəfindən imzalanır (m.16). Qanunda Azərbaycan tibb qanunvericilik praktikasındakı boşluq baxımından çox əhəmiyyət daşıyan məqamlardan biri də donorun seçilməsi üçün pasiyent hüququnun tənzimlənməsi müddəasıdır. Yardımçı reproduktiv texnologiyalardan istifadə zamanı pasiyent anonim donorlar haqqında vahid registr məlumat bazasına malik kataloqdan seçim etmək imkanına malik olur. Anonim donor haqqında həkim sirri olmayan məlumat kimi: yaş, boy, çəki, saçının və gözünün rəngi, irqi və mili mənsubiyyət, təhsil, qan qrupu, rezus-faktorla bağlı məsələlər pasiyent tərəfindən seçilə bilir (m.17). Anonim donorluq meyarları və onlarla tanışlıq mərkəzi səhiyyə hakimiyyət orqanı tərəfindən müəyyən edilir.

Beləliklə, qeyd etdiyimiz kimi, süni mayalanma ilə bağlı qanunvericiliyimizin tənzimetmə səviyyəsi məqbul deyildir. Qanunda (donorlardan istifadənin mümkünlüyü qeyd edilsə də) kimlərin donor olması və ya kimlər üçün onun istisna edilməsi nəzərdə tutulmayıb. İrqi ayrı seçkilik hüquqla qadağan edilsə də, Azərbaycan əhalisinin irqi kimliyinin qorunması üçün donorların seçimi milli təhlükəsizlik məsələsi kimi qanunvericiliklə tənzimlənməlidir. Donorluq süni mayalanma zamanı qan qarışıqlığına da səbəb olmaması üçün tənzimetmə və nəzarət mexanimləri olmalıdır.

İstinadlar:

1. R.H. against Norway, Application No. 17004/90 The European Commission of Human Rights sitting in private on 19 May 1992, https://www.globalhealthrights.org/wp-content/uploads/2016/12/H.-v.-NORWAY.pdf

2. The case of Evans v. the United Kingdom, Evans v. United Kingdom. Grand Chambercase Of Evans V. The Unıted Kıngdom (Application No. 6339/05), Judgment, Strasbourg, 10 April 2007 https://hudoc.echr.coe.int/rus#{%22itemid%22:[%22001-80046%22]}

Həmçinin bax: Evans v. United Kingdom:Frozen Embryos and Conflicting Rights. https://www.euppublishing.com/doi/abs/10.3366/elr.2007.11.3.446?journalCode=elr

3. Explanatory Report to the Convention for the protection of Human Rights and Dignity of the Human Being with regard to the Application of Biology and Medicine: Convention on Human Rights and Biomedicine, Oviedo, 4.IV.1997; https://rm.coe.int/1680a8e4d0;

The Convention for the Protection of Human Rights and Dignity of the Human Being with regard to the Application of Biology and Medicine: Convention on Human Rights and Biomedicine, https://www.coe.int/en/web/conventions/full-list?module=treaty-detail&treatynum=164

4. Maurice A.M. de Wacher, The European Convention on Bioethics, The Hastings Center Report. Vol.27, No.1(Jan.-Feb.,1997), p.13-23

5. The Convention for the Protection of Human Rights and Dignity of the Human Being with regard to the Application of Biology and Medicine: Convention on Human Rights and Biomedicine, https://www.coe.int/en/web/conventions/full-list?module=treaty-detail&treatynum=164

6. Babayev H. "İmplant embrion və reproduktiv hüquqların qanunvericilikdə yeri." Qanun jurnalı 08 (334), Avqust 2022. S. 45-46

7. Azərbaycanda 90 minə yaxın uşaq süni mayalanma ilə doğulub. https://modern.az/az/news/340062 , 29.05.2023

8. Болховитинова С.Л. Этические проблемы новых репродуктивных технологий, с. 41
https://rsmu.ru/fileadmin/templates/DOC/Faculties/LF/bioethics/ucheb_materiali/lekcii/subject7.pdf

9. Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин. Принята резолюцией 34/180 Генеральной Ассамблеи от 18 декабря 1979/ https://www.un.org/ru/documents/decl_conv/conventions/cedaw.shtml

10. WMA Statement On In-Vitro Fertilization And Embryo Transplantation Adopted By The 39th World Medical Assembly Madrid, Spain, October 1987, and Rescinded At The WMA General Assembly, Pilanesberg, South Africa, 2006/ https://www.wma.net/policies-post/wma-statement-on-in-vitro-fertilization-and-embryo-transplantation/

11. Parliamentary Assembly of the Council of Europe. Recommendation (1046) On the Use of Human Embryos and Foetuses for Diagnostic, Therapeutic, Scientific, İndustrial and Commercial Purposes/1986; Parliamentary Assembly of the Council of Europe. Recommendation (1100) On the Use of Human Embryos and Foetuses in Scientific Research/1989// https://rm.coe.int/090000168092aa10#_ftn5

12. Principles set out in the report of the Ad Hoc Committee of Experts on Progress in the Biomedical Sciences (CAHBI), 1989/ https://rm.coe.int/16803113e4

13. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublıkasının Qanunu. https://e-qanun.az/framework/4078

14. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublıkasının Qanunu. https://e-qanun.az/framework/4078, 23.05.2023

15. Основы законодательства Украины о здравоохранении https://kodeksy.com.ua/ka/osnovy_zakonodatelstva_ukrainy_o_zdravoohranenii.htm, 23.05.2023

16. Закон РБ "О вспомогательных репродуктивных технологиях" https://minzdrav.gov.by/upload/dadvfiles/закон%20о%20вспомогательных%20репродуктивных%20технологиях.pdf, 23.05.2023

17. Закон КР от 4 июля 2015 года № 148 О репродуктивных правах граждан и гарантиях их реализации. http://cbd.minjust.gov.kg/act/view/ru-ru/111191 , 23.05.2023

18. Проблемы правового регулирования применения методов вспомогательных репродуктивных технологий, http://www.alppp.ru/law/osnovy-gosudarstvennogo-upravlenija/administrativnye-pravonarushenija-i-administrativnaja-otvetstvennost/19/statja--problemy-pravovogo-regulirovanija-primenenija-metodov-vspomogatelnyh-reproduktivny.html, 23.05.2023

19. Капралова, А. Е. Проблемы законодательного регулирования вспомогательных репродуктивных технологий /А. Е. Капралова. - Текст: непосредственный // Актуальные проблемы права: материалы VI. Междунар. науч. конф. (г. Москва, декабрь 2017 г.). Москва: Буки-Веди, 2017, с. 62-65

20. AR Cinayət Məcəlləsi. https://e-qanun.az/framework/46947 , 23.05.2023

21. Bioetika. Ali təhsil müəssisələri üçün dərs vəsaiti. Əlyazma hüququnda. İsmayılova Pərvinə. Bakı. 2023. Səh. 74

22. Закон РБ О вспомогательных репродуктивных технологиях, https://kodeksy-by.com/zakon_ rb_o_ vspomo ga tel_nyh_reproduktivnyh_tehnologiyah.htm 19.03.2023

23. Свитнев, К.Н. Статус эмбриона: правовые и морально-этические аспекты / К.Н. Свитнев // Правовые вопросы в здравоохранении. №7. 2011, с. 48-56.

24. The Convention for the Protection of Human Rights and Dignity of the Human Being with regard to the Application of Biology and Medicine: Convention on Human Rights and Biomedicine, https://www.coe.int/en/web/conventions/full-list?module=treaty-detail&treatynum=164 19.03.2023

25. Закон РБ О вспомогательных репродуктивных технологиях, https://kodeksy-by.com/zakon_ rb_o_ vspomo ga tel_nyh_reproduktivnyh_tehnologiyah.htm 19.03.2023

26. In the Name of the Father? Ex-parte Blood: Dealing with Novelty and Anomaly. Derek Morgan and Robert G. Lee. The Modern Law Review, Published By: Wiley, 1997, P: 840.

27. Закон РБ О вспомогательных репродуктивных технологиях, https://kodeksy-by.com/zakon_ rb_o_ vspomo ga tel_nyh_reproduktivnyh_tehnologiyah.htm 19.03.2023

BIOMEDICAL ISSUES NECESSITATING THE LEGAL REGULATION OF GENETICS

Parvina İsmayilova*

Abstract

The article analyzes the basic legislative standards of the application of reproductive technologies. The level of regulation of the legislation on artificial insemination is not considered acceptable. The law (although it mentions the possibility of using donors) does not specify who should be a donor or for whom it should be excluded. Although racial segregation is prohibited by law, the selection of donors should be regulated by legislation as a matter of national security in order to protect the racial identity of the population of Azerbaijan. Donation should also not cause blood insemination during insemination. The legislative experience of Belarus is recommended as a model legislative act.

Keywords: *surrogate mother, reproduction technology, women's health, human rights, IVF – in vitro fertilisation, embryos status.*

ОСНОВНЫЕ СТАНДАРТЫ ПРИМЕНЕНИЯ РЕПРОДУКТИВНЫХ ТЕХНОЛОГИЙ

Парвана Исмаилова**

Резюме

В статье анализируются основные законодательные нормы применения репродуктивных технологий. Уровень регламентации законодательства об искусственном оплодотворении не считается приемлемым. В законе (хотя и упоминается возможность использования доноров) не указано, кто должен быть донором или для кого он должен быть исключен. Хотя расовая сегрегация запрещена законом, выбор доноров должен регулироваться законодательством как вопрос национальной безопасности в целях защиты расовой идентичности населения Азербайджана. Донорство также не должно вызывать осеменения кровью во время осеменения. Законодательный опыт Беларуси рекомендуется в качестве модельного законодательного акта.

Ключевые слова: *суррогатное материнство, репродуктивные технологии, женское здоровые, IVF – экстракорпоральное оплодотворение, статус эмбриона*.

* Ph.D, Baku State University

** доктор философии по праву, Бакинский государственный университет

SOSİAL TƏMİNAT HÜQUQU

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN HÜQUQİ STATUSUNUN TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Röya Mirtalıbova[*]

Xülasə

Hər bir vətəndaşın layiqli həyat səviyyəsinin təmin olunması Azərbaycan dövlətinin qarşısında duran ən ümdə konstitusion məqsəddir. Bu məqsədə nail olunmasında mühüm yeri əhalinin sosial qayğıya, spesifik hüquqi tənzimlənməyə ehtiyac duyan təbəqələri təşkil edir ki, belə təbəqələrin zəruri qismini fiziki, psixoloji, bioloji və digər amillərdən dolayı uşaqlar təşkil edir. Dövlət uşaqların, xüsusilə onların arasında da ən həssas kateqoriya qruplarının hüquqi statusunu effektiv hüquq normaları ilə nizama salır, hər bir uşaq üçün fərdi inkişaf planı hazırlayır, valideyn qayğısından məhrum olan uşaqların ailə mühitində böyüməsi üçün normativlər müəyyən edir. Əgər uşaq öz ailəsi və ya ailə mühiti ilə yenidən birləşə bilmirsə, müvafiq dövlət təşkilatları tərəfindən mümkün olan qayğı formaları araşdırılır və müəyyən olunur. Beləliklə, valideyn himayəsindən məhrum olan uşaqlar da daxil olmaqla, xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqi statusunun effektiv və işlək hüquq normaları ilə nizama salınması dövlətin qanunvericilik, bu normaların realizasiyasını təmin etmək, müvafiq orqan və qurumlar timsalında vəzifəli şəxslərin müvafiq sahədə səlahiyyətlərini düzgün yerinə yetirməsini təmin etmək, sözügedən sahədə təkmil nəticələrə nail olunmasına yönəlmiş müxtəlif proqramların, layihələrin hazırlanması dövlətin icra, hüquq pozuntularından mühafizə və müdafiə funksiyalarının yerinə gətirilməsi isə məhkəmə hakimiyyət qolunun vəzifəsi olmaqla bu sahədə beynəlxalq normativlərin tələblərinə cavab verən, uşaqlar üçün tərbiyəvi ailə və cəmiyyət modelinin qurulmasına istiqamətlənmişdir. Məqalədə valideyn himayəsindən məhrum olan uşaqların hüquqi statusunun normativ nizamasalınmasında dövlət hakmiyyətinin hər 3 qolunun funksional əhəmiyyəti və rolu əhatə olunmaqla belə nizamasalmanın müxtəlif aspektlərinə toxunulmuşdur.

Açar sözlər: *sosial müdafiə, valideyn himayəsindən məhrum olmuş, valideynini itirmiş, qəyyumluq, sosial müavinat, uşaq hüquqları.*

Hüquq cəmiyyətdə mövcud olan ən mühüm ictimai münasibətləri tənzimləmək üçün sosial və ya dövlət institutları tərəfindən yaradılmış və tətbiq edilən qaydalar toplusudur. Bu mənada hüquqi-sosial vəziyyətinə görə digər şəxslərdən seçilən və xüsusi nizamasalma normativlərinə ehtiyac duyulan şəxslər (xüsusilə uşaqlar) dairəsinin də həmin qaydalar toplusunun tənzimetmə sferasına daxil olduğunu nəzərə alsaq, hüququn bu sahədə spesifik əhəmiyyətini anlamamaq mümkün deyil. Ümumən belə uşaqların psixi və fiziki inkişaf xüsusiyyətləri, həyat təcrübələrinin yoxluğu, müəyyən dərəcədə digər şəxslərdən asılı olması, hüquq və qanuni mənafelərinin müdafiəsi üçün müvafiq orqanlara hər zaman müstəqil müraciət edə bilməməsi, ümumilikdə uşaq hüquqlarının spesifikliyi problemə dərindən və fərqli formada yanaşmanı tələb edir. [6, s.189] Sağlamlıq imkanları məhdud, valideynlərindən birini və ya hər ikisini itirmiş, valideyn hi-

[*] Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin 1 saylı Bakı Ərazi İdarəsinin hüquqşünası

mayəsindən məhrum olan, əqli və fiziki qüsuru olan bu cür uşaqların hüquqi statusu və müdafiə mexanizmləri milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, mənşəyindən asılı olmayaraq tibbi, sosial reabilitasiyasının aparılması, onların cəmiyyətə inteqrasiyasının təmin edilməsi məhz dövləti səviyyədə qanunvericiklə tənzimlənir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən internat müəssisələrində valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı müxtəlif illərdə müxtəlif olmuşdur. [2] Son zamanlar onların sayının artması müxtəlif siyasi, iqtisadi, sosial amillər, ailə məfhumunun mənəvi dəyəri və ictimai nüfuzunun azalması, ailədə baş qaldıran maddi və qeyri-maddi problemlər, nikahdankənar münasibətlərin çoxalması kimi səbəblərlə izah oluna bilər. [4, s. 410]

Dövlətdaxili səviyyədə valideyn himayəsindən məhrum olan uşaqların hüquqi statusu ümumi qaydada Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi və Mülki-Prosessual Məcəlləsi, statusun ayrı-ayrı aspektləri isə müxtəlif aktlarla tənzimlənir ki, belə qanunvericilik aktlarına daxil mühüm əhəmiyyət kəsb edən "Uşaq hüquqları haqqında" 19 may 1998-ci il tarixli, "Valideynlərini itirmiş və valideyn himayəsindənaməhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" 22 iyun 1999-cu il tarixli, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" 9 avqust 2005-ci il tarixli, "Sosial müavinətlər haqqında" 7 fevral 2006-cı il tarixli Azərbaycan Respublikasının Qanunlarıdır. Bununla yanaşı, "Ölkələrarası övladlığagötürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiyasının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərarı, "Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydaları", həmçinin "Uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot Qaydası" və "Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot qaydasının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin müvafiq qərarları da sözügedən məsələyə dövlətin xüsusi münasibətinin, həmin şəxslər dairəsinin daha güclü qayğı ilə əhatə edilməsi üçün normativ bazanın təkmilləşdirilməsi yolunda dövlətin mütəmadi səylərinin göstəricisidir. Qeyd edək ki, mütərəqqi normativ tənzimləmə üçün bəşəriyyətin əldə etdiyi biliklər sisteminin, ictimai-tarixi təcrübənin mənimsənilməsi, real münasibətlərin dərk edilməsi tələb olunur. [5, s.75]

Valideyn himayəsindən məhrum olan uşaqların hüquqi statusunun araşdırılması ilk növbədə həmin şəxslərin dairəsinin müəyyən edilməsində ifadə olunur ki, bu dairə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun "Əsas anlayışlar" adlanan 1-ci maddəsində əks olunmuşdur. Qeyd edək ki, sözügedən dairənin qanunvericilik səviyyəsində dəqiq müəyyən edilmiş olması mühüm nəzəri və praktiki əhəmiyyət kəsb etməklə bu sahədə yarana biləcək hüquqi kolliziya və boşluqların aradan qaldırılması, hüquqi-sosial tənzimlənmədə qeyri-müəyyənliklərin ortaya çıxmasının və ümumən cəmiyyətdə uşaqlara göstərilən diqqət və qayğının artı-

rılmasında mümkün neqativ halların qarşısının alınması üçün olduqca önəmlidir. Qeyd olunan maddəyə əsasən valideyn himayəsindən məhrum olmuş uşaqlar dairəsinə daxildir:

- hər iki valideyni məlum olmayan;
- hər iki valideyni valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;
- hər iki valideyni xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;
- hər iki valideyni cəzaçəkmə müəssisələrində cəzasını çəkən;
- hər iki valideyni uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;
- uşaqlarını uşaqlar üçün sosial xidmət müəssisələrindən götürməkdən imtina edən;
- qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən 18 yaşınadək şəxslər;
- bir valideyni vəfat etmiş və o biri valideyni orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs olan 18 yaşınadək şəxslər;

Bundan əlavə, qanunverici bu dairəni bir qədər də genişləndirərək bildirir ki, valideynlərini itirmiş, habelə valideyn himayəsindən məhrum olmuş ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində əyani formada təhsil alan 23 yaşınadək olan şəxslər valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslərdir. [15]

Qeyd edək ki, valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi üzrə dövlət təminatının məzmununun, tədbirlərin müəyyən edilməsi, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətlər hüquqi nizamasalmanın 2 aspektini özündə ehtiva edir:

1. Maddi kontekstdə - ictimai həyatın müxtəlif sferalarında dövlətin maddi təminat vasitələrini, sosial yardımlar, müavinətlər, aliment, təqaüd, maddi güzəştlər, yaşayış yeri, əmək fəaliyyəti ilə təmin olunma, tibbi xidmətlər və digər maddi xarakterli təminat tədbirlərini əhatə edir. Bu tədbirlər təhsil, tibb, əmlak, əmək və digər sahələrdə tətbiq olunmaqla həmin uşaqların həyat və fəaliyyətinin bütün tərəflərini özündə əks etdirir. Maddi kontekstdə təminatlar özü də 2 qrupa ayrılır:

- Bilavasitə maddi xarakterli təminatlar - maddi ehtiyacların ödənilməsi məqsədilə dövlət büdcəsi hesabına göstərilən yardımları, təqaüdləri, sosial müavinətləri, dövlət tərəfindən qarşılanan ödənişləri əhatə edir. Ümumi qaydada "Uşaq hüquqları haqqında" Qanunun 13-cü maddəsində müəyyən edilmişdir ki, hər bir uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır. Bu müddəa digər qanunvericilik sənədlərində öz təsbitini daha konkret və mütərəqqi formada tapmışdır. Məsələn, "Valideynlərini itirmiş və valideyn hi-

mayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 5-ci maddəsinə əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. [15]

- Dolayı maddi xarakterli təminatlar - pul öhdəlikləri ilə bağlı olmayan, əsasən sosial həyatın müxtəlif aspektlərini əhatə edən və uşağın müstəqil sosial fərd kimi cəmiyyətdə yerinin müəyyən edilməsi və ictimai-sosial adaptasiyasına xidmət etmək məqsədi daşıyan mühüm təminatlar qrupudur. Məsələn, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 7-ci maddəsinə əsasən əvvəllər mənzil sahəsi olmayan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə qəyyumluqda (himayədə) olan uşaqlar bütün tipdən olan təhsil müəssisələrini və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsini bitirməyə, əhaliyə müvafiq sosial xidmətlər göstərən müəssisələrdən və Azərbaycan Respublikası.

Silahlı qüvvələri sırasından buraxılmağa, cəzaçəkmə müəssisəsindən azad olunmağa üç ay qalmış müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən olunmuş sosial normalardan az olmayan yaşayış yeri ilə növbədənkənar təmin olunurlar. [15] Həmçinin "Uşaq hüquqları haqqında" Qanunun 20-ci maddəsinə əsasən hər bir uşağın mənzil hüququ vardır. Uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüquqları vardır. Valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə olunmaq üçün dövlət uşaq müəssisəsinə, qohumlarına və ya qəyyumlara (himayəçilərə) verildikdə əvvəl yaşamış olduqları mənzilə hüquqlarını saxlayırlar. Bu mənzilə köçmək mümkün olmadıqda həmin uşaqlar, habelə əvvəllər mənzil sahəsi olmayan valideyn himayəsindən məhrum uşaqlar mənzillə növbədənkənar təmin edilməlidirlər. Həmin mənzillərlə əlaqədar müqavilələrin bağlanması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir. Sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan uşaqlara Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri verilir. [13]

2. Qeyri-maddi kontekstdə - valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət büdcəsi, dövlət və qeyri-dövlət fondları, qrantlar və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşən mükəmməl proqramlar əsasında sağlam həyat tərzinin, mehriban insan mühitinin aşılanması, uşaq kollektivində, eləcə də böyüklərlə qarşılıqlı əlaqənin, əməkdaşlıq və birlik münasibətlərinin formalaşması, uşaqlarda mənəvi borc, hörmət, vətənpərvərlik hissinin, ən mühüm həyati tələbat olan əməyə münasibətin, əməyin şəxsi və ictimai zərurət kimi başa düşülməsinin tərbiyə olunması, uşaqların çoxşaxəli yaradıcı, şəxsi və ictimai əhəmiyyətli fəaliyyətinin təşkili başa düşülür. [7, s.124] Bunun

üçün bir çox xarici ölkələrin təcrübəsində geniş rast gəlinən və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təqdim olunan imkanların.maksimum bərabərləşməsi, onların reabilitasiyası və sosial inteqrasiyasının sürətləndirilməsi və effektivliyi üçün istifadə olunan "Aktiv Terapiya" (Occupational Therapy), həmçinin mütəxəssislər, müvafiq sosial dövlət xidmətləri, uşaqların özləri, onların ailələri, yaşadıqları icmalar tərəfindən həyata keçirilən "İcma Əsaslı Reabilitasiya" və digər proqramları nümunə olaraq göstərmək mümkündür. Ölkəmizdə də Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA - United Aid for Azerbaijan; yüksək standart və keyfiyyətli bir qurum) tərəfindən adıçəkilən proqram Azərbaycana gətirilərək, yerli şəraitə uyğunlaşdırılaraq bu proqram tətbiq edilməklə sınaqdan keçirilmişdir. Bundan əlavə, 2013-cü ilin aprelində Azərbaycanda ilk dəfə Bakı SOS Uşaq kəndində "Qısa Müddətli Qayğı" layihəsi (QMQL) adlanan yeni layihə fəaliyyətə başlamışdır ki, layihənin yaradılmasında əsas məqsəd müxtəlif problemlərlə üzləşmiş uşaqlara kömək etmək, belə uşaqları müvəqqəti yaşayış yeri və qayğı ilə təmin etməkdir.

Valideyn himayəsindən məhrum olan uşaqların hüquqi statusunun qanunvericilik səviyyəsində tənzimlənməsinin digər hüquqi institutların nizamasalma prosesindən fərqli bir neçə spesifik xüsusiyyətləri vardır ki, bu xüsusiyyətlər normativ-hüquqi aktların ayrı-ayrı müddəalarının təhlili zamanı nəzərə çarpır. Həmin xarakterik cəhətlərə qısaca nəzər salsaq:

- Dövlət orqanlarının (qurumlarının) inteqrasion fəaliyyəti.

Normativ nizamasalmada diqqətəlayiq məsələlərdən biri dövlət orqanlarının (qurumlarının) qarşılıqlı əlaqələrinin zəruriliyinin, bu sahədə təşkilati-hüquqi tədbirlərin həyata keçirilməsinin həmin orqanların (qurumların) fəaliyyətinin birləşdirilməsi, informasiya ehtiyatlarının və sistemlərinin altsistemə inteqrasiyası, müvafiq orqanlar (qurumlar) arasında zəruri məqamlarda qarşılıqlı hüquqi yardımın təmin olunmasının daim diqqət mərkəzində saxlanılmasıdır. Bunun bariz nümunəsi kimi "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının 1-ci hissəsinə nəzər salmaq kifayətdir. Belə ki, sözügedən müddəaya əsasən "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər aidiyyəti nazirlik və təşkilatları valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üçün Qanunda nəzərdə tutulmuş güzəşt və imtiyazların həyata keçirilməsi ilə bağlı lazımi təşkilati tədbirlər görməlidirlər. [16] Bundan başqa, 27 fevral 2020-ci il tarixli, 946 nömrəli Fərmanla təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın 2-ci bəndində valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, habelə valideyn-nami-

zədlərin vahid uçotunun aparılmasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, kredit bürolarının iştirakının təsbit olunması həmin uşaqların hüquqi-sosial müdafiəsinin qanuni nöqteyi-nəzərdən təmin olunmasında dövlət qurumlarının, inzibati orqanların tutduğu mühüm yer və roldan xəbər verir, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normativlərinə uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqları və azadlıqlarının, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərinin, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrinin həyata keçirilməsində inteqrasion fəaliyyətin zəruriliyini əks etdirir. [14]

- Normativ tənzimlənmənin hərtərəfliliyi və tamlığı.

Qeyd etmək vacibdir ki, valideyn himayəsindən məhrum olmuş uşaqlar əhalinin xüsusi diqqətə ehtiyacı olan sosial təbəqəsini əhatə etdiyindən onları müstəqil həyata hazırlamaq, onların sosial və həyat qabiliyyətlərini inkişaf etdirmək, peşə seçmək üçün onlara hərtərəfli şərait yaratmaq, müstəqil həyata atıldıqdan sonra da onların sosial-hüquqi müdafiəsinin dövlətin diqqət və qayğısı ilə əhatə olunması üçün sözügedən sahədə normativ nizamasalmanın mükəmməlliyi, hərtərəfliliyi, tamlığı, əhatəliliyi, hüquqi texnikanın mütərəqqiliyi, tənzimləmənin effektivliyi zəruri məqamlardandır. Belə ki, əhalinin bu tip qruplarının hüquqi statusunun tənzimlənməsində ortaya çıxan problemlər, kolliziya və boşluqlara yol verilməsi daha ciddi fəsadlara yol açа bilər. "Normativ hüquqi aktlar haqqında" Qanunun 1.0.9-cu maddəsinə əsasən qanunvericilikdə boşluqlar - konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının olmamasıdır və növbəti müddəa ilə müəyyən edilmişdir ki, qanunun analogiyası - konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının tətbiq edilməsidir. [8] Lakin valideyn himayəsindən məhrum olan uşaqların sosial, psixoloji, fizioloji və digər xüsusiyyətləri normal əhali qrupundan fərqlənir, əslində onların xüsusi hüquqi status nöqteyi-nəzərindən hüquqi müdafiəsini zəruri edən amil də məhz budur. Qeyd olunan məqamda boşluğun aradan qaldırılması üçün digər ictimai münasibəti qaydaya salan normaya müraciət edilməsi hüquqi tənzimlənmənin qeyri-müəyyənliyi və effektsizliyinə gətirib çıxara bilər. Hətta bu ictimai münasibətlər oxşar olduğu halda belə, valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqi vəziyyətinin spesifik xüsusiyyətlərə malik olması bir çox hallarda bu oxşarlığı "əhəmiyyətsiz" edir. Daha pis halda yalnız konkret ictimai münasibətləri deyil, həm də oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə qanunvericiliyin məğzinin, hüququn ümumi prinsiplərinin və ya hüququn konkret sahələrinə aid prinsiplərin tətbiq edilməsi daha mənfi

nəticələrə gətirib çıxara bilər. Bu baxımdan valideyn himayəsindən məhrum uşaqların hüquqi statusunun ayrı-ayrı aspektləri qanunvericiliklə yüksək səviyyədə tənzimlənir və bu sahədə beynəlxalq aktların müddəalarını rəhbər tutan Azərbaycan Respublikasının mövcud qanunvericilik aktları vahid konstruktiv birsistem olaraq, həqiqətən, təqdirəlayiqdir. Təkcə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanuna nəzər salsaq, 5-ci maddədə təhsil, 6-cı maddədə tibbi xidmət üzrə, 7-ci maddədə əmlak və yaşayış sahəsi, 8-ci maddədə əmək fəaliyyəti sahəsində təminatların təfsilatı ilə müəyyənləşdirilməsi, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından 23 yaşınadək olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununun, tədbirlərinin müəyyən edilməsi, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətlərin tənzimlənməsinin Qanunun məqsədi kimi ifadə olunması normativ nizamasalmanın tamlığına qanunverici orqanın diqqətinin göstəricisidir. [15]

- Normativ tənzimlənmə və hüquq normalarının realizasiyası prosesində siyasi, hüquqi, sosial, psixoloji, ictimai, mədəni və digər amillərin qarşılıqlı əlaqə fonunda nəzərdən keçirilməsi.

Məlumdur ki, nizamasalma predmetini birbaşa şəxsiyyət amili ilə bağlı olan obyektlərin təşkil etdiyi hüquq normaları qəbul olunarkən qanunverici daha diqqətli olmalıdır. Məhz valideyn himayəsindən məhrum olan uşaqların hüquqi statusu belə normalarla tənzimlənir. Belə ki, bu normalar təkcə hüquqlar, vəzifələr, səlahiyyətlər, qadağalar, icazələr müəyyən etmir, həmçinin xüsusi qayğıya ehtiyac duyan əhali qrupunun cəmiyyətdə fərd olaraq özünütəsdiq etməsi, sağlam sosial-fizioloji amil kimi formalaşması, möhkəm və yararlı psixologiyada yetişməsi və bütövlükdə dövlətə, cəmiyyətə və özünə faydalı şəxsiyyət modelinin qurulmasına yönəlmişdir. Odur ki, qanunvericilik prosesində və onların realizəsi zamanı valideyn himayəsindən məhrum uşaqların rəftar və davranışı, daxili psixoloji aləmi, fərdi-psixoloji xüsusiyyətlərinin ön planda tutulmasına, qanunvericilik aktının qəbul olunduğu mühitdə hökm sürən sosial, ictimai, siyasi, hüquqi, mədəni, iqtisadi şəraitə diqqət yetirilməlidir. [12] Nümunə fonunda deyilənləri ümumiləşdirək: 27 fevral 2020-ci il tarixli, 946 nömrəli Fərmanla təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın 4-cü bəndində ailənin gəlirlərinin hesablanması qaydası, 5-ci bəndində valideyn-namizədlə müsahibə keçirilməsi və onun maddi-məişət şəraitinin müayinəsi, 6-cı bəndində isə valideyn-namizədin təlimlərə cəlb edilməsinə dair müddəalar öz əksini tapmışdır. [14] Bunlar məhz hüquqi aspektlə yanaşı, iqtisadi, mənəvi, tərbiyəvi, sosial aspektləri özündə birləşdirir. Daha dəqiq desək, bu aspektlərin hər biri hüquqdan ayrılmazdır, onunla qarşılıqlı əlaqədədir. Əgər hüququn məqsədi valideyn himayəsindən məhrum olmuş uşağı qanunun qoruyucu gücünün sferasına daxil etməkdirsə, iqtisadi amillər fonunda onun məqsədi həm

də uşağı zəruri maliyyə ilə təmin etmək, ona layiqli həyat səviyyəsini verməkdir. Mənəvi-tərbiyəvi amillər fonunda normativ tənzimlənmənin funksiyası isə övladlığagötürmə ilə bağlı valideyn-namizəddə özünəinam və özünüdərk səviyyəsi, övladlığa götürülən uşağın ehtiyacları barədə əsas biliklərə malikolma səviyyəsi, övladlığagötürmə ilə bağlı valideyn-namizədin motivasiyası, valideynlik bacarıqlarının inkişaf səviyyəsi, övladlığa götürülən uşağın tərbiyəsi zamanı yarana biləcək problemlərin həlli ilə bağlı qərar qəbul etmək bacarığının müəyyən edilərək uşağın mənəvi sağlam mühitdə yetişməsinin təmin edilməsidir. Bu kontekstdə qarşıya qoyulan məqsədlərə nail olunması üçün hüquqla yanaşı, ictimai-sosial həyatın digər amilləri qarşılıqlı əlaqə və təhlil fonunda nəzərdən keçirilməlidir.

- Hüquqi məsuliyyətin məqsədlərinin və funksiyalarının spesifikliyi.

Valideynlərinin himayəsindən məhrum uşaqların hüquqi statusunun tənzimlənməsinin mühüm xüsusiyyətlərindən biri də, bu sahədə yol verilə biləcək hüquqazidd əməllərə görə xüsusi funksiyalara malik sanksiyaların müəyyən edilməsidir. Belə ki, cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. Digər sahələrdə cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Valideyn himayəsindən məhrum olan uşaqların müdafiəsi məqsədilə qəbul olunan qanunvericilik aktlarını pozan şəxslərə verilən cəza da eyni məqsədi daşımaqla yanaşı, özünəməxsus xüsusiyyətə də malikdir: bu sanksiyalar "cəzalandırma" funksiyasından daha çox "qoruma" funksiyasını yerinə yetirir. Yəni dövlət üçün hər bir halda ön planda uşaq, onun psixologiyası dayanır və cəzanın məqsədi uşağın sağlam mənəvi mühitdə, sağlam psixologiyada yetişdirilməsini təmin etməkdir ki, cəza burada digər hüquq institutlarına nisbətən "güclü mexanizm" rolunu oynayır. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 175-ci maddəsinə əsasən övladlığa götürənin iradəsi ziddinə olaraq övladlığa götürmə faktını xidməti və ya peşə sirri kimi qorumağa borclu olan şəxs və ya digər şəxs tərəfindən tamah, qisas və ya sair alçaq niyyətlə yayma min beş yüz manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. [1] Göründüyü kimi, qanun bu məsələni qadağan etsə də, bəzən insanlar övladlığa götürənin iradəsinə zidd olaraq sirri yaymaqdan çəkinmirlər, bu isə övladlığa uşaq götürən ailədə ciddi problemlərə səbəb olur, ən əsası isə bütün bunlar uşağın psixologiyasına mənfi təsir göstərir. Digər bir misal olaraq, həmin Məcəllənin 174-cü maddəsinə müraciət edə bilərik: uşaqların övladlığa götürülməsi, qəyyumluğa (himayəyə) və ya himayədar ailəyə tərbiyə olunmaq üçün verilməsi ilə bağlı qanunsuz hərəkətlər tamah məqsədi ilə törədildikdə min beş yüz manatdan

iki min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Məlumdur ki, hüquq normalarına əməl etmək vəzifəsini dərk etməyən, hüquqi tərbiyəyə malik olmayan və qanunlara hörmət ruhunda böyüməyən şəxslərin qanunun tələblərini pozaraq "əldə etdikləri" övladları yetişdirərkən onlarda yüksək səviyyətli mənəvi keyfiyyətlər formalaşdıra bilməzlər, belə mühit ilk növbədə həmin uşaq üçün təhlükə mənbəyidir. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 10-cu maddəsi Qanunun tələblərinin pozulmasına görə məsuliyyət müəyyən etməklə, bu Qanunun tələblərinin pozulmasına görə vəzifəli şəxslər və vətəndaşların Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıdıqlarını qeyd edərək bu sahədə qanunçuluğu və hüquq qaydasını daha da möhkəmləndirir.

- Hüquqi və əxlaqi normaların qarşılıqlılığı prinsipinin gözlənilməsi.

Qeyd etmək vacibdir ki, hüquqi tənzimlənmə o zaman effektiv təsir göstərər ki, cəmiyyətdə hakim olan və insanların fəaliyyətinə ən az hüquq qədər istiqamət verən əxlaqi normalar çərçivəsində realizə edilsin. Hüquq və əxlaqın qarşılıqlı tamamlanması onların birgə potensialının gerçək hüquqi və demokratik cəmiyyət üçün vacib olan dəyərlərin təmin edilməsi, müdafiə olunması məqsədilə yığılması və toplanması, bunun nəticəsində sosial məqsədlərə çatılması prosesidir. Bu proses fonunda hüquq və əxlaqın konfliktindən söhbət gedə bilməz. Təsadüfi deyil ki, məhz valideyn himayəsindən məhrum olan uşaqların hüquqlarını tənzimləyən qanunvericilik normaları da məhz bu kontekstdə qurulmuşdur. "Uşaq hüquqları haqqında" Qanunun "Əlverişsiz şəraitə düşmüş uşaqlarin müdafiəsi" adlı IV fəslin 31-ci maddəsində qeyd edilir ki, müdafiə üsulu müəyyən edilərkən uşağın etnik mənşəyi, dini və mədəni mənsubiyyəti, dili, tərbiyəsinin varisliyi nəzərə alınmalıdır. [13] Qeyd edilən institutlar geniş mənada insan fərdinin əxlaqi xüsusiyyətlərinin təzahürünü təşkil edir. Bu və bu kimi mütərəqqi normalar vasitəsilə valideyn himayəsindən məhrum uşaqların hüquqlarının normativ-əxlaqi təminat mexanizmləri spesifik əxlaqi mexanizmləri möhkəmləndirir, uşaqların şərəf və ləyaqətinin müdafiəsi, onlara hörmətsizliyin yolverilməzliyi isə müxtəlif normativ hüquqi aktlarda təsbit olunmaqla bu möhkəmlənmə daha da artırılır. Valideyn himayəsindən məhrum uşaqların hüquqi statusunun əsaslı prinsip və normalarla elan edilməsı və təmin olunmasının hüquqi üsulları əxlaq normalarını tamamlayır. Ən mühüm dəyərlər həm əxlaq, həm də hüquqi sistem mənasını ifadə edən digər normalarda bir növ "ikiqat möhkəmlənmə" qazanır.

Valideyn himayəsindən məhrum olan uşaqların hüquqi vəziyyətinin normativ əsaslarına nəzər saldıqda maraqlı bir nüans nəzərə çarpır. Normativ tənzimlənmə 2 tamamilə zidd prinsipin inteqrasiyasından formalaşdırılır, lakin bu ziddlik qanunvericilik səviyyəsində o qədər mükəmməl uyğunlaşdırılmışdır ki, əks aspektlər qismində deyil, qanunvericinin tək məqsədə xidmət edən iki hü-

quqi yanaşma tərzinin uyumu və ahəngdarlığı fonunda inteqrasion vahidlik təşkil edir:

Belə ki, qanunverici orqan sözügedən sahədə bir tərəfdən kifayət qədər sərt, həmçinin tələbkar mövqe nümayiş etdirir ki, bu da həssas təbəqənin qanun pozuntularından və bunun nəticəsində məruz qala biləcəkləri fiziki, mənəvi, maddi zərərlərdən mühafizəsinə yönəlmişdir. Sadəcə övladlığa götürmənin kifayət qədər mürəkkəb hüquqi mexanizmi, bu mexanizmin götürmə proseduru başa çatdıqdan sonrakı mərhələni də əhatə etməsi (Ailə Məcəlləsi: maddə 143-1. Uşaq himayədar ailəyə verildikdən sonra monitorinq), uşağın sonrakı taleyinə mütəmadi nəzarət, gələcəkdə yaranacaq münasibətlərin "öngörücülük"lə qanun tərəfindən diqqətə alınaraq nizama salınmaqla xoşagəlməz halların qarşısının alınması (Ailə Məcəlləsi: maddə 145.9. Himayədar ailələr üçün himayəyə verilmiş uşaqların sayı 3-dən artıq olmamalıdır) kimi nümunələrə nəzər salmaq kifayətdir ki, bu nöqteyi-nəzərdən qanunvericiliyin sərt mövqeyi aydın olsun.

Digər bir kontekstdən isə valideyn himayəsindən məhrum olan uşaqların bu nəzərəçarpan xüsusiyyəti "görməməzlikdən gəlməklə" digər uşaqlarla eyniləşdirilməsi, onların himayədarları, qəyyumları, övladlığa götürənlərinin də bioloji valideynlərlə hüquqi nöqteyi-nəzərdən bərabərləşdirilməsi, qeyd olunan subyektlər üçün əlavə güzəşt və imtiyazların nəzərdə tutularaq müsbət diskriminasiyaya nail olunması qanunvericinin nisbətən yumşaq və humanist mövqeyini ehtiva edir. Məsələn, "Əmək pensiyaları haqqında" Qanunun 16.1-ci maddəsinə əsasən övladlığa götürənlərin doğma valideynlərlə, övladlığa götürülənlərin isə doğma uşaqlarla bir səviyyədə əmək pensiyası hüququ vardır. [11, s.118] Eyni zamanda Qanunnu 16.2-ci maddəsi ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan bu Qanunun 14.1.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərin övladlığa götürüldükdə də bu hüququ saxlamalarını müəyyən etmişdir. [9, s.113]

Onu da qeyd etmək lazımdır ki, valideyn himayəsindən məhrum olan uşaqların sosial və hüquqi statusunun effektiv və düzgün tənzimlənməsi təkcə qanunverici və icra hakimiyyəti orqanlarının deyil, həmçinin məhkəmələrin də diqqət mərkəzindədir. Bu nöqteyi-nəzərdən ölkəmizdə mühüm təsisat olan Konstitusiya Məhkəməsinin rolunun qiymətləndirilməsi vacibdir. Bu qəbildən Cavidan Qafarovun şikayəti üzrə "Valideynlərini itirmiş və valideynhimayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 25 yanvar 2017-ci il tarixli Qərar mütərəqqi akt hesab oluna bilər. Belə ki, qərarda "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 12-ci abzasındakı anlayışa 18 yaşına çatdıqdan sonra valideyn dəstəyindən məhrum olmuş və dövlət ali təhsil müəssisələrində əyani formada təhsil alan şəxslərin aid edilməməsi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi ilə uyğunsuzluq təşkil etdiyindən, həmin normanın bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqeyə uyğunlaşdırılması Azərbaycan

Respublikası Milli Məclisinə tövsiyə edilmiş, bununla da xüsusi qrup təşkil edən uşaqların hüquqi müdafiəsinə dair qanunvericiliyin təkmilləşdirilməsi zərurətinə diqqət yetirilmişdir. [3]

Yekun olaraq, valideyn himayəsindən məhrum olmağın uşaqlarda psixososial inkişaf üçün ciddi bir risk faktoru olduğu, bu tip uşaqlara psixoloji dəstəyin mütəmadi olaraq təmin edilməsi, onların hüquqi statusunun düzgün tənzimlənməsi, effektiv hüquqi müdafiə və normativ mühafizə mexanizmlərinin qurulması və qanunvericilik, icra və məhkəmə hakimiyyət qollarının hər üçünün nümayəndələrinin bu sahədə görəcəyi tədbirlərin önəmli olduğu vurğulana bilər. [10 s.168]

İstinadlar:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 30.12.1999-cu il. https://www.e-qanun.az/framework/46947

2. Azərbaycanın statistik göstəriciləri - 2014. Bakı: Səda, 2014

3. Cavidan Qafarovun şikayəti üzrə "Valideynlərini itirmiş və valideynhimayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Plenumunun Qərarı. Bakı şəhəri, 25 yanvar 2017-ci il. https://constcourt.gov.az/az/decision/357

4. Dəmirçiyeva M. Azərbaycan Respublikasının Ailə hüququ. Bakı: Zərdabi, 2020, 551 s.

5. Əliyev B. Şəxsiyyətə yeni baxış nəzəriyyəsi. Bakı: 2008, 240 s.

6. Əliyev Ə. İnsan hüquqları. Bakı: Hüquq ədəbiyyatı, 2014, 507 s.

7. Nəcəfova N. Valideyn himayəsindən məhrum olmuş uşaqlar problemi sosial iş kontekstində. Bakı Dövlət Universitetinin xəbərləri: 2015, № 1, 125 s.

8. Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. Bakı şəhəri, 21 dekabr 2010-cu il, № 21-IVKQ. https://www.e-qanun.az/framework/21300

9. Orucov E. Ailə qanunvericiliyi və onun tətbiqi. Bakı: Çinar-Çap, 2004, 220 s.

10. Osmanlı N., Məmmədov M., Babayev A. Uşaqların psixi sağlamlıqlarının dəyərləndirilməsi: valideyn himayəsindən məhrum olmuş uşaqlar. Azərbaycan məktəbi: 2019, № 2, 69 s.

11. Prezident imzası – prezident qayğısı. Bakı:1998

12. Tahirqızı Ü. Atılmış uşaqların reabilitasiyası problemi. Xalq Cəbhəsi: 2013, № 11

13. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı şəhəri, 19 may 1998-ci il, № 499-IQ. https://e-qanun.az/framework/3292

14. "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 27 fevral 2020-ci il, № 946. https://e-qanun.az/framework/44673

15. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunuu. Bakı şəhəri, 22 iyun 1999-cu il, № 693-IQ. https://e-qanun.az/framework/3859

16. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 7 noyabr 2001-ci il, № 179. https://e-qanun.az/framework/2513

CHARACTERISTICS OF REGULATING LEGAL STATUS OF CHILDREN DEPRIVED OF PARENTAL CARE

Roya Mirtalibova [*]

Abstract

Ensuring a decent standard of living for every citizen is the most important constitutional goal facing the state of Azerbaijan. An important place in the achievement of this goal is occupied by the layers of the population that need social care and specific legal regulation, and children make up a necessary part of such layers due to physical, psychological, biological and other factors. The state regulates the legal status of children, especially the most vulnerable groups among them, with effective legal norms, prepares an individual development plan for each child, and establishes norms for the growth of children deprived of parental care in a family environment. If the child cannot be reunited with his or her family or family environment, possible forms of care are investigated and determined by the relevant government agencies. Thus, regulating the legal status of children in need of special care, including children deprived of parental care, with effective and functional legal norms, state legislation, ensuring the implementation of these norms, and ensuring that officials in the form of relevant bodies and institutions properly perform their powers in the relevant field , the preparation of various programs and projects aimed at achieving improved results in the mentioned field, and the implementation of the executive, protection and defense functions of the state against violations of law is the task of the judicial branch, and it is aimed at building an educational family and society model for children that meets the requirements of international norms in this field. In the article, the functional importance and role of all 3 branches of state power in the normative regulation of the legal status of children deprived of parental care have been touched upon, and various aspects of such regulation have been covered.

Keywords: *social protection, deprived of parental care, lost a parent, guardianship, social allowance, children's rights.*

ОСОБЕННОСТИ РЕГУЛИРОВАНИЯ ПРАВОВОГО ПОЛОЖЕНИЯ ДЕТЕЙ, ОСТАВШИХСЯ БЕЗ ПОПЕЧЕНИЯ РОДИТЕЛЕЙ

Ройя Мирталыбова [**]

Резюме

Обеспечение достойного уровня жизни каждого гражданина является важнейшей конституционной задачей, стоящей перед Азербайджанским государством. В достижении этой цели большую роль играют слои населения, нуждающиеся в социальной заботе и особом правовом регулировании, необходимой частью которых являются дети в силу физических, психологических, биологических и других факторов. Государство регулирует правовое положение детей, особенно наиболее уязвимых групп среди них, действующими правовыми нормами, составляет индивидуальный план развития каждого ребенка, устанавливает нормы роста детей, лишенных родительской опеки, в семейной среде. Если

[*] Lawyer at Ministry of Economy of the Republic of Azerbaijan State Property Affairs Service State Cadastre and Registry of Real Estate public legal entity Baku Territorial Administration No.1

[**] Юрист в Бакинском территориальном управлении №1 ПЮЛ «Государственный кадастровый реестр недвижимости» Министерства экономики Азербайджанской Республики

ребенок не может быть воссоединен со своей семьей или семейным окружением, возможные формы ухода изучаются и определяются соответствующими государственными органами. Таким образом, регулирование правового положения детей, нуждающихся в особом уходе, в том числе детей, оставшихся без попечения родителей, эффективными и функциональными правовыми нормами, государственным законодательством, обеспечением реализации этих норм, обеспечением должностных лиц в лице соответствующих органов и учреждений надлежащим образом исполнять свои полномочия в соответствующей сфере, подготовка различных программ и проектов, направленных на достижение улучшенных результатов в указанной сфере, а также осуществление исполнительной, охранной и защитной функций государства от правонарушений является задачей судебной филиала, и направлена на построение образовательной модели семьи и общества для детей, отвечающей требованиям международных норм в этой области. В статье затронуты функциональное значение и роль всех 3-х ветвей государственной власти в нормативном регулировании правового положения детей, лишенных родительской опеки, освещены различные аспекты такого регулирования.

Ключевые слова: *социальная защита, лишенный родительской опеки, потерявший родителя, опека, социальное пособие, права детей.*

Canpolad Daanov. Talama ilə bağlı cinayətlərin araşdırılması zamanı yaranan münaqişəli istintaq şəraitində yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsinin taktiki aspektləri// Azərbaycan Hüquq Jurnalı. 2022 (№3), s.42-53

CİNAYƏT HÜQUQU VƏ KRİMİNALİSTİKA

TALAMA İLƏ BAĞLI CİNAYƏTLƏRİN ARAŞDIRILMASI ZAMANI YARANAN MÜNAQİŞƏLİ İSTİNTAQ ŞƏRAİTİNDƏ YETKİNLİK YAŞINA ÇATMAYAN TƏQSİRLƏNDİRİLƏN ŞƏXSİN DİNDİRİLMƏSİNİN TAKTİKİ ASPEKTLƏRİ

Canpolad Daanov*

Xülasə

Dindirmə öz xarakrerinə görə çoxplanlı, mürəkkəb hərəkət olub, kriminalistik, təşkilati, psixoloji və etik aspektlərə malikdir. Dindirilən şəxs düzgün ifadə vermək arzusunda olmayanda və yaxud müstəntiqin verdiyi suallara cavab verməkdən imtina etdiyi hallarda münaqişəli şərait yaranaraq dindirmə daha da mürəkkəb xarakter alır. Məqalə əsasən tamah xarakterli cinayətlərin araşdırılması zamanı yaranmış münaqişəli şəraitdə yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsinin təşkilati, taktiki və bəzi psixoloji məsələlərinə həsr olunmuşdur. Eyni zamanda münaqişəli şəraitdə təqsirləndirilən şəxsin dindirilməsi zamanı söhbət, qəfil faktor, ifadələrin detallaşdırılması, təqsirləndirilən şəxsdə müstəntiqin hər şeydən xəbərdar olması təsəvvürü yaratmaq, yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin müsbət mənəvi keyfiyyətlərindən istifadə, dolayi dindirmə, təkrar dindirmə və c. taktiki üsullardan istifadə edilməsi nəzərdən keçirilmişdir. Araşdırılan məsələ ilə bağlı nəticədə belə bir qənaətə gəlinir ki, tamah xarakterli cinayətlər araşdırılmasinda yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsi zamanı taktiki-psixoloji üsullardan istifadə daha düzgün və tam ifadələrin alinmasına imkan yaradlr.

Açar sözlər: *yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs, dolayı dindirmə, taktiki üsul, taktiki kombinasiya, məntiqi təsir, emosional təsir, inandırma metodu.*

Talama ilə bağlı cinayətlərin araşdırılması zamanı spesifik xüsusiyyətlərə malik subyekti ilə fərqlənən və daha cox istifadə olunan istintaq hərəkətlərindən biri yetkinlik yaşına çatmayan şahid, şübhəli, təqsirləndirilən şəxsin dindirilməsidir. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən talamalarla bağlı cinayət işləri üzrə təqsirləndirilən şəxsin dindirilməsi müəyyən mənada araşdırmanın tam, obyektiv və hərtərəfli aparılmasının effektivliyini təmin edir. Digər tərəfdən yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin əksər hallarda iş üzrə obyektiv həqiqətin müəyyən edilməsində marağı olmaması, yalan ifadə vermək və ya ifadə verməkdən imtina etməyə görə cinayət məsuliyyəti daşımaması təqsirləndirilən şəxsin dindirmə taktikasını şərtləndirən əsas amillərdir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 233.10-cu maddəsinə görə dindirmənin əvvəlində müstəntiq təqsirləndirilən şəxsin ona elan edilmiş ittiham üzrə özünü təqsirli bilib-bilmədiyini aydınlaşdırmalıdır. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin cavabı müstəntiqə dindirmənin şəraitinin münaqişəli və ya münaqişəsiz olacağını müəyyən etməyə imkan verir. Əgər təqsirləndirilən şəxs elan edilmiş ittihamla özünü təqsirli hesab etməyərək yalan ifa-

* Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının rəisi, polis general-mayoru

də verirsə və ya ifadə verməkdən imtina edirsə, bu dindirmənin münaqişəli xarakter daşıdığı barədə xəbər verir. Bəzən təcrübədə yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsi həm münaqişəli, həm də ki, münaqişəsiz şəraitdə aparılır. Belə ki, təqsirləndirilən şəxs talama ilə bağlı cinayətin bir epizodu barədə düzgün ifadə verir, digər epizodları barədə yalan məlumat verir və yaxud ifadə verməkdən imtina edir. Belə olan hallarda müstəntiq həm münaqişəli, həm də münaqişəsiz şəraitdə aparılan dindirmələr üçün nəzərdə tutulmuş taktiki üsullardan istifadə etməli olur.

Bildiyimiz kimi, yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs prosesin digər iştirakçılarından cinayət hadisəsi barədə daha çox məlumata malik olur. Bir qayda olaraq təqsirləndirilən şəxs cinayət işi üzrə obyektiv həqiqətin müəyyən edilməsində maraqlı olmur. Məhz buna görə o, dindirmə zamanı cinayət hadisəsi barədə təhrif olunmuş ifadələr verir və ya ifadə verməkdən imtina edir. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin belə davranışı da dindirmədə münaqişəli şəraitin yaradılmasına səbəb olur. Münaqişəli şəraitdə dindirmə zamanı müstəntiqin əsas vəzifəsi yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsi onun tutduğu mövqeyinin yanlış olduğuna inandırmaq, yalan ifadə vermə hallarını ifşa etmək və obyektiv həqiqəti əks etdirən məlumatları əldə etməkdir.

Münaqişəli şəraitli dindirmə zamanı müstəntiq mümkün qədər yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsdən obyektiv həqiqəti əks etdirən etiraf ifadələri əldə etməyə çalışmalıdır. Düzdür, təqsirləndirilən şəxsin ifadələri digər sübut növlərindən heç bir hüquqi üstünlüyə malik deyil. AR CPM-in 126.6-cı maddəsinə görə isə təqsirləndirilən şəxsin cinayət törətməkdə öz təqsirini etiraf etməsi yalnız iş üzrə bütün sübutların məcmusu ilə təsdiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilə bilər. Lakin etiraf etmək lazımdır ki, təqsirləndirilən şəxsin ifadələri cinayət işi üzrə obyektiv həqiqətin müəyyən edilməsində mühüm rol oynayır. Təqsirləndirilən şəxs cinayətin törədilməsində təqsirini etiraf edib, düzgün ifadələr verməklə istintaqa məlum olmayan yeni faktlar, hallar barədə müstəntiqə xəbər etmiş olacaqdır. Nəhayət, yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin cinayət törətməkdə təqsirini etiraf etməsi, onun islah olunması, yenidən tərbiyələndirilməsi istiqamətində atılmış ilk addım olacaqdır.

Münaqişəli şəraitli dindirmə zamanı müstəntiq mütləq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə yalan ifadə vermənin, ifadə verməkdən imtinanın motivlərini aydınlaşdırmalıdır. Belə motivlərə cinayət məsuliyyətindən yayınmaq, yoldaşlıq borcunun düzgün dərk edilməməsi nəticəsində yetkinlik yaşına çatmayan yaşıdlarından olan cinayətin digər iştirakçılarını məsuliyyətdən yayındırmaq və ya məsuliyyətini yüngülləşdirmək, qisas almaq hissi, cinayətin azadlıqda olan digər iştirakçıları tərəfindən ondan qisas alınacağından qorxmaq, törətdiyi əmələ görə vicdan əzabı, qorxaqlıq, müstəntiqə olan antipatiya hissi və s. amilləri göstərmək olar. Müstəntiq ilk növbədə bu motivləri aşkar etməli və mümkün qədər onları aradan qaldırmağa çalışmalıdır.

R.S.Belkin ümumiyyətlə münaqişəli şəraitdə aparılan dindirmə zamanı istifadə olunan taktiki üsulları 3 qrupa bölür: 1) emosional təsir; 2) məntiqi təsir; 3)

taktiki kombinasiyalar. [1, s.616] Lakin bu bölgü şərti xarakter daşıyır. Belə ki, bir taktiki üsul bir şəraitdə təqsirləndirilən şəxsə emosional təsir etdiyi halda, digər şəraitdə isə məntiqi təsir etmiş olur. Məsələn: talama ilə bağlı cinayətlərdə sübutların təqdim edilməsi həm taktiki üsul, həm məntiqi təsir, həm də taktiki kombinasiyanın tərkib elementi kimi çıxış edir. Məhz bu səbəbdən də zənnimcə, R.Belkinin taktiki üsullarla bağlı təsnifatı məqbul sayıla bilməz.

Münaqişəli şəraitli dindirmə zamanı taktiki kombinasiyalar xüsusilə mühüm rol oynayır. Taktiki kombinasiyalar dedikdə, dindirilən şəxs tərəfindən mövcud istintaq şəraitinin düzgün qiymətləndirilməməsi nəticəsində öz iradəsi əleyhinə doğru ifadə verməsinə yönəlmiş üsullar başa düşülür [2, s.248]. Taktiki kombinasiyanın tərkibinə bir istintaq hərəkəti, bir neçə taktiki üsul və ya əməliyyat-axtarış tədbirləri daxildir [3, s.395]. Taktiki kombinasiyanı bəzən «psixoloji tələ», «istintaq hiyləsi» adlandırırlar. Taktiki kombinasiya yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin aldadılması kimi qiymətləndirilməməlidir. Dindirilən şəxsi aldatma - ona yalan məlumat vermə və ya həqiqətin təhrif edilmiş şəkildə təqdim edilməsi deməkdir. Taktiki kombinasiya isə dindirilən şəxs tərəfindən həm düzgün, həm də ki, yanlış başa düşülə bilən həqiqi faktlar əsasında yaradılmış şəraitdir.

Ümumiyyətlə, dindirmə zamanı taktiki kombinasiyaların refleksiv, yoxlama və təminedici növlərindən istifadə olunur. Dindirmə zamanı əsasən refleksiv taktiki kombinasiyalar tətbiq olunur. Refleksiv kombinasiyaların əsas məqsədi düzgün ifadələr əldə etmək, dindirilən şəxsdə müstəntiqin işin bu və ya digər halları barədə xəbərdar olub-olmaması təsəvvürünü yaratmaqdır. Təminedici kombinasiyalar isə dindirmə faktını gizli saxlamağa, təqsirləndirilən şəxsə unudulmuş halları yada salmağa xidmət edir. Yoxlayıcı kombinasiyalar vasitəsilə isə təqsirləndirilən şəxsin ifadələri yoxlanılır və qiymətləndirilir. Taktiki kombinasiyaların məzmununu ayrı-ayrı taktiki üsullar təşkil edir. Taktiki üsul isə müstəntiqin konkret halda rasional və səmərəli davranış üsuludur [4, s.101]. Taktiki üsullar cinayət-prosessual qanunvericiliyə, habelə mənəvi prinsiplərə uyğun olmalıdır. Bu baxımdan yetkinlik yaşına çatmayan dindirilən şəxsin şərəf və ləyaqətinin alçaldılması ilə bağlı olan taktiki üsullardan istifadə etmək, habelə fiziki, yaxud mənəvi zor tətbiq olunması yolverilməzdir. Münaqişəli şəraitdə yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsi zamanı aşağıdakı taktiki üsullardan ibarət olan kombinasiyalar istifadə olunur.

Söhbət - münaqişəli şəraitli dindirməyə müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslə kənar bir mövzu haqqında söhbət etməklə başlamalıdır. Söhbət müstəntiqə təqsirləndirilən şəxslə psixoloji əlaqənin yaradılmasına və onun haqqında əlavə məlumatların əldə edilməsinə imkan verir. Bu mövqedən çıxış edən A.B.Solovyov qeyd edir: "Psixoloji kontakt müstəntiqə dindirilən şəxsin fikir, düşüncələrini anlamaq və ondan düzgün ifadələri almağa yardım edən vasitədir. Bununla bərabər müstəntiq iş üzrə ona məlum olan faktları dindirilən şəxsə bildirmir" [5, s.10].

Söhbətin gedişində müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dünyagörüşü, əqli inkişafı, əhvalı, dindirməyə hazırlıq səviyyəsi, təqsirlən-

dirilənin ailədə həyat və tərbiyə şəraiti, təhsil və iş şəraiti, maraq dairəsi və vaxtı necə keçirməsi; yeniyetmənin xarakterinin xüsusiyyətləri, onun cinayətin törədilməsindən əvvəlki davranışı və s. ilə tanış olur. Söhbət zamanı müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə müəyyən psixoloji təsir etmiş olur. O, şəxsdə özü haqqında müsbət rəy formalaşdırır. Müstəntiq bununla yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə onu nümayiş etdirmiş olur ki, dindirmənin əsas məqsədi onun məsuliyyətini ağırlaşdıran, ittihamedici məlumatlar əldə etmək deyil, obyektiv həqiqəti müəyyən etməkdir.

Məlumdur ki, talama ilə bağlı cinayətlər üzrə dindirməyə çağırılan yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin adətən gərgin psixi vəziyyətdə olmalarını nəzərə alaraq, müstəntiq həmin vəziyyəti aradan qaldırmaq məqsədilə onun marağına uyğun söhbətlər aparmalı, eyni zamanda onun müsbət keyfiyyətlərini tez-tez vurğulamalıdır [6, s.212]. Bildiyimiz kimi, dindirmə prosessual ünsiyyət formasıdır. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsi zamanı müstəntiq özünü təqsirləndirilən şəxsə dövlət hakimiyyət nümayəndəsi kimi deyil, etibarlı, özgənin dərdini, acısını başa düşən şəxs kimi göstərməlidir.

Sübutların təqdim edilməsi - yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsin dindirilməsi üçün planın tərtib olunması, müəyyən olunacaq məlumatların dairəsinin, həmçinin təqdim olunacaq sübutların və taktiki üsulların müəyyən edilməsi vacib şərtlərdən biridir. [7, s.212] Yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsin yalan ifadəsinin ifşa olunmasında işdə mövcud olan mötəbər sübutların təqdim edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu taktiki üsul təqsirləndirilən şəxsin yalan ifadə vermə hallarını ifşa etmək və onu düzgün məlumat verməyə yönəltməkdir. Sübutları təqsirləndirilən şəxsə elan etməzdən əvvəl, onların həqiqiliyi yoxlanılmalı və təqsirləndirilən şəxsin bu sübutlara necə münasibət göstərəcəyi, öz ifadəsilə həmin sübutlar arasındakı ziddiyyəti nə ilə izah edə biləcəyi nəzərə alınmalıdır. Əks təqdirdə, bu sübutlarla təqsirləndirilən şəxsin ifadəsinin yalan olduğunu üzə çıxarmaq mümkün deyildir. Təqdim olunan sübutlar təqsirləndirilən şəxsdə müstəntiqin işin hallarından tam xəbərdar olması barədə fikir yaratmalıdır. Burada iki metoddan istifadə olunur. Birinci də elə sübutlar elan edilməlidir ki, onlar təqsirləndirilən şəxs üçün tam gözlənilməz olsun. Sübutların nümayiş edilməsində müstəntiqin məqsədi yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsdə yalan danışmağın mənasının olmaması və həqiqəti söyləmək fikrini formalaşdırmaqdır. İkinci metod isə dəlillərin az olmasına baxmayaraq, bəzən onlar sırasında elə təkzib olunmaz sübut olur ki, şəxs psixoloji cəhətdən onu inkar etməyə hazır olmur. [8, s.82]

V.K.Smilqaytis müstəntiqlər arasında aparılmış sorğunun nəticələrinə əsaslanaraq göstərir ki, təqsirləndirilən şəxsin dindirilməsində ekspert rəyləri, maddi sübutlar, video və audio çəkilişlər təqdim etməklə, digər sübut növlərindən fərqli olaraq daha səmərəli nəticələr əldə etmək olar. [9, s.13]

Dindirmə zamanı sübutlar müxtəlif üsullarla təqdim edilə bilər. Kriminalistik ədəbiyyatlarda əsasən sübutların təqdim edilməsinin 3 üsulunu qeyd edirlər:

- ifşaedici təsirin artan istiqamət üzrə sübutların təqdim edilməsi;

- dindirmənin ilk mərhələsində ən kəsərli sübutun təqdim edilməsi;
- bir dəfəyə bütün sübutların təqdim edilməsi.

K.Q.Sarıcalinskaya isə sübutların təqsirləndirilən şəxsə iki qaydada elan olunduğunu göstərir: 1) sübut tamamilə; 2) sübut epizodlarla. [10, s.135]

Hər bir halda sübutların elan etmə üsulu konkret şəraitdən və təqsirləndirilən şəxsin xüsusiyyətlərindən asılı olaraq müəyyən edilməlidir. Xüsusilə, talama ilə bağlı cinayətlərin araşdırılmasında yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsin əməllərini ifşa etmək üçün sübutların epizodlarla elan olunması daha məqsədəuyğundur. Ona görə ki, sübut tam məlum olduqda o, ifadəsinin sonrakı istiqamətini özü üçün əlverişli şəkildə tənzimləyə bilər. Bu da çox zaman yalan ifadənin ifşa edilməsini çətinləşdirir.

Müstəntiq sübutları təqdim edərkən müəyyən şərtlərə əməl etməlidir: 1) yalnız hərtərəfli yoxlanılmış və təkzibedilməz sübutlar təqdim edilməlidir; 2) sübutlar müvafiq vaxtda və şəraitdə təqdim edilməlidir. Bu zaman müstəntiq tələsməməli və sübutların təqdim edilməsi üçün optimal vaxt müəyyənləşdirməlidir; 3) müstəntiq təqsirləndirilən şəxsin təqdim ediləcək sübutlara münasibətini müəyyən etməyə çalışmalıdır. Məsələn: təqsirləndirilən şəxsə şahid ifadələri elan olunmazdan əvvəl onun şahidə münasibətini aydınlaşdırmaq zəruridir. 4) sübutlar təqdim edildikdən sonra müstəntiq təqsirləndirilən şəxsə onların əhəmiyyətini, mahiyyətini izah etməlidir. [11, s.45]

Yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsin müsbət mənəvi keyfiyyətlərindən istifadə olunması. Bir çox hallarda yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxslər heç də təqdirəlayiq davranış nümayiş etdirmirlər və yalan ifadə verməklə həyat prinsiplərinə, yüksək mənəvi keyfiyyətlərə qarşı çıxmış olurlar, özləri haqqında mənfi rəy formalaşdırırlar. Adətən belə şəxslər ilk dəfə cinayət törətmiş şəxslər olur. Bu zaman müstəntiq belə şəxslərə irad tutmaq, tənqid etmək deyil, onlara müsbət mənəvi keyfiyyətlərini, bəzən onun əldə etdiyi nailiyyətləri xatırlamağı təklif etməlidir. Müstəntiq təqsirləndirilən şəxsə onun yüksək mənəvi keyfiyyətləri, nailiyyətləri ilə yalan ifadə vermə faktını müqayisə etməklə, onu yanlış mövqe tutduğuna inandırmalıdır. Belə hallarda müstəntiqin daha çox inandırma, emosional təsir və nümunə metodlarından istifadə etməsi məqsədəuyğun hesab etmək olar.

İnandırma metodu. Bu metoddan istifadə edərək müstəntiq iş üzrə konkret materiallara, istintaq təcrübəsinə əsaslanmaqla yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsi düzgün mövqe tutmadığını inandırmağa çalışır.

L.V.Bertovski qeyd edir ki, müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsi dilə tutmaqdansa daha çox inandırmalıdır. [12, s.45] Bu metod şəxsin müsbət mənəvi keyfiyyətlərinə təsir etməni nəzərdə tutur. İnandırma metodu yalnız şəxsin müstəntiqlə ünsiyyətdə olmaq və onu dinləmək istəyi olduğu halda mümkündür. Məhz buna görə də, yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxslə psixoloji kontaktın yaradılması inandırma metodunun həyata keçirilməsinin zəruri şərtidir.

Müstəntiq inandırma metodundan istifadə edərkən, dindirilən şəxsin inkişaf səviyyəsini, təhsilini, intellektual səviyyəsini və psixi xüsusiyyətlərini mütləq nəzərə almalıdır. [13, s.297]

Emosional təsir metodu. Yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsin dindirilməsi zamanı müstəntiq tərəfindən onun emosional vəziyyətinə diqqətlə yanaşmanı tələb edir, yəni onun tutduğu mövqeyi, nədən narahat olmasını, ittihamın əsaslı olub-olmamasını düşünməsini dərk etmək lazımdır. [14, s.54] Dindirilən şəxsin emosional vəziyyəti müstəqil sübut əhəmiyyəti kəsb etməsə də, onu düzgün ifadə verməyə yönəltmiş olur. Yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsə emosional təsir etmə zamanı qanunçuluq prinsipinə zidd olan aldatmaqla, yalan vədlər verməklə, psixi və fiziki məcbur etmə üsullarından istifadə oluna bilməz.

Nümunə metodu. Bu zaman müstəntiq öz şəxsi nümunəsi əsasında və yaxud digər şəxslərin müsbət hərəkətləri barədə məlumat verməklə yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsə psixoloji təsir edə bilər. Müstəntiqin düzgün davranışı dindirilən şəxsə daha çox tərbiyəvi təsir göstərə bilər. Bu psixoloji təşsir dindirmədən əvvəl, müstəntiqlə dindirilən şəxsin ilk tanışlığından başlanır. Ona görə də müstəntiq xaricı görünüşünə fikir verməli, səliqəli olma verərkən çalışmalıdır ki, həmin nümunələr real, dindirmənin mahiyyətinə uyğun və onun iştirakçıları dindirilənə tanış olsun. Nümunə metodu yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxsdə ifadə verməyə maraq oyadır. Bu metoddan istifadə edərkən müstəntiq gərək müəyyən pedaqoji bacarığa malik olsun.

Bəzi hallarda yetkinlik yaşına çatmayana təqsirləndirilən şəxslər maraqlı şəxslərin qisas, intiqam alınacağından qorxaraq yalan ifadə verirlər. Belə olan halda müstəntiq təqsirləndirilən şəxsdə olan qorxu hissini aradan qaldırmalı və müvafiq təhlükəsizlik tədbirləri görməlidir.

Əgər cinayət mütəşəkkil cinayətkar dəstə (qrup) tərəfindən törədilərsə, onda qrup üzvlərindən kimə qarşı daha çox sübut varsa, onun birinci dindirilməsi da məqsədəuyğun olardı [15, s.4].

İfadələrin detallaşdırılması. Dindirmənin bu taktiki üsulu düzgün ifadələrin alınması, cinayət iştirakçılarının ifadələrindəki ziddiyyətlərin müəyyən edilməsi, yalanın ifşa edilməsi, alibilərin yoxlanılması məqsədilə istifadə olunur. Qeyd olunan üsulun mahiyyəti cinayət hadisəsinin bütün elementlərinin maksimum və tam şəkildə protokolda qeyd edilməsindən ibarətdir. Detallaşdırma xüsusilə təkrar dindirmə zamanı effektlidir, çünki yalan ifadə verən şəxs təkrarən hadisənin ayrı-ayrı hallarını xatırlaya bilmir və ya tamamilə unudur. Belə halda müstəntiq dindirilən şəxsdən cinayət hadisəsi, ondan əvvəl və sonrakı hərəkətlər barədə ətraflı məlumat əldə etməyə çalışır. Əgər dindirilən şəxs yalan ifadə verərsə o, hadisənin ayrı-ayrı halları barədə qeyri dəqiqliyə yol verə bilər. Bundan əlavə, yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs ətraflı təkrarən dindirildikdə müvafiq sübutları təqdim etməklə ifadələri yoxlamaq və təkzib etmək daha asandır. Alınan ifadələrin doğruluğuna yoxlama sualları verməklə əmin olmaq mümkündür.

Gözləmə. Gözləmə taktiki üsulu məhz yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin tərəddüd hisslərinə, şübhələrinə əsaslanır. Təqsirləndirilən şəxs yalan ifadə verərkən müstəntiq ona bildirməlidir ki, istintaq onun söylədiklərinin həqiqətə uyğun olmadığını təsdiq edən kifayət qədər sübutlara malikdir. Müəyyən sübutlar, dəlillər gətirdikdən sonra müstəntiq təqsirləndirilən şəxsə verilmiş sualları yenidən cavablandırmağı xahiş edir. Daha sonra müstəntiq dindirmədə müəyyən fasilə etməlidir ki, təqsirləndirilən şəxs müəyyən qərar qəbul etsin. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin yalan ifadə verməyinin əhəmiyyətsizliyini nümayiş etdirir və ona yeni bir şans verir.

Qəfil faktorların təmin edilməsi. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin yalan ifadəsinin ifşa olunmasında qəfil faktorlardan istifadə özünəməxsus əhəmiyyətə malikdir. Bu zaman dindirilən şəxsə gözlənilməz maddi sübutların təqdim edilməsi və ya digər şəxslərin doğru ifadələrinin açıqlanması müsbət nəticəyə səbəb olur. Xüsusilə qrup halında törədilən cinayətdə iştirakçıların birinin ifadəsinin açıqlanması şəxsin bu əməldə iştirakının etirafına səbəb olur.

Təqsirləndirilən şəxsdə müstəntiqin hər şeydən xəbərdar olması təsəvvürü yaratmaq. Müstəntiq təqsirləndirilən şəxsdə hər şeydən xəbərdar olması təsəvvürünü yaratmaqla ondan düzgün ifadələr əldə edə bilər. Bu zaman müstəntiq dindirmə zamanı yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsi əsas faktla əlaqəsi olan ikinci dərəcəli hallar barədə məlumatlandırır. Təqsirləndirilən şəxs cinayət hadisəsi ilə bağlı incəliklərin belə müstəntiqə məlum olduğunu gördükdə, yalan danışmağın mənasızlığını dərk edərək doğru ifadə vermiş olur. Məsələn: müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə onun tərcümeyi halı barədə ətraflı məlumat verməklə necə hazırlıqlı olduğunu nümayiş etdirmiş olacaqdır.

Müstəntiqin təqsirləndirilən şəxsdən işin bu və ya digər halı haqqında xəbərdar olduğunun gizlədilməsi. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin yalan ifadə vermə hallarının ifşa edilməsində bu taktiki üsul mühüm rol oynayır. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, dindirmənin əvvəlində müstəntiq təqsirləndirilən şəxsə bu və ya digər hal barədə məlumata malik olduğunu xəbərdar etmir və bu zaman təqsirləndirilən şəxs müstəntiqin «məlumatsızlığından» istifadə edərək yalan ifadə verir. Müstəntiq də öz növbəsində təqsirləndirilən şəxsdən hansı faktlara əsaslanıb belə ifadə verdiyini aydınlaşdırmalıdır. Təqsirləndirilən şəxs həmin faktları göstərdikdən sonra müstəntiq işdə olan sübutları təqdim edir və şəxs yalan ifadə verməyin əhəmiyyətsiz olduğunu başa düşmüş olur.

Dolayı dindirmə. Əgər müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin konkret hal barədə yalan ifadələr verəcəyinə əmindirsə, bu zaman o, dolayı dindirmə həyata keçirməlidir. Dolayı dindirmənin mahiyyəti ondan ibarətdir ki, təqsirləndirilən şəxs başqa halların müəyyən edilməsi istiqamətində dindirilir, bu zaman ondan istintaq əhəmiyyəti kəsb edən hal barədə məlumat dolayı yolla əldə olunur. Dolayı dindirmə informasiya ilə gizli maneverlərə əsaslanaraq verilən yanakı suallara dindirilən şəxsin əhəmiyyətsiz saydığı verdiyi ifadələrdən doğru məlumatlar əldə etməyə imkan verir

Sürətli tərzdə dindirmə. Dindirmə gedişində yalan ifadə verən yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslər adətən müstəntiqin suallarına əvvəllər verdiyi ifadələrlə uyğunsuzluq, ziddiyyət yaratmayan cavablar verməyə çalışırlar. Buna görə də suallara cavab verərkən, təqsirləndirilən şəxs müəyyən qədər düşünür, cavablarını hərtərəfli hazırlayır. Belə olan təqdirdə, müstəntiq dindirməni sürətli tərzdə aparmalıdır. Müstəntiq dindirməni sürətləndirməklə təşəbbüskarlığı ələ alır, təqsirləndirilən şəxsə cavabları düşünməyə, hazırlamağa imkan vermir. Müstəntiq təqsirləndirilən şəxsə çoxsaylı sübutlar təqdim etməklə, suallar verməklə, onu çıxılmaz vəziyyətə salaraq yalan ifadə vermənin qarşısını almış olur. Bu zaman təqsirləndirilən şəxs münasib cavab hazırlaya bilmir. Sürətli tərzdə dindirmənin gedişində təqsirləndirilən şəxs bir qayda olaraq, əvvəlki ifadələri ilə ziddiyyət təşkil edən məlumatlar verir.

Təkrar dindirmə. Yalan ifadə verən yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin ifşa edilməsində təkrar dindirmə mühüm əhəmiyyət kəsb edir. Təqsirləndirilən şəxs əksər hallarda verdiyi yalan məlumatları tam yadda saxlaya bilmir. Təkrar dindirmə zamanı təqsirləndirilən şəxs bu və ya digər faktları unudur və yaxud ilkin ifadələrindən fərqli şəkildə məlumat verir. Yalan ifadə verən təqsirləndirilən şəxsi təkrar dindirməklə, müstəntiq ilkin ifadələrlə ziddiyyət təşkil edən halların dairəsini müəyyənləşdirir, ifadələrin həqiqiliyini aydınlaşdırır və nəhayət, dindirilən şəxsi ifadələrində olan ziddiyyətləri aşkar etməklə ifşa etmiş olur.

İstintaqın imkanlarının nümayiş etdirilməsi üsulu. Bu üsuldan istifadə etməklə müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsə onun ifadələrindən asılı olmayaraq cinayət təqibi üçün əhəmiyyət kəsb edən halların istintaqın öz imkanları vasitəsilə müəyyən edə biləcəyini bildirmiş olur. Bu taktiki üsulun iki növü vardır. Bir halda müstəntiq təqsirləndirilən şəxsə onu ifşa edə bilən sübutları müxtəlif istintaq hərəkətləri vasitəsilə əldə olunacağını bildirir. Digər halda isə təqsirləndirilən şəxsə müasir elmin imkanlarını nümayiş etdirir.

Əgər təqsirləndirilən şəxsin konkret cinayətdə təqsiri sübuta yetirilmişdirsə, lakin üstü açılmamış digər oxşar cinayətlərin də bu şəxs tərəfindən törədilməsinə əsaslı şübhələr vardırsa, müstəntiq bu taktiki üsuldan istifadə etməlidir.

Bəzi hallarda bu və ya digər səbəblərdən yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs yalandan təqsirini etiraf edir və bu barədə ifadələr vermiş olur. Əgər təqsirləndirilən şəxs elan olunmuş ittihamla özünü tam təqsirli bilirsə, onu işi üçün əhəmiyyət kəsb edən bütün hallar barədə dindirməli və bu etirafın düzgünlüyünü yoxlamalıdır. Belə ki, Azərbaycan Respublikası CPM-in 126.5.1-ci maddəsinə görə təqsirləndirilən şəxsin cinayət törətməkdə öz təqsirini etiraf etməsi yalnız iş üzrə bütün sübutların məcmusu ilə təsdiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilə bilər. İstintaq təcrübəsi göstərir ki, bir çox hallarda təqsirləndirilən şəxs ona yaxın şəxsləri cinayət məsuliyyətindən uzaqlaşdırmaq məqsədilə onu nüfuzdan salan məlumatın aşkar olunması qorxusu altında, marağı olan şəxslərdən mükafat almaq arzusu ilə, daha ağır cinayətdə ifşa olunmamaqdan ötrü və s. səbəblərdən cinayətin onun tərəfindən edilməsini yalandan etiraf edir. Məhz bu səbəbdən müstəntiq:

- yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsi ətraflı dindirməli və onun verdiyi məlumatların hansı faktlara əsaslandığını dəqiqləşdirməli;

- yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsi yalnız cinayət törətmiş şəxsə məlum olan faktlar barəsində dindirməli;

- yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin ifadələrini yoxlamaq məqsədilə digər istintaq hərəkətləri aparmalı;

- yetkinlik yaşına çatmayan dindirilən şəxsin öz ifadələrində olan ziddiyətlərdən müəyyən edib onlardan düzgün istifadə etməli. V.N. Dolinin qeyd edir ki, dindirmə prosesində cinayət iştirakçıları arasında mövcud ziddiyətlərdən, həmçinin dindirilən şəxsin öz ifadələrində olan ziddiyətlərdən düzgün istifadə etmək lazımdır. [16, s.3]

Bəzən təcrübədə yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxs yalandan öz təqsirini etiraf edir. Təqsirini etiraf etmiş təqsirləndirilən şəxsin dindirilməsinin əsas taktiki üsullarından biri onun ifadələrinin dəqiqləşdirilməsidir. Bu üsul təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqədar hərəkətlərinin ardıcıllığını müəyyən etməyə imkan verir. Dindirmənin belə taktiki üsulla aparılması iş üçün əhəmiyyət kəsb edə bilən bütün faktların aydınlaşdırılmasına, habelə yalan ifadə vermə hallarının ifşa edilməsinə imkan verir. Məhz ifadələrin dəqiqləşdirilməsi vasitəsilə müstəntiq cinayətin iştirakçılarını müəyyənləşdirə, cinayətin predmetinin olduğu yeri aydınlaşdıra, habelə təqsirləndirilən şəxsin ifadələrinin həqiqiyini təsdiq edə bilən yeni sübutlar əldə edə bilər. Onu da qeyd etmək lazımdır ki, məhz belə üsulla aparılan dindirmə yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin gələcəkdə öz ifadələrindən imtina etmə hallarını əhəmiyyətsiz edir.

Beləliklə, yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsində istifadə olunan taktiki üsullar və taktiki kombinasiyalar talama ilə bağlı cinayətlərin araşdırılmasında sübut əhəmiyyəti kəsb edən aşağıdakı halların müəyyən edilməsinə xidmət edir: talama ilə bağlı cinayətlərin törədilməsi yeri, vaxtı və şəraiti; talama ilə bağlı cinayətlərin törədilməsi və gizlədilməsi üsulları; talama ilə bağlı cinayətlərin törədilməsində yetkinlik yaşına çatmayan şəxslə birgə həddi buluğa çatmış şəxsin iştirak edib-etməməsi; talama ilə bağlı cinayət qəsdinin predmeti; bu növ cinayətdə iştirak edən şəxslərin dairəsi və cinayətdə hər birinin rolu; talama ilə bağlı cinayət nəticəsində vurulmuş ziyanın xarakteri və miqdarı; bu növ cinayətlərin törədilməsinin səbəb və şəraiti.

Aparılan təhlillər əsasında ibtidai istintaq mərhələsində yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilmə taktikası ilə bağlı aşağıdakı müddəaları qeyd etmək olar:

- cinayətin hərtərəfli, tam və obyektiv araşdırılmasında, iş üzrə obyektiv həqiqətin müəyyən edilməsində təqsirləndirilən şəxsin dindirilməsi mühüm əhəmiyyət kəsb edir. Təqsirləndirilən şəxs cinayət hadisəsi barədə prosesin digər iştirakçılarından daha çox məlumata malik olduğundan, onun ifadələri müstəntiqə digər sübut növləri ilə müəyyən edilməsi mümkün olmayan halları aydınlaşdırmağa imkan verir;

- müstəntiq təqsirləndirilən şəxsi dindirməklə, iş üçün əhəmiyyətli olan hallar barədə məlumatlar əldə etməklə yanaşı, təqsirləndirilən şəxsin ifadə vermək hüququnu təmin etmiş olur;

- təqsirləndirilən şəxsin dindirilməsinin özünəməxsus prosessual qaydası və taktiki üsulları vardır. Təqsirləndirilən şəxsin işin nəticəsində maraqlı olması, habelə yalan ifadə verməyə və ya ifadə verməkdən imtina etməyə görə cinayət məsuliyyəti daşımaması onun dindirilməsinin taktikasına təsir edən əsas amillərdəndir;

- dindirmə zamanı müsbət nəticələrin əldə olunması üçün müstəntiq təqsirləndirilən şəxslə psixoloji əlaqə yaratmalı və qanunvericiliyin tələblərinə zidd olmayan psixoloji təsiretmə üsullarından istifadə etməlidir. Buna görə də müstəntiq psixologiya və pedaqogika sahəsində müəyyən biliklərə malik olmalıdır [17, s.118];

- dindirmənin müvəffəqiyyətlə aparılması üçün müstəntiq müəyyən hazırlıq hərəkətləri həyata keçirməlidir. Hazırlıq hərəkətləri düzgün ifadələrin əldə olunmasına zəmin yaradır;

- yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilmə taktikası dindirmə şəraitinin münaqişəsiz və ya münaqişəli olmasından asılı olaraq müəyyən edilir. Münaqişəsiz şəraitdə təqsirləndirilən şəxsin dindirilmə taktikası onun iş üçün əhəmiyyət kəsb edən faktları yada salmağa və vicdanlı yanılma hallarını aradan qaldırmağa yönəlmişdir. Münaqişəli şəraitdə təqsirləndirilən şəxsin dindirilmə taktikasının əsas məqsədi yalan ifadə verən, habelə ifadə verməkdən imtina edən təqsirləndirilən şəxslərin yanlış mövqedə olduqlarını nümayiş etdirmək və onlardan obyektiv həqiqəti əks etdirən məlumatlar əldə etməkdir;

- münaqişəli istintaq şəraitində müstəntiq yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsində söhbət, sübutların təqdim edilməsi, onun müsbət mənəvi keyfiyyətlərindən istifadə olunması, gözləmə, qəfil faktorların təmin edilməsi, şəxsdə müstəntiqin hər şeydən xəbərdar olması təsəvvürünün yaradılması, təqsirləndirilən şəxsdən işin bu və ya digər halları barədə xəbərdar olduğunun gizlədilməsi, dolayı dindirmə, sürətli tərzdə dindirmə, təkrar dindirmə, ifadələrin detallaşdırılması, istintaqın imkanlarının nümayiş etdirilməsi kimi taktiki üsul və kombinasiyalardan istifadə sübutların əldə olunmasnı təmin edir, eyni zamanda iş üzrə obyektiv həqiqətin müəyyən edilməsinə əlverişli şərait yaradlr.

İstinadlar:

1. Белкин Р.С. Криминалистика М., 2003, с.616.

2. Филиппов А.Г. Криминалистика 3-ое издание. М., 2004, с.248.

3. Криминалистика. Учебник / под редакцией доктора юрид. наук, проф. Д.И. Сулейманова. Баку, 2000. С. 395.

4. Жанбаев Е. Тактические приемы и правила допроса. Юридические науки: проблемы и перспективы: материалы II Междунар. науч. конф. г. Пермь: Меркурий, 2014. С. 101.

5. Соловьев А. Б. Очная ставка на предварительном следствии. М., 1970. С. 10.

6. Сапова Анна Геннадьевна. Тактические особенности допроса несовершеннолетних подозреваемых (обвиняемых) // Научные исследования. 2018. №4 (23). С. 212 URL: https://cyberleninka.ru/article/n/takticheskie-osobennosti-doprosa-nesovershennoletnih-podozrevaemyh-obvinyaemyh (дата обращения: 08.06.2023).

7. Зекох З.А. Основы допроса несовершеннолетнего обвиняемого, совершившего корыстно - насильственное преступление // Актуальные проблемы гуманитарных и естественных наук. М., 2017. №9. С.21.

8. Хайдаров А.А. Предъявление доказательств как отдельное процессуальное действие // Вестник Казанского Юридического Института МВД России, 2015. № 1 (19). С. 82.

9. Симилгайтис В.К. Тактика предьявления докозательств при допросе обвиняемого. Л.ЛГУ, 1979, с.13.

10. Sarıcalinckaya K.Q. və b. İstintaq taktikası. Bakı, 1991, C.135.

11. Порубов Н.И. Тактика [допроса предварительном следствий. М., 1998. С.45.

12. Бертовский Л.В. Допрос: тактика и технологии. М.: Экзамен, 2015.С. 303

13. Ковалев А. Г. Психология личности. М., 1967, С. 297.

14. Черемных В. В., Янко Б. М. Психолого – педагогические особенности проведения следственных действий с несовершеннолетними. Екатеринбург ,2017. С. 54.

15. Мишуточкин А.Л. К вопросу о тактике допроса в условияах в конфликтной ситуации. Криминалисты. Научный портал. 2020 г. (Дата обращения: 09.06.2023.) //kriminalisty.ru/k-voprosu-o-taktike-doprosa-v-usloviyah-konfliktnoj-situaczii/

16. Долинин В.Н. «Тактика допроса подозреваемого и обвиняемого в конфликтной ситуации». «Электронное приложение к «Российскому Юридическому журналу»» 6/2013. (Дата обращения: 10.06.2023.) https://cyberleninka.ru/article/n/taktika-doprosa-podozrevaemogo-i-obvinyaemogo-v-konfliktnoy-situatsii/viewer https:

17. Сулейманов С.А. Тактико-криминалистические особенности производства следственных действий с участием несовершеннолетних потерпевших. Евразийский Научно - Исследовательский Институт Проблем Права, 1 (26).М. 2017. С.118.

TACTICAL ASPECTS OF INTERROGATION OF A JUVENILE ACCUSED IN CONFLICTIVE INVESTIGATIVE SITUATIONS DURING THE INVESTIGATION OF LOOTING CRIMES

Janpolad Daanov[*]

Abstract

By its nature, interrogation is a very planned, complex action and has criminal, organizational, psychological and ethical aspects. Interrogation is further complicated by conflicting circumstances when the person being questioned does not want to give an accurate statement or refuses to answer questions asked by the investigator. The article is mainly devoted to organizational, tactical and some psychological issues related to the interrogation of a minor in conflict situations that arise during the investigation of greedy crimes. At the same time the use of tactical methods was considered during the interrogation of the accused in conflict situations, conversation, sudden factor, detailing of statements, creating the impression for accused that the investigator is aware of everything, using the positive moral qualities of the accused to a minor, indirect interrogation, repeated interrogation, etc. Regarding the examined subject, it was concluded that the use of tactical-psychological methods during the interrogation of a minor accused

[*] Head of the Police Academy of Internal Affairs of the Republic of Azerbaijan, Major General of Police

in the investigation of crimes of greed makes it possible to obtain more accurate and complete statements.

Keywords: *juvenile accused, indirect interrogation, conflict situations, tactical combination, logical effect, emotional impact, method of persuasion***.**

ТАКТИЧЕСКИЕ АСПЕКТЫ ДОПРОСА НЕСОВЕРШЕННОЛЕТНОГО В КОНФЛИКТНОЙ СИТУАЦИИ ПРИ РАССЛЕДОВАНИИ КОРЫСТНЫХ ПРЕСТУПЛЕНИЙ

Джанполад Дааноv[*]

Резюме

По своему характеру допрос - действие многоплановое, сложное, имеющее криминалистические, организационные, психологические и этические аспекты. Наиболее сложен допрос, когда допрашиваемый не желает давать правдивые показания, либо отказывается отвечать на вопросы следователя, в результате возникает конфликтная ситуация.

Статья посвящена организационным, тактическим и некоторым психологическим приёмам проведения допроса несовершеннолетного обвиняемого в конфликтной ситуации при расследовании корыстных преступлении. Рассмотрены и описаны наиболее распространенные тактические приемы как беседа, фактор внезапности, деталтзация показаний, создание представления о большей осведомленности следователя, метод косвенного допроса, повторный допрос и т.д. Делается вывод, что использование тактико - психологических приемов при допрос несовершеннолетного обвиняемого позволяет добится необходимого результата - получения полных и правдивых показаний в ходе расследований по корыстным преступлениям.

Ключевые слова: *несовершеннлетний обвиняемый, косвенный допрос, тактический прием, тактическая комбинация, логическое воздействие, емоциональное воздействие, метод убеждения.*

[*] Начальник Полицейской академии Министерства внутренних дел Азербайджанской Республики, генерал-майор полиции

Ülvi Əsədullayev. Məhkəmə aktlarının icra edilməməsi cinayətinin obyektiv cəhəti// Azərbaycan Hüquq Jurnalı. 2023 (№1), s.54-69

MƏHKƏMƏ AKTLARININ İCRA EDİLMƏMƏSİ CİNAYƏTİNİN OBYEKTİV CƏHƏTİ

Ülvi Əsədullayev*

Xülasə

Cinayətin obyektiv cəhəti müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai-təhlükəli qəsdin zahiri cəhətidir. Cinayətin obyektiv cəhəti cinayəti konkretləşdirən əlamətlərdən biridir. Obyektiv cəhət subyektin ictimai-təhlükəli əməlini, yetirdiyi zərəri xarakterizə edir. Cinayətin obyektiv cəhətinin daha qabarıq nəzərə çarpan xarici əlamətlərindən qanuna bütün hallarda ancaq "hərəkət" və "hərəkətsizlik" məfhumları daxil edilmişdir. Hərəkət insan davranışının fəal, hərəkətsizlik isə passiv formasıdır. Cinayətin obyektiv cəhətini həm də ictimai təhlükəli nəticə, əməllə nəticə arasında səbəbli əlaqə, zaman, məkan, cinayətin edilmə üsulları, baş verdiyi şərait və əməlin törədilməsində istifadə edilən alət və vasitələr əhatə edir.

Məqalədə məhkəmə hökmünün, qərarının, əmrinin və digər əməlin icra edilməməsi cinayətinin obyektiv əlamətləri sadalanmış, obyektiv cəhətin bütün elementlərinin anlayışı və növləri qeyd edilmişdir. Obyektiv cəhət dedikdə, subyektin qarşıya qoyduğu məqsədə çatmaq üçün müəyyən hərəkətlərin xarici aləmdə baş verən hadisələrin və təzahürlərin gedişinə fəal şəkildə müdaxilə etməklə həyata keçirilməsi nəzərdə tutulur. Hərəkət və hərkətsizlik bütün cinayətlərdə olduğu üçün cinayət tərkibinin obyektiv cəhətinin zəruri əlaməti hesab olunur. Cinayətin törədildiyi üsul, vaxt, yer, cinayətin nəticələri, cinayət nəticəsində dəymiş zərər, vurulmuş zərərlə cinayət əməli arasındakı səbəbli əlaqə isə bütün cinayətlərdə olmadığından onlar obyektiv cəhətin fakultətiv əlamətləri hesab olunurlar. Qeyd edilən bu əlamətlər məhkəmə hökmünün, qərarının, əmrinin və digər əməlin icra edilməməsi cinayətinin açılmasına və cinayətkarların cəzalandırılmasına kömək edir.

Açar sözlər: *məhkəmə hökmü, məhkəmə qərarı, qərardad, məhkəmə əmri, cəza, cinayət tərkibi.*

Obyektiv cəhəti təhlil etməyə başlayaraq qeyd edirik ki, obyektiv cəhət cinayət tərkibinin və cinayət məsuliyyətinin bütün strukturunun bir növ "özəyi" hesab edilən cinayət tərkibinin elementidir. Bu, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin xüsusi hissəsinin maddələrinin dispozisiyalarında cinayətin obyektiv tərəfini xarakterizə edən əlamətlərin konstruktriv elemetlərinin olması zəruridir.

Tədqiq edilən cinayət tərkibinin obyektiv cəhətini təhlil etməzdən qabaq cinayətin obyektiv cəhətinin, onun tərkib ünsürlərinə nəzər salaq.

Obyektiv cəhətlə bağlı həm yerli, həm də xarici müəlliflərin müxtəlif fikirləri mövcuddur. F.Səməndərova görə cinayətin obyektiv cəhəti müəyyən zamanda və məkanda, müəyyən şəraitdə baş verən, mövcud ictimai münasibətlərə ziyan vuran ictimai təhlükəli qəsdin zahiri cəhətidir.

Cinayətin obyektiv cəhəti cinayəti konkretləşdirən əlamətlərdən biridir. Obyektiv cəhət subyektin ictimai təhlükəli əməlini, yetirdiyi zərəri xarakterizə edir.

Buna baxmayaraq, insan davranışının zahiri cəhəti onun daxili mahiyyətilə, əməlin edilməsində şəxsin keçirdiyi psixi proseslərlə sıx əlaqədardır. Anlaqlı olan

* doktorant, Baku Dövlət Universiteti

şəxsin davranışı psixi-fiziki vəhdətdən ibarətdir. Cinayət hüququnda kriminal davranış onun mahiyyətindən, daxili tərəfindən şərti olaraq təcrid edilir. Bu ona görə edilir ki, insanın ictimai təhlükəli davranışının zahiri cəhətinin ünsürlərinin hərtərəfli öyrənilməsi mümkün olsun.

İctimai təhlükəli davranışı ifadə etmək üçün müxtəlif ünsürlərin yığımından ibarət olan «əməl» anlayışından istifadə edilir. Azərbaycan Respublikası CM-in 14-cü maddəsində cinayətin anlayışında bu məfhumdan istifadə edilmişdir. [11, s.149]

İ.Ağayev qeyd edir ki, ümumiyyətlə, cinayətkar fəaliyyətin obyektiv cəhəti dedikdə, subyektin öz məqsədlərinə nail olmaq üçün düşündüyü planın, xarici aləmdə baş verən hadisələrin və təzahürlərin gedişinə fəal müdaxilə etmək yolu ilə həyata keçirilməsi nəzərdə tutulur. Yaxud əksinə, hüquqi cəhətdən hərəkət etməyə borclu olduğu halda belə, müdaxilədən imtina etməsi başa düşülür. Cinayətkar fəaliyyətin obyektiv cəhəti bu fəaliyyətin nəticələrini, eləcə də bu nəticələr arasındakı səbəbli əlaqəni də özündə ehtiva edir. Beləliklə, cinayətin obyektiv cəhəti, cinayət tərkibinin müəyyən bir şəraitdə, məkanda, müəyyən zamanda baş verən və cinayət qanunu ilə qorunan obyektə (sosial əhəmiyyətli dəyər, maraq və sərvətlərə) zərər vuran, konkret ictimai təhlükəli əməlin zahiri təzahürünü səciyyələndirən elementidir. [6, s.81]

Cinayətin obyektiv cəhətinin məzmunu cinayət qanununun dispozisiyasında təsvir edilir. Buna görə də ayrı-ayn cinayətlər qanunda daha çox obyektiv cəhətlərinə görə fərqləndirilir. Cinayətin obyektiv cəhəti cinayətin aşağıdakı xüsusiyyətlərini müəyyən edir:

- cinayətin vurduğu zərərin xarakterini, yəni törədilmiş əməlin ictimai təhlükəliliyinin nədə ifadə olunduğunu;
- qəsdin hansı əməllə törədildiyini;
- cinayət əməlinin hansı nəticələrə gətirib çıxardığını;
- əməllə yaranmış nəticə (nəticələr) arasındakı əlaqənin səciyyəsini;
- cinayətin törədildiyi və zərərin vurulduğu hallarıq necə olduğunu (şərait, məkan, zaman, cinayətin edil, mə üsulu, cinayət törətmənin alət və vasitələri və s.

F.Səməndərov qeyd edir ki, cinayətin obyektiv cəhətini həm də İctimai təhlükəli nəticə, əmələ nəticə arasında səbəbli əlaqə, zaman, məkan, cinayətin baş verdiyi şərait, habelə cinayətin edilmə üsulunu əhatə edir.

Sadalanan ünsürlər həyatda baş verən hər bir cinayətin obyektiv cəhəti ilə üzvü surətdə bağlıdır. İnsanın hər bir əməli kimi, onun təhlükəli əməli də müəyyən zaman və məkan daxilində baş verir, əməl müəyyən üsulla törədilir, mövcud ictimai münasibətlərə ziyan yetirir (nəticə).

Yuxarıda cinayətin obyektiv cəhətinin sadalanan ünsürləri həyatda növündən və xarakterindən asılı olmayaraq baş verən hər bir cinayətin varlığını təşkil edir. Lakin cinayət sayılan əməllərə görə qanunda formulə edilən cinayət tərkiblərinə cinayətin obyektiv cəhətinə aid olan ünsürlər (elementlər) müxtəlif həddə «yığımla» daxil edilir. Cinayətin obyektiv cəhətinin bir qisim ünsürləri cinayət qanunu ile formulə edilən bütün tərkiblərə daxil edilir. Belə ünsürlərə ictimai təhlükəli «hərəkət» və ya «hərəkətsizlik» daxildir.

İctimai təhlükəli «hərəkət» və ya «hərəkətsizlik» cinayət qanununda nəzərdə tutulan bütün tərkiblərə daxil edildiyindən, belə əlamətlər cinayət tərkibinin obyektiv cəhətinin zəruri əlamətləri sayılır. Cinayətin obyektiv cəhətinin digər ünsürləri bütün cinayət tərkiblərinə deyil, ayrı-ayrı tərkiblərə daxil edildiyindən onlar cinayət tərkibinin obyektiv cəhətinin fakültativ əlamətləri hesab edilir.

F.Səməndərov cinayət tərkibinin obyektiv cəhətinin əlamətlərini yekunlaşdıraraq ona belə bir tərif verir. O qeyd edir ki, cinayət tarkibinin obyektiv cəhətinə ictimai-təhlükəli əməli, onun nəticəsini, İctimai təhlükəli əməllə nəticə arasındakı səbəbli əlaqəni, habelə zamanı, məkanı və cinayətin edilmə üsulunu, cinayətin törədildiyi şəraiti xarakterizə edən əlamətlər daxil olur. [11, s.151-153]

S.Babayeva F.Səməndərovun mövqeyini davam etdirirərək qeyd edir ki, cinayət tərkibinin obyektiv cəhəti - cinayətin gözlə görünən tərəfi, zahiri cəhətini səciyyələndirən əlamətlərin məcmusudur. [4, s.111]

Cinayətin obyektiv cəhətinin ümumi anlayışını müəyyən etdikdən sonra onun tərkibini əmələ gətirən əlamətlərin təhlili üzərində daha ətraflı dayanmaq lazımdır. Cinayətin obyektiv cəhətinin anlayışı ilə bağlı məsələnin həlli onun əlamətlərinin aydınlaşdırılmasını tələb edir, çünki cinayət tərkibinin bu elementinin ümumi anlayışı cinayətlərin bütün əlamətlərinin mahiyyətini tam şəkildə əhatə edə bilməz. Qeyd etmək lazımdır ki, istənilən bir anlayışın tərifinin verilməsi həmin anlayışı tam şəkildə səciyyələndirən əlamətlərin aydınlaşdırılması yolu ilə həyata keçirilməlidir.

İ.Ağayev qeyd edir ki, cinayətin obyektiv cəhəti müəyyən zaman və məkanda baş verən prosesdir. Onun üçün hadisələrin və təzahürlərin ictimai təhlükəli əməl ilə başlanan və ictimai təhlükəli nəticənin yaranması ilə başa çatan ardıcıl inkişafı səciyyəvidir. Hər hansı bir cinayətin obyektiv xüsusiyyətləri zahirən cəmiyyət üçün təhlükəli olan və ya sosial əhəmiyyətli dəyər, maraq və sərvətlərə zərər vuran və ya zərər vura biləcək əməlin törədilməsində təzahür edir. Cinayətin belə obyektiv xüsusiyyətləri bir-biri ilə qarşılıqlı surətdə bağlı olur. Onlar konkret cinayət tərkiblərinin qurulması zamanı təsbitini tapır. Buna görə də hər hansı bir cinayətin obyektiv cəhəti spesifik əlamətlərlə səciyyələnir.

Qarşılıqlı surətdə bir-biri ilə bağlı olan komponentlərin məcmusu kimi, cinayətin obyektiv cəhətinin əlamətləri sistem əmələ gətirir. Bu sistem çərçivəsində də onlar Cinayət Məcəlləsinin Xüsusi hissəsinin normalannın dis-pozisiyalannda rastlaşma tezliyinə görə iki qrupa bölünürlər. Bu əlamətlər qrupundan biri dəyişməzdir və zəruri şəkildə hər bir cinayət tərkibinə xas olur, yəni bu əlamətlər olmadan cinayət tərkibi mümkün deyildir. Obyektiv cəhəti səciyyələndirən digər əlamətlər qrupu, əksinə, fakültativ xarakter daşıyır. Yəni bu qrupdan olan əlamətlər konkret cinayətlərin tərkibində ola da, olmaya da bilər.

İ.Ağayev qeyd edir ki, hüquq ədəbiyyatında cinayətin obyektiv cəhətinin zəruri və fakültativ əlamətlərinin sayı ilə bağlı məsələ bu günə qədər müzakirə obyekti olmaqda davam edir. Lakin bu müzakirə və diskussiyaların gedişində cinayət tərkibinə yanaşma səviyyəsi haqqında məsələ aydın şəkildə qoyulmur. Nəticədə müəlliflər müxtəlif fikirlər irəli sürürlər. Belə ki, bəzi müəlliflər ictimai

təhlükəli əməli (hərəkəti və ya hərəkətsizliyi), ictimai təhlükəli nəticələri, əməl və nəticə arasındakı səbəbli əlaqəni, cinayətin edilmə üsulunu, cinayət törətmənin alət və vasitələrini, cinayətin törədildiyi məkanı, zamanı, şəraiti cinayətin obyektiv cəhətinin əlamətləri sayaraq, yalnız ictimai təhlükəli əməli zəruri əlamət kimi qəbul edirlər. Obyektiv cəhətin bütün qalan əlamətlərini isə fakültativ əlamət hesab edirlər. [6, s.86]

Obyektiv cəhətin zəruri elementlərinə nəzər salaq:

Əməl dedikdə, cinayət hüququnda insan davranışının xarici aləmdə təqsirli, ictimai təhlükəli, sosial əhəmiyyətli dəyər, maraq və sərvətlərə zərər vuran fəal və ya passiv fəaliyyətinin təzahürü başa düşülür. İctimai təhlükəli əməl, cinayətin obyektiv cəhətinin zəruri əlaməti və ən çox əhəmiyyət kəsb edən tərkib hissəsidir. O, cinayət tərkibinin bu elementinin bütün digər əlamətlərini özündə birləşdirir. Əməlin məzmunu cinayətin əlamətlərini əks etdirən cinayət-hüquqi xarakterli xassələrin məlum məcmusu ilə müəyyənləşdirilir. İnsanın davranışı cinayətkar davranış qismində təzahür etmək üçün bir sıra cinayət-hüquqi xassələrə malik olmalıdır. Yalnız cinayəti ictimai təhlükəli, hüquqazidd, şüurlu olması və iradiliyi ilə səciyyələndirən obyektiv cəhətin əlamətlərinə malik olan əməl cinayət-hüquqi əhəmiyyət kəsb edir.

İctimai təhlükəli əməlin iki müxtəlif forması vardır: ictimai təhlükəli hərəkət və ictimai təhlükəli hərəkətsizlik.

Birinci halda, söhbət insan davranışının fəal formasından gedir, ikinci halda isə müəyyən şəraitdə hərəkət etməyə borclu olan şəxsin passiv davranışı nəzərdə tutulur.

Cinayət Məcəlləsinin Xüsusi hissəsi ilə nəzərdə tutulmuş cinayətlərin çoxu hərəkətlə törədilə bilər. Hərəkət insanın qadir olduğu istənilən bədən hərəkətləri ilə, o cümlədən də fiziki əzələ qüvvəsindən, jestlərdən, şifahi və ya yazılı nitqdən istifadə etməklə başqa insanlara və ətraf mühitin digər əşyalarına təsir kimi təzahür edən bədən hərəkətləri ilə ifadə oluna bilər.

Hərəkətsizlik ictimai təhlükəli əməlin ikinci növüdür, özünün sosial və hüquqi xassələrinə görə hərəkətsizlik hərəkətlə eynidir. O da hərəkət kimi xarici aləmə obyektiv təsir göstərərək, bu aləmdə dəyişikliklər törədə bilər. Hərəkətdən fərqli olaraq, hərəkətsizlik şəxsin konkret şəraitdə müəyyən əsaslara görə etməli olduğu və edə biləcəyi hərəkətləri etməməkdən ibarət olan passiv davranışıdır.

İstənilən ictimai təhlükəli əməl qanunla qorunan maraqlara real zərər vurur. Belə zərərin vurulması ictimai təhlükəli nəticələrin baş verməsi deməkdir. İctimai təhlükəli nəticələr ən müxtəlif sosial əhəmiyyətli dəyər, maraq və sərvətlərə aid ola bilər. İctimai təhlükəli əməllər bəzi hallarda şəxsiyyətin hüquq və azadlıqlarına, onun toxu-nulmazlığına, digər hallarda isə mülkiyyətə zərər vurur, ictimai asayişi və təhlükəsizliyi pozur. Məsələn, şəxsiyyət əleyhinə törədilmiş konkret cinayətlər nəticəsində insan ölə, onun sağlamlığına zərər vurula, şəxsi həyatının sirrləri açıla, onun işgüzar nüfuzuna, namusuna və şəxsi ləyaqətinə xələl gələ bilər. Mülkiyyət əleyhinə olan cinayətlər isə əmlak zərəri vura bilər. İqtisadi

fəaliyyət sahəsindəki cinayətlər təsərrüfat fəaliyyətinin subyektlərinə və ya dövlətə zərər vura bilər.

F.Səməndərov qeyd edir ki, cinayət hüququ fəlsəfədə işlənmiş səbəbli əlaqə anlayışından istifadə edir. Cinayətin obyektiv cəhətinin zəruri əlaməti kimi səbəbli əlaqə subyektin ictimai təhlükəli əməli ilə baş vermiş ictimai təhlükəli nəticələr arasındakı elə bir əlaqədir ki, bu əlaqədə əməl göstərilən nəticədən əvvəl gəlir, nəticənin baş verməsinin zəruri şərti kimi çıxış edir, onun yaranmasına real zəmin hazırlayır və müəyyən edir.

Əməllə onun nəticələri arasında səbəbli əlaqə olmalıdır. Bunu İ.Ağayevin mövqeyi ilə izah etsək, tam şəkildə izah edilmiş hesab edilə bilər. O, qeyd edirdi ki, səbəbli əlaqə obyektiv xarakter daşıyır və bizim şüurumuzdan, istəyimizdən asılı olmayaraq mövcuddur. İnsan şüuru səbəbiyyət yaratmır, lakin idrak vasitəsi ilə onu adekvat şəkildə əks etdirə bilir. İctimai təhlükəli nəticənin yaranmasının səbəbi və şərti kimi yalnız cinayətin subyektinin əməli çıxış edir. Əməl və nəticə arasında müəyyən bir ardıcıllıq olmalıdır: zamana görə əməl yaranmış nəticələrdən qabaq gəlməlidir. [6, s.90]

Fakültativ əlamətlərin hüquqi əhəmiyyəti isə başqadır. Həmin əlamətlər ona görə fakültativ əlamət adlanır ki, qanun onlan konkret cinayətin üzvi surətdə xas olan əlamətlərinin sırasına daxil etmir. Onlar cinayətin özünün taleyinə yox, yalnız onun hüquqi nəticələrinə, özü də müəyyən dərəcədə təsir göstərə bilər. Fakültativ əlamətlər faktiki olaraq cinayət tərkibinin hər bir elementində özlərinə yer alır, konkret əməlin daha dəqiq müəyyənləşdi-rilməsinə, cəzanın fərdiləşdirilməsinə kömək göstərir.

Obyektiv cəhətin fakültətiv əlamətlərinə nəzər salaq:

Cinayətin obyektiv cəhətinin əlaməti kimi cinayətin edilmə üsulu - köməyi ilə cinayət əməlinin uğurluluğuna nail olunan və ya uğursuzluğuna gətirib çıxaran müəyyən bir qayda, metod, taktiki vasitələr yığımıdır. Əməllə qırılmaz surətdə bağlı olaraq və onun tərkib hissəsi kimi çıxış edərək, üsul çox vaxt törədilən əməlin ictimai təhlükəli xarakterinə o dərəcədə əhəmiyyətli təsir göstərir ki, o, əsas və tövsif edilmiş tərkiblərin zəruri elementi kimi bir çox cinayət tərkiblərinə daxil edilir.

Cinayətin törədildiyi məkan konkret cinayətin törədildiyi və qanunda təsvirini tapmış müəyyən yer, ərazidir. O, qanunverici tərəfindən tövsifedici əlamət kimi cinayət hüquq normasına daxil edildiyi halda, törədilən əməlin tövsifinə təsir göstərir.

Cinayətin obyektiv cəhətinin əlaməti kimi cinayətin törədildiyi zaman - ərzində hər hansı bir hərəkətin törədildiyi və ya hadisənin baş verdiyi müddət, dövr, zaman kəsiyi (günün vaxtı, ilin fəsli və s.) deməkdir. İstintaq və məhkəmə orqanları konkret cinayəti səciyyələndirən əlamətləri təsvir edərkən, bütün hallarda cinayətin nə vaxt törədildiyini, nə qədər davam etdiyini, cinayətkar nəticələrin nə zaman baş verdiyini göstərirlər.

Cinayətin törədildiyi şərait - qarşılıqlı təsirdə olan, mövcudluqları şəraitində qəsdin həyata keçirildiyi, əməlin ictimai təhlükəlilik dərəcəsini artıra və ya azalda bilən obyektiv amillərin cəmidir.

İstifadə edilməklə və ya köməyilə cinayətin törədildiyi maddi aləmin əşyaları cinayət törətmənin alət və vasitələri hesab olunur. Təqsirkarın bu və ya digər alət və vasitələrdən istifadə etməsi cinayətkar qəsdin törədilməsini asanlaşdırır və bu səbəbdən də onların mövcudluğu törədilən əməlin ictimai təhlükəlilik dərəcəsinə təsir göstərir.

S.Babayeva qeyd edir ki, cinayətin obyektiv cəhətinin əlamətlərinin müstəqil və müxtəlif mənaları vardır. Qeyd edildiyi kimi, əgər ictimai təhlükəli əməl, ictimai təhlükəli nəticələr və ictimai təhlükəli əməllə ictimai təhlükəli nəticələr arasındakı səbəbli əlaqə istənilən cinayət tərkibinin zəruri əla-mətidirsə, deməli, cinayətin edilmə üsulu, cinayətin törədildiyi zaman, məkan, şərait, cinayət törətmənin alət və vasitələri cinayət tərkibinin fakültativ əlamətlərinə aiddir. Bu fakültativ əlamətlərin zəruri və ya tövsifedici əlamətlər kimi çıxış etdiyi hallarda, onlar cinayət tərkibinin digər əlamətləri ilə birgə törədilmiş əməlin tövsifi üçün hüquqi əsas yaradırlar. [4, s.138]

Qeyd edilən müəlliflər arasında cinayət tərkibinin anlayışı, zəruri və fakultətiv əlamətləri ilə bağlı fikir ayrılıöı mövcud deyildir. Hər üç müəllifin fikirlərini tədqiq etdikdən sonra obyektiv cəhətin aşağıdakı anlayışını qeyd edə bilərik.

Beləliklə, cinayətin obyektiv cəhəti ictimai təhlükəli əməllə (hərəkət və ya hərəkətsizliklə) səciyyələnən, müəyyən bir üsulla, konkret vasitələrdən və (və ya) alətlərdən istifadə etməldə, konkret məkanda, konkret zaman və konkret şəraitdə törədilmiş, ictimai təhlükəli əməllə səbəbli əlaqədə olan ictimai təhlükəli nəticələrin baş verməsinə gətirib çıxarmış cinayətin zahiri tərəfidir.

Aydındır ki, məhkəmə tərəfindən çıxarılan hökmlərin, qərarların və ya digər məhkəmə aktlarının məcburiliyini təmin etmək məhkəmə orqanlarının fəaliyyəti üçün çox vacibdir.

Sözügedən cinayət əməlinin ictimai təhlükəliliyi bütün dövlət, bələdiyyə və digər orqan və idarələr, kommersiya və digər təşkilatlar üçün məcburi olan qanuni qüvvəyə minmiş məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının qəsdən icra edilməməsindən ibarətdir.

Hesab edirik ki, sözügedən cinayətin ictimai təhlükəliliyi, əsasən, məhkəmə orqanlarının normal fəaliyyətini təmin edən ictimai münasibətlərə zərər vurmaqdadır.

Bu norma məhkəmə tərəfindən baxılan işlərdə hökmlərin, qərarların və ya digər məhkəmə aktlarının layiqincə icrasını təmin edən cinayət hüquq vasitəsidir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi ilə tarixən daha əvvəl qəbul olunmuş Cinayət Məcəllələrinin oxşar normasından fərqli olaraq, məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsi ilə bağlı cinayətlərin subyektlərinin sayı xeyli genişləndirilmiş, hökmlərin, qərarların və digər məhkəmə aktlarının qanuni qüvvəyə minməsindən

sonra icrasının təmin edilməsi yolunda daha effektiv vasitələr tətbiq edilməyə başlanılmışdır.

Qeyd etmək lazımdır ki, məhkəmə aktlarının məcburiliyi prinsipi birbaşa Azərbaycan Respublikasının Konstitusiyasında əksini tapmışdır. Konstitusiyaının 125-ci maddəsinin I hissəsinə əsasən Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. 129-cu maddənin I hissəsinə əsasən məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Həmin maddənin II hissəsinə əsasən isə məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Göründüyü kimi Azırbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi öz mənbəsini Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsindən götürür. [1] [2]

Konstitusiyadan əlavə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə əsasən, qanuni qüvvəyə minmiş hökm, qərar və digər məhkəmə aktı bütün dövlət və ictimai müəssisələr, idarələr və təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar üçün məcburidir. Məhkəmə aktlarının məcburiliyinə dair oxşar tələblər inzibati, mülki prosessual və inzibati prosessual qanunvericilikdə də təsbit edilmişdir.

Qeyd edilən hüquqi aktlarda məhkəmə aktlarının icra edilməməsinə görə məsuliyyət tədbirlərinin tətbiqi yolu ilə bu müddəaların icrasının təmin edilməsinin zəruriliyindən bəhs edilir. Bu halda məsuliyyətin növü, bir qayda olaraq, göstərilmir.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən bütün normativ hüquqi aktlardan heç birində məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsi ilə bağlı hüquqi nəticələri konkret olaraq müəyyən etmir. Həmin hüquqi aktların hər birində sadəcə qeyd edilir ki, məhkəmə aktlarının icra edilməməsi qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Qeyd edilən qanunvericilik aktlarında məhkəmə aktlarının icra edilməməsi nəticəsində yaranan məsuliyyət kimi Cinayət Məcəlləsinin 306-cı maddəsini göndərici norma kimi müəyyən etmək olardı.

Qeyd edək ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsi vahid deyil, həmin maddə ilə törədilən cinayəti sübut etmək çətindir və məhkəmə qərarının fərdiliyindən asılıdır. Bu anlayışı daha geniş şəkildə aşağıda qeyd edəcəyik.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsinə nəzər saldıqda, bu normanı Məcəllədə təsbit edərkən qanunvericinin qanunla müəyyən edilmiş qaydada çıxarılan məhkəmə aktlarının ümumi məcburiliyini təmin edən ictimai münasibətləri nəzərdə tutduğunu müəyyən edə bilərik.

Nəzərdən keçirilən cinayət tərkibinin obyektiv əlamətlərinin hüquqi məzmununu başa düşmək üçün vacib olanlardan biri məhkəmə aktlarının siyahısının müəyyən edilməsidir ki, onlara əməl edilməməsi məhz Cinayət Məcəlləsində göstərilən məsuliyyətə səbəb olur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsinin hərfi təfsiri zamanı bu mövzuda müxtəlif müzakirələrə səbəb olan mövzuların dairəsi müəyyən edilir.

Belə bir fikir də vardır ki, Cinayət Məcəlləsinin 306-cı maddəsi Azərbaycan Respublikası məhkəmələri tərəfindən çıxarılan bütün kateqoriyalı məhkəmə aktlarına aiddir.

Beləliklə, bu cür qeyd etmək olar ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsinin tərkibi Azərbaycan Respublikası məhkəmələri tərəfindən işin mahiyyəti üzrə həll edildiyi qanuni qüvvəyə minmiş hər hansı məhkəmə aktlarının icra edilməməsinə və həmin aktların icra edilməsinə maneə törətməyə görə yaranır. Qeyd edilən məhkəmə aktlarına cinayət işləri, mülki işlər, inzibati işlər, habelə beynəlxalq müqavilələrdə xüsusi olaraq nəzərdə tutulmuş hallarda xarici dövlətlərin məhkəmələrinin, beynəlxalq məhkəmələrin və arbitrajların qərarlarını misal kimi göstərə bilərik.

Təhlil etdiyimiz cinayət təkibində məhkəmə aktı sözü işlədilir. Öncə "akt" sözünün hərfi mənasına nəzər salaq:

"Akt" sözü latın mənşəlidir (actus – hərəkət; actum – sənəd). Bu termin aşağıdakı mənalarda işlənir: 1) hərəkət, əməl; 2) rəsmi sənəd; 3) dramatik əsərin və ya teatr tamaşasının tamamlanmış hissəsi. Qeyd edilənlərdən fərqli olaraq "Hüquqi akt" anlayışının fərqli şərhi vardır. Müxtəlif növ qanunun, o cümlədən məhkəmə aktının tətbiqi aktı olan "hüquqi akt" anlayışı "tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd" kimi şərh edilir. Lakin məhkəmə aktları ilə hüquqi akt anlayışlarını qarışdırmaq olmaz.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsində "qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə" qeyd edilmişdir. Qeyd edilənlərin hamısı ümumilikdə "məhkəmə aktları" hesab olunur.

Məhkəmə qətnaməsi dedikdə mülki işləri mahiyyəti üzrə həll edən məhkəmə aktları, məhkəmə hökmü dedikdə cinayət işlərini mahiyyəti üzrə həll edən məhkəmə aktları, məhkəmə qərarı dedikdə inzibati işləri mahiyyəti üzrə həll edən konstitusiya və inzibati məhkəmə aktları, habelə xarici məhkəmələrin, beynəlxalq məhkəmələrin və arbitrajın qərarları, əgər beynəlxalq təşkilatlar tərəfindən tanınırsa, onlar başa düşülməlidir.

Onu da qeyd edək ki, iş üzrə icraatın dayandırılması, iddianın baxılmadan saxlanılması, iş üzrə icraatın təxirə salınması və s. haqqında bir çox məhkəmə aktlarının (qərardadların) icrasına ehtiyac yoxdur və onların icrası araşdırılan hüquq münasibətlərinin digər subyektlərindən deyil, yalnız məhkəmədən asılıdır. Məsələn, məhkəmə iş üzrə icraatın təxirə salınması ilə bağlı qərardad qəbul edir. Bu qərardad icra edilməsi üçün digər orqanlara (icra və probasiya şöbəsinə) göndərilmir. Sadəcə məhkəmənin özü tərəfindən icrası təmin edilir.

Xarici məhkəmələrin, beynəlxalq məhkəmələrin və arbitraj məhkəmələrinin qərarlarına gəlincə, onlar ümumiyyətlə özlüyündə məcburi xarakter daşımır. Onlar tərəfindən qəbul edilmiş qərarlar yalnız məcburi xarakteri Azərbaycan Respublikası məhkəmələri tərəfindən müvafiq aktın qəbul edilməsi yolu ilə tanınması və icrası nəticəsində əldə edirlər. Belə qərarların qəbul edilməsi proseduru prosessual qanunvericiliklə müfəssəl şəkildə tənzimlənir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsi qəbul edildikdə qanunverici orqan əsaslı şəkildə tədqiq edilən cinayəti (306-cı maddəni) dövlət hakimiyyəti əleyhinə cinayətlərə aid etmişdir. Bu onunla izah olunur ki, məhkəmə tərəfindən qəbul edilən aktları icra edilməməsi və ya icra edilməsinə maneəçilik törədilməsi həm fərdin qanuni hüquq və azadlıqlarına zərər vura bilər, həm də dövlət hakimiyyəti qollarından birinin, yəni məhkəmə hakimiyyətinin əsas funksiyalarının həyata keçirilməsinin təmin edilməsinə real təhlükə yarana bilər.

"Cinayətin obyektiv cəhəti cinayətdən başlayan hadisələrin ardıcıl inkişafı ilə onun xarici tərəfdən baxılan, qanunla qorunan maraqlara ictimai təhlükəli və qanunsuz qəsd prosesidir. Qeyd edirik ki, cinayətin obyektiv cəhəti müəyyən zaman və məkanda baş verən, ictimai təhlükəli əməlin xarici tərəfini əks etdirən, hüquq münasibətləri iştirakçısının müəyyən davranışı ilə səciyyələnən prosesdir. [13, s.235]

Beləliklə, məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsinin obyektiv cəhətinin əlamətlərinin əhatə dairəsinin və məzmununun hərtərəfli və ətraflı öyrənilməsi şəxsin hansı hallarda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb olunduğunu müəyyən etməyə imkan verəcəkdir.

Obyektiv cəhətin əlamətlərinin öyrənilməsi cinayətin qanunvericilik strukturunu təhlil etmədən həyata keçirilə bilməz. Bir çox alimlər vurğulamışdır ki, qanunla qorunan obyektin zərər vurulması hər hansı bir hərəkətlə deyil, yalnız obyektin özünün xassələri ilə müəyyən edilən hərəkətlərlə törədilə bilər. Nəticə etibarilə, tərkibin qanunvericilik xüsusiyyətləri cinayət hüququ vasitələri ilə müdafiəni tələb edən ictimai münasibətlərin xarakteri ilə müəyyən edilir. Cinayətin obyektiv cəhətinin qanunvericilik strukturu özbaşına deyil, cinayətin xarakteri, ictimai təhlükəlilik dərəcəsi və cinayət hüququnun ona qarşı mübarizə tədbirlərinin xüsusiyyətləri nəzərə alınmaqla və ondan asılı olaraq müəyyən edilir. [14, s.156]

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsinin dispozisiyası formal tərkibli cinayətdir. Belə ki, maddənin dispozisiyasında qeyd edilmiş aktlar icra edilmədiyi andan və ya hər hansı bir şəxsin onların icrasına mane olduğu andan qeyd edilən cinayət törədilmiş hesab edilir. Həmin maddədə göstərilən əməllər törədildikdən sonra nəticənin baş verməsinə ehtiyac yoxdur. Tutalım ki, məhkəmə tərəfindən qəbul edilmiş hökm icra edilmir. Bu hökmün icra edilməməsi nəticəsində digər şəxslərə zərərin vurulması maddədə göstərilən cinayət tərkibinin yaranması üçün əhəmiyyətli deyildir. Qeyd edilən hökm icra edilmədiyi və ya icrasına maneçilik törədildiyi andan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsində göstərilən cinayət törədilmiş hesab edilir.

Beləliklə, istənilən əməl geniş mənada nəzərdən keçirilən ictimai təhlükəli əməlin nəticələrini nəzərdə tutur və obyektiv cəhətin elementi kimi onlar cinayətlərin yalnız maddi elementlərində əks olunur. Nəticə bütün cinayət əmələri üçün xasdır, lakin bütün cinayət tərkiblərinin yaranması üçün nəticə əsas deyildir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi mühafizə olunan cinayət obyektinə qeyri-maddi ziyan vurması ilə müəyyən edilir. Maddədə göstərilən hər bir konkret halda onların dərəcəsi, həcmi və məzmunu fərqlidir, buna görə də ictimai təhlükəli nəticələrin hədlərini və vahid məzmununu müəyyən etmək olduqca çətindir. Belə qeyd edə bilərik ki, 306-cı maddədə göstərilən əmellər vətəndaşların və təşkilatların hüquq və qanuni mənafelərinin, mülki, cinayət, cinayət-prosessual və inzibati qanunvericiliyin əsas müddəalarının pozulmasından ibarətdir.

Bundan əlavə, vurğulayırıq ki, məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsinin spesifikliyi, bir qayda olaraq, ictimai təhlükəli nəticələr olmadıqda, obyektə zərər vurma mexanizminin xüsusiyyətləri ilə əlaqədardır, həmin əmellər ilk növbədə qorunan ictimai münasibətlərə qeyri-maddi ziyan vurmaqda ifadə olunur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi formal tərkibli cinayətdir, həmin maddə cinayət əməlindən sonra baş verən nəticənin yalnız xarakterik əlamətlərini ehtiva edir. Qeyd edilən cinayət tərkibinin yaranması üçün müvafiq məhkəmə aktına əməl etmək öhdəliyinin pozulması vacibdir.

Eyni zamanda, əksər alimlər məhkəmə aktının icra olunmamasının davam etməsinə də diqqət yetirirlər. Cinayət qanuni qüvvəyə minmiş müvafiq məhkəmə aktının qanunla müəyyən edilmiş müddətdə icra edilməməsi ilə başlayır və kifayət qədər uzun müddət ərzində törədilməsi ilə davam edir. Belə ki, cinayət işlərinin tədqiqi göstərir ki, məhkəmə aktlarının icra edilməməsinin davam etdirilməsinin orta müddəti bir ildir. Lakin belə bir yanaşma da mövcuddur ki, sözügedən cinayəti törətmiş şəxsin ictimai təhlükəliliyi məhkəmə aktının icra edilməməsi və ya icrasına mane olmasının bütün dövrü üçün xarakterikdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsində göstərilən cinayət tərkibi məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının qəsdən icra edilməməsi, habelə onların icrasına maneə törədilməsi yolu ilə törədilə bilər. Buna görə də, qeyd edilən hərəkətlər iki formada ifadə edilə bilər: qəsdən icra etməmə və maneə törətmə.

Birinci formanı - müvafiq məhkəmə aktlarının qəsdən icra olunmamasını təhlil etməyə başlayaraq qeyd edirik ki, qanunla müəyyən edilmiş qaydada qəbul edilmiş məhkəmə aktında qeyd edilmiş göstərişlərin məna və məzmununa uyğun olaraq, müəyyən edilmiş müddətdə həmin göstərişlərin icra edilməməsi qeyd edilən tərkibi yaradır. Buna əsasən, məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsi, onların həyata keçirilməsi üçün zəruri olan hərəkətlərin müəyyən müddət ərzində yerinə yetirilməməsi aiddir.

Qeyd etmək lazımdır ki, məhkəmə aktının icra edilməməsi forması hərəkətsizliklə ifadə olunur. Hərəkətsizlik normativ nöqteyi-nəzərdən insanın yerinə yeti-

rə biləcəyi və etməli olduğu həvalə edilmiş vəzifəni yerinə yetirməməsi kimi şərh edilir və insan davranışının passiv variantı kimi qəbul edilir. Fiziki mənada insan özünü çox fəal apara bilər, lakin eyni zamanda o, müəyyən bir öhdəliyi yerinə yetirməmiş, cinayət qanunu ilə müəyyən edilmiş qadağanı pozmuşsa, cinayət-hüquqi hərəkətsizlik yaranır. Üstəlik, bu mövqeyə əsasən, düzgün yerinə yetirilməmiş funksiya da hərəkətsizlik kimi tanınır. Məhz məhkəmə aktının icrası üzrə öhdəliklərin yerinə yetirilməməsində əməlin ictimai təhlükəliliyinin zəruri obyektivləşdirilməsi baş verir. Əgər hərəkətsizlik dedikdə yalnız hərfi mənada hərəkətsizliyi nəzərdə tuturuqsa, onda subyektin fəzada yalnız statik mövqeyi hərəkətsizlik, onun hər hansı bir hərəkəti isə hərəkət kimi tanınmalıdır. Faktiki mənada hərəkətsizliklə, hüquqi mənada hərəkətsizlik fərqli anlayışları özündə ehtiva edir. [16, s.315]

Beləliklə, cinayət hüququnda hərəkətsizlik dedikdə bizim tərəfimizdən fiziki deyil, hüquqi mənada hərəkətsizlik başa düşülür və bu hərəkətsizlik niyyətin həyata keçirilməsi üçün müəyyən hərəkətləri istisna etmir. Belə hərəkətsizliyə misal olaraq məhkəmə aktının icrası üçün müəyyən hərəkəti etməkdən yazılı imtinanı misal göstərmək olar.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306-cı maddəsi yalnız məhkəmə aktlarının qərəzli şəkildə icra edilməməsinə görə cinayət məsuliyyətini nəzərdə tutur. Nəticə etibarilə, burada qərəzli olmaq tərkibin kompozisiyanın məcburi konstruktiv elementi kimi xarakterizə edilir.

Beləliklə, "qərəzli" anlayışı qiymətləndirici xüsusiyyətə malikdir, tərkibin tədqiq edilməsi prosesində ümumi məna və məzmunun aydınlaşdırılmasını tələb edir. "Qərəz" sözünün mənasına qayıdaraq onun "pis niyyətlərlə edilmiş, şüurlu vicdansız, pis bir şeydə kök salmış" kimi mənalar verdiyini qeyd edə bilərik. Müvafiq olaraq, qərəzliliyin qrammatik konstruksiyası insanın qəsdən və pis niyyətlə müəyyən hərəkətləri etməkdən çəkindiyini (hərəkətsizlik) və ya hər hansı bir hərəkəti (hərəkət) etdiyini göstərir.

Obyektiv cəhəti şərh edən rusiyalı hüquqşünas alim V.V.Demidov şəxsin məhkəmə qərarının icra etməkdən imtina etməsini qəsdən icra etməmə kimi başa düşməyi təklif edir. Lakin tədqiqatçı məhkəmə qərarının icra etməkdən imtinanın hansı formada edilməsini müəyyən etmir.

Digər alimlər hesab edirlər ki, qərəzlilik təqsirkarın məhkəmə və ya icraçı tərəfindən yazılı xəbərdarlıq aldıqdan sonra məhkəmə hökmünü, məhkəmə qərarını və ya digər məhkəmə aktını yerinə yetirməməsini özündə ehtiva edir.

Aydındır ki, hüquqşünaslar Cinayət Məcəlləsinin 306-cı maddəsində nəzərdə tutulmuş "qərəzli olaraq icra etməmə" haqqında ümumi bir anlayışa gəlməyiblər. Tədqiq olunan qərəzlilik ifadəsinin mənasını aydınlaşdırmaq üçün bəzi məhkəmə aktlarının qəsdən icra olunmaması nümunələrinə nəzər salmaq zəruri görünür. Bununla əlaqədar olaraq konkret hökmlərə müraciət etmək yerində olardı.

İstənilən hökmün əsas məzmunu təqsirkarın cəzalandırılmasıdır. Hər bir cəzanın icra edilməməsində qərəzlilik fərqli məqsədlərdə özünü göstərə bilər. Məsələn, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan

məhrum etmə cəzasının icra edilməməsinin qərəzlilik əlaməti şərh edilərkən aşağıdakılar nəzərə alınmalıdır.

Belə ki, müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasının qərəzli olaraq icra olunmaması onunla bağlı hökmü aldıqdan sonra icra üzrə səlahiyyətli şəxsin öz öhdəliklərini yerinə yetirməməsindən ibarətdir.

İslah işləri təyin edilməsi haqqında hökmün icrasını nəzərə alaraq bildiririk ki, onun məzmununa məhkumun əmək haqqından dövlət nəfinə müəyyən məbləğlər tutularaq ödənilməsindən ibarətdir.

Eyni zamanda, islah işləri üzrə məhkəmə hökmünü icra etməyən şəxsin hərəkətlərində qərəzlilik əlamətinin olub-olmaması barədə qərar qəbul edilərkən nəzərə alınmalıdır ki, bu hökmün icrasının mahiyyəti istehsalatda və ya hər hansı təşkilatın, qurumun, orqanın fəaliyyətindədir. Əgər təşkilatın və ya qurumun islah işləri növündə cəzanın icra edilməsi üçün şəraiti, habelə vəsaiti varsa və onu icra etmirsə, bu qərəzli olaraq icra etməmə kimi qiymətləndirilir. Lakinn xüsusi olaraq qeyd edək ki, cəzanın çəkilməsi ilə bağlı hallar barədə icra orqanına məlumat verilməməsi məhkəmənin hökmünün qərəzli olaraq icra edilməməsi kimi qiymətləndirilə bilməz.

Bundan əlavə, biz hesab edirik ki, məhkəmə aktının icra edilməməsinin qərəzliliyi şəxsin məhkəmə aktını icra etmək üçün real imkana malik olduğu halda onu icra etməməsi deməkdir. Onu da qeyd edək ki, əgər bir şəxs məhkəmə aktının icrası üçün müəyyən səylər göstəribsə, məhkəmə aktınını icra edilməməsi ilə bağlı qərəzlilikdən söhbət gedə bilməz. Bununla belə, hüquqşünas A.P.Çirkovun fikrincə, məhkəmə aktının "cəzanın həcminə açıq şəkildə qeyri-mütənasib" icra edildiyi hallar da mövcuddur. Bu zaman söhbət mülki icraatda və kommersiya məhkəməsi tərəfindən qəbul edilmiş qətnamələrinin icrasından gedir. Müəllif hesab edir ki, belə şəxslər Cinayət Məcəlləsində nəzərdə tutulmuş maddə ilə cinayət məsuliyyətinə cəlb edilməlidir. [17, s.296]

Fikrimizcə, subyekt məhkəmə aktının icrası üçün adekvat hərəkətlər etdikdə həmin aktların icra edilməməsi qərəzli hesab edilə bilməz. Bundan əlavə, məhkəmə aktlarını "yarımçıq" icra edən şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin zəruri olduğunu düşünsək, o zaman məhkəmə aktının icrasının "proporsional" və ya "qeyri-mütənasib" həyata keçirildiyini müəyyən etmək kifayət qədər çətin olacaq.

Qeyd edək ki, qərəzlilik təkcə obyektiv deyil, həm də subyektiv komponentə malikdir. Bu komponent məhkəmə aktlarının şüurlu şəkildə icra edilməməsində ifadə olunan subyektin psixi münasibətində özünü göstərir.

Yekun olaraq qeyd edək ki, səlahiyyətli orqanın yazılı xəbərdarlığından sonra şəxs onun icrası üçün zəruri hərəkətləri müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, məhkəmə aktının icra edilməməsi cinayəti törədilmiş hesab olunur və həmin əməllərdə qərəzlilik özünü göstərir.

Tədqiqatçıların arasında qeyd edilən məsələ ilə bağlı problemlərin həllinin mümkün yolları haqqında müxtəlif fikirlər mövcuddur.

Belə ki, E.A.Dubynin, K.K.İvantsov məhkəmə aktı qanuni qüvvəyə mindikdən sonra hansı müddət ərzində həmin məhkəmə aktının icra edilməməsinin cinayət tərkibi yaratdığını müəyyən etməyi təklif edirlər. L.L.Kruglikov, N.G.Popov məhkəmə aktlarının icra müddətini - icra icraatının başlandığı gündən 2 ay müddətində müəyyən etməyi təklif edirlər.

Fikrimizcə, bütün növ məhkəmə aktlarında onların icrası üçün konkret müddət göstərilməlidir. Həmin müddətə ona əməl edilmədikdə şəxs Cinayət Məcəlləsinin 306-cı maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb edilməlidir.

Lakin qeyd edək ki, hər bir məhkəmə aktının öz məzmunu var. Məsələn, işə bərpa olunma dərhal icra edilməli, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzası isə məhkumun işlədiyi təşkilata müvafiq icra sənədi göndərildikdən sonra icra edilməlidir.

E.A.Dubinin və K.K.İvantsovun təklif etdiyi başqa bir yanaşma isə qərəzliliyin başqa sözlə ifadə edilməsidir. Onlar qeyd edirlər ki, Cinayət Məcəlləsində qeyd olunan “qərəzlilik" ifadəsini "üzrlü səbəb olmadan icra etməmək" ifadəsi ilə əvəz etmək daha uğurlu olar. Biz isə qeyd edirik ki, ümumilikdə “üzrlü səbəblər” anlayışı normanın tətbiqi prosesində çox yanlış mənalarda şərh edilə bilər və bu məhkəmə aktlarının icra edilməsində sahəsində səlahiyyətli şəxslərin fəaliyyətini daha da qarışıq vəziyyətə gətirib çıxara bilər.

Tədqiq edilən cinayətin törədilməsinin ikinci forması məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icrasına mane olmaqda ifadə edilir. “Mane olmaq” ifadəsinin əsasını “qarşısını almaq” feli təşkil edir. Göstərilən felin mənası “maneə yaratmaq, bir şeyin qarşısını almaq”da ifadə olunur. [18, s.149]

Məhkəmə aktının icrasına mane olmaq dedikdə onun icrasına maneələr yaradan hərəkət və ya hərəkətsizlik başa düşülməlidir.

Bununla belə, əksər tədqiqatçılar hesab edirlər ki, məhkəmə aktının icrasına mane olmaq yalnız hərəkətlə həyata keçirilə bilər. Hüquqşünas D.A.Xarkovski hesab edir ki, maneçilik dedikdə qanunda göstərilən şəxslərin hökmlərin icrasına müxtəlif növ maneələr yaratmağa və ya məhkəmə aktlarının icrasını qeyri-mümkün etməyə yönəlmiş hər hansı hərəkətlər başa düşülməlidir. Eyni zamanda, onun fikrincə, maneçilik məhkəmə aktının icrasına maneələr yaratmaqdan ibarət aktiv hərəkətdir.

Eyni zamanda qeyd edirik ki, məhkəmə aktlarının icrasına maneçilik əsasən maneələr yaradılması yolu ilə törədilir. Belə ki, məhkəmə aktları icra edilmədikdə cinayətin subyekti öz hərəkətsizliyi ilə məhkəmə aktının icrası prosesini uzadır, maneə törədildikdə isə təqsirkarın hərəkətləri/hərəkətsizliyi hökmün icrasına əhəmiyyətli maneələr yaradır.

Məhkəmə və təhqiqat təcrübəsinin təhlili bizə mane olmağın əsas yollarını müəyyən etməyə imkan verir. Məhkəmə aktlarının icrasına səlahiyyətli şəxslərin fəaliyyətinə müdaxilənin yaradılması, likvid əmlakın özgəninkiləşdirilməsi və pul vəsaitlərinin xərclənməsi, məhkəmə aktının icrası üçün zəruri olan sənədlərin, məlumatların və s. gizlədilməsi, təqsirkar şəxs tərəfindən tabeliyində olanlar üçün məcburi göstərişlərin verilməsi, məhkəmə aktında olan göstərişlərin icrasını

qadağan edən göstərişlər verməsi, işçinin eyni funksional vəzifələrini saxlamaqla, məhkəmənin hökmü ilə şəxsin tuta bilmədiyi vəzifənin adının dəyişdirilməsi və s. kimi hərəkətlər maneə törətməyə misal kimi göstərilə bilər. Bundan əlavə, maneçilik məhkəmə aktının icrasını çətinləşdirməyə və ya ona maneçilik törətməyə yönəlmiş hər hansı digər hərəkətlər etməklə də həyata keçirilə bilər.

Belə ki, maneə əlaməti ictimai təhlükəli hesab edilən əməli kvalifikasiya edərkən heç də həmişə hüquqi cəhətdən düzgün cinayət-hüquqi qiymət almır.

Bu paraqrafda qeyd edilənləri ümumiləşdirərək, ilk növbədə qeyd edirik ki, Azəbaycan Respublikasının Cinayət Məcəlləsinin 306-cı maddəsi məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının qəsdən icra edilməməsi şəklində və ya onların icrasına mane olmaq şəklində həyata keçirilə bilər. Cinayət Məcəlləsinin 306-cı maddəsi məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının qəsdən icra edilməməsi və icrasına mane olması ayrı-ayrılıqda nəzərdən keçirilməməlidir. Bu formaların müəyyən müstəqilliyinə baxmayaraq, onlar sıx sistemli qarşılıqlı əlaqədədirlər.

Məhkəmə hökmünün, məhkəmə qərarının və ya digər məhkəmə aktının icra edilməməsi qanunla müəyyən edilmiş müəyyən müddətdə icrası üçün zəruri olan hərəkətlərin edilməməsidir. Məhkəmə aktının icra edilməməsinin mahiyyəti hərəkətsizlikdə ifadə olunur. Eyni zamanda, hərəkətsizlik cinayət-hüquqi mənada şərh edilir və tənzimləmə baxımından səlahiyyətli şəxsə həvalə edilmiş vəzifənin, funksiyanın yerinə yetirilməməsindən ibarətdir. İcra öhdəliyindən yayınma yolları fərqli ola bilər və niyyətin həyata keçirilməsi üçün digər hərəkətləri istisna etmir.

Biz hesab edirik ki, maneə həm hərəkət formasında, həm də hərəkətsizlik formasında həyata keçirilə bilər. Nəticə etibarilə, icraya maneçilik təqsirkar şəxsin məhkəmə aktının icrasına əhəmiyyətli, bəzən aşılmaz maneələr yaradan hərəkətləri və ya hərəkətsizliyidir. Eyni zamanda, maneçilik əlaməti, maddənin dispozisiyasının konstruktiv xüsusiyyətləri və bu formaların bir-birindən asılılığı ilə əlaqəli olan ictimai təhlükəli hesab edilən əməlin kvalifikasiyası zamanı heç də həmişə hüquqi cəhətdən düzgün cinayət-hüquqi qiymət almır.

Qeyd edilənləri nəzərə aldıqda tədqiq edilən ictimai təhlükəli əməlin icra edilməməsinin "qərəzliliyinin" məzmununun açıqlanması ilə bağlı hər hansısa bir çətinlik yaranmayacaqdır. Öz növbəsində, maddənin mətnində bu konsepsiyanın mahiyyətinin aydın tərifi dispozisiyanın daha dolğun başa düşülməsinə kömək edəcəkdir.

Yekun olaraq qeyd edək ki, hakimiyyət nümayəndəsinin, dövlət qulluqçusunun, yerli özünüidarə orqanının əməkdaşının, habelə dövlət və ya bələdiyyə orqanının, kommersiya və ya digər təşkilatın əməkdaşı tərəfindən məhkəmə hökmünü, məhkəmə qərarını və ya digər məhkəmə aktını onun real imkanı olduğu halda qəsdən icra etməməsi və ya hər hansı yolla onun icrasına mane olması qanunla müəyyən edilmiş qaydada cəzalandırılır.

İstinadlar:

1. Azərbaycan Respublikasının Konstitusiyası// https://e-qanun.az/framework/897

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi// https://e-qanun.az/framework/46947

3. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi// https://e-qanun.az/framework/46951

4. Babayeva S.M. Cinayət hüququ: ümumi hissə: dərs vəsaiti, Bakı, Elm və təhsil, 2018, 550 s.

5. Ağayev İ.B. Cinayət tərkibi: Dərs vəsaiti, Bakı: Təhsil, 2005, 496 s.

6. Vəliyev S.Ə. Cinayət hüququnda cəza və cəza təyin etmə. Bakı: Elm, 2004, 407 s.

7. Səməndərov F.Y. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı: Hüquq Yayın Evi, 2014, 1087 s.

8. Səməndərov F.Y. Cinayət hüququ ümumi hissə. Dərslik. Bakı: Digesta, 2007, 698 s.

9. Səməndərov F.Y. Cinayət hüququnda cəza problemi. Bakı: Bakı Dövlət Universiteti, 2009, 286 s.

10. Оленьчева, Анастасия Николаевна, неисполнение приговора суда, решения суда или иного судебного акта: уголовно-правовая характеристика и проблемы квалификации, Москва, 2011, 214 с.

11. И.В.Широков, особенности реализации прав потерпевшего при осуществлении уголовного судопроизводства в особом порядке, Москва, 2022, 204 с.

12. Малов, Владимир Николаевич, Преступления против исполнения судебных решений: уголовно-правовые и криминологические аспекты, Москва, 2010, 186 с.

13. А.А.Сасин, Неисполнение приговора суда, решения суда или иного судебного акта как преступление против правосудия, Москва, 2011, 225 с

14. А.Н.Попов, Л.А.Зимирева, П.В.Федышина, объективная сторона состава преступления, Санкт-Петербург 2015, 65 с.

15. H.L.A. Hart. Acts of will and responsibility in punishment and responsibility 100 Publisher: Cary: Oxford Scholarship Online, 2014, 156 p.

16. F.K.Khudaykulov, Signs Of The Objective Side Of Crime In The Theory Of Criminal Law Belonging To The Romano-Germanic Legal Family: Theoretical And Practical Problems, The American Journal of Political Science Law and Criminology, 2021, 68 p.

17. Ram Singh, Objective and Subjective Elements of Criminal Law https://ru.scribd.com/document/518643419/Objective-and-Subjective-Elements-of-Criminal-Law

18. https://www.icc-cpi.int/sites/default/files/Publications/Elements-of-Crimes.pdf

19. https://5geo.ru/en/obektivnaya-storona-prestupleniya-v-ugolovnom-prave-ponyatie-i-priznaki/

THE OBJECTIVE ASPECT OF THE CRIME OF NON-EXECUTION OF JUDICIAL ACTS

Ulvi Asadullayev [*]

Abstract

The objective aspect of the crime is the external aspect of a socially dangerous plot that takes place at a certain time and place, under certain conditions, and damages the existing social relations. The objective aspect of the crime is one of the signs that make the crime concrete. The objective aspect characterizes the subject's socially dangerous act, the damage caused. Among the more prominent external signs of the objective aspect of the crime, the law included only the concepts of "action" and "inaction" in all cases. Action is an active form of human behavior, and inaction is a passive form. The objective aspect of the crime also includes the socially dangerous result, the causal relationship between the act and the result, time, place, methods of committing

[*] Ph.D Candidate, Baku State University

the crime, the circumstances in which it occurred, and the tools and means used in the commission of the act.

The article lists the objective signs of the crime of non-execution of a court sentence, decision, order, and other act, and the definition and types of all elements of the objective aspect are mentioned. By the objective aspect, it is intended to carry out certain actions in order to achieve the goal set by the subject by actively interfering with the course of events and manifestations in the external world. Since movement and inactivity are present in all crimes, it is considered a necessary sign of the objective aspect of the crime. The method, time, place, consequences of the crime, the damage caused as a result of the crime, and the causal relationship between the damage and the criminal act are not in all crimes, so they are considered optional signs of the objective aspect.

These mentioned signs help to solve the crime of non-execution of the court sentence, decision, order and other act and to punish the criminals.

Keywords: *court verdict, court decision, decree, court order, Criminal Code, punishment, criminal composition*.

ОБЪЕКТИВНАЯ СТОРОНА ПРЕСТУПЛЕНИЯ НЕИСПОЛНЕНИЯ СУДЕБНЫХ АКТОВ

Улви Асадуллаев[*]

Резюме

Объективная сторона преступления есть внешняя сторона общественно опасного заговора, совершающегося в определенное время и в определенном месте, при определенных условиях и наносящего ущерб сложившимся общественным отношениям. Объективная сторона преступления является одним из признаков, конкретизирующих преступление. Объективный аспект характеризует общественно опасное деяние субъекта, причиненный ущерб. К числу наиболее заметных внешних признаков объективной стороны преступления закон во всех случаях включал лишь понятия «действие» и «бездействие». К объективной стороне преступления относятся также общественно опасный результат, причинно-следственная связь между деянием и результатом, время, место, способы совершения преступления, обстоятельства, при которых оно произошло, орудия и средства, использованные при совершении. акта.

В статье перечислены объективные признаки преступления неисполнения судебного приговора, решения, постановления и иного действия, а также указаны определение и виды всех элементов объективной стороны. Под объективным аспектом подразумевается осуществление определенных действий для достижения поставленной субъектом цели путем активного вмешательства в ход событий и проявлений во внешнем мире. Поскольку движение и бездействие присутствуют во всех преступлениях, это считается необходимым признаком объективной стороны преступления. Способ, время, место, последствия преступления, вред, причиненный в результате преступления, причинно-следственная связь между вредом и преступным деянием есть не во всех преступлениях, поэтому они считаются факультативными признаками объективной стороны.

Ключевые слова: *приговор суда, решение суда, постановление, судебный приказ, Уголовный кодекс, наказание, состав преступления.*

[*] Докторант Бакинского государственного университета

Çingiz Çingizzadə. Ənənəvi və elektron bank xidmətləri: müqayisəli təhlil// Azərbaycan Hüquq Jurnalı. 2023 (№1), s.70-75

ƏQLİ MÜLKİYYƏT HÜQUQU

ƏNƏNƏVİ VƏ ELEKTRON BANK XİDMƏTLƏRİ: MÜQAYİSƏLİ TƏHLİL

Çingiz Çingizzadə *

Xülasə

Məqalə əmtəə nişanlarının inkişaf tarixinin icmalını təqdim edir, onun mənşəyini yunanlar və romalılar kimi qədim sivilizasiyalara aparır. Əmtəə nişanları çoxəsrlik inkişaf mərhələsindən keçmişdir. Bu müddət ərzində onlar əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Əmtəə nişanları müasir ticarətin mühüm aspektidir, bizneslərə öz brendlərini yaratmağa və qorumağa imkan verir. Lakin əmtəə nişanlarının tarixi qədim sivilizasiyalara aid əmtəə nişanlarına bənzər təcrübələrin sübutu ilə çox qədim dövrlərə gedib çıxır. Əmtəə nişanı hüququnun Orta əsrlər və İnqilab dövründə necə inkişaf etdiyi, nəticədə onun XIX əsrdə ayrı bir hüquq sahəsi kimi necə tanındığı izah edilir. Məqalədə həmçinin Paris Konvensiyası da daxil olmaqla əmtəə nişanı hüququ haqqında müasir anlayışı formalaşdıran bəzi əsas hüquqi hallar və qanunlar müzakirə olunur. Nəhayət, internetin təsiri və qlobal brendlərin yüksəlişi kimi əmtəə nişanı hüququ dünyasındakı bəzi aktual problemlərə və müzakirələrə nəzər yetirilir. Ümumilikdə, məqalə əmtəə nişanı hüququnun tarixinə və təkamülünə hərtərəfli baxışı təqdim edir.

Açar sözlər: *əmtəə nişanı, işarələr, Paris Konvensiyası, sənaye mülkiyyəti, Madrid Sazişi, Konvensiya Prioriteti.*

Əmtəə nişanlarının ilkin nümunələri eramızdan əvvəlki dövrə məxsusdur. Artıq o zaman işarələrin istifadəsi müasir əmtəə nişanları ilə eyni xarakter daşıyırdı. İstehlakçılar bir məhsulu digərindən ayırd edib istehsalçını seçirdilər. İşarələr alınan məhsulun keyfiyyət göstəricisi rolunu oynayırdı. Müasir əmtəə nişanlarının proobrazları kimi damğalar da istifadə edilirdi. Damğalar mənsubiyyətin, şəxsi və ya qrup əmlakının yığılması naminə sahibliyin əlaməti idi. Onlar daha çox Qədim Yunanıstan və Qədim Roma kimi ölkələrdə yayılmışdır.

Qədim əmtəə nişanlarının bir misalı kimi Fransadakı Lasko mağarasının qayalarında işarəli öküzlərin şəkillərini gətirmək olar. Mütəxəssislər hesab edirlər ki, savadlı cəmiyyətin formalaşmasından xeyli əvvəl mal-qara sahibliyi bu cür işarələrin istifadəsi ilə vurğulanırdı. Rəsmlər, təxminən, 15 min il əvvəl çəkilmişdir. Təxminən 6000 il əvvəl Misirdə inşa olunmuş daş hörgüləri, daşın mənbəyini və əmək haqqını almaq üçün işi görən işçini müəyyən etmək üçün fərqli karyer izlərini və daş ustalarının əlamətlərini göstərir. Eramızdan əvvəl 1336-1327-ci illərdə Qədim Misirin hökmdarı olan Faraon Tutanxamonun məqbərəsində möhürlə işarələnmiş şərab amforaları tapılmışdır. [1] Bu möhürlər müasir etiketlərin prototipləridir. Onlar şərabın hazırlandığı üzümün növünü, istehsalçının adını, içkinin keyfiyyət səviyyəsini və məhsulun mənşəyini göstərirdi.

Ticarətdə istifadə olunan qədim əmtəə nişanlarının nümunəsi kimi Qədim Çin istehsalçıları tərəfindən istifadə edilən işarələri misal göstərmək olar. İmpe-

* doktorant, Bakı Dövlət Universiteti

rator Honq-Tonun hakimiyyət dövründə, Qədim Çində istehsal edilmiş bütün farfor qabların üzərində onun və ya istehsalçının adı göstərilirdi. Həmin işarələr mallar üzərində bərkidilirdi. Eyni üsul Qədim Hindistanda da mövcud idi. Tacir və istehsalçılar bu yolla müəyyən malın onlara məxsus olduğunu göstərirdilər. İşarələr təxminən 2000-3000 il əvvəl istifadə edilirdi.

Orta əsrlərdə çiçəklənən ticarətin tələbləri Avropada malların keyfiyyətini və individuallığını təmin etmək üçün əmtəə işarələrinin istifadəsini genişləndirmişdir. Orta əsrlər Avropasında sənətkarlar gildiyaları məhsullarını müəyyən etmək və reputasiyalarını qorumaq üçün nişanlar və ya simvollardan istifadə edirdilər. Bu işarələr çox vaxt dəmirçi üçün çəkic və ya dərzi üçün qayçı kimi sadə dizaynlar şəkilində olurdu. Əgər məhsul bir neçə sənətkar tərəfindən istehsal olunurdusa, o zaman onların hər biri hazır məhsula öz işarəsini bərkidə bilərdilər. Zaman keçdikcə bu nişanlar xüsusi sənətkarlar və ya gildiyalarla əlaqələndirilərək bir növ erkən əmtəə nişanı kimi xidmət etməyə başladı.

Belə proseslərin olması onu göstərirdi ki, əmtəə nişanlarının fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi məhz orta əsrlərdə başlamışdır. Əmtəə nişanı haqqında ilk Qanunvericilik aktı belə orta əsrlərdə tərtib edilmişdir. O, 1266-cı ildə Kral III Henrixin hakimiyyəti dövründə İngiltərənin parlamenti tərəfindən qəbul edilmişdir. [2] Həmin Qanunun əsas məqsədi istehlakçıları qorumaqdan ibarət idi. Qanunun tələblərinə görə, çörəyin ölçüsü, çəkisi və qiyməti satışdan əvvəl yoxlanılmalı idi. Bundan əlavə, çörək hazırlayanların çörəklərinin seçilməsi üçün fərqli işarələrdən istifadə etmələri tələb olunurdu ki, müvafiq tənzimləyici orqanlar çörəyin mənşəyini müəyyən edə bilsinlər. Orta əsrlərdə qəbul edilmiş növbəti qanun 1667-ci ildə Yeni Ticarət Xartiyası olmuşdur. O, Rusiyada qəbul edilmişdir və ölkə tarixində "əmtəə nişanı" sözündən istifadə edən ilk rəsmi sənəd statusunu qazanmışdır. [10]

Qeyd edilənlərə əlavə olaraq bildirilməlidir ki, orta əsrlər əmtəə nişanlarına dair hüquqların qorunmasını təmin edən bir sıra məhkəmə qərarları ilə də yadda qalmışdır. Misal kimi İngiltərə Ümumi Hüquq məhkəməsinin iki sədrlik edən hakimləri tərəfindən JG v Samford işi üzrə verdikləri 1584-cü il tarixli qərarı göstərmək olar. Həmin qərarla hakimlər əmtəə nişanların toxunulmazlığını və onlara dair hüquqların yalnız həmin nişanların sahiblərinə mənsubluğunu vurğulamışdılar. [9] Buna baxmayaraq, əmtəə nişanlarının əqli mülkiyyət hüququnun tərkib hissəsi kimi qəbul edilmə prosesi hələ də tam bitməmişdir. Bir sıra sahibkar və müəssisələr ölkələrin məhkəmə və hüquq sistemlərində olan boşluqlardan istifadə edib əqli mülkiyyət hüququnu kobud şəkildə pozurdular.

XIX əsrdə istehsalçılar əmtəə nişanlarını əqli mülkiyyətin tərkib hissəsi kimi qəbul etməyə başladılar. Onlar başa düşürdülər ki, əmtəə nişanının qeydiyyata alınması onlara müəyyən hüquqlar verməklə yanaşı, külli miqdarda qazanc gətirə bilər. Bununla belə, dövlətlər əmtəə nişanlarının qeydiyyatı mexanizminin yaradılmasını və bu sahədə müvafiq qanunların qəbulu prosesini ləngidirdi. ABŞ-ın Boston şəhərində yaşayan Semuel Brek adlı istehsalçı 1791-ci ildə hakimiyyətə müraciət edərək əmtəə nişanlarının qeydiyyat mexanizminin yaradılma-

sını xahiş etmişdir. Dövlət katibi Tomas Cefferson Konqresi əmtəə nişanlarının qeydiyyatı haqqında qanunu qəbul etməyə çağırmışdı. [3] O vaxt ABŞ yenicə müstəqillik əldə etmişdir və bu məsələnin həlli birmənalı olaraq ölkə hökumətinin prioritetləri siyahısında deyildi. Buna baxmayaraq, ölkənin bəzi ştatları əmtəə nişanının qeydiyyatı prosesini tənzimləyən qanunvericilik aktlarının qəbulunu zəruri hesab etmişdir. Yalnız 1870-ci ildə qüvvəyə minən federal qanun əmtəə nişanlarının qeydiyyata alınması prosesini zəruriliyini təmin etmişdir. ABŞ-da olduğu kimi bir çox xarici ölkələrdə əmtəə nişanlarının qeydiyyatını təmin etmək məqsədilə müvafiq qanununlar qəbul edilmişdir. Həmin qanunlar 1830-cu ildə Rusiyada, 1857-ci ildə Fransada, 1868-ci ildə İtaliyada, 1883-cü ildə İngiltərədə, 1894-cü ildə isə Almaniyada qəbul edilmişdir.

XIX əsr mexanizasiyanın, dəmir yollarının və gəmiçiliyin inkişafı zəminində beynəlxalq sərgilərin keçirilməsi ilə yadda qaldı. İlk beynəlxalq sərgi 1851-ci ildə Londonda (Millətlərin Böyük Sərgisi) keçirilmişdir. Növbəti beynəlxalq sərgilər Paris, Vyana və dünyanın digər böyük şəhərlərində təşkil edilmişdir. İştirakçı dövlətlər belə sərgilərin keçirilməsi ilə sənaye sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini dərk edirdilər. Lakin o dövrdə mövcud olan beynəlxalq müqavilə və sənədlərin bazası çox köhnəlmişdir. Belə mühüm sahədə əməkdaşlıq üçün yeni hüquqi sənədin tərtib edilməsində ehtiyac var idi. Ancaq qeyd etmək lazımdır ki, bu adi bir sənəd olmamalı, onun əsas məqsədi sənaye sektorunun bütün sahələrində beynəlxalq əməkdaşlığın inkişafına təkan verməkdən ibarət olmalı idi. Ölkələrin inkişaf tempinə, əmtəə nişanlarının tətbiqi və hüquqi müdafiəsində müsbət tendensiyanın mövcudluğuna baxmayaraq, belə bir sənədin hazırlanması böyük səylər tələb edirdi. Bunun səbəbi son dərəcə sadədir. Sözügedən sənədin layihəsini hazırlamaq üçün təkcə əmtəə nişanlarının deyil, sənayə sektorunun formalaşması və inkişafı tarixi öyrənilməli idi. Bundan əlavə, gələcək əməkdaşlığın universal və güclü hüquqi bazası hazırlanmalı idi. Bütün bu proses dünya ölkələrinin sənayə sahəsində genişmiqyaslı əməkdaşlıq təcrübəsinin olmaması fonunda həyata keçirilməli idi.

Bütün çətinliklərə baxmayaraq, 20 mart 1883-cü il tarixində Fransada Sənayə Mülkiyyətinin Mühafizəsi Üzrə Paris Konvensiyası imzalanmışdır. Bu Konvensiyanın imzalanması təkcə əmtəə nişanlarının deyil, bütün sənaye sektorunun tarixində dönüş nöqtəsi olmuşdur. Konvensiyanın imzalanmasından sonra ölkələr arasında sənaye mülkiyyəti üzrə ittifaq yaradılmışdır. Vacib məqamlardan biri isə "sənayə mülkiyyəti" terminin izahı idi. Odur ki, Konvensiyanın 1-ci maddəsinə əsasən sənaye mülkiyyəti ən geniş mənada başa düşülür və sözün tam mənasında nəinki təkcə sənaye və ticarətə, həm də kənd təsərrüfatı istehsalı və çıxarma sənayesi sahələrinə və sənaye yaxud təbii mənşəli məhsullara, məsələn, çaxıra, dənə, tütün yarpağına, meyvələrə, heyvana, yer altından çıxarılanlara, mineral sulara, pivəyə, çiçəklərə, una aid edilir. Konvensiyanın həmin maddəsinə görə ixtira üzrə patentlər, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları, xidmət nişanları, firma adları və mənşə, yaxud mənşə yerinin adları göstəriciləri və həmçinin qeyri-səmimi rəqabət sənaye mülkiyyətinin mü-

hafizəsi obyektləridir. [5] Konvensiya İttifaq ölkələrinin vətəndaşları üçün sənaye mülkiyyətinin qorunması ilə bağlı milli rejim müəyyən edir (yəni vətəndaşlar və əcnəbilər müəyyən dövlətin ərazisində patent hüquqlarına görə bərabərdirlər). Bundan əlavə, Konvensiya təkcə İttifaq ölkələrinin vətəndaşlarına deyil, həm də müəssisələri İttifaqın üzvü olan ölkələrin ərazisində yerləşən şəxslərə şamil edilir. Konvensiya öz müddəalarında "Konvensiya prioriteti" qaydasını əks etdirir. Konvensiya 30 maddədən ibarətdir. İmzalandığı vaxtdan Konvensiyanın mətnində bir sıra dəyişikliklər edilmişdir.

Paris Konvensiyası əmtəə nişanları sahəsində hüquqi tənzimləmə və beynəlxalq münasibətləri təmin etməyə yönəlmiş yeganə sənəd deyil. Həmin istiqamətdə tərtib edilmiş digər mühüm sənədlərdən biri 1891-ci ildə qəbul edilmiş "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid sazişi və 1989-cu ildə qəbul edilmiş "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid sazişinin Protokoludur. Bu sazişin və onun Protokolunun köməyi ilə Madrid Əmtəə Nişanlarının Qeydiyyatı Sistemi yaradılmışdır. [6] Madrid Sistemi bütün dünyada əmtəə nişanlarının qeydiyyatı və idarə edilməsi üçün əlverişli və sərfəli mexanizmdir. Müvafiq ərizə doldulurduqdan və lazımi rüsumların ödənilməsindən sonra, əmtəə nişanının sahibi öz müstəsna hüquqlarının müdafiəsini 130 ölkənin ərazisində təmin edir. [7]

Əqli Mülkiyyətin inkişafında mühüm rol oynayan digər normativ sənəd kimi Lanham aktı çıxış edir. O 1946-cı ildə ABŞ-da qəbul edilmişdir və əmtəə nişanlarının qeydiyyatı və hüquqi müdafiəsi prosesinə mühüm təsir göstərmişdir. Akta əsasən, əmtəə nişanlarına dair hüquqlar onların satış obyektlərinin üzərinə vurulub satışa çıxarılması anından yaranır. Həmin hüquqlar Ümumi hüquq (Common law) vasitəsilə müdafiə edilir. [8]

Son illərdə elektron ticarət və sosial medianın inkişafı əmtəə nişanları haqqında qanun çərçivəsində bir sıra yeni problemlər yaradır. Onlayn bazarlar və sosial media platformaları saxtakarlara və hüquq pozucularına əmtəə nişanlarını pozan malları satmağı və yaymağı asanlaşdırıb. Bu qədər ticarət və kommunikasiyanın onlayn şəkildə baş verdiyi şəraitdə kiberməkanda əmtəə nişanı hüquqlarını izləmək və tətbiq etmək çətin ola bilər. Bəziləri onlayn hüquq pozuntusu ilə mübarizə üçün daha möhkəm tədbirlər görülməsinə çağırır, digərləri isə iddia edir ki, həddən artıq çox tətbiq innovasiyaları boğa və ifadə azadlığını məhdudlaşdıra bilər.

Nəticədə bir çox müəssisələr öz əmtəə nişanlarını onlayn olaraq qorumaq üçün yeni strategiyalar hazırlamalı oldular. Bunlara sosial media platformalarının izlənməsini və hüquq pozuntusuna yol verən siyahıları silmək üçün onlayn bazarlarla işləməyi misal gətirmək olar. [4]

İsinadlar:

1. Edward Elgar (tərtib edənlər: Graeme B. Denwodee və Mark D. Janis), "Trademark Law and Theory. A Handbook of Contemporary Research" (2008). Edward Elgar Publishing Limited, Böyük Britaniya.

2. Madrid Sistemi haqqında təlimat (Madrid Protokolu altında nişanların beynəlxalq qeydiyyatı). WIPO Madrid. Son yenilənmə tarixi: 2022.

3. Lanham Aktı. 1946// https://www.law.cornell.edu/wex/lanham_act

4. Novotorqovı Nizamnaməsi. 1667// http://www.hist.msu.ru/ER/Etext/novotorg.htm

5. "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişi. 1891// https://wipolex-res.wipo.int/edocs/lexdocs/treaties/ru/madrid-gp/trt_madrid_gp_002ru.pdf

6. Samuel Breck və digərlərinin Müraciəti. 9 dekabr, 1791// https://prabook.com/web/samuel.breck/1056258

7. Sənayə Mülkiyyətinin Mühafizəsi Üzrə Paris Konvensiyası. 20 mart, 1883-cü il.

8. Vüqar Nəzərov, "Kiçik Sahibkarlıq Sahəsində Rəqabətin İnkişafı və Antiinhisar Siyasətin Aktual Problemləri". TURAN-SAM (TURAN Stratejik Araşdırmalar Mərkəzi), cild 2, buraxılış 6. 2010

9. https://www.dennemeyer.com/ip-blog/news/the-evolution-of-trademarks-from-ancient-egypt-to-modern-times/

10. https://www.wipo.int/podcasts/en/madrid/transcripts/international_trademark_system_talk_01.html

FROM HIEROGLYPHS TO LOGOS: THE HISTORY AND EVOLUTION OF TRADEMARKS

Chingiz Chingizzadeh[*]

Abstract

This article provides a historical overview of the development of trademarks, tracing its origins back to ancient civilizations such as the Greeks and Romans. Trademarks have gone through centuries of development. During this period, they have undergone significant changes. Trademarks are an important aspect of modern commerce, allowing businesses to build and protect their brands. However, the history of trademarks goes back to very ancient times and testifies to the existence of such practices in ancient civilizations. The article explains how trademark law evolved through the Middle Ages and the Renaissance, and how it eventually came to be recognized as a distinct area of law in the 19th century. The article also discusses some of the key legal cases and statutes that have shaped the modern understanding of trademark law, including the Paris Convention. Finally, the article looks at some of the current issues and debates in the world of trademark law, such as the impact of the internet and the rise of global brands. Overall, the article provides a comprehensive introduction to the history and evolution of trademark law.

Keywords: *trademark, designation, Paris Convention, industrial property, Madrid Agreement, Convention priority.*

ОТ ИЕРОГЛИФОВ К ЛОГОТИПАМ: ИСТОРИЯ И ЭВОЛЮЦИЯ ТОВАРНЫХ ЗНАКОВ

Чингиз Чингиззаде [**]

Резюме

Данная статья представляет собой исторический обзор развития товарных знаков, прослеживая его происхождение до древних цивилизаций, таких как греки и римляне. Товарные знаки прошли столетия развития. За этот период они претерпели существенные изменения. Товарные знаки являются важным аспектом современной торговли, поз-

[*] Ph.D. Candidate, Baku State University

[**] Докторант Бакинского государственного университета

воляя предприятиям создавать и защищать свои бренды. Однако история товарных знаков уходит корнями в очень древние времена и свидетельствует о существовании подобной практики в древних цивилизациях. В статье объясняется, как развивалось законодательство о товарных знаках в Средние века и в эпоху Возрождения, и как в конце концов оно стало признаваться в качестве отдельной области права в XIX веке. В статье также рассматриваются некоторые ключевые судебные дела и законодательные акты, сформировавшие современное понимание законодательства о товарных знаках, в том числе и Парижская конвенция. Наконец, в статье рассматриваются некоторые из текущих вопросов и дискуссий в мире законодательства о товарных знаках, такие как влияние Интернета и рост мировых брендов. В целом, статья представляет собой всеобъемлющее введение в историю и эволюцию законодательства о товарных знаках.

Ключевые слова: *товарный знак, обозначения, Парижская Конвенция, промышленная собственность, Мадридское соглашение, Конвенционный приоритет*.

MƏDƏNİ VƏ TƏBİİ İRSİN QORUNMASININ BEYNƏLXALQ VƏ MİLLİ NORMATİV-HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Leyla Həşimova*

Xülasə

Məqalədə mədəni və təbii irsin qorunmasının beynəlxalq və milli normativ-hüquqi tənzimlənməsi məsələləri hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və mühüm beynəlxalq sənədlərlə geniş təhlil edilir. Qeyd edilənlər Azərbaycan Respublikasının milli qanunvericiliyinin qarşılıqlı təhlili ilə bərabər aparılır. Belə nəticəyə gəlinir ki, mədəni və təbii irsin qorunmasının beynəlxalq və milli normativ-hüquqi tənzimlənməsi nəsələlərinin təhlili iki istiqamətdə aparılmalıdır. Beynəlxalq-hüquqi tənzimetmə zamanı belə qənaətə gəlmək olar ki, burada əsas yeri beynəlxalq sənədlər tutur. Beynəlxalq sənədlərin isə özündə dövlətlərin konkret öhdəlikləri formasını müəyyən edən və ya "bərk hüquq" normalarına söykənən beynəlxalq müqavilələr formasında qəbul edilməsi daha məqsədəmüvafiq olardı. Hazırda bu istiqamət BMT-nin mühüm ixtisaslaşdırılmış təsisatı olan UNESCO çərçivəsində həyata keçirilsə də, digər regional beynəlxalq təşkilatlar çərçivəsində də regional beynəlxalq müqavilələrin qəbul edilməsi zəruriliyi müsbət tendensiya kimi irəli sürülə bilər. Daha sonra, lokal və ikitərəfli müqavilələrin imzalanması bu prosesə əhəmiyyətli töhvə verə bilər. Hüquqi tənzimlənmə üzrə ikinci istiqamət milli qanunvericiliyin formalaşdırılmasıdır ki, burada da universal, regional, lokal və ikitərəfli müqavilələrin müddəalarının implementasya edilməsi, beynəlxalq nəzarət mexanizmlərini tamamlayan milli nəzarət mexanizmlərinin səmərəli şəkildə formalaşdırılması zəruridir.

Açar sözlər: *mədəni irs, təbii irs, maddi irs, qeyri-maddi irs, beynəlxalq təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları.*

Mədəni irs özündə maddi və qeyri-maddi irsi birləşdirməklə bərabər bu sahədə tənzimetmə xüsusiyyətlərinə görə də fərqlənir. Həm beynəlxalq hüquqi tənzimetmə sferasında, həm də dövlətdaxili hüquqi tənzimetmədə bu sahədə müxtəlif beynəlxalq konvensiyalar və milli qanunvericilik aktları qəbul edilmişdir. Mədəni irs də bir mülkdir, sadəcə pul və ya mülk deyil, mədəniyyəti, dəyərləri birləşdirən sərvətdir. Mədəni irs həmçinin tariximizi, keçmişimizi bu günümüzü əlaqələndirən bir vasitədir. Ümumiyyətlə, mədəni irs anlayışı daha genişdir, yavaş-yavaş insan yaradıcılığının və ifadəsinin hər formasını, yəni şəkilləri, sənədləri, kitabları və əl yazmalarını, alətləri, şəxsi əşyaları və kolleksiyaları əhatə edəcək qədər genişlənmişdir. Hüquq ədəbiyyyatında beynəlxalq sənədlərə istinad edilərək mədəni irs bir neçə qrupda (məsələn, maddi və qeyr-maddi və s.) təsnifləşdirilir. [1]

Mədəni irsin qorunması insan hüquqlarının qorunmasının tərkib hissəsi olaraq qəbul edilməlidir. Mədəni irs obyektlərinə mülkiyyət hüququnu mədəniyyət sahəsindəki insan hüququ kimi hesab etmək olar. Mədəni özünüifadə ayrı-ayrı şəxslərin, qrupların və ya cəmiyyətlərin, xalqların, millətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan ifadə forması kimi qəbul edilir. Qeyd edilənlər burada insan hüquqları amilini xüsusi olaraq qeyd edir.

* hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müəllimi

Mədəni irsi həm də cəmiyyətin köhnə, vacib və qorunmağa layiq hesab etdiyi yerlər, əşyalar və təcrübələr kimi də müəyyən etmək olar. Hazırda bu konseptual əhatə dairəsi gündən günə keçdikcə genişlənir. Mədəni irsə geniş mənada mədəniyyətlər, adət-ənənələr, inanclar, ayinlər, mərasimlər, yerli biliklər, sosial adət və ənənələr, mədəniyyət və davranışa təsir edən incəsənət, sənətkarlıq, musiqi, siyasi və ideoloji inanclar, tarix, təbii mühitə aid təcrübələr, dini və elmi ənənələr, dil, idman, kulinariya, təqvimlər, ənənəvi geyimlər, rəqəmsal dünyada kibermədəniyyətlər və gələcəyin mirasına çevriləcək yeni mədəniyyətlər, mübahisəli tarix və ziddiyyətli rəvayətlər, mədəni imperializm, yaddaş, şəxsiyyət, senzura, multikulturalizm, insan qalıqlarının repatriasiyası, muzeylər, milli kimlik, muzeylərdə, arxivlərdə və kitabxanalarda təcrübə mədəniyyətləri, mənəvi hüquqlar, əqli mülkiyyət, məxfilik və məlumat təhlükəsizliyi məsələləri, məlumatdan etik istifadə, mədəni irsin təmsil olunmasında kommunikasiya vasitələrinin rolu və mədəni irsə tətbiq olunan tənqidi düşüncə və s. daxildir.

Göründüyü kimi, mədəni irs kateqoriyası genişdir və buna uyğun olaraq da tənzimlənmə mürəkkəbliyi ilə fərqlənir. Fikrimizcə mədəni irsin faktorlarına keçmiş nəsillərdən miras qalmış cəmiyyətin fiziki artefaktlarını və qeyri-maddi atributları da aid edilə bilər. Arxeoloji irs də burada xüsusi yer tutur. [2, s.213-215]

Mədəni sərvətlərə incəsənət əsərləri kimi fiziki və ya maddi mədəni irs daxildir. Bunlar ümumiyyətlə daşınan və daşınmaz irs olaraq iki qrupa bölünür. Daşınmaz irsə binalar, iri sənaye qurğuları, yaşayış layihələri və ya digər tarixi yerlər və abidələr daxildir. Daşınar irsə kitablar, sənədlər, daşınan sənət əsərləri və gələcək üçün qorunmağa layiq sayılan digər artefaktlar daxildir. Bunlara müəyyən mədəniyyətin arxeologiyası, memarlığı, elmi və ya texnologiyası üçün əhəmiyyətli olan obyektlər daxildir. Hüquq ədəbiyyatında qeyd edilir ki, mədəni irs insan fəaliyyətinin nəticəsi olaraq maddi və qeyri-maddi formada yaradılan daşınar və daşınmaz mədəni sərvətlərdə və yaxud da irs obyektlərində ifadə olunan, cəmiyyətin və ya qrupun milli mədəni özünəməxsusluğunun saxlanması və inkişafı üçün universal əhəmiyyət kəsb edən və təkrarolunmazlıq xüsusiyyətinə malik olan tarixi, arxeoloji, bədii, elmi, estetik dəyərləri özündə ehtiva edən məcmudur. [3, s.34]

"Mədəniyyət haqqında" 21 dekabr 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində milli mədəni irs Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu kimi xarakterizə edilmişdir. Mədəni irs nümunələrinə isə özündə bir xalqın, milli azlığın maddi və qeyri-maddi mədəni irs nümunələrini əks etdirən mədəni sərvətlərin məcmusu aiddir. Bura yeraltı, yerüstü və sualtı mədəni irs nümunələri aiddir. Qanunda, eyni zamanda, maddi və qeyri-maddi mədəni irs də fərqləndirilir. Maddi mədəni irs daşınmaz və daşınar mədəni irsi, qeyri-maddi mədəni irs isə şəxslərin, qrupların və cəmiyyətin özünün mədəni irs nümunələri kimi qəbul etdikləri ənənələr, təsvir və ifadə formaları,

bilik və bacarıqlar, onların yaradılmasında istifadə olunan alətlər, əşyalar, artefaktlar və mədəniyyət məkanlarını ifadə edir. [4]

Qanunda fərqləndirilən anlayışlardan biri də daşınar və daşınmaz mədəni irsdir. Daşınar mədəni irs tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlərin məcmusudursa, daşınmaz mədəni irs daşınmaz arxeoloji, memarlıq, bağ-park, monumental, xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, o cümlədən mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji komplekslər, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar kimi qeyd edilmişdir. [4]

1954-cü il tarixli Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında UNESCO Konvensiyası ilə, mədəni irsin mühafizəsi və ya mədəni sərvətlərin mühafizəsi dedikdə, mədəni sərvətləri zədələnmədən, məhv olmaqdan, oğurlamaqdan, mənimsəməkdən və ya başqa itkilərdən qorumaq üçün bütün tədbirlər başa düşülür. [5] Mədəni irsin qorunması ilə bağlı normal qorunmanın təmin olunması üçün müvafiq beynəlxalq və ya müvafiq dövlət qurumlarının konkret fəaliyyəti olmalıdır. [6, s.121] Konvensiya ümumi və xüsusi mühafizəni bir-birindən ayıraraq, mədəni obyektlər arasında daha dəqiq fərqlənmə aparır. Konvensiya xüsusi mühafizə altında olan dəyərə buna uyğun yanaşılmasını nəzərdə tutur, həmçinin işğal olunmuş ərazilərdə mədəni sərvətlərin qorunmasına dair qaydaları sistemli şəkildə müəyyən edir. Haqlı olaraq qeyd edilir ki, hər bir xalqın mədəni irsini tanıyan xüsusi mühafizə silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında Əlavə Protokolları ilə tamamlanan 1954-cü il UNESCO Konvensiyasında təsbit olunmuşdur və beynəlxalq adət-ənənələrin bir hissəsinə çevrilmişdir. [7, s.196]

Beləliklə, mədəni irsin qorunması özündə mədəni irs obyektlərinin aşkar edilməsini, saxlanması və mühafizəsini ehtiva edir. Mədəni irsin qorunması fəaliyyəti dövlətdaxili və beynəlxalq hüququn tənzimetmə sferasına daxil olduğundan mədəni irsin qorunması mədəni irs obyektlərinin aşkar edilməsi, saxlanması, mühafizəsi, təbliği və təşviqi üzrə həyata keçirilən tədbirlərin müəyyən sistemini təşkil edir.

Bu beynəlxalq sənədlərdən digər əsası Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında 16 noyabr 1972-ci il tarixli UNESCO Konvensiyasıdır. Konvensiyanın əhəmiyyəti bir sıra amillərlə izah edilə bilər.

İlk növbədə, qeyd edilməlidir ki, müasir dövrdə daha çox rast gəlinən hallardan biri kimi mədəni və təbii irsin daha çox dağılmaya məruz qalma təhlükəsinin artması qeyd edilməlidir ki, bu da həmin Konvensiyanın qəbulunu şərtləndirmişdir.

İkincisi, Konvensiya ilə hər hansı mədəni və təbii irsin korlanmasının bütün xalqların sərvəti və mədəniyyətinə mənfi təsir etməsi birmənalı olaraq təsdiq edilmişdir. Məhz Konvensiyanın da qəbul edilməsinin əsas istiqamətlərin-

dən biri bundan ibarətdir və bu hal dövlətlərin qeyd edilən beynəlxalq sənəddə iştirakını zəruri amil kimi irəli sürür.

Üçüncüsü, mədəni və təbii irsin hər bir dövlətin ərazisində mühafizəsi üçün bəzən böyük miqdarda vəsat tələb etməsi, bunu isə dövlətlərin özlərinin iqtisadi inkişaf səviyyəsi imkan verməməsi ilə də nəzərə alınmaqla belə bir beynəlxalq sənədin qəbul edilməsini ciddi surətdə şərtləndirmişdir.

Bundan başqa, qeyd edilən sferada mühüm beynəlxalq normaların qəbul edilməsi üzrə xalqların və dövlətlərin yaxınlaşmasını və bu sahədə biliklərin, o cümlədən informasiyaların yayılmasını təmin etmək olar.

Bundan başqa, xüsusi olaraq qeyd edilməlidir ki, dünyada mövcud olan bəzi mədəni və təbii irs dəyərlərinin bütün bəşəriyyətin ciddi marağında olması, daha sonra bu sahədə kollektiv yardım göstərilməsinin zəruriliyi də qeyd edilməlidir. Eyni zamanda, əməkdaşlığın elmi əsaslarının işlənib hazırlanması zəruriliyi, bu istiqamətdə mühüm konsepsiyaların və beynəlxalq sənədlərin qəbul edilməsi də əhəmiyyətli olardı. [8, s.22-25]

Konvensiyanın 1-ci maddəsi ilə "mədəni irs" dedikdə, abidələr, ansamblar və görkəmli yerlər nəzərdə tutulur. Konvensiya abidələr anlayışını da müəyyən edir. Belə ki, abidələr dedikdə isə, memarlıq, monumental həykəltəraşlıq və boyakarlıq əsərləri, arxeoloji xarakterli ünsürlər və ya strukturlar, kitabələr, mağara məskənləri və tarix, incəsənət, yaxud elm baxımından görkəmli universal dəyərə malik ünsür qrupları nəzərdə tutulur. Konvensiya ilə ansambllar isə memarlığı, peyzajla vəhdəti və ya əlaqəsi tarix, incəsənət, yaxud elmi baxımdan görkəmli universal dəyərə malik əlahiddə və ya birləşdirilmiş tikili qruplarını özündə birləşdirir. Görkəmli yerlər dedikdə isə, insan əlinin əməli, yaxud insan və təbiətin birgə əsəri, eləcə də, diqqətəlayiq arxeoloji yerlər daxil olmaqla, tarix, estetika, etnologiya və ya antropologiya baxımından görkəmli universal dəyərə malik zonalar başa düşülür. [9]

Konvensiyanın 2-ci maddəsi ilə təbii irsə estetika, yaxud elm baxımından görkəmli universal dəyərə malik fiziki və bioloji birləşmələrdən və ya belə birləşmə qruplarından ibarət təbiət abidələri, elm, yaxud konservasiya baxımından görkəmli universal dəyərə malik geoloji və fizioqrafik birləşmələr və təhlükəyə məruz qalan heyvan və bitki arealı olan dəqiq hüdudlanmış zonalar, görkəmli təbii yerlər, yaxud elm, konservasiya və ya təbii gözəllik baxımından görkəmli universal dəyərə malik dəqiq hüdudlanmış təbii zonalar başa düşülür. [9]

Konvensiya ilə dövlətlərin bir sıra öhdəlikləri müəyyən edilmişdir. Bütövlükdə, beynəlxalq sənədlərdə öhdəliklər maddi və implementasiya öhdəlikləri kimi təsnifləşdirilir. [10, s.121-125] Ədəbiyyatda bundan başqa onların iki qrupu da fərqləndirir: maddi öhdəliklər və implementasiya öhdəlikləri. İkinci qrup öhdəliklər - beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş mexanizmlərin fəaliyyəti ilə bağlı dövlətlərin həyata keçirməli olduqları vəzifələrdir, məsələn, beynəlxalq orqana müntəzəm məruzələr təqdim edilməsi və s. Eyni zamanda, müxtəlif meyarlar tətbiq etməklə göstərilən öhdəliklər digər əsaslarla da təsnifləşdirilir: müqavilə

öhdəlikləri və beynəlxalq adətdən irəli gələn öhdəliklər; ümumi və konkret öhdəliklər və s. [11, s.46]

Bu tip öhdəliklərdən birincisi ümumi şəkildə 4-cü maddədə qeyd edilmişdir. Belə ki, qeyd edilir ki, hər bir dövlət öz ərazisində yerləşən mədəni və təbii irsin aşkara çıxarılmasını, mühafizə edilməsini, qorunub saxlanmasını, populyarlaşdırılmasını və gələcək nəsillərə çatdırılmasını təmin etmək öhdəliyinin ilk növbədə ona həvalə olduğunu etiraf edir. Bu məqsədlə o, həm mövcud ehtiyatlardan maksimum istifadə etmək yolu ilə öz səyləri, həm də, lazım gəldikdə, istifadə edə biləcəyi beynəlxalq yardım və əməkdaşlıq - o cümlədən, maliyyə, bədii, elmi və texniki baxımdan - vasitəsilə hərəkət etməyə çalışır. [9]

Ümumi öhdəlikdən çıxış edərək xüsusi öhdəliklər də digər sahələrdə olduğu kimi burada da ətraflı şəkildə qeyd edilmişdir [3, s.38] ki, Konvensiyanın 5-ci maddəsi ilə bunlara daxildir: mədəni və təbii irsə aid ictimai həyatda müəyyən funksiyalar verilməsinə yönəldilmiş ümumi siyasət yeritmək və bu irsin mühafizəsini ümumi planlaşdırma proqramlarına daxil etmək; öz ərazisində mədəni və təbii irsin mühafizəsi, qorunub saxlanması və populyarlaşdırılması üzrə üzərinə qoyulan vəzifələri yerinə yetirmələrinə imkan verən müvafiq personal və vasitələrə malik bir və ya bir neçə xidmət təsis etmək; dövlətin onun mədəni və təbii irsi üçün qorxu yaradan təhlükələri aradan qaldırmasına imkan verən elmi və texniki işləmə və tədqiqatları inkişaf etdirmk və iş metodlarını təkmilləşdirmək; bu irsi üzrə çıxarmaq, qoruyub saxlamaq, populyarlaşdırmaq və bərpa etmək üçün müvafiq hüquqi, elmi, texniki, inzibati və maliyyə tədbirləri görmək; mədəni və təbii irsin mühafizəsi, qorunub saxlanması və populyarlaşdırılması sahəsində milli və ya regional kadr hazırlığı mərkəzlərinin yaradılmasına, yaxud inkişafına yardım göstərməyə, həmçinin, bu sahədə elmi tədqiqatları həvəsləndirməyə çalışmaq. [9]

Mədəni və təbii irsin qorunması sahəsində dövlətlərin beynəlxalq hüququn əsas ümumtanınmış prinsiplərinə riayət etməsi də vacib məsələlərdəndir. Məhz bu prinsilər beynəlxalq hüquq qaydasının əsası kimi çıxış etdiyindən beynəlxalq normayardıcılığının da əsasında dayanırlar. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin xarakterik xüsusiyyəti bütün beynəlxalq sənədlərdə birməmalı şəkildə tanınmışdır. [11, s.24-25] Beləliklə, BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannaməsi və ATƏM-in 1975-ci il tarixli Helsinki Yekun Aktı ilə beynəlxalq hüququn 10 mühüm prinsipi müəyyən edilmişdir: güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipi; beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi; dövlətlərin suveren bərabərliyi prinsipi; dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi; dövlətlərin beynəlxalq əməkdaşlığı prinsipi; beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi (pacta sund servanda); xalqların və millətlərin hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi; dövlətlərin ərazi bütövlüyü prinsipi; sərhədlərin pozulmazlığı prinsipi; insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi. [12, s.10-11]

Ümumiyyətlə qeyd edilməlidir ki, beynəlxalq hüququn prinsipləri bütün beynəlxalq normativ-hüquqi sistemin əsasında dayanır. Bütövlükdə isə, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri ilə bağlı beynəlxalq hüquqi tənzimetmədə konvensiyaların özündə də birbaşa istinadlar edilmişdir. Belə ki, Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 2005-ci tarixli UNESCO Konvensiyasının 2-ci maddəsində əks olunan suverenlik prinsipi ilə əlaqədar qeyd edilir ki, BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq, dövlətlər öz əraziləri çərçivəsində mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək üçün lazımi tədbirlər görmək və siyasətlər həyata keçirmək kimi suveren hüquqa malikdirlər. [13]

Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında 1972-ci il tarixli UNESCO Konvensiyasının 6-cı maddəsinin 1-ci hissəsində də deyilir ki, dövlətlər öz ərazisində yerləşən mədəni və təbii irsi olan dövlətlərin suverenliyinə tam hörmət etməklə həyata keçirməlidirlər. Mühafizənin məzmununa gəldikdə isə, bu mədəni və təbii irsin bütün xüsusiyyətlərinin tam şəkildə qorunmasını əhatə edir. Konvensiyanın 7-ci maddəsində isə qeyd edilir ki, ümumdünya mədəni və təbii irsinin beynəlxalq mühafizəsi dedikdə, Konvensiyanın tərəf-dövlətlərinə bu irsi qoruyub saxlamağa və üzrə çıxarmağa yönəldilmiş səylərində kömək etmək üçün beynəlxalq əməkdaşlıq və yardım sistemi yaradılması başa düşülür. [3, s.42-45]

Konvensiya ilə mühafizə məsələlərinin tənzimlənməsi müvafiq tədbirlərin görülməsini də zəruri edir. Bu məqsədlə də Konvensiyanın III bölməsi yaradılan beynəlxalq mexanizm kimi Ümumdünya mədəni və təbii irsinin mühafizəsi üzrə hökumətlərarası komitənin fəaliyyətinə həsr edilmişdir. Belə ki, belə orqan qismində hökumətlərarası komitə olan Ümumdünya irsi komitəsi yaradılır. Komitə üzvlərinin seçkisi dünyanın müxtəlif bölgələrinin və mədəniyyətlərinin ədalətli təmsil olunmasını təmin etməklə 21 dövləti əhatə edir. Komitənin iclaslarında Mədəni dəyərlərin qorunması və bərpası üzrə Romada yerləşən Beynəlxalq Tədqiqat Mərkəzinin, Abidələrin və tarixi yerlərin mühafizəsi üzrə Beynəlxalq Şuranın və Təbiəti və təbii sərvətlərin Beynəlxalq Mühafizə İttifaqının hər birindən məşvərətçi səs hüququ ilə bir nümayəndə iştirak edə bilər, bundan başqa Komitə istədiyi vaxt ictimai, yaxud özəl təşkilatları, həmçinin ayrı-ayrı şəxsləri dəvət edə bilər. Qeyd edilənlər beynəlxalq qeyri-hökumət təşkilatlarının beynəlxalq hökumətlərarası təşkilatlar sisteminə və dövlətlərarası əməkdaşlığın mühüm istiqaməti olan beynəlxalq müqavilələr sisteminə cəlb edilməsinə əyani sübutdur. Bu hal mədəni və təbii irsin qorunmasında xüsusilə zəruriliyi ilə hiss edilir ki, bu da həmin Konvensiyada yüksək səviyyədə təmin edilmişdir.

Bu zaman əsas məsələlərdən biri də mədəni və təbii irslərin müəyyən edilməsidir. Belə ki, dövlətlər bu siyahıya daxil edilə bilən mədəni və təbii irs dəyərlərinin siyahısını, imkan daxilində, Ümumdünya irsi komitəsinə təqdim edirlər. Eyni zamanda, həmin dəyərlərin yerləşdiyi yerlər haqqında bütün dövlətlərə məlumat verilməli və dərc edilməlidir. Siyahılar daim yenilənməklə iki ildə bir dəfədən gec olmayaraq tərəf-dövlətlərə göndərilir.

Burada əsas məsələlərdən biri də təhlükə altında mədəni və təbii irslərin müəyyən edilməsidir ki, bu zaman da Komitə Ümumdünya irsi siyahısında olan, xilas edilməsi üçün xeyli iş tələb olunan və bu Konvensiya çərçivəsində yardım istənilən dəyərlərin siyahısını "Təhlükədə olan ümumdünya irsi siyahısı" adı ilə tərtib edir, yeniləşdirir və dərc etdirir. [9] Bu siyahıya yalnız ciddi və konkret təhlükələrin - məsələn, güclənməkdə olan dağıntı nəticəsində yox olma, iri ictimai, yaxud özəl layihələrin həyata keçirilməsi, şəhərlərin və turizmin sürətli inkişafı, təyinatının və ya mülkiyyət hüququnun dəyişməsi ilə bağlı dağıdılma səbəbi müəyyən olmayan ciddi zədələnmə, hər hansı səbəbdən baxımsızlıq, təbii fəlakətlər və kataklizmlər, silahlı münaqişə qorxusu, böyük yanğınlar, zəlzələlər, sürüşmələr, vulkan püskürmələri, suyun səviyyəsinin dəyişməsi, daşqınlar, qabarmalar-təhdid etdiyi mədəni və təbii irs dəyərləri daxil edilə bilər. Komitə fövqəladə şəraitlərdə istənilən vaxt təhlükədə olan ümumdünya irsi siyahısına yeni dəyərlər sala və bu haqda dərhal xəbər verə bilər. [9] Konvensiyanın mühüm istiqamətlərindən biri də bu istiqamətdə dövlətlərdən real fəaliyyət həyata keçirilməsi və ya bu istiqamətdə səmərəli əməkdaşlıq edilməsinin tələb edilməsidir.

Bu istiqamətdə mühüm məsələlərdən biri də Komitə tərəfindən həmin mədəni vıə təbii irslərə dəstək verilməsindən ibarətdir. [8, s.34] Konvensiyanın 13-cü maddəsində deyilir ki, Ümumdünya irsi komitəsi bu Konvensiyanın tərəf-dövlətlərinin ərazilərindəki mədəni və təbii irs dəyərləri barəsində beynəlxalq yardım göstərilməsinə dair sifarişlərini alır və öyrənir. Bu sifarişlərin məqsədi həmin dəyərləri mühafizə etmək, qoruyub saxlamaq, populyarlaşdırmaq və bərpa etməkdir. Komitə bu sifarişlər üzrə qərar qəbul edir, lazım gəldikdə, öz köməyinin xarakterini və həcmini müəyyənləşdirir və öz adından maraqlı hökumətlə lazımi saziş bağlanmasına dəstək verir. Komitə öz əməliyyatları üçün ardıcıllıq müəyyən edir. Sonda Komitə beynəlxalq yardım ayrılan dəyərlərin siyahısını tərtib edir, yeniləşdirir və yayır. [9]

Komitənin mühüm istiqamətlərindən biri də onun beynəlxalq və milli, hökumət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq etməsidir. Bu təşkilatlar beynəlxalq və yerli qeyri-hökumət təşkilatları, ayrı-ayrı şəxslər-ekspertlər ola bilər. Real praktikada da bu istiqamətdə ciddi və səmərəli əməkdaşlıq daim müşahidə olunur. Dövlətlərdən də vətəndaş cəmiyyətinin aktiv iştirakının təmin edilməsi qarşıya mühüm məqsəd kimi qoyulur.

Komitənin qərarları iclasda və səsvermədə iştirak edən üzvlərin üçdə ikisinin səs çoxluğu ilə qəbul edilir. Komitəyə UNESCO Baş direktorunun təyin etdiyi katiblik kömək edir. Komitənin mədəni və təbii irsin mühafizəsi məqsədilə Ümumdünya irsi fondu adlandırılan fondu təsis edilir. Fondun vəsaiti əsasən üzv- dövlətlərin məcburi və könüllüödəmələrindən, edilə bilən töhfə, hədiyyə, yaxud vəsiyyət məbləğlərindən, Fondun verdiyi borcların faizlərindən, Fondun nəfinə təşkil edilmiş tədbirlərdən gələn rüsum və mədaxil məbləğlərindən, Ümumdünya irsi komitəsinin Fond haqqında işləyib hazırladığı müddəaların icazə verdiyi hər hansı digər ehtiyatlardan ibarətdir. Ümumdünya irsi komitəsi

Fondun beynəlxalq yardım göstərməsi barədə ona daxil olan sifarişlərə baxılması prosedurasını müəyyən edir, xahişin ehtimal edilən əməliyyatın xarakterini, görülməli işlərin həcmini, sonuncuların təxmini qiymətini, təcililik dərəcəsini və yardım üçün müraciət etmiş dövlətin bütün lazımi xərcləri müstəqil çəkməsinə imkan verməyən səbəbləri müəyyən etməli olan məzmununu dəqiqləşdirir. [9]

Konvensiya ilə Ümumdünya irsi Komitəsinin yardımı aşağıdakı formalarda ola bilər: mədəni və təbii irsin mühafizəsinin qorunub saxlanmasının, bərpasının və populyarlaşdırılmasının irəli sürdüyü bədii, elmi və texniki problemlərin tədqiq; təsdiq edilmiş layihələrin qənaətbəxş yerinə yetirilməsini təmin etmək üçün ekspertlərin, texniklərin və ixtisaslı fəhlələrin göndərilməsi; mədəni və təbii irsin üzə çıxarılması, mühafizəsi, qorunub saxlanması, bərpası və populyarlaşdırılması sahəsində bütün səviyyələrdə mütəxəssis hazırlığı; maraqlı dövlətlərin malik olmadıqları, yaxud əldə etmək iqtidarında olmadıqları avadanlığın verilməsi; aşağı faizli, yaxud faizsiz uzunmüddətli kredit verilməsi; müstəsna və məxsusi əsaslandırılmış hallarda əvəzsiz maliyyə yardımı göstərilməsi. [9]

Konvensiyanın 24-cü maddəsində qeyd edilir ki, böyük miqdarda yardımdan əvvəl əsaslı elmi, iqtisadi və texniki tədqiqatlar aparılmalıdır. Bu tədqiqatlarda mədəni və təbii irsin ən qabaqcıl mühafizə, qorunub saxlanma, bərpa və populyarlaşdırma metodlarından istifadə edilməli və onlar bu Konvensiyanın məqsədlərinə cavab verməlidir. Tədqiqatlarda, həmçinin, maraqlı dövlətin mövcud ehtiyatlarından rasional istifadə edilməsinə imkan verən yollar da müəyyən olunmalıdır.

Konvensiyanın 29-cu maddəsində dövlətlərin bir sıra digər öhdəlikləri də müəyyən edilmişdir. Belə ki, qeyd edilir ki, üzv-dövlətkər UNESCO Baş Konfransına etdikləri məruzələrdə bu Konvensiyanı yerinə yetirmək məqsədilə qəbul etdikləri qanunvericilik və nizamlama müddəaları və digər tədbirlər, habelə bu sahədə topladıqları təcrübə haqqında məlumatları bildirirlər. Bu məruzələr Ümumdünya irsi komitəsinin nəzərinə çatdırılır. Komitə UNESCO-nun hər növbəti sessiyasına öz fəaliyyəti barədə geniş məruzə təqdim edir. [9]

Qeyd edilənlər beynəlxalq nəzarət sisteminin mədəni və təbii irsin qorunması sahəsində kifayət qədər səmərəli formalaşdığını göstərir. Ümumiyyətlə, beynəlxalq nəzarət sisteminin səmərəli formada təşkili beynəlxalq öhdəliklərin yerinə yetirilməsində əsas amillərdən hesab edilir ki, bu da hüquq ədəbiyyatında geniş təhlil edilir və əsaslandırılır. [14, s.44-45]

Beləliklə, mədəni və təbii irsin qorunmasının beynəlxalq və milli normativ-hüquqi tənzimlənməsi nəsələlərinin təhlili iki istiqamətdə aparılmalıdır.

Beynəlxalq-hüquqi tənzimetmə zamanı belə qənaətə gəlmək olar ki, burada əsas yeri beynəlxalq sənədlər tutur. Beynəlxalq sənədlərin isə özündə dövlətlərin konkret öhdəlikləri formasını müəyyən edən və ya "bərk hüquq" normalarına söykənən beynəlxalq müqavilələr formasında qəbul edilməsi daha məqsədəmüvafiq olardı. Hazırda bu istiqamət BMT-nin mühüm ixtisaslaşdırılmış təsisatı olan UNESCO çərçivəsində həyata keçirilsə də, digər regional beynəlxalq təşkilatlar çərçivəsində də regional beynəlxalq müqavilələrin qəbul edilməsi zə-

ruriliyi müsbət tendensiya kimi irəli sürülə bilər. Daha sonra, lokal və ikitərəfli müqavilələrin imzalanması bu prosesə əhəmiyyətli töhvə verə bilər.

Hüquqi tənzimlənmə üzrə ikinci istiqamət milli qanunvericiliyin formalaşdırılmasıdır ki, burada da universal, regional, lokal və ikitərəfli müqavilələrin müddəalarının implementasya edilməsi, beynəlxalq nəzarət mexanizmlərini tamamlayan milli nəzarət mexanizmlərinin səmərəli şəkildə formalaşdırılması zəruridir.

İstinadlar:

1. Бабекин Д.В. Международно-правовой принцип сохранения культурного наследия «in-situ» в процессе глобализации // Культура: управление, экономика, право, 2012, № 1.

2. Богуславский М.М. Культурные ценности в международном обороте: правовые аспекты. Москва, Норма, ИНФРА-М, 2015.

3. Süleymanlı S.A. Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasinin qanunvericiliyi. Bakı, Azərbaycan nəşriyyatı, 2018.

4. "Mədəniyyət haqqında" 21 dekabr 2012-ci il tarixli Azərbaycan Respublikasının Qanunu//https://e-qanun.az/framework/25303

5. 1954-cü il tarixli Silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında UNESCO Konvensiyası//https://unesco.preslib.az/az/page/EhMCymTGWI

6. Labadi Sophia. UNESCO, Cultural Heritage, and Outstanding Universal Value: Value-based Analyses of the World Heritage and Intangible Cultural Heritage Conventions (Archaeology in Society). Rowman & Littlefield Publishers, 2015.

7. O'Keefe Roger. The Protection of Cultural Property in Armed Conflict. Cambridge Studies in International and Comparative Law, Cambridge University Press, 2011.

8. Roger O'Keefe, Camille Péron, Tofig Musayev, Gianluca Ferrari. Protection of cultural property. Military manual. Italy, Sanremo, 2016.

9. 1972-ci il tarixli Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında UNESCO Konvensiyası//https://unesco.preslib.az/az/page/ZkBp5YPq2F

10. Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Киев, Институт государства и права НАН Украины, 2000

11. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Nurlar, 2019. 507s.

12. Əliyev Ə.İ. Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil. Bakı, 2018.

13. 2005-ci tarixli Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında UNESCO Konvensiyası//https://www.un.org/ru/documents/decl_conv/conventions/cultural_expression.shtml

14, Валеев Р.М. Контроль в современном международном праве. Казань, Издательство Центр инновационных технологий, 2001.

INTERNATIONAL AND NATIONAL NORMATIVE-LEGAL REGULATION OF CULTURAL AND NATURAL HERITAGE PROTECTION

Leyla Hashimova[*]

Abstract

In the article, the issues of international and national normative-legal regulation of the protection of cultural and natural heritage are extensively analyzed with the existing diversity of opinions in the legal literature and important international documents. The mentioned is carried

[*] Ph.D in law, Baku State University

out simultaneously with the mutual analysis of the national legislation of the Republic of Azerbaijan. It is concluded that the analysis of the generations of international and national normative-legal regulation of the protection of cultural and natural heritage should be carried out in two directions. In the case of international legal regulation, it can be concluded that the main place is occupied by international documents. It would be more appropriate for international documents to be accepted in the form of international agreements that determine the form of specific obligations of states or are based on "hard law" norms. Although this direction is currently implemented within the framework of UNESCO, an important specialized institution of the UN, the need to adopt regional international agreements within the framework of other regional international organizations can be put forward as a positive trend. Subsequently, the signing of local and bilateral agreements can make a significant contribution to this process. The second direction of legal regulation is the formation of national legislation, in which it is necessary to implement the provisions of universal, regional, local, and bilateral agreements, and to effectively form national control mechanisms that complement international control mechanisms.

Keywords: *cultural heritage, natural heritage, tangible heritage, intangible heritage, international organizations, international non-governmental organizations.*

МЕЖДУНАРОДНОЕ И НАЦИОНАЛЬНОЕ НОРМАТИВНО-ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ ОХРАНЫ КУЛЬТУРНОГО И ПРИРОДНОГО НАСЛЕДИЯ

Лейла Гашимова[*]

Резюме

В статье широко анализируются вопросы международного и национального нормативно-правового регулирования охраны культурного и природного наследия при существующем разнообразии мнений в юридической литературе и важных международных документах. Указанное осуществляется одновременно с взаимным анализом национального законодательства Азербайджанской Республики. Сделан вывод, что анализ поколений международного и национального нормативно-правового регулирования охраны культурного и природного наследия следует проводить по двум направлениям. В случае международно-правового регулирования можно сделать вывод, что главное место занимают международные документы. Международные документы целесообразнее было бы принимать в форме международных соглашений, определяющих форму конкретных обязательств государств или основанных на нормах «твердого права». Хотя в настоящее время это направление реализуется в рамках ЮНЕСКО, важного специализированного учреждения ООН, в качестве положительной тенденции можно назвать необходимость принятия региональных международных соглашений в рамках других региональных международных организаций. В дальнейшем существенный вклад в этот процесс может внести подписание местных и двусторонних соглашений. Второе направление правового регулирования - формирование национального законодательства, в котором необходимо реализовать положения универсальных, региональных, местных и двусторонних соглашений, а также эффективно сформировать национальные механизмы контроля, дополняющие международные механизмы контроля.

Ключевые слова: *культурное наследие, природное наследие, материальное наследие, нематериальное наследие, международные организации, международные неправительственные.*

[*] доктор философии по праву, Бакинский государственный университет

Fatimə Hüseynova. Ümumdünya səhiyyə təşkilatı səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli-hüquqi implementasıyasında əsas nəzarət mexanizmi kimi// Azərbaycan Hüquq Jurnalı. 2023 (№1), s.86-96

ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI SƏHİYYƏ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ MİLLİ-HÜQUQİ İMPLEMENTASIYASINDA ƏSAS NƏZARƏT MEXANİZMİ KİMİ

Fatimə Hüseynova*

Xülasə

Məqalədə universal nəzarət mexanizmi kimi Ümumdünya Ticarət Təşkilatının səhiyyə sahəsindəki beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında rolundan bəhs edilir. Qeyd edilir ki, Ümumdünya Ticarət Təşkilatı səhiyyə sahəsindəki beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyanda əsas universal nəzarət mexanizmi qismində çıxış edir. Məqalədə Ümumdünya Ticarət Təşkilatının normayaradıcılığı fəaliyyəti təhlil edilir. Onun çərçivəsində qəbul edilən aktların təsnifatı aparılır və həmin aktların hüquqi müqayisəsi həyata keçirilir.Qeyd olunan aktların müddəalarının dövlətlərin hüquqi sistemində implementasiya xüsusiyyətləri araşdırılır.

Ключевые слова: *Ümumdünya Ticarət Təşkilatı, səhiyyə, beynəlxalq hüquq normaları, milli hüquq, implementasiya, nəzarət mexanizmi.*

Müasir beynəlxalq hüquq normalarının milli hüquqa impelementasiyasında universal nəzarət mexanizmləri mühüm rola malikdir. Son illər səhiyyə sahəsi ilə bağlı həm universal, həm də regional təşkilatların qərarları ümdə xarakter kəsb etməkdədir. Xüsusilə COVİD-19 pandemiyasının dünyada yayılması kontekstində universal təşkilatlar milli hüquqa kifayət qədər təsir göstərmişdir. Səhiyyə sahəsində dövlətlərin öhdəliklərinin tam və vaxtında yerinə yetirilməsi beynəlxalq hüququn vacib məsələsi kimi çıxış edir. Bu mənada beynəlxalq hüquqda implementasiya institutunun əhəmiyyəti son dönəmlərdə daha çox nəzərə çarpır. Prof. A.S.Qaverdovskinin də qeyd etdiyi kimi, "implementasiya - dövlətlərin beynəlxalq hüquq normalarına uyğun olaraq qəbul etdikləri öhdəliklərin vaxtında və tam implementasiyası məqsədi ilə fərdi, birgə və ya beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirdikləri məqsədyönlü təşkilati-hüquqi fəaliyyət" [4, s.63] olaraq daha çox aktualdır. Eyni zamanda, səhiyyə sahəsində beynəlxalq hüquq normalarının implementasiyasının həm inkorporasiya, həm də transformasiya formasına rast gəlmək mümkündür.

Səhiyyə üzrə beynəlxaq qurumlar bir sıra sahələrdə - global səhiyyə münasibətlərinin, beynəlxalq tibb hüququnun inkişafında, yoluxucu xəstəliklərin qarşısının alınmasında və profilaktikasında, reproduktiv sağlamlığın qorunmasında mühüm rola malikdir. Bu səbəbdən də, bu qurumların qəbul etdiyi normalar səhiyyə sahəsində milli-hüquqi implementasiyaya həlledici təsir göstərir.

Professor G.Yuldaşovanın qeyd etdiyi kimi, "implementasiya" termini beynəlxalq hüquq praktikasında möhkəm kök salmışdır. BMT Baş Assambleyasının və onun orqanlarının çoxsaylı qətnamələrində, digər beynəlxalq təşkilatla-

* hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müəllimi

rın humanitar sahədə beynəlxalq müqavilələrin icrasının müzakirəsi ilə bağlı qəbul edilmiş qərarlarında rast gəlmək olar [12, s.14]. Ümumiyyətlə, beynəlxalq qurumların, o cümlədən səhiyyə sahəsində ixtisaslaşan transmilli təşkilatların qərarlarının milli hüquqi implementasiyası nəzəri və təcrübi əhəmiyyətə malikdir.

Beynəlxalq tibb və ya səhiyyə hüququnun hüququn müstəqil sahəsi kimi inkişafına universal təşkilatların töhfəsi əvəzsizdir. Son illər beynəlxalq səhiyyə hüququnun inkişafı qlobal səhiyyə siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Qlobal səhiyyə idarəçiliyinin bu yeni dövründə beynəlxalq təşkilatların sağlamlığın qorunması və təşviqində əhəmiyyəti böyükdür. Bu gün səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın və milli fəaliyyətin əlaqələndirilməsi universal nəzarət mexanizmlərinin və publik hüququn əsas istiqamətidir.

Müasir dövrdə səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyasında əsas nəzarət mexanizmi kimi Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) daha çox aktiv olan qurumlar sırasındadır. Beynəlxalq hüquq üzrə prof. Allin Taylor qeyd edir ki, ÜST və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) himayəsi altında hazırlanmış məcburi beynəlxalq müqavilələrin və digər beynəlxalq hüquqi sənədlərin qlobal təsirinə xüsusi diqqət yetirilir [5]. Həqiqətən də, bu gün ÜST səhiyyə sahəsi üzrə beynəlxalq hüquq normalarının mütərəqqi inkişafında və milli hüquqi implementasiyasında rolu və təsiri olan unikal qurumdur.

Biz bu paraqrafda səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyasında əsas nəzarət mexanizmi kimi ÜST-ün spesifik cəhətlərini araşdıracağıq.

Universal beynəlxalq təşkilat olan ÜST öz qərarlarının milli hüquq sistemlərində implementasiyasına xüsusi nəzarət həyata keçirən qurumlardan biridir. Bu mənada hesab etmək olar ki, ÜST son illərdə dövlətlərin milli hüquq sistemlərinə daha çox təsirini göstərən universal mexanizmlərdəndir. ÜST-ün fundamental məqsədləri kontekstində müvafiq tədbirlər ictimai həyatın müxtəlif sferalarında aparılır. [2, s.31]

XX əsrin ortalarından başlayaraq bu qurumun həm ayrı-ayrı ölkələr, həm də regionlarla işləmək praktikası formalaşmışdır. ÜST bütün insanlar üçün ən yüksək sağlamlıq standartlarına nail olmaq, onlara dəstək vermək üçün bütün Üzv Dövlətlərlə işləyir. Qurumun 149 ölkədə nümayəndəliyi və xüsusi işçi heyəti vardır. Qeyd olunan heyət müvafiq ölkəllərin səhiyyə nazirliklərinə və digər sektorlara səhiyyə və tibbi məsələlərlə bağlı məsləhətlər verir. Bundan əlavə, qurum səhiyyə proqramlarının planlaşdırılması, milli səviyyədə implementasiyası və monitorinqi üçün dəstək verir. ÜST profilaktika, müalicə və səhiyyə xidmətlərini təkmilləşdirmək üçün BMT-nin digər ixtisaslaşmış qurumları, qeyri-hökumət təşkilatları, fondlar, özəl sektor və icmalarla sıx əməkdaşlıq edir. Qurum informasiya brokeri kimi çıxış etməklə əslində dövlətlər arasında norma tətbiqi və informasiya mübadiləsini asanlaşdırır. ÜST dövlətləri ümumi prob-

lemlərinin həlli yollarını axtarmaq üçün birgə işləməyə təşviq edir. [7] Göründüyü kimi, səhiyyə sahəsində plan və proqramların, qəbul olunan norma və prinsiplərin implementasiyası da ÜST-ün əsas missiyasına daxildir.

ÜST-ün Nizamnaməsinin 2-ci maddəsinə əsasən beynəlxalq səhiyyə işi üzrə istiqamətləndirici və əlaqələndirici orqan kimi çıxış etmək [6], eyni zamanda qəbul etdiyi universal xarakterli normaların milli hüquq müstəvisində icrasını təmin etmək qurumun əsas funksiyalarındandır.

Universal nəzarət mexanizmi kimi, ÜST milli hüquqa XX əsrin ortalarından təsir etmə imkanı qazanmışdır. XX əsrdə publik səhiyyə hüququ geniş inkişaf etməmişdi. Həmin dövrdə yoluxucu xəstəliklərə beynəlxalq nəzarət məhdud xarakter daşıyır, bu sahə qlobal narahatlıqların nisbətən laqeyd bir sahəsi olaraq qalmışdı. Xüsusilə, 1948-ci ildə BMT-nin səhiyyə sahəsində ixtisaslaşmış qurumu kimi yaradılmış ÜST BMT-nin ixtisaslaşmış təsisatları arasında özünəməxsusluğu ilə seçilirdi. Hüquq üzrə fəlsəfə doktoru V.Məmmədov hesab edir ki, ÜST və digər beynəlxalq təşkilatların yaradılması, bu sahədə mütəxəssislər arasında dialoqun, fikir mübadiləsi və bu sahədə yeni yanaşmaların inkişafına töhfə verdi. [3] Ötən əsrin sonlarına kimi ÜST-ün üzv dövlətləri qlobal sağlamlıq və səhiyyənin idarə etməsində problemlərə bir qədər az diqqət yetirirdilər.

Bu gün isə ÜST pandemiyanın qarşısının alınması, əlilliyi olan insanlar üçün sağlamlıq bərabərliyini inkişaf etdirmək üçün ölkələrə dəstək verir. Təşkilat kənd yerlərində və ucqar ərazilərdə yaşayan insanlar arasında sağlamlıq bərabərsizliyinin aradan qaldırılması kimi vacib sahələrdə fəaliyyət göstərir. Bundan başqa, vərəmlə mübarizə, atmosferin çirklənməsi ilə bağlı xəstələnmənin və onun iqtisadi xərclərinin qiymətləndirilməsi, uşaqların sağlamlığı ilə bağlı tədqiqatların əlaqələndirilməsi, təhlükəli abortla mübarizə [15] və s. beynəlxalq əməkdaşlıq və milli hüquqi əlaqələndirmə məsələləri də ÜST-ün funksiyasına daxildir.

ÜST-ün qəbul etdiyi beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyası ilə bağlı məsələnin elmi cəhətdən təhlili üçün bu qurum tərəfindən qəbul edilmiş normalara xüsusi diqqət yetirmək zəruridir.

ÜST tərəfindən qəbul edilən beynəlxalq hüquq normaları üç növə ayrılır: ÜST-ün qətnamələri, qurum daxili reqlamentlər və səhiyyə sahəsində beynəlxalq qaydalar. Qeyd olunan normalar istisnasız qaydada dövlətlər tərəfindən icra olunur. Hüquqi qüvvəsinə görə ÜST-ün Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qəbul edilən qətnamələr daha üstün xarakter daşıyır.

Özünün implementasiya mexanizminə görə fərqlənən sənədlərdən biri ÜST çərçivəsində qəbul olunan Beynəlxalq Səhiyyə Qaydalardır (BSQ). Bu sənəd 2005-ci ilin may ayında ÜST-ün əsas siyasi orqanı olan Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qəbul edilmişdir. Əslində bu sənəd daha əvvəllər də mövcud olub. Lakin əvvəllər bu sənədin milli hüquqi implementasiyası effektiv olmadığı üçün daha geniş yayılmadı. 2003-cü ildə Çində və başqa yerlərdə Ağır Kəskin Tənəffüs Sindromunun (SARS) baş verməsindən bəri BSQ

yenidən aktual olmuşdur. Bu dövrdən sonra qeyd olunan problemlə bağlı beynəlxalq hüquqi islahatlar yaxından izlənilmiş, qəbul olunan sənədlərin implementasiyası diqqəti çəkmişdir. Səhiyyə mütəxəssisləri həmçinin Asiyada quş qripi epidemiyalarının insandan insana ötürülməsi nəticəsində yaranan xəstəliklərlə bağlı bu sənəd yenidən gündəm oldu. Xüsusilə kənd yerlərinin qlobal pandemiya qripindən qorunması məqsədilə yeni BSQ-nin təcili olaraq lazım olduğunu iddia etdilər. Yeni sənədin qəbul edilməsinə elmi dairələrdə də böyük əhəmiyyət verilmişdir. Professor David P. Fidler hesab edir ki, yeni sənəd on doqquzuncu əsrin ortalarında beynəlxalq səhiyyə əməkdaşlığının başlanğıcından bəri ictimai sağlamlıqla bağlı beynəlxalq hüquqda ən radikal və genişmiqyaslı dəyişikliklərdən birini təşkil edir. [8]

BSQ-nin implementasiyası və onun daha səmərəli şəkildə həyata keçirilməsi üçün məsuliyyət bütün İştirakçı Dövlətlərin və ÜST-ün üzərinə düşür. Hökumətlər, nazirliklər və müvafiq vəzifəli şəxslər BSQ-nin milli səviyyədə implementasiyasına cavabdehlik daşıyırlar. ÜST BSQ-nin həyata keçirilməsində əlaqələndirici rol oynayır və tərəfdaşları ilə birlikdə ölkələrə qanunvericlik, institusional, təşkilati və s. potensialın yaradılmasına kömək edir. Bu sənəd tələb edir ki, bütün ölkələr aşağıdakıları etmək imkanına malik olsunlar:

1) Aşkar etmə - bu o deməkdir ki, nəzarət sistemlərinin ictimai sağlamlıqla bağlı kəskin hadisələri vaxtında aşkarlaya bildiyinə əmin olunmalıdır.

2) Qiymətləndirmə və hesabat vermə - ictimai sağlamlıq məsələlərini qiymətləndirmək və beynəlxalq narahatlıq doğuran sağlamlıqla bağlı fövqəladə vəziyyət təşkil edə biləcək problemləri öz Milli BSQ Əlaqələndirici Mərkəzləri vasitəsilə ÜST-ə hesabat vermək üçün BSQ-nin 2-ci Əlavəsində verilmiş qərar alətindən istifadə edilməlidir.

3) Cavab vermə - ictimai sağlamlıq risklərinə və fövqəladə hallara cavab verilməlidir. Ölkə tərəfindən bu normaların həyata keçirilməsinin məqsədi qonşu ölkələrə sağlamlıq risklərinin yayılmasını məhdudlaşdırmaq və əsassız səyahət və ticarət məhdudiyyətlərinin qarşısını almaqdır.

Eyni zamanda nəzərə almaq lazımdır ki, Qaydaların milli qanunvericliyə daxil edilib-edilməməsindən asılı olmayaraq, hər bir ölkə 2007-ci ildə qüvvəyə mindiyi andan etibarən BSQ-yə tam riayət etmək üçün məsuliyyət daşıyır. Sənəddə iştirakçı dövlətlərin Qaydalarla bağlı öz öhdəliklərini yerinə yetirmək şərti ilə daxili qanunvericiliyi qəbul etməli və ya onlara yenidən baxmalı olması barədə heç bir tələb yoxdur. [9] Amma ölkələrin qanunvericilik təcrübələrində BSQ hətta implementasiyanın resepsiya formasında, yəni sənəddə təsbit olunmuş normalar milli səviyyədə olduğu kimi mənimsənilmiş və qəbul edilmişdir.

Son illlər dünyada xəstəliklərin yayılması və digər kəskin sağlamlıq riskləri çox vaxt gözlənilməz xarakter almışşdır. Eyni zamanda bu risklər ölkələrdən bir sıra cavab tədbirləri tələb edir. Bu mənada 2005-ci ildə qəbul olunmuş BSQ sağlamlıq və fövqəladə halların idarə edilməsində ölkələrin hüquq və öhdəlikləri baxımından ümumi hüquqi çərçivə müəyyən edir. BSQ ÜST-ün 194 üzv dövləti

də daxil olmaqla 196 ölkə üçün hüquqi qüvvəyə malik olan beynəlxalq hüquq sənədidir. Bu sənəd bir vaxtlar Avropanı bürümüş ölümcül epidemiyalara reaksiya nəticəsində yaranmışdır. Əslində bu beynəlxaq hüquqi sənədi tam mənada özündə milli hüquqi implementasiya mexanizmi müəyyən edən akt da saymaq olar.

BSQ ölkələr üçün hüquq və öhdəliklər yaradır, o cümlədən publik səhiyyə haqqında məlumat vermək tələbi qoyulur. Qaydalar həmçinin müəyyən bir hadisənin "beynəlxalq narahatlıq doğuran publik səhiyyə üzrə fövqəladə vəziyyət" olub-olmaması üçün meyarları da müəyyən etmişdir Eyni zamanda, bu sənəd ölkələrdən ÜST-lə daha səmərəli əlaqələrin saxlanması üçün Milli Əlaqələndirici təyin etmək tələbi qoymuşdur. Bundan başqa, bu sənəd nəzarət və cavab tədbirləri, o cümlədən əlaqələndirici təyin olunmuş yerlərdə müvafiq imkanların yaradılmasını özündə ehtiva edir. Sənədin əlavə müddəaları ilə beynəlxalq nəqliyyat üçün tələb olunan sağlamlıq sənədləri kimi beynəlxalq səyahət və səfərlər də tənzimlənir. Nəhayət, BSQ milli hüquqi implementasiya zamanı şəxsi məlumatların qorunmasına, razılığa əsaslanan və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı şəxslərin hüquqlarının qorunmasına təminatlar verir.

Bu Qaydalar xəstəliklərin beynəlxalq səviyyədə yayılmasının qarşısının alınmasına və nəzarət altına alınmasına əhəmiyyətli dərəcədə kömək edib, lakin onlar hələ də tam potensial olaraq həyata keçirilməmişdir. [14]

Bu sənədin milli hüquqi implementasiya baxımından daha bir üstünlüyü də vardır. ÜST-ün tələbinə görə BSQ-nin milli qanunvericilikdə implementasiyası üçün alətlər dəsti hazırlanmışdır. Bu alətlər dəsti qeyd olunan məsələ ilə bağlı suallar və cavablar, qanunvericiliyə istinad və qiymətləndirmə vasitəsini, habelə milli qanunvericilik nümunələrini özündə cəmləşdirir. Orada BSQ-nin beynəlxalq və milli aspektlərini ehtiva edən milli hökumətlər üçün funksiyalar da müəyyən olunmuşdur. BSQ aşağıdakılarla bağlı hökumət funksiyalarına təsir göstərir:

1) Beynəlxalq trafik, rabitə və əməkdaşlıq daxil olmaqla qanunvericilik, qaydalar və digər sənədlər;

2) Beynəlxalq trafikin faktiki olaraq bütün aspektlərinə aid fəaliyyətlər (səyahət, nəqliyyat və ticarət);

3) Beynəlxalq kommunikasiyalar (məsələn, ictimai səhiyyə hadisələri ilə bağlı ÜST-ə məlumat vermək və qiymətləndirmə və cavab tədbirləri üzrə əməkdaşlıq etmək);

4) Milli qanunvericilik, qaydalar və digər sənədlər də daxil olmaqla milli imkanlar və fəaliyyətlər;

5) Dövlət ərazisində monitorinq və cavab tədbirləri üçün milli səhiyyə imkanlarının və xüsusi beynəlxalq giriş nöqtələrində (limanlar, hava limanları və yerüstü keçidlər) imkanlarının inkişafı;

6) Müvafiq nazirliklər, idarələr və ölkə üzrə, məsələn, milli, regional, yerli səviyyələrdə publik səhiyyə kommunikasiyalarının və qiymətləndirilməsinin əlaqələndirilməsi. [9]

BSQ-nin milli hüquqi implementasiyası ilə bağlı və bu sahədə qlobal öhdəliklərin dövlətlər tərəfindən yerinə yetirilməsini praktiki asanlaşdırmaq üçün BSQ-nin iştirakçısı olan bir dövlətdən başqa bütün ölkələrdə Milli Əlaqələndirmə Mərkəzləri uğurla yaradılmışdır. Bu sənədi ratifikasiya edən dövlətlərə ÜST-ün bütün üzv dövlətləri, Böyük Britaniya və Lixtenşteyn daxildir. Bu qurumlar hər bir ölkədə milli mərkəzlər kimi fəaliyyət göstərir. Qeyd olunan qurumlar səhiyyə məsələləri barədə ÜST-ü xəbərdar etmək, qurumun katibliyinin sorğularına cavab vermək və ÜST-dən gələn mesajların və məsləhətlərin ölkə daxilində müvafiq iştirakçılara yayılmasını təmin etmək üçün məsuliyyət daşıyırlar. Milli hüquqi implementasiyanın səmərəli icrası üçün ölkələr arasında birbaşa əlaqə yaratmağa imkan verən parolla qorunan veb-sayt vasitəsilə bütün digər milli mərkəzlərin əlaqə məlumatlarına çıxışı da təmin olunmuşdur.

Tədqiqatlar göstərir ki, milli mərkəzlər ümumiyyətlə səhiyyə nazirliyindən kənar hökumət sektorları ilə əlaqə saxlamağın zəruriliyini bilsələr də, möhkəm və etibarlı əlaqələr yaratmaq üçün lazım olan çağırış gücünə malik deyillər.

Əlbəttə nəzərə alınmalıdır ki, ÜST-ün əsas məqsədlərindən biri BSQ çərçivəsində qlobal ictimai sağlamlığı təmin etmək üçün sistemlərin qurulması və idarə edilməsi üçün ölkələr üçün mövcud olan insan resurslarını gücləndirməkdir. Qurumun katibliyi təhsil müəssisələri ilə əməkdaşlıq edir, BSQ-nin implementasiyasını təşviq edən implementasiya kursları yaratmışdir. Bu kurslar dövlət və özəl sahədə milli və ya beynəlxalq təşkilatlar, digər əlaqəli sektorların səhiyyə mütəxəssisləri üçün təşkil olunur. Kurs iş yerində təlim kimi 5 ay ərzində keçirilir. Qeyd olunan bu implementasiya mexanizmi olduqca səmərəli mexanizm hesab edilməlidir. Çünki səhiyyə sahəsində beynəlxalq hüquq normalarının ən yaxşı milli hüquqi implementasiyası lokal səviyyədə hüquqi maariflənmənin səmərəliliyindən asılıdır.

Mühüm implementasiya öhdəliklərindən biri iştirakçı dövlətlərin öz ərazilərində səhiyyə ilə bağlı məsələləri müəyyən etmək, araşdırmaq, qiymətləndirmək üçün milli bacarıqları inkişaf etdirməkdir. Bu öhdəliklər milli sistemlərdə qlobal sağlamlıq təhlükəsizliyinin əsas dayağı kimi çıxış edir. Eyni zamanda, bu sistemlər publik səhiyyənin beynəlxalq əhəmiyyətini təşviq edən mexanizmlər olduğunu təsdiq edir. BSQ-nin implementasiyasında mühüm mərhələ tələb olunan funksionallığa töhfə verməsi gözlənilən əhatə dairəsi və texniki komponentlər üzrə konsensusa nail olmaqdır. [14]

ÜST-ün hazırladığı BSQ-nin implementasiya perspektivləri ilə bağlı materialda nəzarət və cavab tədbirləri üçün imkanlar aşağıdakı 8 əsas başlıq altında qruplaşdırılıb: 1) Milli qanunvericilik, siyasət və maliyyələşdirmə; 2) Koordinasiya və kommunikasiyalar; 3) Müşahidə; 4) Cavab; 5) Hazırlıq; 6) Risklər; 7) İnsan resursları; 8) Laboratoriya [14]. Qeyd olunmalıdır ki, bütün bu

qeyd olunanlar ÜST tərəfindən qəbul edilmiş sənədlərin, o cümlədən BSQ-nin implementasiyasında həlledici mərələlər hesab edilir.

BSQ-nin tələblərində bir sıra potensial sağlamlıq təhlükələri qeyd olunur ki, bunlar da milli səviyyədə məcburi nəzərə alınmalı məqamlardır. Bu təhlükələr yoluxucu, zoonotik, qida təhlükəsizliyi, kimyəvi və radioloji-nüvə kimi müəyyən edilmişdir.

ÜST milli hüquqi implementasiyanı daha səmərləi şəkildə reallaşdırmaq üçün iştirakçı dövlətlərə öz imkanlarını qiymətləndirməyə kömək edən monitorinq çərçivəsi hazırlamışdır. Çərçivə ÜST-ə üzv dövlətlər, texniki qurumlar, tərəfdaşlar və qlobal miqyaslı texniki ekspert rəylərinin konsensusuna əsaslanır. Bu sənəd potensialın inkişaf etdirilməsi, fəaliyyətə nəzarət etmək üçün uğurla istifadə edilmiş konsepsiyaları özündə ehtiva edir. Sənəd dövlətlərin cari imkanları, potensial inkişafı üçün regional və ölkə strategiyaları, digər mövcud resurslar və alətlər, xüsusilə də iştirakçı dövlətlər tərəfindən bu sənədin əsas potensialının qiymətləndirilməsi üçün istifadə olunan digər alətlər haqqında biliklərə əsaslanır. BSQ-nin monitorinqi prosesi əsas potensialın 8 sahəsi üzrə icra vəziyyətini, giriş nöqtələrində imkanların inkişafını və sənədə uyğun təhlükələr üçün bacarıqların inkişafını qiymətləndirir. [14] Qeyd olunmalıdır ki, BSQ-nin monitorinqi prosesi də milli hüquqi implementasiya baxımından önəm kəsb edir.

Səhiyyə sahəsi 150 ildən artıqdır ki, çoxtərəfli beynəlxalq əməkdaşlığın dar sahəsi olaraq qalmaqda idi. Bu gün artıq beynəlxalq hüquq müasir dünyada yoluxucu xəstəliklərə nəzarəti həyata keçirir. Təbabətin inkişafı bu gün artıq beynəlxalq tibb hüququ və ya səhiyyə hüququ kimi tanınan hüquq sahəsinin inkişafını da səciyyələndirmişdir. Tibb hüququ tibbi əməliyyatlar, sənaye operatorları, tibbi əməliyyatlarda istifadə olunan prosedurlar, tibbi əməliyyatları həyata keçirən tibbi ekspertlərin xüsusiyyətləri, habelə tibbi fəaliyyətin həyata keçirilməsi zamanı yaranan münasibətlərlə bağlı tənzimləmə sahəsini əhatə etdiyi halda, səhiyyə hüququ geniş fəaliyyət sahəsini, təkcə tibbi fəaliyyətləri deyil, həm də həyata keçirilən prosedurları, prosedurun ehtiyac və zəruriliyini, proseduru həyata keçirən mütəxəssisləri də tənzimləyir. [10] Əlbəttə beynəlxalq səhiyyə diplomatiyası nəticəsində beynəlxalq hüququn bu sahədə yaranan yeni normaları da milli hüquqa implementasiya etməklə bəşəriyyətin gələcək inkişafına xidmət edir.

ÜST publik səhiyyənin müxtəlif istiqamətləri üzrə funsionallığa malikdir. Bu səbəbdən təşkilatın qəbul etdiyi beynəlxalq hüquq normaları da tibbin geniş sahələrini özündə ehtiva edir. Bunlara reproduktiv sağlamlıq, vərəmlə beynəlxalq mübarizə, uşaq və qadın sağlamlığı, infeksion xəstəliklərin ayrı-ayrı növləri ilə mübarizə və s. daxildir.

ÜST qlobal səviyyədə reproduktiv sağlamlığın qorunmasını prioritet sahə kimi müəyyən etmişdir. Reproduktiv sağlamlıq müasir dünyada daha geniş yayıldığı üçün bu sahədə qəbul edilmiş ÜST normalarının da milli hüquqi implementasiyası daha aktualdır. Reproduktiv sağlamlıq məsələləri Ümumdünya Sə-

hiyyə Assambleyasının 1995-ci ilin mayında qəbul olunmuş Qətnaməsi ilə tənzimlənir. Qətnamədə səhiyyə sahəsində daha fərqli milli implementasiya mexanizmi müəyyən olunur. Belə ki, bu Qətnamə üzv dövlətləri reproduktiv sağlamlıq proqramları hazırlamağa və gücləndirməyə çağırır. Qeyd olunmalıdır ki, səhiyyə üzrə beynəlxalq hüquq normalarının real vaxt rejimində daha səmərəli formada implementasiyası üçün milli proqramlar xüsusi önəm kəsb edir. Səhiyyə sahəsində milli proqramların, dövlətin müvafiq qurumları tərəfindən qəbul olunan fəliyyət proqramlarının üstünlüyü ondadır ki, bu sahədə beynəlxalq hüquq normaları daha tez və effektiv həyata keçirilir.

Reproduktiv sağlamlıqla bağlı aidiyyəti müddəalar milli səviyyədə müvafiq qanun, siyasət və proqramlara daha çox nüfuz edir. 1995-ci ildən etibarən ilk təşəbbüs olaraq, Azərbaycan Qadın və İnkişaf Mərkəzinin başladığı və əsas məqsədi əhali arasında reproduktiv sağlamlığın, sağlam analığın, ailə planlanmasının, cinsi yolla yoluxan xəstəliklərin və onlardan qorunma yollarının icma səviyyəsində maarifləndirmə işi aparmaqla, reproduktiv yaş dövründə olan şəxslərin bu sahədə müvafiq biliklərə yiyələnməsini təmin etməklə, o cümlədən xidmətlər göstərməklə abortların sayının azalmasına, körpələrin sağlam doğulmasına və böyüməsinə, nəticə etibarı ilə ana və körpə ölümünün sayının azalmasına, sağlam gəncliyin formalaşmasına, yoluxucu xəstəliklərin qarşısının alınmasına nail olmaq istiqamətində həyata keçirdiyi fəaliyyət uğurlu model və müsbət ölkə təcrübəsi olaraq tətbiq oluna bilər. [1, s.5]

ÜST təcrübəsində digər implementasiya mexanizmlərindən biri müvafiq kodekslərin, məcəllələrin qəbul edilməsidir. 1981-ci ildə Ümumdünya Səhiyyə Assambleyası ana südü ilə qidalanmanı valideynlərə, tibb işçilərinə və səhiyyə sistemlərinə təsir edən kommersiya təşviqindən qorumaq üçün beynəlxalq sağlamlıq siyasəti çərçivəsi olan Ana Südü Əvəzedicilərinin Beynəlxalq Marketinqi Məcəlləsini qəbul etmişdir. Həmin Məcəllə də özündə bir sıra effektiv milli hüquqi implementasiya şərtləri müəyyən etmişdir.

Maraqlı elmi əhəmiyyətli məsələlərdən biri də ÜST-ün qəbul etdiyi Qaydaların milli hüquqi tətbiqinin uyğun olub olmaması ilə bağlıdır. 2005-ci il Qaydalarının milli hüquqi implementasiya xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bu sənəd hüquqi cəhətdən məcburi xarakter daşıyır. Bütün dünya üzrə demək olar ki, qaydaları ratifikasiya edən 194 dövlət üçün bu sənəd hüquqi cəhətdən məcburidir. Bu səbəbdən də ÜST-ün qeyd olunan sənədi bir çox nazirliklər və hökumət səviyyələrində dövlətin funksiya və məsuliyyətinə təsir göstərir. Bundan əlavə ÜST normaları bütün iştirakçı dövlətlərdə səhiyyənin müxtəlif sahələrini dəstəkləmək üçün imkan yaradır. Buna görə da bu normaların milli hüquqi implementasiyasını daha səmərəli etmək üçün ölkə səviyyəsində adekvat hüquqi baza yaradılır.

Bununla bağlı beynəlxalq hüquqi praktikada fərqli məqamlar vardır. Bəzi dövlətlərdə Qaydaların daxili yurisdiksiya və milli qanunlar çərçivəsində qüvvəyə minməsi üçün müvafiq öhdəliklərin bəzilərinin və ya hamısının səmərəli icra

olunması üçün qanunvericilik qəbul etmələri tələb olunur. Bəzən Qaydalarda bir və ya bir neçə müddəanın implementasiyası üçün İştirakçı Dövlətin hüquq sisteminə uyğun olaraq yeni və ya yenidən işlənmiş qanunvericilik açıq şəkildə tələb olunmadığı hallar da olur. Lakin, bəzi hallarda Qaydaların daha səmərəli, effektiv və faydalı şəkildə implementasiyasını asanlaşdırmaq üçün ölkə tərəfindən qanunvericilik, qaydalar və ya digər sənədlər yenidən nəzərdən keçirilir. Səhiyyə siyasəti nöqteyi-nəzərindən bu cür qanunvericilik həm də İştirakçı Dövlət daxilində BSQ-nin imkanlarının və əməliyyatlarının rolunun institusionallaşdırılmasına və gücləndirilməsinə xidmət edə bilər. Bu cür qanunvericilikdən başqa potensial fayda ondan ibarətdir ki, o, icrada iştirak edən müxtəlif hökumət və qeyri-hökumət qurumları arasında zəruri koordinasiyanı asanlaşdıra və davamlılığın təmin edilməsinə kömək edə bilər. [11]

ÜST normalarının, o cümlədən qaydaların iştirakçısı olan dövlətlər onun tam və səmərəli implementasiyasını asanlaşdırmaq, onların yenidən baxılmaq üçün uyğun olub-olmadığını müəyyən etmək üçün özlərinin müvafiq mövcud qanunvericiliyini, qaydalarını və digər sənədlərini qiymətləndirməyi nəzərdən keçirməlidirlər. 2005-ci ildən Assambleyasının qətnamələri Qaydaların implementasiyası üçün qanunvericilik və inzibati qiymətləndirmələrin aparılmasının zəruriliyini vurğulamışdır. [13] Bu sənədin müddəaları iştirakçı dövlətlərdən milli hüquqi, tənzimləyici və normativ sənədlərin işlənib hazırlanması üzrə çoxtərəfli əməkdaşlığı təşviq edir.

ÜST universal nəzarət mexanizmi kimi iştirakçı dövlətlər üçün hüquq və öhdəlikləri mandat olaraq müəyyən edir. Lakin, bu normaların implementasiyası, öz daxili hüquq və idarəetmə sistemləri, sosial-siyasi kontekstlər və siyasətlər çərçivəsində hər bir İştirakçı Dövlətdən asılıdır. Bir çox ölkələrdə müxtəlif yoluxucu xəstəlik, qida təhlükəsizliyi, kimyəvi qəzalar və ya çirklənmə riskləri, radionüvə təhlükəsizliyi problemləri müxtəlif qanun və ya qaydalarla tənzimlənir. Digər ÜST ölkələrində isə bu məsələlər müxtəlif nazirliklər, idarələr və hökumət səviyyəsində dövlətin öhdəlikləri kimi müəyyən edilir.

Dövlətlər ÜST sənədlərinin müddəalarını öz hüquq normalarına və hökumət strukturuna daxil edir. Milli hüquqi, inzibati və siyasi mühitlərin oynaya biləcəyi rollar kontekstində aşağıdakı məsələlər nəzərə alınır: hər bir dövlətin öz daxili hüquq sistemi çərçivəsində beynəlxalq hüquqi öhdəliklərini həyata keçirmək üçün seçdiyi üsul; yerli hökumət strukturları, konstitusiya quruluşları, hüquqi və ya tənzimləmə sistemləri və ictimai-siyasi mühitlər; müxtəlif sahələrdə qanunvericiliyin, qaydaların və digər sənədlərin Qaydaların tam və səmərəli həyata keçirilməsini asanlaşdırmaq üçün nə dərəcədə düzəlişlərə ehtiyacının olub olmamasını müəyyən edir. Dövlətlərin təcrübəsində Qaydaların milli hüquq sisteminə daxil edilməsi üsullarına aşağıdakılar daxildir: 1) Hər bir müvafiq sahədə müxtəlif beynəlxalq hüquq normasının tələblərini özündə birləşdirən və ya tətbiq edən qanunvericilik, qaydalar və digər sənədlər, 2) Milli hüquq sistemi daxilində Qaydaların avtomatik tətbiq edilməsini tələb edən qanunvericiliyin ol-

ması (inkorporasiya üsulu), Bu cür qanunvericilik, məsələn, sadəcə olaraq qeyd edə bilər ki, Qaydalara uyğunlaşdırılmalı və Reqlamentin mətninə potensial olaraq əlavə edilməlidir və ya onlara istinadla daxil edilməlidir. [9]

Beləliklə, bu paraqrafın yekunu olaraq belə nəticəyə gəlmək olar ki, ÜST-ün səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyasında əsas nəzarət mexanizmi kimi fəliyyəti olduqca səmərəli hesab edilir. Birincisi, bu qurum tərəfindən qəbul olunan qərarlar, o cümlədən 2005-ci ildə qəbul olunan və 2007-ci ildən qüvvəyə minən BSQ məcburi hüquqi qüvvəyə malikdir. İkincisi, ÜST sənədlərinin daha bir müsbət implementasiya cəhəti ondadır ki, bu aktlar müxtəlif nazirliklər, idarələr və hökumət səviyyəsində dövlətin üzərinə mühüm öhdəliklər qoyur. Üçüncüsü isə bu qurum səhiyyə sahəsində milli qanunvericiliyin, qaydaların və digər sənədlərin qəbulu, implementasiya vəziyyəti, qiymətləndirilməsi və yenidən nəzərdən keçirilməsi prosesini tənzimləyir.

İsitnadlar:

1. Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi. Bakı, 2015

2. Əliyeva A., Hüseynova F., Əzizov E. Beynəlxalq Hərbi Tibb Komitəsi hökumətlərarası təşkilat kimi: hüquqi status və funksiyaları // Nəqliyyat hüququ, elmi nəzərəi təcrübi jurnal, 2023, N 1

3. Məmmədov V. Tibb hüququ: yaranması problemləri və inkişaf perspektivləri // https://www.injuria.az/news/tibb-huququ-yaranmasi-problemleri-ve-inkisaf-perspektivleri

4. Гавердовский А.С. Имплементация норм международного права. Киев: Вища шк., 1980. 320 с.

5. Allyn L. Taylor, Global Health Law: International Law and Public Health Policy // https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7150305/

6. Constitution of the World Health Organization, https://apps.who.int/gb/bd/PDF/bd47/EN/constitution-en.pdf?ua=1

7. Country strategy and support, https://www.who.int/countries/country-strategy-and-support

8. David P. Fidler From International Sanitary Conventions to Global Health Security: The New International Health Regulations // Chinese Journal of International Law (2005), Vol. 4, No. 2. 325-392.

9. International Health Regulations (2005). Toolkit for implementation in national legislation. Questions and answers, legislative reference and assessment tool and examples of national legislation. WHO: Geneva 2009

10. Todorovski N. Medical law and health law: Is it the same? //Acta Medica Medianae, 2018. с. 57. №. 2.

11. Tools for advancing tobacco control in the 21st century: Tobacco control legislation: an introductory guide, WHO: Geneva 2004 // ww.who.int/tobacco/research/legislation/tobacco_cont_leg/en/index.html.

12. Yuldasheva G. Human rights: the ratio of norms of international law and national legislation. National Center of the Republic of Uzbekistan on Human Rights. 2001.

13. WHA58.3, operative paragraph 5(4), available at // www.who.int/gb/ebwha/pdf_files/WHA58/WHA58_3-en.pdf.3 and WHA59.2, operative paragraph 4(11), available at http://www.who.int/gb/ebwha/pdf_files/WHA59/WHA59_2-en.pdf.

14. World Health Organization Perspective on Implementation of International Health Regulations // https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3376823/

15. World Health Organization. https://www.who.int/activities

THE WORLD HEALTH ORGANIZATION AS THE MAIN MECHANISM FOR MONITORING THE NATIONAL LEGAL IMPLEMENTATION OF THE NORMS OF INTERNATIONAL LAW IN THE FIELD OF HEALTHCARE

Fatima Huseynova*

Abstract

The article examines the role of the World Trade Organization as a universal control mechanism in the national legal implementation of international legal norms in the field of health care. It is noted that the World Trade Organization is the main universal mechanism for monitoring the national legal implementation of international legal norms in the field of health care. The article analyzes the rule-making activities of the World Trade Organization. The acts adopted within its framework are classified and a legal comparison of these acts is carried out. The features of the implementation of the provisions of the mentioned acts in the legal system of states are examined.

Keywords*: World trade organization, health care, norms of international law, national law, implementation, control mechanism.*

ВСЕМИРНАЯ ОРГАНИЗАЦИЯ ЗДРАВООХРАНЕНИЯ КАК ОСНОВНОЙ МЕХАНИЗМ КОНТРОЛЯ ЗА НАЦИОНАЛЬНО-ПРАВОВОЙ ИМПЛЕМЕНТАЦИИ НОРМ МЕЖДУНАРОДНОГО ПРАВА В СФЕРЕ ЗДРАВООХРАНЕНИЯ

Фатима Гусейнова**

Резюме

В статье рассматривается роль Всемирной торговой организации как универсального механизма контроля в национальной правовой имплементации международно-правовых норм в сфере здравоохранения. Отмечается, что Всемирная торговая организация выступает основным универсальным механизмом контроля за национальной правовой имплементации международно-правовых норм в сфере здравоохранения. В статье анализируется нормотворческая деятельность Всемирной торговой организации. Принятые в его рамках акты классифицируются и проводится юридическое сравнение этих актов. Исследуются особенности имплементации положений упомянутых актов в правовой системе государств.

Ключевые слова: *Всемирная торговая организация, здравоохранения, нормы международного права, национальное право, имплементация, механизм контроля*.

* Ph.D in law, Baku State University

** доктор философии по праву, Бакинский государственный университет

QLOBAL TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ VƏ BEYNƏLXALQ HÜQUQUN PRİNSİPLƏRİ

Vüsalə Muradxanlı *

Xülasə

Məqalədə qlobal təhlükəsizliyin təmin edilməsi və beynəlxalq hüququn prinsipləri beynəlxalq hüquqi sənədlər və bu sahədə tanınmış alimlərin fikirləri ilə qarşılıqlı əlaqədə təhlil edilir. Qeyd edilir ki, beynəlxalq hüququn əsas prinsipləri beynəlxalq sülhün və qlobal təhlükəsizlik sisteminin bundan sonra daha da möhkəmləndirilməsi, onun hüquqi tənzimlənməsi mexanizminin fəaliyyət göstərməsi və təkmilləşdirilməsi üçün əsas kimi çıxış edir və vahid kompleksdə nəzərdən keçirilməlidir. Beynəlxalq hüququn əsas prinsiplərindən birinin pozulması onun digər prinsiplərinin pozulmasına gətirib çıxarır ki, bu da ümumilikdə qlobal təhlükəsizliyin bütün sisteminin təmin edilməsini təhlükə altına alır. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin yalnız qarşılıqlı olaraq tövsif və tətbiq edilməsi həmin prinsiplər arasında intensiv və səmərəli əlaqələndirməni aparmaqla bərabər, eyni zamanda, beynəlxalq hüququn ayrı-ayrı sahələri arasında da müvafiq əməkdaşlığı təmin edir, həmin sahələrin normativ-hüquqi bazasının və spesifik prinsiplərinin qarşılıqlı inkişafını təmin edir. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin müddəalarına dövlətlər tərəfindən qeyd-şərtsiz əməl edilməlidir. Bunun üçün hər hansı dövlətdaxili normativ-hüquqi aktın qəbul edilməsinə belə ehtiyac yoxdur.

Açar sözlər: *beynəlxalq hüququn prinsipləri, qlobal təhlükəsizlik, beynəlxalq münasibətlər, beynəlxalq hüquq normaları, beynəlxalq müqavilə, beynəlxalq adət, insan hüquqları.*

Beynəlxalq münasibətlərin tənzimlənməsində əsas yeri ümumi mənada beynəlxalq hüquq normaları tutur. Bu normalara beynəlxalq hüququn ümumtanınmış prinsipləri, beynəlxalq hüquq normarı, beynəlxalq adət və digər beynəlxalq normalar (siyasi normalar, təşkilati normalar və s.) daxildir. Məcburetmə ilə təmin edilmə nöqteyi-nəzərindən beynəlxalq münasibətlərin iştirakçıları üstünlüyü adətən beynəlxalq hüquq normalarına verirlər.

Beləliklə, beynəlxalq hüquq öz subyektlərinin münasibətlərini əsasən prinsiplər və hüquq normaları sistemi vasitəsilə tənzimləyir. Hüquq ədəbiyyatında hətta belə bir fikir irəli sürülür ki, beynəlxalq hüququn prinsipləri öz sistemini əsas prinsiplərdən, sahəvi prinsiplərindən və sahələrdaxili prinsiplərdən ibarət təşkil edir. [2, s.11] Eyni zamanda, burada beynəlxalq hüququn əsas prinsiplərinə xüsusi yer verilir. L.D.Timçenkoya görə, bu anlayış adı altında bütövlükdə beynəlxalq hüquq sisteminin sabit və səmərəli fəaliyyətini təmin etməyə yönəlmiş ümumi fundamental prinsiplər başa düşülür. [13, s.59] Beynəlxalq hüququn əsas prinsipləri beynəlxalq hüququn subyektlərinin fəaliyyət normalarını, sülh və təhlükəsizlik kimi bəşəriyyətin ümumbəşəri dəyərlərini qorumaq üçün dövlətlərin əsas öhdəliklərini müəyyən etdiyi üçün qlobal təhlükəsizliyin təmin edilməsində əsas rol oynayır. İ.İ.Lukaşuk haqlı olaraq qeyd edir ki, beynəlxalq təhlükəsizlik hüququnun əsas məqsəd və prinsipləri eyni zamanda bütövlükdə beynəlxalq hüququn məqsəd və prinsipləridir. [12, s.282] Beynəlxalq hüququn əsas

* "Hüquq və İnsan haqları İnstitutu" Publik Hüquqi Şəxsin İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri

prinsipləri beynəlxalq hüquq sisteminin əsasını təşkil edir və beynəlxalq-hüquqi tənzimetmədə ən başlıca yer məhz onlara məxsusdur. Belə ki, heç bir beynəlxalq hüquq norması beynəlxalq hüququn əsas prinsiplərinə zidd ola bilməz. BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinə aid beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamədə hər bir dövlətin beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına uyğun olaraq öz öhdəliklərini vicdanla yerinə yetirməsi müəyyən edilmişdir [7]. Bəyannamənin əsas tələbinə görə, 10 prinsipi özündə birləşdirən beynəlxalq hüququn əsas prinsiplərinin məzmunu bir-biri ilə qarşılıqlı əlaqədə götürülməlidir. Belə ki, Bəyannamədə birbaşa olaraq qeyd edilir ki, beynəlxalq hüququn prinsiplərinin tövsifi və tətbiqi zamanı onlar qarşılıqlı əlaqə olur və hər bir prinsipin başqa prinsiplərlə birgə nəzərdən keçirilməsi zəruridir.

Əsas prinsiplər 1969-cu il tarixli Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il tarixli Vyana Konvensiyasının 53-cü maddəsinə uyğun olaraq, dövlətlərin beynəlxalq birliyi tərəfindən qəbul edilən və tanınan jus cogens normaları kimi imperativ xarakteri daşıyır, jus cogens normalarından kənara çıxma isə yolverilməzdir. [4] Vyana Konvensiyası jus cogens normalarının imperativ xarakterini beynəlxalq hüquqi münasibətlərin bütün subyektlərinin razılığına əsasanan pozitiv hüquq norması kimi müəyyən edir.

BMT Beynəlxalq Hüquq Komissiyası digər hüquq normalarına nisbətən daha yüksək statusu nəzərdə tutan iki növ normaları tanıyır: jus cogens imperativ normaları və suveren dövlətin və beynəlxalq hökumətlərarası təşkilatların bütün dünya birliyi qarşısında öhdəlikləri kimi erga omnes öhdəliklərindən irəli gələn normalar. Pozitiv hüquq normalarının meyarlarını müəyyən edən Beynəlxalq Hüquq Komissiyası BMT Baş Assambleyasının 66-cı sessiyasında belə bir fikir irəli sürmüşdür ki, jus cogens normalarının beynəlxalq birliyin əsas dəyərlərindən qaynaqlandığını və dövlətlərin seçiminə əsaslanmadığını dövlətlər etiraf etməlidirlər. [8] Bununla əlaqədar münasibətləri təhlil edərkən qeyd edilir ki, müasir beynəlxalq hüquqda müharibə cinayətlərinin, insanlıq əleyhinə cinayətlərin qadağan edilməsindən irəli gələn öhdəliklər erga omnes normalarına aid edilir. [14, s.103-104]

Qloballaşma fenomeni beynəlxalq hüququn hər bir subyektinin öz hərəkətlərinə görə daha böyük məsuliyyət tələb edən beynəlxalq hüququn universallaşdırılmasında, erga omnes yeni öhdəliklərin formalaşmasında özünü göstərir. Qlobal təhlükəsizliyin beynəlxalq hüquqi təminatında BMT Beynəlxalq Ədalət Məhkəməsinin "Nüvə sınaqları haqqında (Yeni Zelandiya Fransaya qarşı)" iş üzrə beynəlxalq ictimaiyyətin nüvə təhlükəsindən müdafiəsi kimi erga omnes öhdəliyinin tanınması barədə qərarı əsasında yaradılmış presedent xüsusilə vacibdir. [15]

1996-cı ildə BMT Beynəlxalq Ədalət Məhkəməsi erga omnes normasını istisnasız olaraq bütün dövlətlərə aid olan öhdəlik kimi qiymətləndirdi, belə ki, qeyd edilirdi ki, onların hamısının "nüvə təhlükəsindən müdafiədə hüquqi marağı vardır". [16] Bu kontekstdə "riayət etməyə məcbur etmək" öhdəliyi BMT Ni-

zamnaməsinin 2-ci maddəsinin 6-cı bəndində nəzərdə tutulmuş öhdəliyə bənzəyir, bu, BMT-yə qanunun aliliyini təmin etmək üçün görünməmiş hüquq verir, buna görə də təkcə üzv dövlətlər deyil, həm də BMT-nin üzvü olmayan dövlətlər beynəlxalq sülhün və bəşəriyyətin təhlükəsizliyinin qorunması üçün lazım olan dərəcədə Nizamnamənin prinsiplərinə uyğun hərəkət edəcəklər.

Universal və regional beynəlxalq hüquq normalarının inkişafı sayəsində qlobal təhlükəsizliyin təmin edilməsinin beynəlxalq-hüquqi mexanizminin əsas və xüsusi prinsiplərini müəyyən etmək mümkündür. Bu zaman əsas prinsiplərə müraciət etməklə təhlilin aparılması əhəmiyyətli olardı.

İlk növbədə qeyd edilməlidir ki, bəşəriyyətin bütün üzvlərinin bərabər və toxunulmaz hüquqlarını qoruyan insan hüquqlarına və əsas azadlıqlarına hörmət prinsipi milli, regional və qlobal səviyyədə ümumi təhlükəsizlik sisteminin humanitar əsasını yaradır. Prinsip 1948-ci il dekabrın 10-da qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin preambulasında "yer üzündə azadlığın, ədalətin və sülhün əsası" kimi elan edilmiş təhlükəsizlik və insan hüquqları sahəsində hüquqi universallara əsaslanır. Qlobal təhlükəsizliyə gəlincə, bu 2016-cı tarixli BMT Bəyannaməsində bəyan edilən "sülh hüququ" prinsipidir. Bəyannamə dünyanın qloballaşması şəraitində qarşılıqlı asılılıq, insan hüquqları və xalqların sülh hüququnu kollektiv təhlükəsizliyin və yeni qloballaşma təhlükəsinə - beynəlxalq terrorizmə qarşı mübarizənin əsası kimi qəbul edir.

İnsan hüquqları prinsipinə və xalqların sülh hüququ prinsipinə əməl olunmasına əsaslanan dinc inkişafın təmin edilməsinin qarşılıqlı asılılığı BMT-nin bir sıra hüquqi aktlarında da qeyd olunur. Məsələn, İnkişafa olan hüquq haqqında Bəyannamə, Minilliyin Bəyannaməsi, 2005-ci il Dünya Sammitinin Yekun Sənədi və s. Ümumiyyətlə isə, hüquq ədəbiyyatında, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu ümumi şəkildə bu xüsusiyyətləri özündə birləşdirir: bütün dövlətlər öz ərazisində yerləşən bütün şəxslərin əsas hüquq və azadlıqlarına hörmət etmək öhdəliyi daşıyırlar; bütün dövlətlər irqi, cinsi, dil, dini və s. əlamətlərə görə ayrı-seçkiliyə yol verməmək vəzifəsini öz üzərilərinə götürürlər; bütün dövlətlər insan hüquqları və əsas azadlıqlarına hörmət olunması və bu məqsədlərə nail olunması sahəsində bir-biri ilə əməkdaşlıq etməyə yardım etmək öhdəliyinə malikdirlər. [1, s.27]

Əsas universal beynəlxalq sənəd kimi BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndi ilə BMT-nin əsas məqsədlərindən biri iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dili və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdır. Nizamnamənin 55-ci maddəsində isə qeyd edilir ki, millətlər arasında, xalqların hüquq bərabərliyi və özünü müəyyənetməsi prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik və əmin-amanlıq şəraitini yaratmaq məqsədilə BMT aşağıdakılara dəstək verir: həyat səviyyəsinin yüksəldilməsinə, əhalinin tam məşğulluğuna, iqtisadi və sosial tərəqqinin inkişaf etdirilməsinə; iqtisadi, sosial, səhiyyə və buna

müvafiq sahələrdə beynəlxalq problemlərin həllinə, mədəniyyət və təhsil sahələrində beynəlxalq əməkdaşlığa; irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət və riayət edilməsinə.

İnsan hüquqlarının təmin edilməsinin təhlükəsizliklə bağlanması Azərbaycan Respublikası Konstitusiyasında da əks olunmuşdur. Belə ki, Konstitusiyanın 12-ci maddəsi ilə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi elan edən Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində daha sonra qeyd edilir ki, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.

Digər bir prinsip isə hüquq ədəbiyyatında beynəlxalq hüququn mərkəzi prinsipi kimi qəbul edilən güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipidir. Bu prinsip qlobal təhlükəsizliyin təmin edilməsinin əsasını təşkil edir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində göstərilir ki, BMT-nin bütün üzvləri öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinməlidirlər. Müharibədən milli siyasət aləti kimi imtina haqqında 1928-ci il tarixli Brian-Kelloq Paktında, Təcavüzün tərifi haqqında BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 1974-cü il tarixli Qətnamədə, Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında 1987-ci il tarixli Bəyannamədə də bununla əlaqədar bir sıra normalar əks olunmuşdur. Belə ki, Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında 1987-ci il tarixli Bəyannamənin Preambulasında birbaşa olaraq qeyd edilir ki, bu prinsipin tətbiqi beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına gətirib çıxarmalıdır.

1974-cü il tarixli Təcavüzün tərifi haqqında Qətnamə ilə təcavüz aktlarını ifadə edən əməliyyatlar kimi aşağıdakılar qeyd edilmişdir: bir dövlətin hərbi kontingentinin digər dövlətin ərazisinə daxil olması; istənilən hərbi işğal; hərbi kontingentlə olmasa da, bir dövlət tərəfindən başqa dövlətə qarşı hər hansı silah işlədilməsi; bir dövlətin hərbi kontingentinin başqa bir dövləti blokadaya alması; bir dövlətin hərbi kontingentinin digər dövlətin hərbi kontingentinə hücumu; bir dövlətin başqa bir dövlətin ərazisində onun razılığı əsasında yerləşən hərbi kontingentindən bu razılaşmanın şərtlərini pozmaqla razılaşmanın xitam olunmasından sonra da göstərilən ərazidə qalması; digər dövlətin ona həvalə olunan ərazisinin təcavüz aktlarının törədilməsi üçün istifadə olunması; silahlı dəstələrin, qrupların, eləcə də muzdlu əsgərlərin digər dövlətin ərazisinə hərbi güc tətbiq etmək üçün göndərilməsi və ya səfərbər edilməsi.

BMT Nizamnaməsinə uyğun olaraq qlobal təhlükəsizlik mexanizmində beynəlxalq problemlərin həllinə güc tətbiq etmədən yanaşma beynəlxalq hüququn bütün subyektlərini, demək olar ki, bəşər sivilizasiyasının bütün tarix boyu

dünya inkişafının dominantı olmuş güc hakimiyyəti konsepsiyasından imtina etməyə məcbur edir. Güc tətbiq etməmə prinsipi təkcə dövlətlər tərəfindən təcavüzkar müharibənin aparılmasına deyil, həm də təcavüzün təbliğatına qadağa qoyulmasını ehtiva edir. [6]

1974-cü ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Təcavüzün müəyyən edilməsi, habelə, digərləri ilə yanaşı, 2010-cu il mayın 31-dən iyunun 11-dək keçirilmiş Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun şərhinə dair Birinci Konfransın nəticələri üzrə Beynəlxalq Cinayət Məhkəməsinin Əsasnaməsinə düzəlişlərin (təcavüz cinayətinin tərifini müəyyən edən 8 bis "Təcavüz cinayəti" maddəsi) qəbul edilməsi beynəlxalq cinayətlərə görə fərdi məsuliyyətin müasir hüquqi tənzimlənməsinin və beynəlxalq cinayət məsuliyyətindən rəsmi immunitetlərin olmamasının əsasını təşkil etmişdir.

Dövlətlər BMT Nizamnaməsinə zidd olaraq digər dövlətləri güc tətbiq etməyə və ya güc tətbiq etmək hədəsinə sövq etməməyə, təşviq etməməyə və ya kömək etməməyə borcludurlar. Qlobal təhlükəsizliyin təmin edilməsi dövlətin milli maraqları və bütövlükdə beynəlxalq birliyin maraqları ilə əlaqələndirilməlidir, belə ki, yalnız hüquqi mexanizm tərəfindən idarə olunan qlobal təhlükəsizlik sistemi beynəlxalq hüququn subyektləri arasında mübahisələrin və fikir ayrılıqlarının güc yolu ilə və ya güc tətbiq etmə hədəsi ilə həllinin qarşısını almağa qadirdir.

Növbəti prinsip kimi hələ İkinci Dünya Müharibəsindən əvvəl formalaşmış beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi qeyd edilə bilər. BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndində birbaşa olaraq qeyd edilir ki, BMT-nin bütün üzvləri öz beynəlxalq mübahisələrini dinc vasitələrlə beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmamaqla həll edirlər. Bu sahədə mühüm beynəlxalq sənədlərdən olan Beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisə və vəziyyətlərin qarşısının alınması və aradan qaldırılması və bu sahədə BMT-nin rolu haqqında 1988-ci il tarixli Bəyannamədə beynəlxalq mübahisələrə və təhlükəli vəziyyətlərə gətirib çıxaran hallara görə dövlətlərin məsuliyyət daşımaqları əks olunmuşdur. Bundan başqa, həmin beynəlxalq sənəddə dövlətlərin öz aralarında olan mübahisələrin kəskinləşməsinə səbəb ola bilən hərəkətlərdən çəkinmələri və beynəxalq hüquqa üstünlük vermələri də qeyd edilmişdir. Beynəlxalq təhlükəsizliyin hüquqi mexanizminin bu əsas prinsipində Nizamnamədə beynəlxalq aləmdə mübahisələrin və münaqişələrin həlli üçün icazə verilən bütün dinc vasitələrin siyahısı müəyyən edilməklə hüquqi konkretləşdirmə tətbiq edilmişdir.

Prinsipin normativ məzmununa görə isə, dövlətlər özlərinin istənilən mübahisələrini onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız dinc vasitələrlə həll etməlidirlər. Bundan başqa, dövlətlər öz mübahisələrini dinc vasitələrdən hər hansı birini seçmək hüququna malik olmaqla beynəlxalq hüquq normaları əsasında həll etməlidirlər, o cümlədən dövlətlər öz aralarında olan mübahisələrin kəskinləşməsinə səbəb ola bilən istənilən hərəkətlərdən çəkinməlidirlər.

Növbəti prinsip kimi dövlətlərin beynəlxalq əməkdaşlıq prinsipini qeyd etmək olar. Dövlətlərin beynəlxalq əməkdaşlığı həm onların hüququ, həm də vəzifəsidir. BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndində dövlətlərin beynəlxalq sülh və təhlükəsizliyin qorunması və bu məqsədlə səmərəli kollektiv tədbirlər həyata keçirməsi vəzifəsi əks olunmuşdur. Dövlətlər nəinki beynəlxalq əməkdaşlığa mane olmamalı, hətta onu inkişaf etdirməlidirlər. Bu əməkdaşlıq formalarının seçilməsi isə tənzim edilən münasibətlər dairəsindən və xüsusiyyətlərindən birbaşa asılıdır. BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinə aid beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannaməyə uyğun olaraq, dövlətlər iqtisadi, sosial, mədəni və s. sahələrdə beynəlxalq əməkdaşlıq edirlər. Əməkdaşlığın əsas istiqamətlərindən biri və ən əsası da beynəlxalq sülh və təhlükəsizliyin qorunmasıdır. Bununla bərabər qeyd edilməlidir ki, beynəlxalq əməkdaşlıq təkcə sülhün və təhlükəsizliyin qorunması tədbirlərinin həyata keçirilməsi üzrə deyil, həm də iqtisadi, mədəni və dövlətlərarası münasibətlərin digər sahələrini də özündə birləşdirməlidir.

BMT Nizamnaməsinin 56-cı maddəsi ilə BMT üzvlərinin beynəlxalq əməkdaşlıq sahəsində BMT Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə nail olmaq və bu məqsədlə BMT-nin özü ilə əməkdaşlıq etmək öhdəliyini müəyyən edən iki istiqamətini müəyyən edir.

Beynəlxalq təhlükəsizliyin qorunması və digər dövlətlərin təhlükəsizliyinə zərər vurmaması üzrə dövlətlərin əməkdaşlıq prinsipi bir dövlətin milli təhlükəsizliyinin təmin edilməsinin ümumi sülhə və bəşəriyyətin təhlükəsizliyinə təhlükə yaratmadığını nəzərdə tutur. Qlobal təhlükəsizliyin təmin edilməsi üzrə beynəlxalq hüquqi mexanizmin ən mühüm funksiyası dünya birliyinin qlobal təhlükələrə adekvat reaksiyalarının formalaşdırılması və həyata keçirilməsində beynəlxalq hüququn suveren bərabərhüquqlu subyektləri kimi dövlətlərin milli maraqlarının optimal tarazlığını tənzimləməkdən ibarətdir. BMT-nin "XXI əsrin gündəliyi" 1992-ci il tarixli sənəddə əks olunan beynəlxalq hüquq doktrinası beynəlxalq əməkdaşlığın əsas məqsədini milli səylərin dəstəklənməsi və tamamlayıcısı kimi qəbul edir. [10]

BMT Beynəlxalq Hüquq Komissiyası Təhlükəli fəaliyyət növlərindən transsərhəd zərərin qarşısının alınması barədə Maddələr Layihəsində antropogen fəlakətlərin qarşısının alınması üçün beynəlxalq əməkdaşlığın xüsusi əhəmiyyətini təsdiq etmişdir. Texnogen fəlakətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması haqqında BMT Konvensiyasının Layihəsində milli və beynəlxalq səviyyədə informasiya mübadiləsi, məsləhətləşmələr və digər birgə tədbirlər sahəsində BMT-yə üzv dövlətlər arasında əməkdaşlığın hüquqi əsasları qeyd edilir. [11, s.876] Beynəlxalq hüquq həmçinin dövlətlərarası əməkdaşlığı insan alveri, dəniz quldurluğu, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi kimi qloballaşma çağırışlarına qarşı mübarizə vasitəsi kimi də təsnif edir. Haqlı olaraq qeyd edilir ki, təcrübədə transsərhəd əməkdaşlığın olma-

ması terror fəaliyyətinin artması və nüvə silahının yayılmaması rejiminin zəifləməsi kimi qloballaşma təhlükələrinin güclənməsinə səbəb ola bilər. [3, s.88-89]

Beynəlxalq hüquqda pacta sunt servanda kimi tanınan beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipinin əsas beynəlxalq normativ-hüquqi bazası Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il tarixli Vyana Konvensiyasıdır. Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il tarixli Vyana Konvensiyasının 26-cı maddəsində qeyd edilir ki, beynəlxalq hüququn əsas prinsiplərindən olan pacta sunt servanda prinsipinə müvafiq şəkildə hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və vicdanla yerinə yetirilməlidir. Bundan başqa, həmin Konvensiyanın 27-ci maddəsində qeyd edilir ki, milli qanunvericiliyə istinad etməsi dövləti beynəlxalq öhdəliklərdən azad etmir. Bununla bərabər, BMT Nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndində birbaşa göstərilir ki, BMT üzvləri Təşkilata BMT Nizamnaməsinə uyğun olaraq öz üzərilərinə götürdükləri beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirirlər. Bu ödəliklər isə BMT Nizamnaməsindən, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərindən, beynəlxalq müqavilə və beynəlxalq adət normalarından irəli gələ bilər. Bütövlükdə bu prinsip digər prinsiplərin yerinə yetirilməsində əsas rol oynayır və bütün sferalarda dövlətlərin özlərinin beynəlxalq öhdəliklərini yerinə yetirməsində ifadə olunur. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, beynəlxalq hüququn hüquqi qüvvəsinin mənbəyi də məhz beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipidir. [12, s.288]

Beləliklə, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipinə riayət edilməməsi hüquq pozuntusu kimi qiymətləndirilməli və bu pozuntunu törədən dövlət həm müqavilənin pozulmasına görə, həm də onun nəticələrinə görə birbaşa beynəlxalq məsuliyyət daşıyır. Bununla əlaqədar müddəalar 12 dekabr 2001-ci il tarixli Dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə görə məsuliyyəti adlı Maddələr Layihəsində daha da inkişaf etdirilmişdir.

Qlobal təhlükəsziliyin təmin edilməsində dövlətlərin suveren bərabərliyi prinsipi mühüm yer tutur. BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində əks olunan bu prinsipin əsas məzmununun bir istiqaməti də ondan ibarətdir ki, dövlətlər bir-birinin suveren bərabərliyinə, eləcə də hüquq subyektliliyi də daxil olmaqla suverenliyə xas olan bütün hüquqlarına hörmət və ehtiram bəsləməyə borcludurlar.

Dövlət suverenliyinə hörmət və dövlətlərin bərabərliyi müddəaları əsasında formalaşan bu prinsip müəyyən edir ki, suverenlik yalnız bərabərhüquqluluq şəraitində real ola bilər. Əgər suverenlik adətən dövlətin ölkənin daxilində tam hakimiyyəti və xaricdə müstəqilliyi kimi müəyyən edilirsə də, müasir beynəlxalq hüquqa görə bu anlayış özü də nisbidir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsinin 2-ci bəndində qeyd edilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Beləliklə, yalnız beynəlxalq hüquq dövlətlərin suveren hakimiyyətlərinin fəaliyyətini məhdudlaşdıra bilər. Dövlətlərin bərabərliyi müddəasının əsas tələbinə görə isə, dövlətlərin hüquqi statusunun bərabərliyi beynəlxalq hüququn bütün normalarının onlara qarşı eyni qaydada tətbiq olunmalarını ifadə edir, yəni hər hansı dövlətə beynəlxalq hüquqla verilən üstünlükdən söhbət gedə bilməz.

BMT Nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndində əks olunan dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi ilə əlaqədar normalar isə Dövlətlərin daxili işlərinə qarışmağın yolverilməzliyi, onların müstəqilliyinin və suverenliyinin qorunması haqqında 1965-ci il tarixli BMT Bəyannaməsində daha geniş formada əks olunmuşdur. Belə ki, BMT Nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndində qeyd edilir ki, BMT Nizamnaməsi BMT-yə mahiyyət etibarilə istənilən dövlətin daxili səlahiyyətlərinə aid olan işlərə müdaxilə etmək hüququ vermir. Bu prinsipin məzmunu isə heç bir dövlətin başqa bir dövlətin onun öz suveren hüquqlarını həyata keçirmədə özünə tabe edilməsinə və bununla ondan hər hansı imtiyaz əldə edilməsinə nail olmaq üçün hərbi, siyasi və ya istənilən digər məcburiyyət tətbiq edə bilməməsi, başqa bir dövlətdə silahlı münaqişəyə müdaxilənin qadağan edilməsi və s. müddəlara əsaslanır.

Burada əsas məqam dövlətlərin daxili işlərinə aid olan məsələlərin aydınlaşdırılmasıdır. Məhz dövlətlərin əməkdaşlığı və müasir beynəlxalq münasibətlər də burada xeyli yeniliklər gətirmişdir. Bundan başqa, 1930-cu ildə BMT Beynəlxalq Ədalət Məhkəməsinin Daimi Palatası qeyd etmişdir ki, dövlətlərin müstəsna yurisdiksiyasında olan məsələlərin həcmi sabit deyildir və bilavasutə beynəlxalq münasibətlərin inkişafından asılıdır.

Növbəti prinsip kimi fərqləndirilən xalqların və millətlərin hüquq bərabərliyi və öz müqəddəratını müəyyənetməsi prinsipi də mühüm yer tutur. Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il tarixli Bəyannamədə xalqların hüquq bərabərliyi və özünü müəyyənetməsi prinsipinin məzmunu geniş şəkildə əks olunmuşdur. Bununla bərabər, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamədə qeyd edilir ki, xalqların və millətlərin hüquq bərabərliyi və öz müqəddəratını müəyyənetməsi prinsipinin həyata keçirilməsi zamanı Bəyannamənin heç bir müddəası suveren və müstəqil dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinin qismən və ya tamamilə pozulmasına gətirib çıxaran norma kimi tövsif edilə bilməz.

Qlobal təhlükəsizliyin təmin edilməsində milli dövlətin ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı və dövlətlərin suveren bərabərliyi prinsipləri əsas rol oynayır, çünki sabit dünya nizamının qorunması onların təmin edilməsindən asılıdır. Bu zaman əsas məsələlərdən biri kimi milli dövlətin ərazi bütövlüyü prinsipi ilə xalqların öz müqəddəratını təyinetmə prinsipinin hüquqi uyğunluğu aktuallaşır ki, burada da birmənalı olaraq qeyd edilən məsələlələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməsi zəruriliyi özünü ciddi şəkildə möhkəmləndirmişdir. Başqa sözlə desək, milli dövlətin rolunu azaldan qlobal

inkişaf tendensiyaları bununla belə milli dövlətin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı və suverenliyinin fundamental prinsiplərini dəyişə bilməz. Haqlı olaraq qeyd edilir ki, dövlətin ərazi bütövlüyü prinsipinin pozulması eyni zamanda dövlətlərin suveren bərabərliyi prinsiplərinin pozulmasıdır. [5, s.49] Beləliklə, xalqların öz müqəddəratını təyinetmə prinsipi dövlətlərin ərazi bütövlüyü prinsipi ilə birbaşa əlaqədardır, bu prinsipin həyata keçirilməsi birbaşa olaraq dövlətlərin suveren bərabərliyi və ərazi bütövlüyü ilə tam şəkildə uzlaşmaqla bərabər, nəhayət, hər hansı bir dövlətin parçalanması üçün heç vaxt əsas ola bilməz.

Avropa Şurası tərəfindən qəbul edilmiş Milli azlıqların müdafiəsi haqqında 1995-ci il tarixli Çərçivə Konvensiyasının 21-ci maddəsində, daha sonra isə Regional dillər və ya azlıqların dilləri haqqında 1992-ci il tarixli Avropa Xartiyasının 5-ci maddəsində qeyd edilir ki, bu beynəlxalq sənədlərin heç bir müddəası dövlətlərin suveren bərabərliyi və ərazi bütövlüyünə zidd tövsif edilə bilməz.

Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipi kimi dövlətlərin ərazi bütövlüyü prinsipi də qeyd edilməlidir. Ümimi formada BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində əks olunan və BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamədə inkişaf etdirilən bu prinsipin məzmununa görə hər bir dövlət istənilən digər dövlətin və ya ölkənin milli birliyinin və ərazi bütövlüyünün tam və ya qismən pozulmasına yönəlmiş hər hansı hərəkətdən çəkinməlidir.

Dövlətlərin ərazi bütövlüyü prinsipi ilə dövlətlər xarici ərazinin parçalanmasına yönələn istənilən hərəkətlərdən çəkinməlidirlər. Bundan başqa, istənilən dövlətin ərazisi BMT Nizamnaməsinin müddəalarını pozmaqla zor işlətmənin nəticəsi olan hərbi işğal predmeti ola bilməz.

Fərqləndirilən növbəti prinsip olan sərhədlərin pozulmazlığı prinsipinin məzmununun əsas istiqamətlərindən biri də ondan ibarətdir ki, dövlətlərin sərhədlərinə güc tətbiq etmək və güc tətbiq etməklə hədələmək də daxil olmaqla hər hansı qəsddən imtina edilməlidir. Dövlətin hər hansı razılığı olmadan onun sərhədləri heç bir halda dəyişdirilə bilməz, o cümlədən dövlətlər ərazinin hüdudlarını bildirən sərhədlər əleyhinə yönələn istənilən hərəkətlərdən də çəkinməlidirlər. Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin 2-ci bəndinin 2-ci hissəsinə görə, Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi yalnız referendum vasitəsilə həyata keçirilə bilər.

Bütövlükdə, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin məzmununun ətraflı təhlili imperativ jus cogens normaları kimi onların bilavasitə beynəlxalq təhlükəsizliklə birbaşa sıx bağlı olmasını müəyyən edir.

Beləliklə, aparılan təhlillərə əsasən aşağıdakı nəticələrə gəlmək olar:

1. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri qlobal təhlükəsizlik sisteminin təmin edilməsinin hüquqi tənzimlənməsində mühüm rol oynayır, belə ki, onlar beynəlxalq hüququn subyektlərinin davranışını, qlobal sülhün və təhlükəsizliyin qorunması üçün onların əsas hüquq və vəzifələrini və s. mühüm

müddəaları müəyyən edən rəhbər başlangıcları ehtiva edir. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri beynəlxalq hüququn inkişafına ciddi təsir edir. Bundan başqa, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri beynəlxalq hüququn ayrı-ayrı sahələrinin, daha sonra isə milli hüququn prinsiplərinin də inkişafında müsbət rola malikdir. Nəhayət, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri beynəlxalq hüququn və beynəlxalq təhlükəsizliyin əsas mahiyyətini özündə tam şəkildə ifadə edir.

2. Beynəlxalq hüququn əsas prinsipləri həm də beynəlxalq sülhün və qlobal təhlükəsizlik sisteminin bundan sonra daha da möhkəmləndirilməsi, onun hüquqi tənzimlənməsi mexanizminin fəaliyyət göstərməsi və təkmilləşdirilməsi üçün əsas kimi çıxış edir. Bu mənada beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin də inkişaf etdirilməsi beynəlxalq cəmiyyət qarşıdında dayanan əsas vəzifələrdən olmalıdır. Bunu nəzərə alaraq beynəlxalq ekoloji təhlükəsizlik və beynəlxalq məsuliyyət beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri kimi nəzərdən keçirilə bilər. Ətraf mühit kimi mövcud ciddi qlobal problem, o cümlədən bütün hallarda beynəlxalq münasibətlərdə beynəlxalq məsuliyyət institutunun zəruriliyi, nəhayət bu sahədə bir sıra mühüm beynəlxalq sənədlərin qəbul edilməsi və ya qəbul edilmə ərəfələrində olması fikrimizi tamamilə əsaslandlırır.

3. Bütövlükdə beynəlxalq hüququn əsas prinsipləri vahid kompleksdə nəzərdən keçirilməlidir. Beynəlxalq hüququn əsas prinsiplərindən birinin pozulması onun digər prinsiplərinin pozulmasına gətirib çıxarır ki, bu da ümumilikdə qlobal təhlükəsizliyin bütün sisteminin təmin edilməsini təhlükə altına alır. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin yalnız qarşılıqlı olaraq tövsif və tətbiq edilməsi həmin prinsiplər arasında intensiv və səmərəli əlaqələndirməni aparmaqla bərabər, eyni zamanda, beynəlxalq hüququn ayrı-ayrı sahələri arasında da müvafiq əməkdaşlığı təmin edir, həmin sahələrin normativ-hüquqi bazasının və spesifik prinsiplərinin qarşılıqlı inkişafını təmin edir.

4. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin müddəalarına dövlətlər tərəfindən qeyd-şərtsiz əməl edilməlidir. Bunun üçün hər hansı dövlətdaxili normativ-hüquqi aktın qəbul edilməsinə belə ehtiyac yoxdur. Yalnız beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinə ümumi münasibətin bildirilməsi kifayət edər ki, bu da həmin dövlətin əsas qanununun (konstitusiyasının) tərkib hissəsi olmalıdır. Bu mənada Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsi kifayət qədər yüksək qiymətləndirilməlıidir. Belə ki, qeyd edilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

İstinadlar:

1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: Nurlar, 2019, 507s.

2. Əliyev E.Ə. Beynəlxalq hüququn prinsipləri: anlayışı və sistemi. Bakı: Günəş-B, 2017. 164s.

3. Абенулы А. Д., Валиахметова Г.Н. Ядерный мир: новые вызовы режиму ядерного нераспространения. Екатеринбург: УГУ. 2017. 432 с.

4. Венская конвенция о праве международных договоров от 23 мая 1969 года: [Электронный ресурс] / https://is.gd/QUawgx

5. Гиллис, М. Разоружение. Общее руководство: [Электронный ресурс] / https://is.gd/3NGPlg

6. Декларация о предотвращении и устранении споров и ситуаций, которые могут угрожать международному миру и безопасности, и о роли Организации Объединенных Наций в этой области. Рез. 43/51 ГА. // 5 декабря 1988 года: [Электронный ресурс] / https://is.gd/CdfV7s

7. Декларация о принципах международного права, касающихся дружественных отношений и сотрудничества между государствами в соответствии с Уставом ООН от 24 октября 1970: [Электронный ресурс] / https://is.gd/BenZDl

8. Декларация ООН "О праве на мир" 19 декабря 2016 года: [Электронный ресурс] / https://is.gd/7OIbv1

9. Доклад Комиссии международного права (65-я сессия - 6 мая - 7 июня и 8 июля - 9 августа 2013 года: [Электронный ресурс] / file:///C:/Users/User/Downloads/830917.pdf

10. Конвенция ООН. Повестка дня на XXI век: [Электронный ресурс] / https://is.gd/vbLKmQ

11. Лафитский В.И., Каширкина А.А., Морозов А.Н. Проект Конвенции ООН по предупреждению и ликвидации последствий техногенных катастроф // - Москва: Журнал зарубежного законодательства и сравнительного правоведения, 2014. № 5, с.876-883.

12. Лукашук И.И. Международное право. Особенная часть: Учебник. Москва: Волтерс Клувер, 2005. 517 с.

13. Тимченко, Л.Д. Международное право. Харьков: Консум, 1999. 524 с.

14. Cesare Romano, Karen J.Alter, Yuval Shany. The Oxford Handbook of International Adjudication / Romano Cesare, Alter J.Karen, Shany Yuval. Oxford: Oxford University Press, 2014. 976 p.

15. International Court of Justice. Nuclear Tests New Zealand v. France (Judgment), 20 December 1974: [Electronic resource] / https://is.gd/Bmxfzl

16. Legality of the Threat or Use of Nuclear Weapons: [Electronic resource] / https://www.icj-cij.org/en/case/95

ENSURING GLOBAL SECURITY AND PRINCIPLES OF INTERNATIONAL LAW

Vusala Muradkhanli[*]

Abstract

The article analyzes the principles of global security and international law in interaction with international legal documents and the opinions of well-known scholars in this field. It is noted that the main principles of international law act as a basis for the further strengthening of international peace and the global security system, the operation and improvement of its legal regulation mechanism, and should be considered in a single complex. Violation of one of the basic principles of international law leads to the violation of its other principles, which in general endangers the provision of the entire system of global security. The mutual description and application of the main, universally recognized principles of international law ensures intensive and effective coordination between those principles, and at the same time ensures appropriate

[*] Head of the department of training and examination in the field of human rights of the public legal entity "Institute of Law and Human Rights"

cooperation between individual fields of international law, mutual development of the normative-legal basis and specific principles of those fields. provides. The provisions of the basic, universally recognized principles of international law must be followed unconditionally by states. For this, there is no need to adopt any national normative-legal act.

Keywords: *principles of international law, global security, international relations, international legal norms, international agreement, international custom, human rights*.

ОБЕСПЕЧЕНИЕ ГЛОБАЛЬНОЙ БЕЗОПАСНОСТИ И ПРИНЦИПЫ МЕЖДУНАРОДНОГО ПРАВА

Вюсаля Мурадханлы[*]

Резюме

В статье анализируются принципы глобальной безопасности и международного права во взаимодействии с международно-правовыми документами и мнениями известных ученых в этой области. Отмечается, что основные принципы международного права выступают основой дальнейшего укрепления международного мира и глобальной системы безопасности, функционирования и совершенствования механизма ее правового регулирования и должны рассматриваться в едином комплексе. Нарушение одного из основных принципов международного права ведёт к нарушению других его принципов, что в целом ставит под угрозу обеспечение всей системы глобальной безопасности. Взаимное описание и применение основных общепризнанных принципов международного права обеспечивает интенсивную и эффективную координацию между этими принципами и в то же время обеспечивает соответствующее сотрудничество между отдельными областями международного права, взаимное развитие нормативно-правовой базы и конкретных принципы этих областей. Положения основных, общепризнанных принципов международного права должны безоговорочно соблюдаться государствами. Для этого нет необходимости принимать какой-либо национальный нормативно-правовой акт.

Ключевые слова: *принципы международного права, глобальная безопасность, международные отношения, международно-правовые нормы, международный договор, международные обычаи, права человека*

[*] Руководитель отдела обучения и экспертизы в области прав человека публичного юридического лица «Институт права и прав человека»

Ənnağı Məmmədli. İstintaq sövdələşməsinin beynəlxalq hüquqi tənzimlənməsi// Azərbaycan Hüquq Jurnalı. 2023 (№1), s.109-119

İSTİNTAQ SÖVDƏLƏŞMƏSİNİN BEYNƏLXALQ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Ənnağı Məmmədli*

Xülasə

İstintaq sövdələşməsi və buna bənzər sadələşdirilmiş məhkəmə təcrübəsinə dair istitutların əsas xüsusiyyətlərini və minimum şərtlərini açıqlayan beynəlxalq normalar, əksər ölkələrdə inzibati tənzimləmə prosedurları və ya bu sahədə fəaliyyət göstərən orqanlar tərəfindən hazırlanan qaydalarla açıqlanmağa çalışılır. Beynəlxalq hüququn mövcud normalarının, tövsiyə və standartlarının təhlili göstərir ki, istintaq sövdələşməsi təkcə milli qanunvericiliyin deyil, həm də bütün hüquq sistemlərinin hüdudlarını çoxdan "aşıb". İstintaq sövdələşməsinin beynəlxalq hüquq normaları ilə uyğunluğu, belə sövdələşmələrin beynəlxalq hüquqda əsasları və tətbiqi məsələlərini bu məqalənin mövzusunu əhatə edir.

Açar sözlər: *istintaq sövdələşməsi, beynəlxalq hüquq, təqsirin etirafı barədə əqd, hüququn ümumi prinsipləri, sadələşdirilmiş məhkəmə təcrübəsi, Beynəlxalq cinayət məhkəməsi..*

Beynəlxalq aləmdə qabaqlayıcı funksiyaya malik olan beynəlxalq hüquq beynəlxalq səviyədə davranış qaydalarını müəyyən edir. Beynəlxalq davranış qaydalarının müəyyən edilməsində daxili hüquqdan fərqli fəaliyyət tərzi və qaydalara əməl olunmadıqda sanksiya mexanizminin tam fəaliyyət göstərə bilməməsi beynəlxalq hüquqa yönələn mühüm tənqidlərdir. Lakin bu məqamda səslənən tənqidlərin müəyyən əsasları olsa da, deyə bilərik ki, beynəlxalq hüququn müəyyən qaydaları və bu qaydalara əməl edilmədiyi təqdirdə sanksiyalar tətbiq etmək imkanı da var.

Cinayət mübahisələrində alternativ mübahisə həlli üsullarını tətbiq etmək üçün beynəlxalq təşkilatlar müxtəlif qərarlar qəbul etmişdir. Belə mühüm qərarlardan birində Avropa Şurasının 1987-ci il tarixli R (87) 18 saylı cinayət mühakiməsinin sadələşdirilməsinə dair tövsiyəsində məhkəmədən kənar alternativ həll yollarından istifadə edilməsi tövsiyə edilmişdir. [1] Bu tövsiyələri nəzərə alaraq, Kontinental Avropa ölkələri bu gün klassik cinayət prosesinə alternativ olan mübahisələrin məhkəmədən kənar həllinə imkan verən üsulları tətbiq etməyə başlamışdır. Milli cinayət-prosessual qanunvericiliyin müddəalarının ədalət mühakiməsinin həyata keçirilməsinin beynəlxalq standartları ilə müqayisəsi onun universal hüququn prinsiplərinə, tərəflərin maraqlarının tarazlığına, hüquqi tənzimləmədə mövcud çatışmazlıqlara uyğun olmadığı qənaətinə gəlməyə imkan verir. [11, s.49]

Beynəlxalq cinayət məhkəməsi "Roma statusu" ilə yaradılmış və 2002-ci il iyulun 1-də fəaliyyətə başlamışdır. [24, s.187] Beynəlxalq cinayət məhkəmələrində icraat: Beynəlxalq cinayətlərin strukturu, təqsirləndirilən şəxslərin və zərərçəkənlərin sayı, cinayətlərin zamana görə qüvvəsi, cinayətlərin dövlət yönümlü olması, təqsirləndirilən şəxslərin statusu, dil baryerləri, məhkəmələrin cinayətlərin törədildiyi yerlərə olan məsafəsi, iyerarxiyanın ayrılması və digər

* Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin doktorantı

müxtəlif səbəblərə görə milli məhkəmələrdə aparılan icraatdan fərqlənir. [19, s.237] Beynəlxalq cinayət tribunalı, Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq cinayət tribunalının və Ruanda üzrə Beynəlxalq cinayət tribunalının tətbiq etdiyi standartların ciddi şəkildə təsiri altına düşsə də, məhkəmə prosesləri sistemi Kontinental Avropa sisteminə daha uyğun görünür.

Beynəlxalq cinayət məhkəməsi bir ölkənin bir hissəsində və ya hər hansı bir ölkədə silahlı münaqişələr nəticəsində yaranan müharibə cinayətləri, soyqırım, insanlığa qarşı cinayətlər kimi beynəlxalq cinayətlər törətmiş şəxslərin araşdırılmasına və mühakimə olunmasına, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsinə və qorunub saxlanmasına xidmət edir.

Roma Statutunun 65-ci maddəsində cinayətin etirafı zamanı görüləcək prosedurlar tənzimlənir. Milli hüquq sistemi çərçivəsində bir çox ölkələrdə tətbiq oluna bilən razılaşmaya əsaslanan alternativ üsullar da beynəlxalq cinayət məhkəmələrinin təcrübəsinə daxil edilmişdir. Bildirilir ki, son otuz ildə milli cinayət-prosessual sistemlərdə getdikcə daha çox yayılmış prosessual sövdələşmənin beynəlxalq cinayət məhkəmələrində də tətbiq olunması təəccüblü deyil.

Lakin indiki mərhələdə qeyd etmək lazımdır ki, beynəlxalq cinayət mühakiməsi sistemi milli məhkəmə sistemlərindən, eləcə də məhkəmələrin strukturundan və beynəlxalq hüquq sisteminin xüsusiyyətlərindən fərqləndiyinə görə bu metodun tətbiqi müxtəlif müzakirələrə məruz qalır. [19, s.179]

Bununla belə, məhdud resurslar, məhkəmə proseslərinin müddətinin uzunluğu və Beynəlxalq cinayət məhkəməsində icraat zamanı sübutların əldə edilməsinin çətinliyi kimi bəzi məsələləri nəzərə alaraq, istintaq sövdələşməsinə bu məsələlərin həlli üsullarından biri kimi baxılır və bu, prosesi daha səmərəli və daha az xərc tələb edir. [12, s.90]

Unutmamalıyıq ki, ədalətli məhkəmə araşdırması hüququ beynəlxalq hüququn sütunlarından biridir. Bu hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 10-cu maddəsində təsbit edilmişdir: "Hər kəsin öz hüquq və vəzifələrini müəyyən edərkən, o cümlədən müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq dinləmə üçün tam bərabərlik hüququ vardır." Ədalətli məhkəmə araşdırması hüququ mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda daha da geniş müəyyən edilmişdir. Ədalətli məhkəmə araşdırması hüququ mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14 və 16-cı maddələri ilə qorunur və bu, beynəlxalq hüquqda onun iştirakçısı olan dövlətlər üçün məcburidir. [14]

J.I.Turner istintaq sövdələşməsi və Beynəlxalq ədalət sistemi araşdırmalarında haqlı olaraq qeyd edir ki, beynəlxalq səviyyədə istintaq sövdələşmələri ilə bağlı mübahisələr qismən beynəlxalq cinayət ədalət mühakiməsinin unikal xüsusiyyətlərinə, xüsusən də qanunla cəzalandırılan cinayətlərin böyük ictimai təhlükəliliyinə və bu cinayətlər haqqında həqiqətin üzə çıxarılmasının vurğulanmasına əsaslanır. [23]

Dövlətləri insanların mülki və siyasi hüquqlarına, o cümlədən yaşamaq hüququ, dini etiqad azadlığı, söz azadlığı, toplaşmaq azadlığı, seçki hüquqları və digər hüquqlarına hörmət etməyi öhdəsinə götürən çoxtərəfli müqavilə olan,

BMT qətnaməsi ilə 1966-cı ildə qəbul edilən "mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"`ın 14-cü maddəsinin 3-cü bəndinin "c" yarımbəndində ittiham olunan şəxsin "lazımsız gecikmə olmadan mühakimə olunmaq" hüququ müəyyən edilmişdir. Sürətləndirilmiş məhkəmə araşdırmasının normativ standartı "lazımsız ləngimədən məhkəmə araşdırmasıdır". Bu terminologiyanın layihəsini hazırlayan iştirakçı dövlətlər hesab edirdilər ki, bütün dövlətlərin vahid səmərəli və ya funksional sistemləri yoxdur və buna görə də "gecikmədən məhkəmə araşdırması" üçün heç bir vaxt verilməmişdir.

Beynəlxalq insan hüquqları təsisatlarının istintaq sövdələşməsi ilə bağlı qərarlarının mövcudluğu nəzərə alındıqda, istintaq sövdələşməsi ilə insan hüquqları arasında əlaqə aydın olur. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası (UNHRC) Keyt Koksun məhkəmə işində bu qənaətə gəlmişdi ki, təqsirkarın etirafı özlüyündə hətta ölüm hökmü kontekstində belə təqsirləndirilən şəxsin prosessual hüquqlarını pozmur. Müvafiq olaraq, Koksun ABŞ-a ekstradisiyasının Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktla ziddiyyət təşkil etmədiyi müəyyən edilmişdi. [5]

2007-ci ildə ABŞ-da Avstraliya hüquq mühafizə orqanlarının də iştirak etdiyi məhkəmə prosesində təqsirləndirilən şəxs Hiks terrrorizmi maliyyələşdirdiyini etiraf etmiş və 7 il həbs cəzasına məhkum edilmişdi. [10] Ekstradisiya təklifi üçün bu sövdələşməni qəbul edən Hiks haqqında daha sonra UNCHR Avstraliyanın bu sövdələşməyə görə məsuliyyətli olduğunu bildirdi. UNCHR qeyd edir ki, Hiksin Quantanamo həbsxanasında məruz qaldığı insan haqları pozuntularından qaçmaq üçün yeganə variant ona təklif olunan istintaq sövdələşməsini qəbul etmək olub. Bu hadisələrin işığında Komitə müəyyən etdi ki, Avstraliya Birləşmiş Ştatlarla əldə edilmiş razılaşmanın şərtlərinin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın pozulması ilə nəticələnməməsini təmin etmək üçün mümkün olan hər şeyi etdiyini göstərmək öhdəliyi daşıyır.

Lakin yuxarıdaki qərarlara nəzər yetirdiyimizdə görürük ki, UNCHR nə Koks, nə də Hiks məhkəmə işində istintaq sövdələşməsinin beynəlxalq hüquq normalarına uyğunluğunu tam həll etməmişdir.

Bu məsələdə hesab edirik ki, Avropa İnsan Hüquqları Məhkəməsinin mövqeyi daha qəti olmuşdur. Bəzi qərarlarında məhkəmə bu məsələyə toxunmuş və beynəlxalq hüquq normaları kontekstində şərh vermişdir. Bunlardan biri, Amiran Natsvlişvili və Rusudan Toqonidzenin Gürcüstana qarşı işində Avropa İnsan Hüquqları Məhkəməsi ərizəçilərin "prokurorların onları səlahiyyətli məhkəmə orqanına şikayət vermək hüququndan əsassız olaraq məhrum etməklə istintaq sövdələşməsi prosesindən sui-istifadə etdiklərini" iddia etdikləri işdə cinayət işlərinə tez baxılması kimi bu təcrübənin üstünlüklərini yüksək qiymətləndirdiyi, məhkəmələrin, prokurorların və vəkillərin üzərinə düşən yükün azaldılması, korrupsiyaya və mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, cəzaların sayının və nəticədə məhbusların sayının azalması üçün istintaq sövdələşməsinin əhəmiyyətini qeyd etdiyi qərar idi. [13]

AİHM qeyd edir ki, istintaq sövdələşməsinin cavabdehin bir sıra prosessual hüquqlardan imtina etməsinə səbəb olduğunu etiraf etməklə, belə nəticəyə gəlib ki, bu, özlüyündə problem deyil, çünki insanlara öz iradəsi ilə bu təminatlardan imtina etməyə icazə verilir.

AİHM mövqeyinə ən yaxşı nümunələrdən biri Navalnı və Ofitserov Rusiya Federasiyasına qarşı işidir. İş üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin 23 fevral 2016-cı il tarixli qərarı xüsusilə diqqətəlayiqdir ki, bu qərarda hakim Rusiya Federasiyasının Cinayət Prosessual Məcəlləsində əks olunan istintaq sövdələşmələrinin "Avropa cinayət ədliyyə sistemində adi hal" kimi tanıyaraq və mürəkkəb cinayət işindəki materialların müstəqil icraata ayrılması zərurətini qəbul edərək, hətta qanunda müttəhimin təqsiri ilə bağlı heç bir nəticənin açıq şəkildə göstərilmədiyi halda belə qeyd edir. [20]

İstintaq sövdələşməsinin beynəlxalq hüquqda tətbiqinin ən yaxşı nümunəsi Beynəlxalq cinayət məhkəməsidir. Hüquqi təbiətinə nəzər yetirdiyimizdə milli hüquq sistemi və məhkəmələrin tətbiq etdiyi istintaq sövdələşməsinin dairəsi böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlər olduğu halda, Beynəlxalq tribunalda daha ağır cinayətlər, o cümlədən bəşəriyyətə təhdid olan cinayətləri törədən şəxslərin ittiham olunması prosesində istintaq sövdələşməsinin necə tətbiq olunduğu maraq doğurur.

Hüquq ədəbiyyatında Beynəlxalq cinayət tribunalında tətbiq olunmuş "plea bargaining" nümunələrinə nəzər yetirmək əhəmiyyətli olar. 1993-ci il tarixli "Keçmiş Yuqoslaviya Üçün Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi"`nin "təqsirləndirilən şəxslərin hüquqları" başlıqlı 21-ci maddəsinin 4-cü bəndində qeyd olunur: Beynəlxalq Tribunal qarşısında hər kəsin lazımsız gecikmələr olmadan mühakimə olunmaq hüququ vardır. Bununla nizamnamədə əslində istintaq sövdələşməsi institutunun təbiətinə xas olan sürətləndirilmiş və sadələşdirilmiş məhkəmə prosesinin izlərini müşahidə etmək olur. [17]

O cümlədən, 8 noyabr 1994-cü il tarixli Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsinin 20-ci maddəsinin 4-cü bəndi Ruanda üzrə Beynəlxalq Tribunal qarşısında bütün şəxslərin lazımsız gecikmə olmadan mühakimə olunmaq hüququnu müəyyən edir.

Sürətləndirilmiş məhkəmə araşdırmasının vacibliyini qeyd edən digər əhəmiyyətli sənəd 2002-ci il tarixli BMT Təhlükəsizlik Şurasının Sierra Leone üzrə Xüsusi Məhkəməsinin Əsasnaməsidir. Əsasnamədə təqsirləndirilən şəxslərin hüququ kimi "lazımsız ləngimədən məhkəmə araşdırması" qeyd olunmuşdur (maddə 17/4). [21]

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakta 2007-ci il tarixli şərh vermiş və 14-cü maddəni (məhkəmələr və tribunallar qarşısında bərabərlik və ədalətli məhkəmə araşdırması hüququnu) əlavə izah etmişdir. Şərhdə qeyd olunur: "Məhkəmənin ədalətli olmasının vacib cəhəti onun tez olmasıdır. [15] Cinayət prosesinin əsassız gecikdirilməsi məsələsi 14-cü maddənin 3-cü bəndinin "c" bəndində açıq şəkildə göstərildiyi halda, işin mürəkkəbliyi və ya tərəflərin davranışı ilə əsaslan-

dırıla bilməyən məhkəmə icraatının gecikdirilməsi məhkəmənin ədalətli araşdırılması prinsipini pozur. [6] Əsasən işin mürəkkəbliyi, təqsirləndirilən şəxsin davranışı və inzibati və məhkəmə orqanları tərəfindən məsələyə baxılma tərzi nəzərə alınmaqla, hər bir işin vəziyyətində ağlabatan olanın qiymətləndirilməsi aparılmalıdır".

Beynəlxalq Cinayət Məhkəməsinin (İCC) təsdiq sənədi olan Roma Statusunun 65-ci maddəsi aşağıdakı müddəaları müəyyən edir: [18]

Təqsirləndirilən şəxs 64-cü maddənin 8 (a) bəndinə uyğun olaraq təqsirini etiraf etdikdə Məhkəmə Palatası müəyyən edir ki, təqsirləndirilən şəxs təqsirinin etirafının mahiyyətini və nəticələrini dərk edir, müdafiəçi ilə kifayət qədər məsləhətləşmədən sonra təqsirləndirilən şəxs tərəfindən könüllü olaraq etiraf edilir. Təqsirinin etirafı işin bu faktları ilə təsdiqlənir: Prokuror tərəfindən irəli sürülən və təqsirləndirilən şəxs tərəfindən etiraf edilən ittihamlar, ittihamı tamamlayan və təqsirləndirilən şəxsin qəbul etdiyi prokurorun təqdim etdiyi hər hansı materiallar, prokuror və ya təqsirləndirilən şəxs tərəfindən təqdim edilən şahidlərin ifadələri kimi hər hansı digər sübutlar.

Məhkəmə Palatası göstərilən məsələlərin müəyyən edildiyinə əmin olduqda, o, təqdim edilən hər hansı əlavə sübutlarla birlikdə təqsirinin etirafını, cinayətin törədilməsini sübut etmək üçün tələb olunan bütün mühüm faktların müəyyən edilməsi kimi hesab edir. O cümlədən Məhkəmə Palatası göstərilən məsələlərin müəyyən edilməsi ilə kifayətlənmədikdə, o, təqsiri etiraf etməmiş hesab edir və bu halda o, məhkəmə araşdırmasının aparılmasını qərara alır və ittihamın dəyişdirilməsi, təqsirinin etirafı və ya təyin ediləcək cəza ilə bağlı prokurorla müdafiə tərəfi arasında aparılan hər hansı müzakirələr məhkəmə üçün məcburi deyil.

Beynəlxalq cinayət məhkəməsində istintaq sövdələşməsinə dair Əl Mehdi-məhkəmə işinə nəzər yetirməyimiz faydalı olacaqdır. Bu, mədəni sərvətlərin dağıdılması ilə bağlı ICC-də aparılan ilk ittiham həm də bu tribunal qarşısında qaldırılan ilk və indiyə qədər yeganə istintaq sövdələşməsinə dair işdir. [4, s. 129] Prokurorluq Əl-Mehdiyə qarşı sadəcə bir ittiham irəli sürdü və ittihamda iddia olunurdu ki, Əl Mehdi 2012-ci ilin iyun-iyul ayları arasında Timbuktuda (Mali) on tarixi və dini binanı dağıdıb. Bu, Roma Statutunun 8(2)-ci maddəsinə aid idi. Əl Mehdinin məhkəməsi ICC tarixində indiyə qədərki ən sürətli məhkəmə olmuş və cəmi üç gün davam etmişdir (2016-cı ilin 22-24 avqust tarixləri arasında). [2] İlkin çıxışında təqsirləndirilən şəxs 18 fevral 2016-cı il tarixində əldə edilmiş istintaq sövdələşməsinin şərtlərinə uyğun olaraq ittiham aktında təsvir olunduğu kimi ittiham üzrə təqsirli olduğunu etiraf etmişdi.

Məhkəmə Palatası Əl-Mehdinin belə etirafının əsaslılığını yoxlamağa davam etdi: "təqsirləndirilən şəxs ittihamın mahiyyətini və təqsirini etiraf etməsinin nəticələrini başa düşüb-düşmədiyini soruşdu və vəkili ilə kifayət qədər məsləhətləşdikdən sonra öz təqsirini könüllü olaraq etiraf etdi. Mehdi hər iki suala müsbət cavab verdi."

Daha sonra Məhkəmə Palatası təqsirləndirilən şəxsin etirafının işin faktları ilə təsdiq edilib-edilmədiyini yoxladı. Etiraf etməklə yanaşı, Palata üç şahidin ifadəsini dinləyib və Prokurorluğun təqdim etdiyi və Əl Mehdinin qəbul etdiyi yüzlərlə səhifəlik sənədli sübutları nəzərə alıb. Bu qiymətləndirmə "sübutların təqsirləndirilən şəxsin etirafından asılı olmayaraq faktları müəyyən edə biləcəyini" yoxlamaq məqsədi daşıyırdı. Əl Mehdinin istintaq sövdələşməsi və əlavə dəstəkləyici sübutları göstərirdi ki, 2012-ci ilin yanvarında Şimali Malidə Mali silahlı qüvvələri ilə Ansar Dine və AQIM qrupları arasında qeyri-beynəlxalq silahlı münaqişə başlayıb. 2012-ci ilin aprelində rəsmi silahlı qüvvələrin geri çəkilməsindən sonra bu iki qrup Timbuktu ərazisinə nəzarəti ələ keçirdi və 2013-cü ilin yanvar ayına qədər dini və siyasi hakimiyyət tətbiq etdi. Hücumlar 2012-ci il iyunun 30-dan iyulun 11-dək həyata keçirilib, nəticədə Timbuktudakı ən mühüm on obyekt tamamilə dağıdılmışdır.

İstintaq sövdələşməsinin beynəlxalq hüquqi aspektlərini araşdırarkən bu institutun ən problemli tərəflərindən biri olan zərərçəkmişin hüquqları məsələsinə də aydınlıq gətirmək üçün müvafiq beynəlxalq sənədlərə nəzər yetirmək faydalı olar. 2000-ci il aprelin 10-17-də Vyanada keçirilmiş cinayətlərin qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Onuncu Konqresi "Cinayətkarlar və qurbanlar: cinayət mühakiməsi prosesində hesabatlılıq və ədalətlilik" adlı hesabatda (A. /CONF 187/ 8) təqsirləndirilən şəxslə əməkdaşlığa dair istintaq sövdələşməsinin bağlanmasına zərərçəkmişin məcburi razılığı barədə suala birmənalı cavab verilmişdir." Həmçinin, yuxarıdakı hesabatın 25-ci bəndində deyilir, "zərərçəkmişlərə istintaq sövdələşməsinə dair danışıqlara aid qərarların qəbul edilməsində həlledici iştirak hüququnun verilməsinin məqsədəuyğunluğu ilə bağlı heç bir razılıq yoxdur". Görünür, belə bir hüquq birbaşa təqsirləndirilənlərin maraqlarına zidd olardı. Belə hüquqa qarşı başqa bir arqument ondan ibarətdir ki, bu, zərərçəkmiş şəxs üçün ağır ola bilər və onu təqsirləndirilən şəxs tərəfindən arzuolunmaz təsirə və ya təzyiqə məruz qoya bilər. [8, s.212]

Mütəşəkkil cinayətkarlıq və korrupsiyaya qarşı mübarizədə istintaq sövdələşməsi institutlarının tətbiqinin beynəlxalq hüquqi əsasları kimi BMT konvensiyalarına diqqət yetirmək olar. BMT-nin transmilli mütəşəkkil cinayətkarlığa qarşı konvensiyasının 26-cı maddəsində xüsusilə qeyd olunan müddəalara aiddir: Hər bir İştirakçı Dövlət mütəşəkkil cinayətkar qruplarda iştirak edən və ya iştirak etmiş şəxsləri həvəsləndirmək üçün müvafiq tədbirlər görür. [16] Bu tədbirlərə, "Hər bir İştirakçı Dövlət, bu Konvensiyanın əhatə etdiyi cinayətin təhqiqatında və ya təqibində əhəmiyyətli əməkdaşlıq edən təqsirləndirilən şəxsin cəzasının yüngülləşdirilməsi imkanını müvafiq hallarda nəzərdən keçirir, öz daxili qanunvericiliyinin əsas prinsiplərinə uyğun olaraq, bu Konvensiyanın əhatə etdiyi cinayətin təhqiqatında və ya təqibində əsaslı əməkdaşlıq edən şəxsə cinayət təqibindən immunitetin verilməsi imkanının təmin edilməsi məsələsini nəzərdən keçirir, belə şəxslərin müdafiəsi bu Konvensiyanın 24-cü maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir və bir İştirakçı Dövlətdə yerləşən bu maddənin 1-ci bəndində göstərilən şəxs digər İştirakçı Dövlətin səlahiyyətli orqanları

ilə əsaslı əməkdaşlıq edə bildiyi halda, müvafiq İştirakçı Dövlətlər öz daxili qanunlarına uyğun olaraq sazişlər və ya razılaşmalar bağlamaq imkanını nəzərdən keçirə bilərlər."

Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyasının 37-ci maddəsində hüquq-mühafizə orqanları ilə əməkdaşlıq müddəaları əks olunur. Belə ki, hər bir iştirakçı dövlət bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətin törədilməsində iştirak edən və ya iştirak etmiş şəxsləri səlahiyyətli orqanlara istintaq və sübut məqsədləri üçün faydalı məlumat verməyə həvəsləndirmək üçün müvafiq tədbirlər görür, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətin təhqiqatında və ya təqibində əsaslı əməkdaşlıq edən təqsirləndirilən şəxsin cəzasının yüngülləşdirilməsi imkanını müvafiq hallarda nəzərdən keçirir, öz daxili qanunvericiliyinin əsas prinsiplərinə uyğun olaraq, bu Konvensiyaya uyğun olaraq müəyyən edilmiş cinayətin təhqiqatında və ya təqibində əsaslı əməkdaşlıq edən şəxsə təqibdən immunitetin verilməsi imkanının təmin edilməsi məsələsini nəzərdən keçirir.

O cümlədən Avropa Şurası Nazirlər Komitəsi Avropa Şurası Nizamnaməsinin 15.b maddəsinin şərtlərinə uyğun olaraq 9 saylı, 2005-ci il tarixli tövsiyyəsi ilə üzv dövlətlərə "Məhkəmələrdə həddindən artıq iş yükünün qarşısının alınması və azaldılması ilə bağlı tədbirlərə dair R (86) 12 saylı Tövsiyənin xatırladılması, müvafiq hallarda mübahisələrin ya məhkəmə sistemindən kənarda, həm də ondan əvvəl danışıqlarla həll edilməsinin təşviq edilməsini" tövsiyyə edir. [7]

Beynəlxalq hüquqda bəşəriyyətin sülh və təhlükəsizliyinə qarşı cinayət törətməkdə təqsirləndirilən şəxslərlə prosessual əməliyyatların müstəsna ağırlığına görə yolverilməzliyi məsələsinə vahid yanaşma mövcud deyil. Belə ki, əvvəllər Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın sədri vəzifəsində çalışmış Antonio Kasseze qeyd etmişdir ki, "başqa cinayət işində verdiyi ifadə nə qədər faydalı olsa da, heç kəs bu növ cinayətə görə cinayət təqibindən müdafiə oluna bilməz". Bu yanaşma ilk beynəlxalq tribunallar yarananda bəri uzun müddət saxlanılır. Nürnberq və Tokio hərbi tribunallarının nizamnamələrində istintaq sövdələşmələrini bağlanması imkanları nəzərdə tutulmurdu.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun Təsdiqlənməsi və Tətbiqi üzrə Təlimatlar müdafiə tərəfinin ittihamın dəyişdirilməsi və ya təqsirli olduğunu etiraf etməsi üçün "sövdələşmələrin" bağlanmasını açıq şəkildə qadağan edir. Eyni zamanda, Ruanda üzrə Beynəlxalq Tribunalın 2003-cü ildə analoji sənədi olan keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın Prosedur Qaydaları və Sübutları, təqsirləndirilən şəxslərlə əməkdaşlığa icazə verən xüsusi qayda ilə tamamlanırdı Beynəlxalq məhkəmələr tərəfindən cinayət işlərini həll edərkən prosessual əməliyyatların yolverilməzliyi məsələsinin hələ də mübahisəli olmasına baxmayaraq, biz hesab edirik ki, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə olan cinayətlərin məhkəməyə qədər aparılan cinayətlərin sırasından çıxarılması məqsədəuyğundur. [11, s.45] Bu halda, Avropa İnsan Hüquqları Məhkəməsinin təhqiqat orqanı ilə səmərəli əməkdaşlıq müqabilində ittihamın

həcminin və ya cəzanın məbləğinin azaldılmasının mümkün olması barədə qeyd-şərti, əgər bu, mühüm ictimai maraqlara zidd deyilsə, tətbiq oluna bilər.

İstintaq sövdələşməsinin cəlbedici üstünlüklərinə boyun əyən təkcə beynəlxalq cinayət məhkəməsi deyil. Sürətli məhkəmə araşdırması hüququna aid olan regional insan hüquqları qanunları istintaq sövdələşməsinin ədalətli məhkəmə araşdırması üçün uyğun olub-olmadığını qiymətləndirir. Məsələn, İnsan Hüquqları Haqqında Amerika Konvensiyasının (1969) 8-ci maddəsində "Hər bir şəxsin ona qarşı irəli sürülən cinayət xarakterli hər hansı ittihamı əsaslandırmaq üçün qanunla əvvəllər yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən lazımi təminatlarla və ağlabatan müddətdə dinləmə hüququ" olduğu qeyd olunur. [3]

Litvin Almaniyaya qarşı işi Almaniya Cinayət Prosessual Məcəlləsinin müvafiq müddəasına (257a maddəsi) uyğun olaraq əldə edilmiş razılaşmaya aiddir. Ərizəçi özünü təqsirli bilməyib, lakin ən azı daha aşağı cəza almaq ümidi ilə məhkəməyə qədər aparılan müzakirələrdə əldə edilmiş razılaşmadan əlavə şikayət etmək hüququndan imtina edib. Sonradan təlimatlandırılan onun yeni vəkili razılaşmadan faktiki olaraq imtina edərək status-kvonu bərpa etməyə çalışmışdır. Milli məhkəmələr imtinanın etibarlı olub-olmadığını nəzərdən keçirərək, müəyyən etmişlər ki, hər hansı qeyri-qanuni təsirin olduğunu müəyyən etmək üçün heç bir əsas yoxdur. Eyni məsələ AİHM-də də müzakirə olunub. AİHM müəyyən edib ki, ərizəçinin vəkili məhkəmədə imtina barədə məlumat verdiyinə görə, imtina barədə bəyannamənin özü problem yaratmayıb (39-cu bənd). Daha sonra o, razılaşmaya aparan danışıqların imtinanı sual altında qoyub-qoymadığını araşdırdı (bənd 40-47). Bununla əlaqədar olaraq, razılaşmanın həqiqətən də ərizəçini apellyasiya hüququndan imtina etməyə məcbur etdiyini müəyyən edərək (baxmayaraq ki, bu, faktiki olaraq milli qanunvericiliyə görə yolverilməz idi), AİHM müəyyən etdi ki, imtinada kifayət qədər təminat var. [9]

Nazirlər Komitəsinin Üzv Dövlətlərə Cinayət Ədliyyəsinin Sadələşdirilməsi ilə bağlı R (87) 18 saylı Tövsiyəsi: Cinayət ədalət mühakiməsinin sadələşdirilməsinə dair R (87) 18 saylı Tövsiyə məhkəməyədək icraatın sadələşdirilməsini təşviq etdi. Tövsiyə Natsvlişvili və Toqonidze Gürcüstana qarşı (para. 54) işində qeyd olunub. Təminatlar baxımından, tövsiyə məhkəmənin roluna diqqət yetirir.

İstintaq Sövdələşməsinin əhatə dairəsinin müəyyən edilməsində ədalət mühakiməsinin həyata keçirilməsinin beynəlxalq prinsipləri də mühüm rol oynayır. Beləliklə, beynəlxalq hüquq normaları milli qanunvericilikdə mütəşəkkil cinayətkar qruplarda iştirak edən və ya iştirak etmiş şəxsləri araşdırma və sübut məqsədləri üçün faydalı məlumatlar təqdim etməyə və səlahiyyətli orqanlara faktiki, konkret yardım etməyə təşviq edən tədbirlərin birləşdirilməsinin zəruriliyini müəyyən edir. Eyni zamanda, regional əhəmiyyətli beynəlxalq təşkilatların sənədləri istintaq sövdələşməsinin tətbiq dairəsini daha da genişləndirir.

İstinadlar:

1. Avropa Şurası, Ədalət Mühakiməsinin Sadələşdirilməsinə dair Tövsiyə Qərarı / № R (87)18– 1987. URL:https://www.hsk.gov.tr/Eklentiler/Dosyalar/54370cd3-0c43-4bd5-93b6-36ac3095473d.pdf

2. Aksenova, Marina. The Al Mahdi Judgment and Sentence at the ICC: A Source of Cautious Optimism for International Criminal Justice / Aksenova, Marina EJIL: Talk, 13 October 2016.

3. American Convention on Human Rights, Inter-American Specialized Conference on Human Rights, San José, Costa Rica, 22 November 1969

4. Bishop-Burney, Uzma S. Prosecutor v. Ahmad Al Faqi Al Mahdi / Bishop-Burney, Uzma S –American Journal of International Law– vol.111, no.1 2017. p.129.

5. Coks V. Canada, Communication no. 539/1993, UNDoc. CCPR/C/52/D/539/19930, 9 December 1994.

6. Communication No. 203/1986, Mũnoz Hermoza v. Peru, para. 11.3 ; No. 514/1992, Fei v. Colombia, para. 8.4.

7. Council Of Europe Committee of Ministers, Committee of Ministers on 5 September 2001 at the 762nd meeting of the Ministers' Deputies URL:https://rm.coe.int/16805e2b59

8. Десятый Конгресс Организации Объединенных Наций по предупреждению преступности и обращению с правонарушителями: сборник документов / сост. А. Г. Волеводз. М.: Юрлитинформ, 2001. с. 212–213

9. ECHR, Case of Litwin V. Germany (Application no. 29090/06) URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-107286%22]}

10. Hicks v. Australia, Communication no. 2005/2010, UNDoc. CCPR/C/115/D/2005/2010, 19 February 2016.

11. Кулаков А. А. Соглашения о сотрудничестве в практике международных трибуналов // Современные тенденции развития науки и технологий: периодический научный сборник. Белгород 2017. № 2.

12. Nancy A. C., Copping a Plea to Genocide: The Plea Bargaining of International Crimes/ Nancy A. C. University of Pennsylvania Law Review. Vol. 151. 2002. p. 90.

13. Natsvlishvili and Togonidze V. Georgia, Application n. 9043/05, ECtHR, Judgment, 29 April 2014.

14. UNDP, Research Study Jury Trials, Plea Bargaining and Restorative Justice / UNDP– İnternational Experience and Recommendations for Viet Nam–2023 URL: https://www.undp.org/sites/g/files/zskgke326/files/2023-02/Jury%20Trial_ENG_FINAL.pdf

15. UN, International covenant on civil and political rights/UN–Human Rights Committee Ninetieth session Geneva, 9 to 27 July 2007

16. UN, United Nations Convention Against Transnational Organized Crime And The Protocols Thereto/United Nations New York, 2004 URL:https://www.unodc.org/documents/middleeastandnorthafrica/organised-crime/UNITED_NATIONS_CONVENTION_AGAINST_TRANSNATIONAL_ORGANIZED_CRIME_AND_THE_PROTOCOLS_THERETO.pdf

17. UN, Updated Statute of The International Criminal Tribunal for The Former Yugoslavia/UN–International Tribunal for the Prosecution of Persons Responsible for Serious Violations of International Humanitarian Law Committed in the Territory of the Former Yugoslavia since 1991–2009. URL: https://www.icty.org/x/file/Legal%20Library/Statute/statute_sept09_en.pdf

